ISSN 2409-8817

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *RESEARCH PAPERS*

**Cild
Том
Vol.** 55

**№ 4, 2014**

**BAKI – 2014**

***Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Elmi Şurasının 24 dekabr 2014-cü il tarixli iclasının (protokol № 1) qərarı ilə nəşr edilir.***

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu***

***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır***

***Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

**Baş redaktor: Qulu Novruzov** – *hüquq üzrə fəlsəfə doktoru*

**Baş redaktorun müavini: Akif Abbasov** – *pedaqogika üzrə elmlər doktoru, professor*

**Redaksiya heyəti**:

Ənvər Abbasov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Rəfiq Qəndilov – *kimya üzrə fəlsəfə doktoru*

Yəhya Kərimov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Gültəkin Hüseynova – *respublika Təhsil Nazirliyinin şöbə müdiri*

Oruc Həsənli – *pedaqogika üzrə elmlər doktoru, professor*

Asəf Zamanov – *fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*

Fərahim Sadıqov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Dilqəm Quliyev – *pedaqogika üzrə fəlsəfə doktoru, professor*

Əjdər Ağayev – *pedaqogika üzrə elmlər doktoru, professor*

Fərrux Rüstəmov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Hikmət Əlizadə – *pedaqogika üzrə elmlər doktoru, professor*

Şahin Tağıyev – *pedaqogika üzrə elmlər doktoru, professor*

Ramiz Əliyev – *psixologiya üzrə elmlər doktoru, professor*

Vidadi Xəlilov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Şəmistan Mikayılov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Müdafiə Mahmudov *(məsul katib) - pedaqogika üzrə elmlər doktoru*

İntiqam Cəbrayılov – *pedaqogika üzrə elmlər doktoru*

Piralı Əliyev – *pedaqogika üzrə elmlər doktoru*

Hümeyir Əhmədov – *pedaqogika üzrə elmlər doktoru*

Talıb Paşayev – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

© ARTPİ, 2014

# ÜMUMPEDAQOJİ PROBLEMLƏR

## PEDAQOJİ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM PROSESİNİN SƏRİŞTƏLİ-SƏMTLƏŞMƏ ƏSASINDA TƏŞKİLİ

**Abdulla Mehrabov,**
*texnika üzrə elmlər doktoru, professor,*
*Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü,*
Respublikanın Əməkdar müəllimi
E-mail: mehrabov.abdulla@mail.ru

*İqtisadiyyatda, mədəniyyətdə elmdə-həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir.*
**Ümummilli lider Heydər Əliyev**

**Rəyçilər**: *prof.* A.N. Abbasov,
*prof.* F.B. Sadıqov

***Açar sözlər:*** *sistemli-fəaliyyət, aksioloji yanaşma, səriştəlilik, təhsil məkanı, tələbələrin tədris fəaliyyəti, tədris-təlim prosesinin yeni nəticələri, qiymətləndirmə*

***Ключевые слова:*** *системно-деятельностный, аксиологический подходы, компетенции, образовательное пространство, учебная деятельность студентов, новые результаты образовательного процесса, оценивание*

***Key words:*** *system-activity, axiological approaches, competences, educational space, the educational activity of students, the new results of educational process, the evaluation*

Müasir dövrdə pedaqoji ali təhsilli məzunun səriştəlilik səviyyəsinə qoyulan ümummədəni və peşə kompetensiyaları tədris-təlim prosesinin fənn yönümlü paradiqmalarından sistemli-fəaliyyət yönümlü yanaşmalara keçməyi əsas problem kimi qarşıya qoyur. Bu halda əsas məsələ öyrənənlər (təhsilalanlar) tərəfindən müvafiq peşəkar funksiyaların yerinə yetirilməsi üçün müəyyən bilik ehtiyatlarının toplanmasına yönəldilir. Başqa sözə, hazırda ali təhsildə yeni təlim nəticələrinin keyfiyyəti kimi səriştəliliyin formalaşdırılması (mənimsənilməsi) müəyyən edilmişdir. Bu halda, səriştəliliyin əsas əlamət kimi bilik, bacarıq və vərdişlərdən daha çox peşəkar fəaliyyətlə bağlı konkret məsələnin həlli üçün hansı bilik və vərdişlərin tələb olunduğunu aktivləşdirmək bacarıqlarının müəyyən edilməsi üstünlük təşkil edir [1, 2]. Ona görə də birinci növbədə pedaqoji ali təhsil sistemində tədris-təlim prosesi səriştəli yanaşmaya əsaslanmış sistemli-fəaliyyət kontekstində layihələndirilməli və reallaşdırılmalıdır. Bu halda öyrədən təhsilalanlara hazır biliklərin ötürülməsinin dialoq qarşılıqlı təsirlər əsasında verilməsinə keçir. Bu isə təhsilalanların şəxsi, peşəkar və sosial potensialının inkişafına geniş imkanlar açır.

Ənənəvi orta məktəb didaktikasına əsaslanan, müasir ali məktəb didaktikasında, yəni inkişafetdirici təlim sistemində yeni təlim nəticələrinin alınmasına imkan verən layihələndirmə məsələləri hələlik kifayət qədər öyrənilməmişdir.

Elmi ədəbiyyatın təhlili göstərir ki, V.V. Davıdovun, P.J. Qalperinin və onların davamçılarının əsərlərində ali pedaqoji təhsilin fəaliyyət yanaşma əsasında optimallaşdırılması öyrənənlərin tədris prosesində əqli fəaliyyətlərinin formalaşdırılması və təşkili məsələləri müəyyən qədər araşdırılmalara cəlb olunmuşdur. V.V. Davudovun əsərlərində tədris-təlim prosesində əqli fəaliyyətlərin formalaşdırılmasının əhatəli xarakteristikası verilmişdir. Müəyyən edilmişdir ki, təhsilalanların

tədris fəaliyyəti qarşıya qoyulmuş məqsədə çatmaq üçün idrakı məsələlərin (dərk etmə ilə bağlı) həlli prosesi ilə bir başa bağlıdır [3].

Qeyd etmək lazımdır ki, hazırda pedaqoji ali təhsil müəssisələrində öyrənənlərdə hər hansı problemlə bağlı kompetensiyanın (səriştəliliyin) formalaşdırılması məqsəd kimi qoyulduqda, təhsilalanın peşə sahəsi ilə bağlı səriştəlilik səviyyəsinin durumu ona imkan vermir. Bunun əsas səbəblərindən biri tədris-təlim prosesinin məzmunun və onun idarəedilməsinin müasir tələblərə cavab verməməsi, biliyin verilməməsində öyrədən-öyrənən münasibətlərində olan çatışmazlıqlardır. Ona görə də səriştəliliyin inkişaf səviyyəsinin qabaqcadan müəyyən edilməsi həlledici əhəmiyyət daşıyır.

V.S. Lazaryev, P. Qalperinin nəzəriyyəsinə əsaslanaraq səriştəliliyin üç inkişaf səviyyəsinin qabaqcadan müəyyən edilməsi müstəsna əhəmiyyətə malikdir [1,4]:

- birinci səviyyədə öyrənən (tələbə) verilmiş məsələlərin şərtlərinə dair tam olmayan məlumata malikdir və onda hələlik baxılan tip məsələlərin yalnız tək-tək təsadüf edilənini həll etmək qabiliyyəti formalaşmışdır;
- ikinci səviyyədə öyrənən ümumiləşmiş metodların bir başa köməyi ilə məsələnin başlanğıc şərtləri və onların tətbiqinin sərhədlərini mənimsəyərək, yalnız baxılan tip xüsusi məsələləri həll etmək qabiliyyətinə malikdir;
- üçüncü səviyyədə öyrənən verilmiş məsələlərin istənilən çətinlik dərəcəsinə malik olanını, müxtəlif metodlardan istifadə edərək və məsələnin bütün şərtlərini nəzərə alaraq həll etmək qabiliyyətinə malikdir.

Qeyd olunan bu mövqelərdən başqa, pedaqoji təhsilin müasir vəziyyətini xarakterizə edən bir vacib məsələni də nəzərə almaq lazımdır. Ali pedaqoji təhsildə, sistemli-fəaliyyət kontekstində tədris-təlim prosesinin səriştəli-səmtləşmə yanaşma əsasında layihələndirilməsində inteqrasiya olunmuş bütün təhsil standartlarının tələbləri nəzərə alınmalıdır. Burada ümumtəhsil məktəblərində çalışan müəllimlərin də peşəkar fəaliyyətinə qoyulan tələblər və standartlar nəzərə alınmalıdır.

Pedaqoji ali təhsil müəssisələrində tədris-təlim prosesində fəaliyyətlə bağlı yanaşmanın reallaşdırılması göstərir ki, idrakı və peşəkarlıqla əlaqəli məsələlərin həlli prosesində qazanılmış biliklər təhsilalanlarda ağıllılıq, düşüncəlilik keyfiyyətlərini inkişaf etdirir. Belə situasiyalarda tələbələrdə yeni tip biliklər formalaşır. O, başa düşməyə başlayır ki, onda hər hansı məsələni həll etmək üçün hansı biliklər kompleksi çatışmır. Tədris-təlim prosesinin bu prinsiplər əsasında təşkili təhsil alanlarda şəxsi inkişafı stimullaşdırır, onlarda peşəkarlıqla bağlı yeni xüsusiyyətləri formalaşdırır.

Tələblərdə fərdi və peşəkarlıqla bağlı proseslərin inkişafının tədqiqi göstərir ki, bu proseslərin nəticələrinin qiymətləndirilməsinin norma və meyarlarının müəyyən edilməsi ilə bağlı problemlər xüsusi əhəmiyyət daşıyır. Araşdırmalar göstərir ki, bu halda ortastatistik, sosial-mədəni və fərdi göstəricilər birlikdə nəzərə alındıqda əhəmiyyətli nəticələr əldə oluna bilir.

Pedaqoji qiymətləndirmənin taleyüklü mənası və onun təhsilalanların özünüqiymətləndirməsinə təsiri B.Q. Ananyevin tədqiqatlarında öz əksini tapmışdır [5]. Son vaxtlarda testləşmə yolu ilə öyrənənlərin təlim nəticələrinə nəzarət ali məktəblərdə geniş yayılsa da, onun effektivliyi o qədər də yüksək qiymətləndirilmir. Ali məktəblərdə təlimin dəyər-məna və təəssüratla (həyəcan, hiss) bağlı nəticələrin qiymətləndirilməsinə az fikir verilir. Bütün bunlar, ali məktəblərdə təlim prosesinin nəzəri-metodiki cəhətdən layihələndirilməsində və dəyərləndirilməsində aksioloji yanaşmanın tətbiqini ön plana çəkir. Şagird şəxsiyyətinə öyrədənlərin dəyər əsasında münasibətlərinin inkişafı pedaqoji fəaliyyətin, pedaqoji biliklərin və pedaqoji peşənin məna tutumunun müəyyən edilməsində, peşəkarlıqla bağlı məsələlərin həllində idraki fəaliyyətin intensivləşməsində həlledici rol oynayır.

Pedaqoji ali məktəblərdə tədris-təlim prosesinin layihələndirilməsinin nəzəri-metodiki əsaslandırılması və səriştəli - səmtləşmə əsasında reallaşdırılması prosesi səmərəliliyin yüksəlməsinə və sonda keyfiyyətin artmasına imkan vermişdir. Sistemli fəaliyyət, akmeoloji və aksioloji yanaşmalar təlim prosesinin başlanğıc vəziyyətinin konseptuallaşdırılmasına geniş şərait yaratdı. Bu halda pedaqoji ali təhsil müəssisələrində tədris-təlim prosesi məqsədəmüvafiq şəkildə müəllim və tələbəni çoxölçülü idraki (dərketmə) və sosial-etik fəaliyyəti kimi şərh edilir.

Araşdırmalar göstərdi ki, ali məktəblərdə təlim prosesinin effektivliyinin müəyyən edilməsində çarpaz aktivləşmə metodunun potensialı tədqiqatçılar tərəfindən yüksək dəyərləndirilir. Belə anketləşmənin ideyasını müxtəlif qrup respondentlərlə (müəllim və tələbələrlə) eyni zamanda, eyni çətinlikli suallarla iki anketləşmənin aparılması təşkil edir. Bu halda soruşulan ardıcıl olaraq, əvvəlcə özü haqqında, sonra isə başqa soruşulan qrupun müəllimi haqqında verilmiş sualları cavablandırır. Bununla bağlı məsələlərə aydınlıq gətirmək üçün araşdırmaların müxtəlif etaplarında II və III kurslarda eyni ixtisas üzrə təhsil alan 150 bakalavr iştirak etmişdir. Tədqiqat prosesində ADPU-nun Pedaqoji fakültəsinin "İbtidai təhsilin pedaqogikası və metodikası" kafedrasının 18 müəlliminin problemlə ilə bağlı fikirləri də öyrənilmişdir. Anketləşmədə iştirak edənlərə, təlim prosesinin korrektə edilməsi və onun yeniləşdirilməsinə dair suallar verilmişdir.

Aktivləşmənin nəticələri göstərdi ki, soruşulan tələbələrin 62%-ə qədəri tədris fəaliyyətinin məqsədini "şəxsi və peşəkar inkişafın təmin olunmasında", 38%-i isə "ali təhsil haqqında diplomun alınmasında" görürlər. Müəllimlər isə peşəkarlıqla bağlı fəaliyyətlərinin məqsədini "elmə maraqların təmin edilməsində" (14%), "tələbələrlə ünsiyyətdə" (18%), "özünüreallaşdırmada" (49%), "səriştəli müəllim hazırlığında" (19%) görürlər. Sorğuların nəticələrinin təhlili göstərir ki, müəllim və tələbələri tədris-təlim prosesinin harmonik inkişafı, akademik uğurların yüksəldilməsi, öyrədən və öyrənən münasibətlərində qarşılıqlı təsirlərin rolu, səriştəli müəllim hazırlığının perspektivləri az maraqlandırır.

Anketləşmənin "Ali məktəbdə təhsil almaqdan hansı səviyyədə Siz razı qalmısınız?" sualına tələbələrin 21%-i "minimum" cavabını, 37%-i "qismən", 31% "kifayətedici" qrafanı seçmiş, yalnız 11%-i "tam" cavabını vermişdir. Tədqiqatın nəticələri göstərir ki, pedaqoji ali məktəblərdə tələbələrin motivasiya və emosional sferasının tələbləri, təlim prosesinin layihələndirilməsinin yolları və vasitələri kontekstində səriştəli səmtləşmə yanaşmanın əsas müddəalarını nəzərə alaraq öyrənilməlidir. Yerinə yetirilmiş tədqiqatın nəticələri göstərir ki, bu halda prosesin inversion xarakteri nəzərə alınmalıdır. Bu halda tələbatların və dərketmənin motivləri təlim prosesinin keyfiyyətini layihələndirməyə köməklik göstərir. Gələcək müəllimin şəxsi və peşəkar inkişafını stimullaşdırır.

Araşdırmaların nəticələri göstərir ki, gələcək müəllimlərin şəxsi və peşəkar inkişafında ali pedaqoji məktəblərdə "Pedaqogika" fənninin bütün modullarının öyrənilməsi və öyrədilməsi xüsusi rol oynayır. Hazırda bu proses fənnin bütün modullarının məqsəd və məzmununun mədəni və tədris-təlim situasiyasının, milli- mənəvi dəyərlərin, müəllimin peşəkarlıqla bağlı (səriştəliliklə bağlı) standartlarının tələbləri əsasında korrektə olunmasını tələb edir. Pedaqoji fənlərin məntiqi müasir dünyada "Pedaqogika pedaqoji fəaliyyət haqqında elm və incəsənətdir", "Pedaqoji fəaliyyətin rejissorluğu", "Kreativ menecment" və s. kimi fənlərin tədrisinin müəllimin hazırlığına gətirilməsini tələb edir. Səriştəli müəllim hazırlığının tədris planlarına belə fənlərin daxil edilməsi (seçmə fənlər kimi də daxil oluna bilər), dövlət standartlarının tələbi kimi dəyərləndirilməli və zamanın tələbi kimi qiymətləndirilməlidir [6,7].

Yuxarıda göstərilən metodoloji yanaşmalar əsasında yeni təlim nəticələrinin qiymətləndirilməsi sisteminin layihələndirilməsinin məqsədəmüvafiqliyi tələbələrin peşəkar inkişafının meyarı kimi aşağıdakı triadanı (şəxsin, məfhumun birliyi; üçlük) – bacarır, bilir, yiyələnir (idarə edir) müəyyənləşdirir. Bu halda təhsilalanların göstəricilərini idraki və praktiki təsirlərin vasitəsilə - layihələndirir, izah edir, ümumiləşdirir, başa düşür, planlaşdırır, həll edir, qiymətləndirir və s. kimi müəyyən etmək olur. Bunlar tədris-təlim prosesinin – fəaliyyət, kornitiv, dəyər-məna, refleksivlə bağlı bütün elementlərinin qiymətləndirilməsinə imkan verir.

Tədris-təlim prosesində qazanılmış yeni nəticələrin qiymətləndirlməsində nəzarət-ölçü materiallarının seçilməsi üçün tələbələrin idraki fəaliyyətinin nəticələrinin obyektiv və keyfiyyətli təhlil etməyə imkan verən metodlardan istifadə etmək lazımdır. Belə metodlar içərisində müşahidə, idraki və qeyri-peşəkar fəaliyyətin məhsulunun ekspertizası, məhsulların müdafiəsi, portfolio və s metodlara üstünlük verilməlidir. Belə yanaşmaların tətbiqinin yeniliyi qiymətləndirmənin göstərilən forma və metodlarla aparılması deyil (belə metodlar məlumdur və onlar çoxdandır ki, ali məktəb-

lərdə tətbiq olunur), bu tapşırıqların məzmunu və istiqaməti ilə əlaqədardır. Ona görə də tədris-təlim prosesində aşağıdakı məzmunda tapşırıqların layihələndirilməsi məqsədəmüvafiq hesab edilmişdir:

- təhsilalanların (tələbələrin) seçimi əsasında hazırlanmış tapşırıqlar;
- müxtəlif çətinlik dərəcəsinə malik olan tapşırıqlar;
- fərdi və qrup halında fəaliyyət göstərən öyrənənlərə yönəldilmiş tapşırıqlar;
- fərdi və peşəkar inkişafın hər hansı komponentinin formalaşma səviyyəsinin əsas əlamətlərinin qiymətləndirilməsinə yönəldilmiş tapşırıqlar;
- interaktiv, yeni layihə və ya tədqiqat xarakterli tapşırıqlar.

Bu halda imtahan və məqbulun keçirilməsində pedaqoji nəzarət fomrası interaktiv formada, təhlili, "portfolio" və s. formada aparılır və yeni təlim nəticələrinin sistemli və obyektiv qiymətləndirilməsinə imkan yaranır. Eyni zamanda qiymətləndirmənin predmetinə təhsilalanların (tələbələrin) şəxsi inkişafının nəticələrinin daxil edilməsi, təhsilalanların rolunu güclənməsinə və prosesin stimullaşdırılmasına şərait yaradır.

Ali pedaqoji məktəblərdə təlim prosesinin layihələndirilməsinə innovasion yanaşmaının tətbiqi səriştəli-səmtləşmə əsasında prosesin reallaşdırılması və standartlar əsasında prosesin reallaşdırılması və standartlar əsasında təlim nəticələrinin qiymətləndirilməsi tələblərin özünüqiymətləndirmə fəaliyyətində (refleksiya) xüsusi rola malikdir. Məhz, belə yanaşma ali pedaqoji məktəbdə təlim prosesinə diskursiv və məna formalaşdırma əsasında əlavə stimul verir və onun keyfiyyətini və effektivliyini müəyyən edir. Nəticədə tələbələr idraki və peşəkar fəaliyyətin subyekti kimi özünü qiymətləndirməyi, fəaliyyətini tənqidi təhlil etməyi, nəticələri başa düşüb dəyərləndirməyi və peşəkarlıqla bağlı perspektivdə, cəmiyyətdə öz yerini müəyyən etmək üçün bacarıqlar qazanır [8,9].

Təcrübi-eksperimental işlərin nəticələri göstərir ki, pedaqoji ali təhsil müəssisələrində təlim prosesinin fəaliyyətlə bağlı yanaşmalar və səriştəli-səmtləşmə əsasında layihələndirilməsi təhsilalanların idraki fəaliyyətini aktivləşdirir, pedaqoji fəaliyyətin məna tutumunu stimullaşdırır. Onlarda peşəkar identifikasiyaya və özünüinkişafa maraq yaranır. Səriştəli müəllim hazırlığında tədris-təlim prosesinə belə yanaşmaların tətbiqi intensivləşdirilməli, prosesin nəticələrinin qiymətləndirilməsində daha səmərəli və müasir ölçmə metodlarından istifadənin spektri genişləndirilməlidir.

## ƏDƏBİYYAT


1. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
2. Компетентностный подход в высшем профессиональном образовании / Под.ред. А.А.Орлова, В.В.Грачева. Тула, 2012.
3. Давыдов В.В. Теория развивающего обучения. М., 1996.
4. Лазарев В.С. Концептуальная модель формирования профессиональных умений у студентов // Вестник СурГПУ, 2011, № 2
5. Ананьев Б.Г. Психология педагогической оценки // Избр. пед. Труды. Т. 2. М., 1980.
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. «Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
7. Собкин В.С., Ткаренко О.В. Студент педагогического вуза: жизненные и профессиональные перспективы // Труды по социологии образования. Т. XI-XII, вып. XXI. М., 2007.
8. Маркова А.А. Психология профессионализма. М., 1996
9. Mehrabov A.O. Müəllimin peşəkarlıq səviyyəsinin inkişafına təsir göstərən əsas amillər // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2014, № 1

**А.О. Мехрабов**

## ОРГАНИЗАЦИИ КОМПЕТЕНТНОСТНО-ОРИЕНТИРОВАННОГО ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА В ПЕДВУЗЕ

### РЕЗЮМЕ

В статье на основе системно-деятельностного подхода представлена концепция проектирования компетентностно-ориентированного образовательного процесса в педагогическом вузе в контексте требований профессионального стандарта педагога. Также в ней содержится обоснование модернизированных целей, содержания и технологий изучения педагогики как учебного предмета. Характеризуется система оценивания новых результатов образовательного процесса в вузе.

**A.O. Mehrabov**

## COMPETENCE-ORIENTED ORGANIZATION OF THE EDUCATIONAL PROCESS IN TECHNICALITIES

### SUMMARY

İn the on bazis of system-activity approach is represented the concept of design competencebased fosused educational process in pedagogical İnstitute of Higler Education in the context of the requirments of the professional standart of teacher. Also it contains substantiation of the modernized purposes, content and technologues of the new results of educational process in institute of Higher Education is characterized.

*Redaksiyaya daxil olub: 10.10.2014*

# PEDAQOJİ TƏCRÜBƏ GƏLƏCƏK MÜƏLLİMLƏRİN PEŞƏYƏ HAZIRLANMASININ MÜHÜM VASİTƏSİ KİMİ

**Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
E-mail: prof.akif@mail.ru

**Rəyçilər:** *prof.* H. Əlizadə,
*prof.* H. Əhmədov

***Açar sözlər:*** *pedaqoji təcrübə, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, innovativ təlim metodları, pedaqoji təhsilin məzmunu, yeni pedaqoji təlim texnologiyaları, yeni pedaqoji təfəkkür, müəllimlik peşəsinə hazırlıq*

***Ключевые слова:*** *педагогическая практика, Государственная Стратегия по развитию образования Азербайджанской Республики, инновационные методы обучения, содержание педагогического образования, новые педагогические технологии обучения, новое педагогическое мышление, подготовка к профессии учителя.*

***Keywords:*** *pedagogical practice, the State Strategy for the Development of Education of Azerbaijan Republic, innovative teaching methods, content of teacher education, new educational technology training, new pedagogical thinking, preparation for the teaching profession.*

Azərbaycan Respublikası Prezidentinin "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyası"nın hazırlanması haqqında" 11 iyul 2011-ci il tarixli; "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli; "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamları; Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və eyni zamanda "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixli Fərmanı, ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" diqqəti ali təhsilin təkmilləşdirilməsinə, pedaqoji kadrların hazırlanmasının səmərəliliyinə doğru istiqamətləndirmişdir.

2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda deyilir: "Müasir tələblərə cavab verən, dərin təfəkkürə, pedaqoji və metodik ustalığa malik olan müəllim kadrları hazırlığı daim diqqət mərkəzində olmuşdur. Belə ki Azərbaycan Respublikasının Təhsil Nazirliyi Dünya Bankı ilə birgə Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"nı hazırlamış, həmin sənəd 2007-ci ildə təsdiq edilmişdir. Konsepsiya təsdiq edildikdən sonra pedaqoji kadr hazırlığının məzmununda islahatların aparılması işinə başlanılmışdır" (1).

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda diqqətə çatdırılan beş strateji istiqamətin hər biri yaradılması planlaşdırılan İnternatura təhsili ilə bilavasitə bağlıdır. Nümunə kimi ikinci strateji istiqamətin üzərində dayanmaq istərdik. Bu istiqamət "təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir" (2).

Müəllim hazırlığı həm nəzəri, həm də praktik istiqamətləri nəzərdə tutur. Sinif otağında şagirdlərlə üz-üzə dayanan, onları bilik və bacarıqlarla, həyatda lazım olacaq zəruri vərdişlərlə

silahlandırmağı qarşısına məqsəd qoyan pedaqoji peşə sahibi təkcə seçdiyi ixtisasa, ümumpedaqoji hazırlığa, xüsusi hazırlığa dair nəzəri məlumatlara və biliklərə malik olmamalı, həm də praktik bacarıqlara, metodik hazırlığa, pedaqoji ustalığa yiyələnməlidir.

"2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda respublikanın ali təhsil sistemində mövcud olan problemlərin də üzərində dayanılmışdır. Onlar aşağıdakılardır:

"-kadr hazırlığı strukturu əmək bazarının tələbatını tam ödəmir;

-elmi-tədqiqatların nəticələri ali təhsilə zəif inteqrasiya olunur;

-ali təhsilə ayrılan vəsaitlər səmərəsiz istifadə olunur;

-ali təhsil müəssisələri şəbəkəsi təkmil deyil;

-ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə cavab vermir;

-ali məktəb tələbələri və məzunlarının hazırlıq səviyyəsi onların dünya təhsil məkanına çevik inteqrasiyasına imkan vermir;

-istiqamətlər üzrə standartların yeniləşməsinə baxmayaraq, tədris planlarında hələ də lüzumsuz qeyri-ixtisas fənləri mövcuddur;

-bakalavriat və magistratura pillələrində bir çox ixtisaslar üzrə dərsliklər çatışmır, bəzən isə məzmunca köhnəlmiş ədəbiyyatdan istifadə edilir;

-tələbələrin tədris olunan fənləri mənimsəmə səviyyəsini müəyyənləşdirən monitorinq mexanizmi olmadığından onların biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilir;

-pedaqoji təhsilin məzmunu ümumtəhsil məktəblərinin tələbatı ilə kifayət qədər uzlaşmır;

-yeni pedaqoji təlim texnologiyaları ləng işlənir, mövcud texnologiyalar isə, tədris prosesinə zəif tətbiq olunur;

-ali məktəblərdə kadr hazırlığında informasiya kommunikasiya texnologiyalarından, fəal interaktiv təlim metodlarından kifayət qədər istifadə edilmir;

-kadr hazırlığı üzrə uzunmüddətli, elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırma mexanizmi yoxdur;

-ali məktəb müəllimlərinin peşəkarlıq səviyyəsini müəyyən edən mexanizm yaradılmamışdır;

-ali məktəblərdə dərs yükünün optimal müəyyənləşdirilməməsi, azsaylı qrup və birləşmələrin yaradılması, dərs yükünün minimal hədlə müəyyən edilməsi tələbə-müəllim nisbətinin dünyadakı göstəricilərə uyğunlaşdırılmasına imkan vermir;

-ali məktəblərin maddi-texniki bazası (tədris laboratoriyalarının təchizatı, tədris prosesini təmin edən cihaz və avadanlıqlarla təminatı və s.) müasir tələblərə cavab vermir;

-ali məktəb kitabxanaları və onların təminatı günün tələblərinə cavab vermir, elektron kitabxanaların və dərsliklərin yaradılması işi çox ləng aparılır;

-ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ sənədlər kredit sisteminin tətbiqi ilə bağlı müvafiq sənədlərə uyğunlaşdırılmamışdır" (3).

Göründüyü kimi, həmin nöqsanlar sırasında pedaqoji kadr hazırlığı (kadr hazırlığı strukturu əmək bazarının tələblərini tam ödəmir, ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə cavab vermir; ali məktəb tələbələri və məzunlarının hazırlıq səviyyəsi onların dünya təhsil məkanına çevik inteqrasiyasına imkan vermir; tələbələrin tədris olunan fənləri mənimsəmə səviyyəsini müəyyənləşdirən monitorinq mexanizmi olmadığından onların biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilir; istiqamətlər üzrə standartların yeniləşməsinə baxmayaraq, tədris planlarında hələ də lüzumsuz qeyri-ixtisas fənləri mövcuddur və s.) önəmli yer tutur.

İlkin müəllim hazırlığında pedaqoji təcrübənin əhəmiyyətli rolundan danışarkən A. Abdullayev yazır: "Pedaqoji təcrübə ali (orta ixtisas) məktəbin tədris planında xüsusi yeri olan bir prosesdir... Pedaqoji təcrübə bütövlükdə təhsil müəssisəsi professor-müəllim (orta ixtisas məktəblərində pedaqoji kollektiv) heyətinin müəyyən mərhələ üzrə elmi-pedaqoji əməyinin nəticələrini aşkarlayacaq bir vasitədir. Üstəlik, pedaqoji təcrübə sabahın müəllim kadrlarının bu

peşəyə layiqlilik dərəcəsi və səviyyəsini üzə çıxaracaq bir fəaliyyət sahəsidir, müəllim hazırlığı formalarından biridir" (4).

Tələbə pedaqoji ali məktəbdə təhsil alarkən pedaqoji təcrübəyə cəlb olunur. Təcrübə müddətində ilk dəfə şagirdlər üzərində müşahidələr aparır, gündəlik tərtib edir, iş planı tutur, əlinə jurnal alıb sinfə girir, dərs deyir. Bundan başqa, pedaqoji təcrübə yekunlaşan ərəfədə məktəblilərin hər biri üçün pedaqoji-psixoloji xasiyyətnamə yazır, sinifdənxaric tədbirlərin təşkilatçısı olur.

Gələcək müəllimlər məhz pedaqoji təcrübə dövründə müəllimlik peşəsinə, pedaqoji ixtisaslara (tarix müəllimi, sinif müəllimi, biologiya müəllimi, ədəbiyyat müəllimi, ingilis dili müəllimi, riyaziyyat müəllimi və s.) praktik cəhətdən yiyələnməyə çalışırlar. Hər bir tələbənin pedaqoji təcrübə keçməsi lazımdır. Bu dövr onlardan ötrü sınaq meydanı, pedaqoji peşəyə qabilliyin təsdiqolunma (özünütəsdiq) imkanı hesab edilir.

Pedaqoji təcrübə həm ali, həm də orta ixtisas məktəbinin tədris planında xüsusi yer tutur. İlk üç semestr ərzində ixtisas fənlərinin, pedaqogika və psixologiyanın əsaslarına yiyələnən bakalavriatlar nəzəri bilikləri, metodik hazırlıqları, pedaqoji və psixoloji dəyərlərlə praktik fəaliyyət meydanına gəlirlər. Həm də bu, ali məktəb rəhbərliyinin, elmi şura üzvlərinin bir növ şahidliyi, metodik tövsiyələri ilə olur. Pedaqoji təcrübə bütövlükdə təhsil müəssisəsinin, professor-müəllim heyətinin müvafiq mərhələ üzrə elmi-pedaqoji əməyinin nəticələrini üzə çıxaran bir vasitə hesab edilir. Pedaqoji təcrübə müəllim kadrlarının bu peşəyə layiqlilik dərəcəsi və səviyyəsini müəyyənləşdirən fəaliyyət sahəsi, müəllim hazırlığı formasıdır.

A.H. Dəmirov, S.M. Məmmədov və Ş.N. İsmayılovun **"**Pedaqoji təcrübə proqramı və ixtisas üzrə təcrübənin təşkili" dərs vəsaitində oxuyuruq: " Əməkdaşlıq edən müəllim dərs deyən tələbə üçün həm model, həm də hami rolunu oynayır. Tələbəyə müəllimliyin ilk ilində gənc müəllimin üzərinə düşən məsuliyyətləri anlamaqda kömək etməyin yollarından biri əməkdaşlıq edən müəllimin tələbələri öz diqqətini bütünlüklə məktəbə yönəltməyə həvəsləndirməsidir. Əməkdaşlıq edən müəllim məktəb rəhbərinin icazəsi ilə tələbəni müəllimlərin yığıncaqlarında, seminarlarda, valideyn komitələrinin toplantılarında, valideyn-müəllim görüşlərində və s. tədbirlərdə iştirak etməyə həvəsləndirməlidir. Bu, tələbəyə gələcək müəllim kimi üzərinə düşən bütün məsuliyyətləri daha dərindən dərk etməkdə kömək göstərəcək. Əməkdaşlıq edən müəllim onu da yaddan çıxarmamalıdır ki, praktikumun məqsədi mükəmməl bir müəllim formalaşdırmaqdan deyil, tələbəni öz tədris üslubunu kəşf etməyə və tam potensiala yiyələnməyə istiqamətləndirməkdən ibarətdir. Mümkün olduqca, əməkdaşlıq edən müəllim tələbənin pedaqoji nəzəriyyəni sinifdəki tədris təcrübələri ilə əlaqələndirməsi üçün imkanlar yaratmalıdır. Əməkdaşlıq edən müəllimin ən mühüm rollarından biri onun pedaqoji sahədə müntəzəm təmasda olmağa imkan verən strategiyalar – oxumaq, seminarlarda iştirak etmək, peşə assosiasiyaları və ya şəbəkələrinə qoşulmaq və s. barədə öz təcrübəsini tələbə ilə bölüşməsidir" (5).

Pedaqoji ədəbiyyatda yazıldığı kimi, "Bir çox Avropa ölkələrində IV-VII semestrlərdə tələbələr bütövlükdə bir semestri məktəbdə təcrübə keçir. Amerikada isə proqramların əksəriyyətində ibtidai sinif müəllimləri hazırlayan kursların əsas məzmununun təxminən 45 faizi nəzəri məsələlərdən, 55 faizi isə praktikadan, təcrübədən ibarətdir. Orta təhsil üzrə proqramlarda isə bu mənzərə tamamilə əksinədir: nəzəriyyə 56 faiz, praktika 44 faiz yer tutur" (6).

"Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə" pedaqoji təcrübənin aşağıdakı əsas növləri üzərində dayanılır: "1. Tədris təcrübəsi; 2. İstehsalat (pedaqoji) təcrübəsi, o cümlədən diplomqabağı təcrübə". Əsasnamədə göstərilir ki: "2.2. Tədris təcrübəsi mütəxəssis hazırlığının xüsusiyyətlərini nəzərə almaqla, təhsil müəssisələri tərəfindən dövlət təhsil standartlarına uyğun müəyyənləşdirilir. 2.3. İstehsalat (pedaqoji) təcrübəsi bir qayda olaraq, peşə hazırlığı və diplomqabağı təcrübədən, magistr pilləsində isə elmi tədqiqat və elmi pedaqoji mərhələlərdən ibarət olur. Diplomqabağı təcrübə təlimin yekun mərhələsi olmaqla, bütün nəzəri dərslər və digər təcrübə növləri başa çatdıqdan sonra həyata keçirilir" (7).

Ali pedaqoji təhsilin bakalavriat pilləsində təcrübənin əsas vəzifələrin nələr daxildir. Bu suala cavab vermək üçün "...Əsasnamə"nin 2.4. bəndi ilə tanış olmaq lazımdır. Diqqət yetirək: "-

tələbənin ali (orta ixtisas) məktəbdə aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək;

-tələbələri ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək;

-tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaq;

-tələbələrin kompüter texnologiyaları sahəsindəki biliklərini təkmilləşdirmək;

-pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrdə pedaqoji peşəyə olan meyil və marağı möhkəmləndirmək və təlim-tərbiyə işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək" (7).

Yeni pedaqoji təfəkkürün tələblərini nəzərə almaqla bu vəzifələri daha da konkretləşdirmək və təkmilləşdirmək mümkündür.

Ali təhsilin bakalavriat mərhələsində tədris planına uyğun planlaşdırılmış pedaqoji təcrübə sistemli şəkildə, kursdan-kursa mürəkkəbləşdirilərək keçirilməlidir. Pedaqoji təcrübə fənlərin tədrisi metodikası, pedaqogika və psixologiya kursları tələbələr tərəfindən mənimsənildikdən sonra aparılmalıdır ki, səmərəli olsun.

Pedaqoji təcrübə tələbələrin müəllimlik peşəsinə hazırlanması sistemində mühüm rola malikdir. Pedaqoji təcrübə ilə əlaqədar ali məktəblərdə ciddi hazırlıq işləri aparılmalıdır. Pedaqoji təcrübənin həyata keçiriləcəyi ümumtəhsil məktəbləri, uşaq bağçaları və s. qabaqcadan bu iş üçün hazırlıq vəziyyətinə gətirilməlidir. Həmin təhsil ocaqları ilə ali məktəblər arasında müqavilələr bağlanır. Bütün bunlardan sonra universitet və ya institut rektoru pedaqoji təcrübənin keçirilməsi ilə əlaqədar əmr verir.

Tələbə üzrsüz səbəbdən pedaqoji təcrübədə iştirak etməzsə, yaxud qeyri-kafi qiymət alarsa, ən yaxşı halda o, kursda saxlanıla bilər. Üzrlü səbəb olduqda onun pedaqoji təcrübə keçməsi üçün şərait yaradılır.

Ali təhsil müəssisələrində - institut və universitetlərdə həm pedaqoji təcrübənin başlanmasına, həm də sona çatmasına həsr edilmiş konfranslar təşkil olunur. Birinci konfransda pedaqoji təcrübənin vəzifələri, tələbə oğlan və qızlardan ötrü onun rolu, təlim zamanı və təlimdənsonrakı vaxtlarda şagirdlərlə həyata keçiriləcək işlər, ümumtəhsil məktəbində, uşaq bağçasında daxili nizam-intizamı gözləməyin vacibliyi, pedaqoji təcrübənin sonunda təqdim ediləcək sənədlər, bir müəllim kimi və şagirdlərlə sinifdənxaric işlərin təşkilatçısı kimi tələbələrin üzərinə düşən vəzifələr, sənədləşdirməni aparma üsulları, təcrübə rəhbərlərinin tapşırıqlarına əməl etməyin vacibliyi və başqa məsələlər haqqında məlumat verilir.

Pedaqoji təcrübənin yekunlaşdırılması ilə əlaqədar təşkil olunan konfrans zamanı görülmüş işlər barədə danışılır. Təcrübə rəhbərlərinin, tələbələrin məlumatları dinlənilir. Müsbət işlər qeyd olunur, pedaqoji təcrübənin gələcəkdə daha da yaxşı təşkil edilməsi üçün təkliflər verilir.

Xarici ölkələrdə ali pedaqoji təhsil müəssisələrini bitirən şəxslər müəllimlik fəaliyyətinə başlamamışdan əvvəl, diplomdan sonra staj keçməyə cəlb olunurlar.

**Problemin aktuallığı.** Pedaqoji təcrübə gələcək müəllimlərin peşəyə hazırlanmasının mühüm vasitəsi kimi nəzərdən keçirilir. Ali məktəbdə aldığı nəzəri bilikləri, peşə hazırlığını o, pedaqoji təcrübə dövründə reallaşdırır.

**Problemin yeniliyi.** Pedaqoji təcrübə gələcək müəllimlərin peşəyə hazırlanmasının aktual məsələləri tədqiqata cəlb olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi imkanları.** Pedaqoji təcrübənin səmərəli aparılmasını təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı. Bakı, 2009. http://www.edu.gov.az/view.php?lang=az&menu=83&id=74
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı. "Azərbaycan müəllimi" qəz., 2013, 25

oktyabr

3. http://heydarbabamiz.ru/m-lliml-r-haqq-nda .

4. A. Abdullayev. Pedaqoji təcrübə və məktəb rəhbərliyinin nəzarəti. "Azərbaycan müəllimi" qəz., 2010, 18 noyabr

5. A.H. Dəmirov, S.M. Məmmədov və Ş.N. İsmayılov. Pedaqoji təcrübə proqramı və ixtisas üzrə təcrübənin təşkili: Dərs vəsaiti. Mingəçevir, 2007.

6. Мярданов М.С. Мцасир тящсилин инкишафы мцкяммял тядрис технолоэийаларынын тятбиги иля паралел апарылмалыдыр. «Азярбайжан мцяллими» гяз., 16 апрел-2 май 2002-жи ил

7. Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə. http://edu.gov.az/view.php?lang=az&menu=299&id=751

**А.Н. Аббасов**

## ПЕДАГОГИЧЕСКАЯ ПРАКТИКА КАК ВАЖНОЕ СРЕДСТВО ПОДГОТОВКИ К ПРОФЕССИИ УЧИТЕЛЯ

### РЕЗЮМЕ

Подготовка педагогических кадров подразумевает как теоретическое так и практическое направления. Учитель, стоящий лицом к лицу перед учениками, имеющий целью вооружить их умениями и навыками, необходимыми в жизни, не должен обладать лишь теоретическими знаниями выбранной им профессии, общепедагогической и специальной подготовки, он так же должен обладать практическими умениями, методической подготовкой, педагогическим мастерством.

Существуют некоторые изъяны в подготовке педагогических кадров. В ряде этих изъянов можно отметить следующие: структура подготовки кадров не соответствует требованиям рынка труда, кадровый потенциал высших школ и переподготовка учителей не отвечает современным требованиям; уровень подготовки студентов и выпускников высших школ не позволяет им интегрироваться в мировое образовательное пространство; ввиду отсутствия механизма мониторинга, определяющего уровень усвоения преподаваемых предметов студентами, допускается предвзятое оценивание их знаний; не смотря на обновление стандартов по направлениям, в учебных программах все еще существуют не относящиеся к специальности предметы и др.

**A.N. Abbasov**

## PEDAGOGICAL PRACTICE AS AN IMPORTANT MEANS OF PREPARATION FOR THE TEACHING PROFESSION

### SUMMARY

Of teacher training includes both theoretical and practical direction. Teacher standing face to face with his disciples, which aims to equip them with the skills and the skills needed in life, should not have a theoretical knowledge of his chosen profession, general pedagogical and special training, he should also have practical skills, methodological training, pedagogical skill. There are some flaws in teacher training. In some of these shortcomings are the following: the structure of the training does not meet the requirements of the labor market, human resources and retraining of high school teachers do not meet modern requirements; the level of training of students and graduates of higher schools do not allow them to integrate into the world educational space; due to the lack of a monitoring mechanism, which determines the level of assimilation of the subjects taught students may be biased assessment of their knowledge; despite the updating of standards in areas in the curriculum, there are still non-specialty items and others.

*Redaksiyaya daxil olub: 05.12.2014*

# EKOLOGİYA FƏNNİNİN TƏDRİSİ ZAMANI TƏLƏBƏLƏRİN EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**Xudayar Sultanlı,**
*elmlər doktoru proqramı üzrə dissertant,*
ARTPİ
E-mail: amicelilabad@mail.ru

**Rəyçilər**: *prof.* A.N. Abbasov,
*prof.* F.B. Sadıqov

***Açar sözlər****: ekologiya, ekoloji problem, ekologiya fənni, ekoloji təhsil, ekoloji tərbiyə, ətraf mühit*

***Ключевые слова****: экология, экологическая проблема, Экология (предмет), экологическое образование, экологическое воспитание, окружающая среда*

***Keywords****: ecology, ecological problem, Ecology (subject), ecological education, upbringing, environment*

Tələbələr arasında ekoloji təhsil və ekoloji tərbiyənin uğurla aparılması, onların ekoloji mədəniyyətə yiyələnmələri ali məktəbdə dərslərin hansı səviyyədə təşkil olunmasından, ayrı-ayrı mövzuların ekoloji maariflənmə və tərbiyə baxımından necə imkan yaratmasından çox asılıdır.

Mühazirə və seminar məşğələlərinin inkişafetdirici səciyyə daşımasından ötrü dos. A.Ü. Məmmədov aşağıdakı şərtlərə əməl olunmasını lazım bilir: «1) Təhsilalanların mənimsəyəcəyi təlim materialı sadədən mürəkkəbə, asandan çətinə gedən prinsipə əsasən tərtib edilməlidir...

2. Təlim prosesində elə təlim üsullarından istifadə edilməlidir ki, bu üsullar öz təbiiliyi ilə təlimə marağı artırmalı, öz perspektivliyi ilə gələcək inkişafa doğru gedişini təmin etməli – uşağın (*bizim tədqiqatda tələbənin – X.S.*) psixi inkişafını bir növ qabaqlamalıdır...

3. Təlim prosesində müəllim uşaqların (tələbələrin – X.S.) rəftar və davranışında təzahür edən müsbət keyfiyyətləri möhkəmləndirməyə və artırmağa, mənfi cəhətləri isə aradan qaldırmağa çalışmalıdır.

4. İnkişafetdirici təlimin tempi psixi inkişaf tempini qabaqlamalıdır» (1, s. 34).

Z.Ə. İbrahimovun ali məktəb tələbələri üçün "Ekologiya" dərs vəsaiti (Bakı: Araz, 2009, 630 s.) bir sıra bölmələri əhatə edir ki, ekoloji təhsil və tərbiyə baxımdan daha çox materiallar verənləri diqqətə çatdırırıq: Ekologiyanın inkişaf tarixinin qısa icmalı. Təbii mühit və ekoloji amillərin təsirinin qanunauyğunluqları: Mühit və ərazinin ekoloji şəraitinin qiymətləndirilməsi. Meyarları. Atmosfer havasının çirklənməsinin qiymətləndirilməsi. Su obyektlərinin çirklənməsinin və su ekosistemlərinin tənəzzülünün qiymətləndirilməsi meyarları. Ekosistemin təhlükəsizliyi. Mühitin çirklənməsinin insanların sağlamlığına təsir. Ekoloji təhlükə. Ətraf mühitə antropogen təsirlərin normaya. Bərk məişət tullantılarının zərərsizləşdirilməsi və istifadə olunması. Ekoloji monitorinq və ekspertiza. Kənd təsərrüfatının ekoloji problemləri: Kimyalaşdırmanın ekoloji problemləri. Mexanikləşdirmənin ekoloji problemləri. Kənd təsərrüfatı meliorasiyasının ekoloji problemlər. Ekoloji kənd təsərrüfatı: Kənd təsərrüfatı ekosistemləri (aqroekosistemləri). Aqrolandşaftların optimallaşdırılması və davamlı aqroekosistemlərin təşkili. Aqroiandşaftların ekoloji cəhətdən qiymətləndirilməsinin metodoloji əsasları. Aqroekosistemlərin davamlılığı Hidrosferin çirklənməsinin ekoloji nəticələri. Litosferə antropogen təsirlər. Biotik birliklərə antropogen təsirlər. Ekologiyanın və iqtisadiyyatın qarşılıqlı əlaqəsi: Ekoloji-iqtisadi əlaqələr. Ekoloji-iqtisadi sistemlər. Ekoloji normalaşdırma. İqtisadiyyatın ekolojiləşdirilməsi. Ekoloji tələbatlarla şərtlənmiş iqtisadi xərclər. Təbiətdən istifadənin ödənişliliyi və mühitqoruyucu funksiyaların iqtisadi stimullaşdırıması, istehsalın ekolojiləşdirilməsi.

"Orqanizmlərin həyatında suyun rolu" mövzusu keçilərkən diqqət belə bir həqiqətə yönəlir ki, su canlı orqanizmlərin fəaliyyətində böyük rol oynayır. Su biokimyəvi reaksiyalar üçün əsas mühitdir. Suyun miqdarı hədsiz dəyişmək məcburiyyətində qaldıqda (qabarma, çəkilmə), qədərindən artıq duzlu sularda osmotik yolla orqanizmlər tərəfindən itirildikdə, o, ekoloji cəhətdən istər yerüstü, istərsə də su ərazilərində limitləşdirici bir amil sayılır.

Tələbələr öyrənirlər ki, qida maddələri orqanizmdə başlıca olaraq su məhlulu şəklində dövr edir, həmin şəkildə də orqanizmdən dissimliyasiya məhsulu yüksək dərəcədə xaric olunur. Su bitki və heyvan orqanizmlərinin əsas kütləsini təşkil edir; toxumalarda onun nisbi miqdarı 50-80%, növlərin bəzilərində daha yüksək olur.

Məsələn, meduzaların bədənində 95%-ə, bir sıra molyuskların toxumalarında isə 92%-ə qədər su vardır.

Suyun ekoloji dəyəri heç də müxtəlif tipli su hövzələrində onun toplanması ilə məhdudlaşmır. Yağıntılar mühüm əhəmiyyət kəsb edərək, su hövzəsinin su rejimini, torpağın və havanın rütubətliliyini müəyyən edir.

Yaşıl bitkilər suda oksigenin çoxaldır, ölü bitki qalıqları, lilin toplanması isə üzvi maddələrin parçalanması nəticəsində suyun tərkibindəki oksigeni azaldır.

Suda oksigenin miqdarı qışda su hövzəsi buz bağlayanda da azalır və oksigen çatmağı üçün balıqlar qırılır.

"Ətraf mühitin çirklənməsi və onun təsnifatı" mövzusu keçilərkən ilk növbədə ətraf mühitin çirklənməsinin təsnifatı; daha sonra ətraf mühiti çirkləndirəm əsas mənbələr; ətraf mühitin keyfiyyəti və onun rolu kimi məsələlər diqqət mərkəzində dayanır.

Tələbələr öyrənirlər ki, mütəxəssislər ətraf mühitin çirklənməsini, adətən iki qrupa bölürlər: 1. Bu və ya digər təbii proses (fəlakətlər və s.) səbəbindən (zəlzələ, daşqınlar, vulkan püskürməsi, meşə yanğınları və s.) meydana gələn təbii çirklənmə. 2. İnsan fəaliyyəti nəticəsində əmələ gələn antropoqen çirklənmələr. Təbii çirklənmə canlıların həyat tərzinə mənfi təsir edir. Fəqət həmin təsirlər müvəqqəti olur və onların fəaliyyəti dayandıqda canlılar bu təsiri hiss etmirlər.

Planetimizin kimyasında təbii çirklənmənin əhəmiyyəti böyükdür (bu, yağıntıların yağmasında, yerdə temperaturun sabitləşməsində özünü göstərir).

Müəllim məlumat verir ki, ətraf mühitin antropoqen çirklənmələrin təsnifatı belə aparılır: 1. kimyəvi çirklənmə; 2. bioloji çirklənmə 3. fiziki çirklənmə 4. stasial-destruksiya (stasiya-yer, destruksiya-dağılma) çirklənməsi.

Daha sonra auditoriyada haqqında danışılan çirklənmələrin mahiyyətinə aydınlıq gətirilir. Tələbələrə məlum olur ki, elə çirklənmələrə kimyəvi çirklənmələr deyilir ki, təbii biogeocenozlar üçün səciyyəvi olmayan kimyəvi element və birləşmələrin təbii mühitə daxil olması, mühitin kimyəvi tərkibinin dəyişməsi baş verir. Belə çirkləndiricilər canlı aləmdə kəskin zəhərlənmələrlə, xroniki xəstəliklərlə müşayiət olunur.

Tələbələr öyrənirlər ki, müəyyən miqdarda bir sıra ağır metallar həyat fəaliyyətindən ötrü çox əhəmiyyətlidir. Belə metallara aiddir: mis, sink, dəmir, kobalt, molibden və s. Lakin qədərində. Miqdarın normanı aşması sağlamlıq üçün təhlükəlidir, çünki zəhərli təsirə malik olur.

Həm də 20 metal orqanizmin fəaliyyəti üçün, ümumiyyətlə tələb edilmir. Həmin metallar arasında daha təhlükəli olanları civə, qurğuşun, kadmium və arsendir.

Daha sonra fiziki çirklənmə ilə bağlı məsələnin üzərində dayanılır. Müəllimin izahatı əsasında tələbələr öyrənirlər ki, mühitin fiziki parametrlərinin (təbii işıqlanma, temperatur rejimi, səs-küy, elektromaqnit fonu, radiasiya fonu və s.) dəyişməsi ilə əlaqədar olan çirklənmələr fiziki çirklənmələr adlanır.

Səs-küy çirklənməsinin insan orqanizminə təsiri mənfidir. Səs-küy çirklənməsi zamanı yorğunluq, əqli aktivliyin zəifləməsi, əmək məhsuldarlığının aşağı düşmədi, ürək-damar və sinir xəstəliklərinin inkişafı özünü göstərir. Mütəxəssislərin qənaətincə, hədsiz səs-küy insan üçün fiziki narkotik təsirinə malikdir. İri şəhərlərdəki, sənaye müəssisələrindəki qələbəlik, səs-küyün öz həddini aşması insan ömrünü təxminən 8-12 il qısaldır.

Qeyd edildiyi kimi, radioaktiv çirklənmə də mövcuddur. Mühitin təbii radiasiya fonunun dəyişməsi Atom silahlarının tətbiqi, radioaktiv elementlərin mədənlərdən çıxarılması və s. radioaktiv çirklənməyə səbəblərdir. Çirklənmənin haqqında danışılan növü insanı məhvə aparır. Çirklənmə sümük xərçəngi, insan orqanizmindəki hüceyrələrin zədələnməsi, xroniki kəskin şua xəstəlikləri ilə nəticələnir.

Mühitin elektromaqnit xassələrinin dəyişməsi ilə elektromaqnit çirklənməsi özünü göstərir. Çirklənmə mənbələri şüni elektromaqnit sahələri və elektrik enerjisi ötürücü xətləridir. Elektromaqnit çirklənmə insanda görmə orqanları xəstəliklərini, qan xərçəngini, ürək-damar çatışmazlığını və s. bu kimi xəstəlikləri sürətləndirir.

Mühitin temperaturunun artmağı, yaxud aşağı düşməsi səbəbindən də çirklənmə baş verir ki, bina Temperatur (termal) çirklənməsi deyilir.

Qışıqlanma çirklənməsi də mövcuddur ki, bu zaman bitki və heyvanların həyatında anomaliyalara səbəb olan süni işıq mənbələri tərəfindən təbii işıqlanmanın pozulması baş verir və s.

Nəzərdən keçirilən mövzu ekoloji təhsilləndirmə baxımından faydalıdır. Bunu nəzərə alan müəllim tələbələrin diqqətini ətraf mühiti çirkləndirən əsas mənbələr Ətraf mühiti çirkləndirən əsas antropogen mənbələrə cəlb edir. Onların aşağıdakılardan ibarət olduğunu bildirir: yanacaq - energetika kompleksi; məişət tullantıları; sənaye müəssisələri (sellüloz-kağız, tikinti materialları, kimya, metallurgiya); kənd təsərrüfatı istehsalatı; heyvandarlıq tullantıları; nəqliyyat; insan tərəfindən istehsal olunan kimyəvi maddələr və başqa texnologiyalar.

Tələbələr ətraf mühitin çirklənməsindən baş verən itkiləri yada salırlar. Göstərilir ki, ətraf mühitin çirklənməsi insanların sağlamlığına son rədəcə böyük ziyanlar gətirir. Bundan başqa, həm də iqtisadiyyata da ciddi fəsaqlar yaradır. Nəticədə tikinti materialları daha tez dağılır, boya, metallar, rezin sürətlə korroziyaya uğrayır. Nəticədə kənd təsərrüfatı məhsulları, bitki və heyvanlar məhv olurlar.

Mühazirə və ya seminar məşğələlərində eyni zamanda ətraf mühiti mühafizəsi məsələləri üzərində dayanılır. Mühafizə məqsədilə istifadə olunan vəsaitlərin 3 qrupuna münasibət bildirilir: a) tullantıların sosial nəticələrini kompensasiyası baxımından çəkilən xərclər; b) atmosferə buraxılan qazlarda və çirkab suları ilə xammal və məhsul itkilərini kompensasiya etmək məqsədilə sərf olunan xərclər; c) ətraf mühitə tullantıların daxil olunmasının minimuma endirilməsi baxımından çəkilən xərclər.

İnsan ekologiyasi probleminə həsr olunan mühazirə zamanı insanın biososial təbiəti və ekologiyası diqqət mərkəzində dayanır. Qeyd olunur ki, insan planetimizdə canlı orqanizmlərin inkişafının çox yüksək pilləsi hesab edilir. İnsanın bioloji adaptasiyası heyvanat aləmindən son dərəcə fərqlənir. Sosial amilin artması zamanı o, istər bioloji, istərsə də sosial funksiyasını hifz etməyə çalışır. Həmin vəziyyət çox mühüm ekoloji əhəmiyyətə malik olaraq, «insan» məhfumunun müəyyənləşdirilməsində ekoloji nöqteyi-nəzərdən yanaşmağı özündə birləşdirir.

Yerin təbii ehtiyatları – insanın həyat amilidir. Ehtiyat dedikdə, öz ehtiyaclarını və arzularını ödəmək baxımından şəxsiyyətin təbii mühitdən əldə etdikləri nəzərdə tutulur. İnsan tələbatı maddi və mənəvi olmaqla iki yerə bölünür. İnsan təbii resurslardan faydalanmaqla bu və ya digər dərəcədə öz mənəvi tələbatlarını da təmin edir. Fəqət təbii ehtiyatın başlıca məramı – insanın maddi tələbatını ödəməkdir, başqa sözlə maddi nemətlər istehsalıdır.

Göründüyü kimi, təbii ehtiyat təbii obyektlər və hadisələr olmaqla, insan onlardan maddi nemət kimi faydalanır. Bütün bunlar isə, bəşəriyyətin mövcudluğunu saxlamaqla bərabər, eyni zamanda getdikcə həyatın keyfiyyətinin yüksəlməsinə şərait yaradır. İnsanın bəhrələndiyi təbii ehtiyatlar son dərəcə müxtəlifdir. Onların mənşəyi, təyinatı, istifadə üsulları da müxtəlif olur. Bu da onları müvafiq istiqamətdə sistemləşdirmək tələbatını meydana gətirir. Təbii ehtiyatların təsnifatını aparmaq sahəsində bəzi yanaşmalara rast gəlinir. Diqqət yetirək: Mənşəyi üzrə təbii ehtiyatlar bioloji, mineral və energetik ehtiyatlardan ibarətdir. 1. Bioloji ehtiyatlar. Buraya aiddir: biosferin canlı mühit əmələgətirən bütün komponentləri (konsumentlər, produsentlər və redusentlər, həmçinin onlarla bağlı genetik resurslar). (Peymers, 1990).

Haqqında danışılanlar vətəndaşların maddi və mənəvi nemətlərinin mənbəyi hesab olunur. Buraya daxildir: mənzərəli landşaftlar, mədəni bitkilər, mikroorqanizmlər, ev heyvanları, bitki ehtiyatları, heyvanat aləmi ehtiyatları və s.

Genetik ehtiyatların rolu xüsusilə böyükdür.

Mineral ehtiyatlara litosferi təşkil edən istifadə üçün yararlı maddələrin hamısı daxil oluna bilər. Təsərrüfatda bu maddələrdən mineral xammal və ya yanacaq kimi istifadə edilir. Mineral xammal filiz və yaxud qeyri-filiz halında olur. Filiz haında olarkən ondan metal alınır. Qeyri-filiz halında olduqda isə, ondan qeyri-metal komponentlər (fosfor və b.) əldə olunur. Bir sıra hallarda qeyri-filiz şəklində olan mineral xammaldan tikinti materialı kimi istifadə edilir. Mineral ehtiyatlar yanacaq (daş kömür, neft, qaz. qaynar şistlər, torf, oduncaq, atom enerjisi) rolunu oynamaqla bərabər, buxar və elektrik əldə etmək baxımından mühərriklərdə enerji mənbəyi kimi ondan faydalanırlar. Belə halda onlar yanacaq-energetik ehtiyatlar adını alır.

Yanacaq-energetikası, günəş və kosmos, atom-energetikası, termal və başqa enerji mənbələri bir yerdə energetik ehtiyatlar kimi nəzərdən keçirilir.

Mühazirədə eyni zamanda təbii ehtiyatların istehsalatda istifadə edilməsi baxımından təsnifatı aparılır. Sonra tələbələrə aşağıdakı suallar verilir:

Sual: Torpaq fondu anlayışına nə daxildir?

Cavab: - Bu və ya digər ölkə, rayon, həmçinin dünya ərazilərində olan torpaqlar öz təyinatı baxımından aşağıdakı qruplara daxildir: kənd təsərrüfatı, yaşayış məntəqələri, qeyri-kənd təsərrüfatı təyinatlı (sənaye, nəqliyyat, dağ-mədən və b.).

Sual: Sicə, dünyanın torpaq fondu neçə hektar təşkil edə bilər?

Cavab: - Dünyanın torpaq fondu 13,4 milyard hektardan ibarətdir.

Sual: Bitki örtüyü fondu dedikdə nə başa düşürsünüz?

Cavab: Bitki örtüyü fondu qurunun torpaq fondunun müəyyən bir hissəsidir. Buraya aiddir: meşə fondu və otlaqlar.

Sual: Bu ərazilərdə nə təşkil olunur?

Cavab: Bu ərazilərdə kənd təsərrüfatı istehsalı obyektləri və xüsusi mühafizə olunan obyektlər (qoruq və b.) təşkil olunur.

Sual: Su resurslarına nə daxildir?

Cavab: Su ehtiyatlarına daxildir: təsərrüfatda bu və ya digər məqsədlər baxımından istifadə olunan yeraltı və yerüstü sular birlikdə (əsas mənbəyi çay suları hesab olunan şirin su ehtiyatları mühüm rola malikdir).

Sual: Fauna ehtiyatlarına nələr aiddir?

Cavab: Fauna ehtiyatlarına ekoloji tarazlığa xələl gətirmədən insanların istifadə etdikləri su, meşə və digər yerlərdə məskunlaşan heyvanlar aiddir.

Ekologiya və insan sağlamlığı məsələlərindən danışılarkən ilk növbədə təbii ekoloji amillərinn insanın sağlamlığına təsiri üzərində dayanılır. Heyvanat aləmində olduğu kimi ibtidai insan da ekosistemin nizamlanma və özününizamlama amillərinin təsiri altında idi. İbtidai insanın ömrü az olmuşdur. Ölümün səbəbi kimi ilk cərgədə təbii səciyyəli patogen (xəstəlik törədən) təsirlər dayanırdı. Yoluxucu xəstəliklər üstünlük təşkil edirdi. Yoluxucu xəstəliklərin çoxusu onların törədicilərinin təbiətdə insan və ev heyvanları ilə əlaqəsi olmadan müəyyən ərazilərdə (ocaqlarda) yayılırdı. Yoluxucu xəstəliklər, adətən vəhşi heyvanların orqanizmində parazitlik edirlər. Xəstəlik törədiciləri vəhşi heyvanlar, o cümlədən gəmiricilər, quşlar, həşərat və gənələr sayılır.

XX əsrə qədər təbii mənbə xəstəlikləri adamların ölümünün başlıca səbəbi kimi çıxış edirdi. Həmin xəstəliklər sırasında taun ən dəhşətlisidir. Xəstəlikdən orta əsrlərdə və sonralar arasıkəsilməz müharibələrdə son dərəcə çox adam ölmüşdür. Kəskin yoluxucu xəstəlik olan taun karantin sayılır. Taunun epidemiyası dünyanın bir çox ölkələrində yayılmışdır. Bizim eradan əvvəl VI əsrdə Şərqi Roma İmperiyasında həmin xəstəlikdən 50 il ərzində 100 milyondan çox insan ölmüşdür

İnsan xəstəliklərinin bir çoxu ətraf mühitlə bağlıdır. Həmin xəstəliklərlə həmişə mübarizə aparılsa da, qarşısını tam almaq olmur. Bu xəstəliklərin meydana çıxması ekoloji təbii səbəblərlə, xüsuzən xəstəlik törədicilərin daşıyıcılarının və özlərinin rezistentliyi (müxtəlif təsir amillərinin təsirinə qarşı davamlılığı) ilə izah olunur. Malyariya (qızdırma) ilə mübarizə bu proseslərə nümunədir.

Mühazirədə insanın tələbatları məsələsinə də diqqət yönəldilir. Hər bir şəxsin öz tələbatını yerinə yetirmək səyi onun ətraf mühitlə əlaqəsini müəyyənləşdirir.

Hər bir şəxsin sağlamlığı, eyni zamanda iş qabiliyyəti onun ətraf mühitlə qarşılıqlı əlaqəsindən xeyli dərəcədə asılıdır. Digər canlı orqanizmlər kimi insan da ətraf mühitlə maddələr mübadiləsi və enerji axını ilə bağlıdır. Ona mühitin ekoloji amilləri də təsir edir. Lakin o, bu və ya digər dərəcədə mühitin əlverişsiz amillərinin təsirindən qoruna bilir, həm də onu əhatə edən mühitə təsir gücünə malikdir.

Həyat şəraiti və tərzi, onların insan sağlamlığına təsirinə toxunan müəllim göstərir ki, təkcə tibb əhali arasında artan xəstəliklərin qarşısını almağa qadir deyil. Belə ki, insanın sağlamlığına səhiyyənin təsiri yalnız 10-15%-dir. Bunun müqabilində həyat şəraitinin və həyat tərzinin təsiri 50%-dən daha çoxdur. Odur ki, istər mütəxəssislər, istərsə də əhali arasında sağlam həyat tərzinə maraq xeyli artıb. İnsanların həyatında ailənin rolu son dərəcə artıb. Ailə həyatı - ailə üzvlərinin sağlamlığını həm bilavasitə, həm də bilvasitə müəyyən edir. Uğurlu nikah və xoşbəxt ailə şəraitində yaşayan şəxslər daha çox yaşayır, nisbətən az xəstələnir.

Ərli qadınlarla müqayisədə dul qadınlar arasında ölüm halları daha çoxdur. Ailənin mənəvi və psixoloji durumunun yaxşı olmadığı ailələrdə uşaqlar daha tez-tez mədə xorası, sarılıq, xroniki qastritə tutulurlar.

Tədqiqat göstərdi ki, ekoloji maariflənmə üzrə aparılan sistemli, məqsədyönlü və fasiləsiz iş öz səmərəsini verir.

**Problemin aktuallığı**. Dünyanı bürüyən ekoloji böhran şəraitində ekoloji təhsil, ekoloji maariflənmə və ekoloji tərbiyə məsələləri olduqca aktualdır. Respublikamızda dövlət səviyyəsində bu məsələyə diqqət yetirilir. Bır çox sərəncam və qərarlar imzalanmışdır. Bütün bunlar fənlərin tədrisi prosesində də tələbələrin ekoloji təhsil və tərbiyəsinə fikir verilməsini tələbata çevirir.

**Problemin yeniliyi**. İnstitut və universitetlərdə ekologiyanın tədrisi prosesində tələbələrin ekoloji təhsil və tərbiyəsinin həyata keçirilməsi yollarına aydınlıq gətirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi imkanları**. Ekologiya fənnindən mühazirə və seminar məşğələləri aparan müəllimlərə tələbələrin ekoloji maariflənməyə cəlb olunması və onların ekoloji mədəniyyətə yiyələnmələri işinə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. A.Ü. Məmmədov. Təlimin psixoloji əsasları. Bakı,1993.
2. Z.Ə. İbrahimov. Ekologiya: Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, Bakı: Araz, 2009.


**Х.Султанлы**

## ОРГАНИЗАЦИЯ РАБОТ ПО ЭКОЛОГИЧЕСКОМУ ВОСПИТАНИЮ И ОБРАЗОВАНИЮ СТУДЕНТОВ ВО ВРЕМЯ ОБУЧЕНИЯ ПРЕДМЕТУ ЭКОЛОГИИ

### РЕЗЮМЕ

Успешное проведение экологического воспитания и образования студентов, усвоение ими экологической культуры во многом зависит от уровня организации лекций и семинарских занятий, от того на сколько определенные темы способствуют экологическому просвещению и воспитанию. С этой точки зрения курс Экологии имеет широкие возможности. Этот курс с точки зрения экологии выдвигает в центр внимания картину мира и нашей страны, указывает на экологические проблемы и

возможные пути их решения. Статья посвящена организации работ по экологическому воспитанию и образованию студентов во время обучения предмету экологии.

**H. Sultanly**

## THE ORGANIZATION WORKS ON ECOLOGICAL EDUCATION STUDENTS DURING THE TEACHING OF ECOLOGY

### SUMMARY

The successful conduct of ecological education students, assimilation of ecological culture is largely dependent on the level of organization of lectures and seminars, on how much certain themes promoting ecological awareness and education. From this perspective, the course of Ecology has ample opportunities. This course is for the environment brings into focus the picture of the world and our country, points to ecological problems and their possible solutions. The article is devoted to the organization of work ecological education students during the teaching of ecology.

*Redaksiyaya daxil olub: 08.12.2014*

# İKT-nin PEDAQOJİ SAHƏDƏ TƏTBİQİ İMKANLARI

**Almaz Həsrət,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*əməkdar müəllim*
ARTPİ
E- mail: bilgi@almazhasret.com

**Rəyçilər:** *prof.* A. Mehrabov,
*prof.* A. Abbasov

***Açar sözlər:*** *İKT, elektron resurs, innovativ fəaliyyət, elektron məktəb, səmərəlilik meyarı, bacarıqlar, vərdişlər, strategiya*
***Ключевые слова:*** *ИКТ, электронный ресурс, инновативная деятельность, електронная школа, критерии эффективности, умения, навыки, стратегия*
***Key words:*** *ICT, e-resource, innovative activities, e-school, criteria ofefficiency, abilities, skills, strategy*

XXI əsr yüksək kompüter texnologiyaları əsridir. Bu əsrdə tədrisdə istifadə olunan təlim metodları keçmişdə istifadə edilən ənənəvi təlim üsullarından fərqlənir. Hazırda kompüter və elektron texnologiyaları həyatımızın böyük bir hissəsini təşkil edir. Respublikamızda təhsilin inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” sənədinin qəbul olunmasıdır [1,3]. Həmin sənəddə keyfiyyət nəticəsinə və əhəmiyyətliliyinə görə dünyada aparıcı mövqeyi ilə seçiləcək səriştəli müəllim, təhsil menecerləri, yüksək texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamət üzrə geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Prof. A.O. Mehrabovun “Müəllimin karyera inkişafında və innovativ fəaliyyətə hazırlığında pedaqoji monitorinqin imkanları” məqaləsində təhsil alan və təhsilverənlərin bir neçə səriştəlilik göstəriciləri sadalanıbdır. Bunlardan biri də İnformasiya-kommunikasiya texnologiyaları sahəsində olan səriştəliliyin olmasıdır. Məqalədə göstərilir ki, təhsil alanların həmin səriştəlilikləri informasiya mühitində öz yerini dərk etmə və müasir informasiya texnologiyalarına, internetə, audiovideo vasitələrinə yiyələnmə və s. meyarlarla ölçülərək qiymətləndirilməlidir. Bildiyimiz ki, qiymətləndirməni bu meyarlarla aparılması üçün müvafiq resurslar da olmalıdır ki, təhsil sahəsində çalışanlar bu bacarıqlara nail olsunlar [2, 5].

Müəllimlərimiz müasir dövrün ən mükəmməl texnologiyalarının tədrisdə tətbiqi istiqamətində yaradıcı axtarışlar aparmaqla çalışırlar ki, sonda ortaya maraqlı fəaliyyət nümunələri qoysunlar. Həmin fəaliyyət nümunələrinə müəllimlərin hazırladıqları dərs resursları da daxildir. Ancaq hazırlanmış olan bu elektron dərs nümunələrinə xüsusi diqqət yetirmək zamanın tələbinə çevrilməlidir. Demək olmaz ki, hər bir fənn müəllimin hazırladığı resurs və fərdi olaraq internetə yüklənmiş hər hansı bir dərs nümunəsi və ya testlər, tapşırıqlar tam yoxlanılmamış, dəqiq və səhvsizdir. Hər hansı görülmüş işdə müəyyən qüsurlar olur. Bu resursları internetə yükləyərkən təbii ki, hər bir fənn müəllimi öz pedaqoji biliyinə arxayın olaraq hazırladığı elektron dərs nümunəsini həmkarı ilə müzakirə etmədən internetə yükləyir. Kiçik bir elmi səhvi olan elektron resurs, digərlərinin gələcək dərslərinin qurulmasında böyük bir xətanın yaranmasına səbəb ola bilər. Ona görə də ənənəvidən fərqli olaraq müəllimlər tərəfindən hazırlanmış dərslərin birbaşa diqqətlə təkrar oxunmadan, redaktə olunmadan, müzakirə edilmədən internetə yüklənməsi sonda böyük bir elmi və təcrübi savadsızlığa yol aça bilər. Həmin resurslara ayrıca diqqət və yoxlanmasını təmin edən bir bazanın yaradılmasına çox ehtiyac var idi. Bildiyimiz kimi, pedaqoji kadrların əsas

vəzifələrindən biri şagirdlərin indiki dövrdə sərbəst yaşamaları üçün çağdaş həyata hazırlanmasıdır. Həmçinin müəllimlər müasir texnologiyalar vasitəsilə təhsil resurslarının düzgün istifadə bacarıqlarını inkişaf etdirməlidirlər. Təhsil sistemində çalışanların qarşısında duran əsas vəzifələrdən biri də təhsilin keyfiyyətinin artırılmasıdır. Qabaqcıl təcrübələrdən istifadə etməklə, beynəlxalq təhsil sisteminə uyğunlaşdırılmış tədris resurslarını hazırlamaqda Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən bir çox proqramlar həyata keçirilməkdədir. Daim müəllimlərin peşəkarlıq səviyyələrinin artırılmasına xüsusi diqqət ayıran nazirliyin rəhbərliyi bu dəfə müəllimlərin tədrislərinə kömək edə biləcək elektron resursların hazırlığına başladı. Bunlardan ən yenisi barədə məlumat vermək istərdik. Dekabr ayının 15-i 2014-cü il tarixində Təhsil Nazirliyində mövcud hazır elektron resursların təqdimatı keçirilmişdir.

Təqdimat mərasimində respublika Təhsil naziri Mikayıl Cabbarov qeyd edib ki, informasiya texnologiyalarının yüksək inkişaf tempi və qloballaşma fonunda təhsilin informasiyalaşdırılması "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulan əsas məqsədlərdən biridir. Təhsil Nazirliyinin şəbəkə əsaslı təhsilin coğrafiyasını daha da genişləndirəcəyini qeyd edən nazir müxtəlif növ elektron təhsil resurslarının hazırlanması istiqamətində müvafiq layihələrin həyata keçirildiyini söyləyib. Təhsil naziri bu gün ölkənin sosial-iqtisadi həyatının bütün sahələrində uğurla icra olunan müasirləşmə siyasətinin təməlində ölkə Prezidentinin irəli sürdüyü aşağıdakı konsepsiyanın durduğunu vurğulayıb: "Ölkəmizi müasirləşdirməliyik, zənginləşdirməliyik. Çünki müasir dünyada hər şeyi bilik, savad, təhsil həll edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər yetirsək, görərik ki, burada tərəqqini müəyyən edən neft-qaz yox, məhz bilik, texnologiyalar, təhsildir. Ölkəmizin hərtərəfli və sürətli inkişafını təmin etmək üçün biz sərmayəni ilk növbədə təhsilə, biliyə, gənclərimizin maarifləndirilməsinə yönəltməliyik". [3]

Böyük həcmdə tədris və təlim materiallarını əhatə edə biləcək elektron resurslar ənənəvi öyrənmə formalarını zənginləşdirir. Azərbaycanın təhsil məzmununa uyğun olan elektron resursları bir mənbədə cəmləşdirmək üçün www.e-resurs.edu.az portalı yaradılmışdır. Həmin yeni yaradılmış portal vasitəsilə hər bir istifadəçi elektron dərsliklər, video dərslər, müsabiqələr, elektron tapşırıqlar, müxtəlif oyunlar və digər bu tipli təhsil resurslarına çıxış əldə edə bilərlər. Portalda dərsliklər tam açıq şəkildə internetə yerləşdirilibdir. Hər bir istifadəçi həmin portalda yerləşdirilmiş dərsliklərdən pulsuz olaraq istifadə etmək hüququna malikdirlər. Portalda bir neçə bölmələr də var ki, onlar resurslarla işləməyə şagirdlərdə maraq oyadır.

www.e-derslik.edu.az portalı böyük istifadəçi kütləsini əhatə edir. Portalın dərslik bölməsindəII, III, VI və VII siniflər üzrə dərsliklər də yerləşdirilibdir. Statistik məlumata görə bu günə qədər (15 dekabr, 2014-cü il) 25 000-dən artıq istifadəçi portalda qeydiyyatdan keçərək elektron dərsliklərdən istifadə edir. Elektron dərsliklər hər şagirdə təhsil prosesində fəal iştirak etməyə, onların öyrənmə prosesini fərdiləşdirməyə çox gözəl şərait yaradır. Ən əsas amillərdən biri də odur ki, portala yerləşdirilmiş elektron dərslikləri kompüter, planşet və ya mobil telefon üzərindən onlayn və oflayn formatlarda da istifadə etmək mümkündür. Bu resurslar dərslərdə nəinki müəllimlər tərəfindən, hətta şagirdlərin məktəbdə olmadığı müddətdə də istifadə oluna bilər. Bunun üçün ilk öncə istifadəçi portala daxil olmaq üçün qeydiyyatdan keçməlidir. Sonra isə istənilən dərslikləri yükləyib oxuya bilər. Maraqlısı odur ki, oxuduqca da həmin anda istifadəçilər üçün qeydlərini etmələri üçün də şəraitin yaradılmasıdır. Çox səmərəli və cəlbedici funksionallığa malik olan bu portalda elektron dərsliklərin yerləşdirilməsi prosesi hələ də davam edir.

Yeni yaradılan digər bir elektron resurs www.e-test.edu.az müsabiqə portalıdır. Bu portal riyaziyyat və oxuyub-anlama bacarıqlarını inkişaf etdirmək istəyən, həmyaşıdları ilə bilik yarışması keçirmək arzusunda olan məktəblilər üçün nəzərdə tutulubdur. Sevindirici haldır ki, bu portaldan istifadə də məktəblilərdə böyük maraq doğurub. Məlumat üçün bildirək ki, həmin portalda riyaziyyat və Azərbaycan dili fənləri üzrə IV, V, VI, VII, VIII və IX sinifləri əhatə edən 30 000-ə yaxın sual yerləşdirilib.

Daha yeni yaradılan növbəti elektron resurs www.video.edu.az videodərslərdən ibarət olan bir resursdur. Məktəbdə müəllimlərin tədris prosesini daha da yaradıcı edən və təhsil alan şagirdlər

tərəfindən məlumatların daha da asan qavranılmasını asanlaşdıran video dərslər yerləşdirilir. Bunlardan tədris proqramını və ibtidai siniflər üçün seçilmiş mövzuları əhatə edən fizika, kimya, ədəbiyyat, Azərbaycan dili, həyat bilgisi, biologiya üzrə video dərslər yerləşdirilibdir. Hələlik son məlumata görə portala 100-ə qədər videodərs yüklənibdir.

Digər bir ilk yeni resurs “Elektron tapşırıqlar”dır. Burada dərsliklərə uyğun tərtib olunmuş interaktiv suallar və test tapşırıqları yerləşdirilibdir. Elektron tapşırıqlar əsasında onlayn formada şagirdlərin biliklərini qiymətləndirmək, nəticələrin monitorinqini aparmaq və müvafiq reytinqləri hazırlamaq üçün funksionallıq olduğundan bu sadaladığımız prosesləri dərs içində tez və operativ etmək mümkündür.

Yeni yaradılmış resurslardan biri də “Xarici elektron resurslar”ıdır. Burada müxtəlif xarici şirkətlərın hazırladığı resurslar Azərbaycan dilinə tərcümə edilmişdir və “Xarici elektron resurslar”da toplanmışdır. Bunlardan fizika, kimya, biologiya və riyaziyyat fənlərini əhatə edən resursları göstərmək olar. 2014-cü il portala daha 30 xarici elektron resurs tərcümə olunaraq portala yüklənib. Beləliklə, dekabr ayına olan məlumata görə portaldakı xarici elektron resursların ümumi sayı 200-yə çatıb.

Məktəblilərin tədrisə marağının artırılmasına təkan ola biləcək, onların bilik və bacarıqlarını artıran vasitələrdən biri də elektron oyunlardır. Elektron oyunlar müvafiq mövzuya uyğun olaraq məqsədyönlü hazırlanmışdır. Şagirdlərin fərdi və ya qrup şəklində əyləncəli formada biliklərinin artırılması üçün tarix və coğrafiya fənləri üzrə 50 oyun hazırlanıb. Bu oyun resursların içərisində şagirdlərdə maraq doğura biləcək tərzdə hazırlanmış Tarix fənni üzrə oyunlar Azıx mağarası, daş, tunc, dəmir dövrləri, eləcə də XIV - XVI əsrə aid döyüşləri, Səfəvilər dövləti kimi mövzuları, coğrafiya fənni üzrə hazırlanmış oyunlar Azərbaycan çaylarını, dağları, gölləri və digər mövzuları əhatə edir.

Təhsil Nazirliyinin hazırladığı daha bir elektron resurs - www.e-telim.edu.az müəllimlərin və idarəedicilərin təkmilləşdirilməsi ilə bağlıdır. Portalda peşəkar təlimçilərin iştirakı ilə hazırlanmış video dərslər yerləşdirilib. Dərsləri izləməklə yanaşı, istifadəçilər elektron qaydada müzakirələr aparmaq, fikirlərini bölüşmək, suallar vermək və şərhlər yazmaq imkanı əldə edirlər.

Təhsildə innovativ yanaşmaları genişləndirmək məqsədilə Təhsil Nazirliyi tərəfindən elektron sinif portalı - www.e-sinif.edu.az yaradılıb. Portal hər bir vətəndaşa geniş öyrənmə imkanları verir. Müəllim kimi qeydiyyatdan keçənlər virtual dərslər yaratmaq imkanı əldə edir, ayrı-ayrı video, audio, təqdimat və mətn formatında olan resursları bölüşür, imtahanlar keçirir, öyrənənlərlə müzakirələr aparır və onların biliklərini qiymətləndirirlər. Şagird kimi qeydiyyatdan keçənlər isə müxtəlif elektron siniflərə daxil olmaqla dərslərdə iştirak edir, məhdudiyyətsiz öyrənmə imkanları qazanırlar.

Tədbirdə bildirilib ki, Təhsil Nazirliyinin qarşısında duran prioritet məsələ təhsilin keyfiyyətinin yüksəldilməsi, modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılmasıdır. Müasir texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların təhsildə uğurlu tətbiqi Təhsil Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi işlərin bir hissəsidir.

Təhsil Problemləri İnstitutunda da bu istiqamətdə bir çox işlər görülməkdədir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 2.2.1. yeni kurikulumlara və informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyalarına uyğun metodiki vəsaitlərin, didaktik materialların və təlim vasitələrinin hazırlanmasını stimullaşdıran yeni mexanizmlərin yaradılması məzmununu əsas götürərək müvafiq kursların keçirilməsi zərurəti yarandı.[4]Artıq 100-dən çox Azərbaycan müəllimləri TPİ-də keçirilən “Elektron məktəb üçün elektron müəllim” kursuna qatılmışlar. Azərbaycanda təhsilverənlərin təhsilalanların maraqlarına uyğun olaraq tədrisin daha maraqlı olması üçün elektron dərs resurslarının hazırlanması prosesində və internetdə milli resursların sayının artması zərurətindən irəli gələn işlərin reallaşdırılmasında institut nəzdində keçirilən "Elektron məktəb üçün elektron müəllim" kursuna müəllimlərin marağının durmadan artması təhsilə olan böyük marağın əyani sübutudur. Kursun 2 günü auditoriya

şəraitində müəllimlərin birbaşa iştirakı ilə keçirilir, digər günlər isə məsafədən (distant) olaraq 1 ay müddətində davam olunur. Elektron təhsilə keçidlə əlaqədar hazırlanacaq müəllimlərə kurs zamanı kiçik mühazirə, təqdimat, müzakirə, "workshop", debat və müxtəlif Veb texnologiyalarından istifadə etmə kimi təlim formatından istifadə olunur.

T əhsil Problemləri İnstitutu nəzdində təşkil olunmuş kursun keçirilməsi zamanı aşağıdakı mövzulara toxunulub: "Elektron məktəb üçün elektron müəllim hazırlığının ən vacib aspektləri", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası sənədi", "Distant - məsafədən təhsil zamanı virtual sinfin yaradılması, Distant təhsilin keçirilməsi yolları", "İKT-nin pedaqoji sahədə tətbiqi imkanları", "İKT-nin şagirdlərdə informasiya mədəniyyətinin formalaşdırılmasında rolu", "İKT, ev, məktəb və mədəniyyət", "Sosial şəbəkələr və təhsil", "Veb texnologiyalar", "Elektron dərslərin hazırlanması mexanizmi" və s. daxildir. Məlumat üçün bildiririk ki, sözügedən kurslarda müəllimlərin elektron dərs, elektron resurslarının müxtəlif kompüter proqram və servislərdən istifadə etməklə yerləşdirilməsi, müəllim və şagirdlərin elektron portfoliosunun hazırlanması, distant olaraq şagirdlərlə işləmə bacarığının formalaşdırılması və distant təhsili aparma qaydaları və s. istiqamətlər üzrə hazırlığı aparılır. [5] Sonda müəllimlərin İKT və internetdən pedaqoji sahədə lazımı səviyyədə istifadə etməklə peşəkarlıq səviyyələrinin artmasını və həmin sahədə olan bacarıqlarının artmasını müşahidə edirik.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasında yeni təhsil islahatı keçirilməklə ölkənin prinsiplərinə uyğun olaraq müasir tələblərə cavab verən yeni məzmunlu sistem fəaliyyət göstərir. Həmin məzmunun şagirdlərə aşılamaqdan ötrü təhsilverənlərin informasiya kommunikasiya texnologiyalarından istifadəsinə xüsusi diqqət ayrılır. Bunun üçün bir sıra tədbirlər görülür. Məqalədə də bu sahədə sistemli pedaqoji tədqiqatların aparılmasının vacibliyi göstərilir.

**Problemin elmi yeniliyi.** Azərbaycan təhsil strategiyası baxımından məqalədə yeni hazırlanmış mənbələr və onlardan istifadə mexanizmləri, linklərə istinad etməklə həmin mənbələrin təhsil işçilərinin fəaliyyətlərində İKT-nin tətbiqi ilə yeni tədrisin meydana gəlməsinin əsas istiqamətləri araşdırılır və tətbiqi sahələri müəyyənləşdirilir.

**Problemin praktik əhəmiyyəti.** Təhsil sahəsində çalışan işçilərin və təhsillə maraqlananların məqalədə göstərilən yeni e-resurslar və linklərdən isifadə etməklə, şagirdlərin maraqlarına uyğun dərsin qurulmasına nail olmaq olar. Məqalədə göstərilən bütün mənbələrdən tədris prosesinin daha maraqlı təşkilində istifadə edilə və müəllim, şagird, valideynlər üçün istinad mənbəyi ola bilər.

## ƏDƏBİYYAT

1. http://www.president.az/files/future_az.pdf

2. Mehrabov A.O. Müəllimin karyera inkişafında və innovativ fəaliyyətə hazırlığında pedaqoji monitorinqin imkanları // ARTPİ-nin Elmi əsərləri, 2014, № 2

3.http://www.edu.gov.az/view.php?lang=az&menu=9&id=9747

4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası // Kurikulum, 2013, № 4

5. http://www.kurikulum.az/index.php/az/81-xeberler/659-t-hsil-probleml-ri-institutunda-2015-ci-ilin-elektron-m-kt-b-n-elektron-m-llim-kurslar-davam-edir

**А. Хасрет**

## ВОЗМОЖНОСТИ ПРИМЕНЕНИЯ ИКТ В ОБЛАСТИ ПРЕПОДАВАНИИ

## РЕЗЮМЕ

В статье обосновываются вопросы связанные с новой Стратегии образования, где еще показанные использованием информационных и коммуникационных технологий примеры для работникам сферы образования несколько электронных ресурсов и их применения которые могут заинтересовать учеников. Для создания количество электронных ресурсов особое внимание уделяется подготовке учителей в этой области. В данном исследовании написано о важности курсов проводимых в Инсти-

туте Проблем Образования. В результате благодаря труду азербайджанских учителей также увеличивается количество национальных ресурсов в Интернете.

**A. Hasret**

**THE OPPORTUNIES OF ICT APPLICATION IN PEDAGOGICAL SPHERE**

**SUMMARY**

In this article, based on issues arising from Education Strategy, electronic resources and their application of spheres, which can be interesting for students, are presented for educators using information-communication technologies. Special attention is focused on teacher trainings, too, so that the amount of electronic resources can be increased. The importance of the courses, held by the Institute of Educational Problems, in this issue is also mentioned in the article. As a result, the number of national resources will multiply thanks to labour of the teachers of Azerbaijan.

*Redaksiyaya daxil olub: 11.12.2014*

# PEDAQOJİ TOLERANTLIĞIN AKTUAL PROBLEMLƏRİ

**Arzu Quliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
AMİ
E-mail: arzu@gmail.com

**Rəyçilər:** *prof.* A.N. Abbasov,
*ped.fəls.dok.* R.S. Əliyev

***Açar sözlər****: tolerantlıq, pedaqoji tolerantlıq, tolerant şüur, tolerant təfəkkür, pedaqoji tolerantlığın formalaşdırılması*

***Ключевые слова****: толерантность, педагогическая толерантность, толерантное сознание, толерантное мышление, формирование педагогической толерантности*

*Key words: tolerance, teaching tolerance, tolerant consciousness, tolerant thinking, formation of pedagogical tolerance*

Ümumi təhsil məktəblərində olduğu kimi, institut və universitetlərdə də təlim prosesinin səmərəliliyi müəllim-tələbə münasibətlərinin hansı səviyyədə qurulmasından çox asılıdır.

Təhsilalanların cəmiyyətimizə faydalı bir şəxs və şəxsiyyət kimi yetişməsinə nail olmaq, valideynlərlə yanaşı müəllimlərin də ən ümdə vəzifələrindəndir. Müəllim mükəmməl nəzəri hazırlığa malik olmaqla yanaşı, usta pedaqoji ustalığa, metodik səriştəliliyə yiyələnməlidir. Auditoriya qarşısında mühazirə deyən, seminar məşğələsi aparan professorlar, dosent və müəllimlər peşə keyfiyyətləri ilə yanaşı, şəxsi keyfiyyətləri ilə də hörmət və nüfuz qazanmalı, tələbələrə nümunə göstərməli, düzgün müəllim-tələbə münasibətlərini təmin etməlidir. O, hər şeydən əvvəl bacarıqlı tərbiyəçi, yaxşı psixoloq olmalıdır. Tələbələrin hər birinin psixologiyasını dərindən bilməlidir.

Ali məktəb müəllimi öz bacarıqlı, işgüzar fəaliyyəti ilə müəllim adına doğrultmalı, həm özünə və həm də tələbə oğlan və qızlara münasibətdə tələbkar olmalı, eyni zamanda auditoriyanı idarə etməyi bacarmalıdır. Tələbə qrupunun uğurları müəllim-təhsilalan arasında olan qarşılıqlı münasibətlə sız surətdə əlaqədardır.

Müəllim-tələbə münasibətlərinin düzgün qurulası gənclərdə təlimə marağı artırır. Qarşılıqlı ünsiyyətin tərəflər üçün arzuedilən olması tələbə oğlan və qızların müstəqilliyini, idrak fəallığını, təşəbbüskarlığını təmin edir.

Müəllimlə tələbənin arasında səmimi, xeyirxah və mehriban, münasibət olmadıqda, bu müvəffəqiyyətin əldə olunması çətinləşir. Belə vəziyyətdə tələbədə müəllimə, onun oxuduğu mühazirəyə, apardığı seminar məşğələlərinə maraq yaranmır.

Pedaqoji peşə sahibi müəllim-tələbə münasibətlərində səmimi, həssas, mərifətli və nəzakəti olmalı, etik tələbləri əsas götürməli, tələbələrin şəxsiyyətinə, şərəf və ləyaqətinə hörmətlə yanaşmalı, tələbəni şəxsiyyət kimi görməli, istənilən vəziyyətdə onun mənliyinə toxunan söz və ya hərəkətə yol verməməlidir.

Dos. K. Camalov “Müəllim-şagird münasibətləri normal olarsa, təlimin keyfiyyəti də yüksək olar” adlı məqaləsində məktəb təcrübəsindən müəllim-şagird münasibətlərinə aid aşağıdakı nümunəni gətirir: “Əla qiymətlərlə oxuyan VII A sinif şagirdi sinfini dəyişdirməyi qərara alır. O, evdə valideynlərinə deyir: “Məni müəllim sinif yoldaşlarımın qarşısında təhqir edib. Bir də o sinifdə oturmaq istəmirəm!” Valideyn uşağı xeyli məzəmmət edir, dilə tutmağa çalışır, lakin bir şey çıxmır. Uşağın sözü ilə məktəbə də getmək istəmir. Düşünür ki, bəlkə uşaq fikrindən daşındı, səhvini başa düşdü. Lakin bu, bir nəticə vermədikdə valideyn məktəbə yollanır, direktora müraciət edir:

- Xahiş edirəm, mənim uşağımın sinfini dəyişdirin, uşaq o sinifdə oturmaq istəmir.
- Niyə?

- Ona görə ki, müəllim şagirdlərin qarşısında onu təhqir etmişdir. Dəyişdirin onun sinfini, istəmir.

Müəllim sözə qarışır:

- Uşağınız məndən üzr istəmək əvəzinə, hələ sinfini dəyişdirməyi tələb edir? Bir fikir verin, o sinifdə mənə cavab qaytarır, üstəlik icazəsiz sinifdən də çıxıb gedir.

- Çünki siz məni yoldaşlarımın yanında təhqir etdiniz.

- Qələt eləmə. Nə demişəm?…

Göründüyü kimi, müəllim danışığına fikir vermir, tez-tez şagirdin heysiyyətinə toxunduğunu hiss etmir, öz davranışında xoşagəlməz cəhətləri dərk etmir. Nəticə isə göz qabağındadır: müəllimlə şagird arasında münasibət pozulmuş, kəskin konflikt yaranmışdır" (1).

Bu nümunə ümumi təhsil məktəbinə aiddir. Lakin bu kimi və buna bənzər hadisələrə ali məktəb təcrübəsində, müəllim-tələbə münasibətlərində də rast gəlindiyindən diqqət mərkəzinə gətirməyi məqsədəuyğun hesab etdik.

Pedaqoji peşə sahibi tələbə üçün müəllim olmaqdan savayı eyni zamanda ona dayaq durmalıdır. Dekanlıq, ayrı-ayrı müəllimlər tələbə oğlan və qızlara münasibətdə məmur mövqeyi tutmamalı, yalnız və yalnız tələbkarlıq göstərməməli, onların maddi və mənəvi sıxıntılarına həssaslıqla yanaşmalıdır. Bir sıra hallarda tələbələrin təlim məşğələlərindəki passiv fəaliyyətinin səbəbi tələbələrin qayğıları ilə maraqlanmamaqdır. Bu sahədə tələbələrin ata-analarının da günahı var. Çox vaxt tələbə ailə-məişət problemlərinin əziyyətini çəkir.

S. Qarayeva yazır: "Valideyn-şagird-müəllim (bizim tədqiqatda *valideyn-şagird-müəllim* – A.Q.) xəttindəki münasibətlərdə son zamanlar ortaya çıxan ciddi problemlər, anlaşmazlıqlar tədris prosesinin keyfiyyətinə və nəticələrinə mənfi təsir göstərməkdədir. Müşahidələr, faktlar belə qənaətə gəlməyə əsas verir ki, hazırda məktəblərin pedaqoji kollektivi, müəllimlər birbaşa olaraq valideynlərin, dolayısı ilə cəmiyyətin əksərən haqsız və yersiz təzyiqlərilə üz-üzədir. Şagird-müəllim münasibətlərindəki çətinliklərlə bağlı əsasən birinci tərəfin mövqeyinin güclənməsi ikincinin öz vəzifəsini lazımi səviyyədə icra etməsinə, zəruri tələbkarlıq və ciddiyyət göstərməsinə açıq-aşkar mane olur" 2).

Bu məsələ ilə bağlı M. Mürşüdlü aşağıdakı fikri irəli sürür: "Əvvəllər müəllimlə şagird arasında hər hansı bir problem yarananda valideynlər müəllimin tərəfini tutur, onu dəstəkləyirdilər. İndi isə valideynlərin fikirləri dəyişib. Onların əksər hissəsi hesab edir ki, səbəb nə olursa olsun, şagirdə müəllim tərəfindən hər hansı bir irad bildirilməməlidir. Hətta şagird dərsə hazır olmadığı təqdirdə belə! Valideynlərin bu yanlış fikri isə ilk növbədə şagirdin təlim-tərbiyəsinə öz mənfi təsirini göstərir" (3).

Müəllim-tələbə münasibətlərində mənəvi-psixoloji mühitin sağlam olması xeyli dərəcədə müəllimlərdən asılıdır. Müəllimlin müdrikliyi, ağıl və zəkasının kamilliyi, insanpərvərliyi, xeyirxahlığı, qarşısındakı gəncin əhval-ruhiyyəsini və imkanlarını düzgün qiymətləndirməyi və ona bir şəxsiyyət kimi yüksək dəyər verə bilmək bacarığı və istəyi, başqa sözlə pedaqoji peşə sahibinin pedaqoji tolerantlığa yiyələnməsi ixtilafları aradan qaldırır. Pedaqoji tolerantlıq hər bir müəllimə xas olmalı, onun şəxsi və peşə keyfiyyətləri arasında öncül yet tutmalıdır.

Alimlər şəxsiyyətyönümlü fəaliyyətdə (A.A. Leonyev, L.S. Vıqotski, S.L. Rubinşteyn, P.B. Əliyev, İ.B. Əmirəliyeva və b.), kulturoloji (A.B. Orlov, V.İ. Andreyev, V.S. Bibler və b.), akmeoloji (A.L. Rean, E.İ. Stepanov, İ.B. Batkina və b.), peşə-şəxsiyyət (L.S. Qusev, N.V. Kuzmina, V.A. Slastenin, A.İ. Şerbakov və b.), proqnostik (K.M. Duray-Novakova, O.A. Abdullina, L.M. Mitina və v.) yanaşmalar əsasında peşə əhəmiyyətli xassələrin strukturunda pedaqoji tolerantlığın formalaşdırılması məsələlərinə diqqəti yönəldirlər.

Pedaqoji tolerantlıq təhsil prosesinin bütün subyektləri ilə qarşılıqlı tolerant bacarıq və vərdişlərinə yiyələnməyi, tələbələr və onların valideynləri ilə münasibətlərdə dözümlülüyü, səbir və hövsələ nümayiş etdirməyi, pedaqoji etikaya əməl edərək özünün davranış və hərəkətlərinə, rəftarına, ünsiyyət tərzinə diqqət yetirməyi nəzərdə tutur.

N.N. Kolmoqortseva "Əlavə təhsildə pedaqoji tolerantlığın formalaşdırılması texnologiyası" adlı məqaləsində (4) pedaqoji tolerantlığın formalaşdırılması mexanizmlərini aşağıdakı kimi müəyyənləşdirmişdir: "I. Pedaqoji tolerantlığın komponentləri: 1. Motivasiya dəyərli. 2. İrdaki. 3. Emosional-iradi. 4. Fəaliyyət xarakterli.

II. Pedaqoji tolerantlığın formalaşdırılmasının mexanizmi: Yönəlmə. Dəyər yönəlməsi. Tolerantlıq haqqında biliklərə maraq və tələbat. Empatiya. Özünütənzim. İdentifikasiya. Deməkzləşmə.

III. Pedaqoji tolerantlığın formalaşdırılması amilləri: Pedaqoji yönəlmə. Altrustik yönüm. Bərabərhüquqlu dialoqa, empatiyaya, refleksiyaya, tolerant münasibətlərə emosional-iradi hazırlıq. Özünütəhsil və özünütərbiyə. Təlimin interaktivliyi. Özünüdərk və özünüinkişaf. Emosional səbatlıq. Emosional həssaslıq. Refleksiya. Özündən və öz peşə fəaliyyətindən məmnunluq. Qəbuletmə. Affilasiya. Subyekt-subyekt münasibətləri (4).

Pedaqoji ali məktəblərdə, həmçinin institut və universitetlərin pedaqoji təmayüllü fakültələrində təhsil alan tələbələr gələcəkdə ümumi təhsil məktəblərində, kolleclərdə, hətta magistraturanı bitirdikdən, elmi dərəcə aldıqdan sonra ali məktəblərdə çalışacaqlar. Odur ki, hələ ali məktəb illərindən onlarda pedaqoji tolerantlıq kimi son dərəcə mühüm şəxsiyyət keyfiyyəti tərbiyə olunmalıdır. Bu məqsədlə pedaqogika və ümumi psixologiya və pedaqoji psixologiya, ədəbiyyat, Azərbaycan tarixi və digər ali məktəb fənlərinin imkanlarından faydalanmaq mümkündür. Bu sahədə auditoriyadankənar tədbirlər də böyük kömək göstərmək imkanlarına malikdir.

Bütün bunlarla yanaşı, ali təhsilin bakalavriat pilləsində pedaqoji təcrübə xüsusilə mühüm rol oynayır. Ümumi təhsil məktəblərində seçdiyi peşə ixtisası, müvafiq fənn üzrə sinfə daxil olan tələbə, gələcəyin müəllimi müəllim-şagird münasibətlərində tolerant olmağı bacarmalıdır ki, sinfi, təlim prosesini, şagirdləri, hər bir məktəblini idarə edə bilsin.

Pedaqoji tolerantlığa yiyələnməsi üçün ali təhsil illərində tələbələrdə tolerant şüur və tolerant təfəkkür, tolerant düşüncə tərzi, tolerant davranış və rəftar, tolerant ünsiyyət təcrübəsi formalaşdırılmalıdır. Aparılmış məqsədyönlü, sistemli, ardıcıl və fasiləsiz iş nəticəsində tələbə oğlan və qızlar aydın şəkildə dərk edirlər ki, ahəngdar və hərtərəfli inkişaf etmələri, cəmiyyətdə fəal həyat mövqeyi tutmaları üçün bir dəyər, mühüm keyfiyyət kimi tolerant olmaq lazımdır. Tolerant şəxs olmaq üçün isə, ilk növbədə insan, o cümlədən tələbə təmkinli, səbirli və hövsələli olmalı, lazım gəldikdə güzəştə getməyi, bağışlamağı və üzr istəməyi bacarmalı, düşünülməmiş qərar çıxarmamalı, tələsik addım atmamalı, yaranmış pedaqoji və ixtilaflı vəziyyəti təhlil süzgəcindən keçirməli, müsahibini qiymətləndirməli, onun fərdi, cinsi və yaş xüsusiyyətlərini, temperament tiplərini hesaba almalıdır.

Pedaqogika fənni üzrə mühazirələrdə və seminar məşğələlərində müəllimin şəxsi və peşə keyfiyyətlərinə aid mövzu ilə tanışlıq zamanı tələbələrə eyni zamanda pedaqoji tolerantlıq və intolerantlıq barədə məlumat verilməlidir. Tolerantlıq müsbət keyfiyyət olduğu halda, intolerantlıq mənfi keyfiyyətdir. Pedaqoji intolerantlıq müəllim-tələbə münasibətlərini, şəxsiyyətlərarası münasibətləri düzgün qurmamaq nəticəsində meydana gəlir. Müəllim, təcrübəçi tələbə lüzumsuz yerə öz iradəsini diktə etdikdə, tələbəyə təsir göstərdikdə, təhsilalanı başa düşmək və güzəştə getmək istəmədikdə, müsahibinin, tələbənin mövqeyinə, fikrinə etinasız qaldıqda intoleratlıq yaranır.

Müəllim-tələbə münasibətlərində baş verən ixtilaflı vəziyyətlər pedaqoji etikaya yiyələnməməyin, dialoq apara bilməməyin, həssas olmamağın, peşə səriştəliliyinin olmamasının nəticəsidir. Tolerant şüur, tolerant düşüncə və təfəkkürün lazımınca inkişaf etməməsi, idarəetmə, kommunikativ, nizamlayıcı-təşkilati qabiliyyətlərinin aşağı səviyyəliliyi tolerant qarşılıqlı münasibətlərin yaranmasının qarşısını alır. İxtilaflı vəziyyətlər təhsil-tərbiyə prosesinin səmərəliliyini aşağı salır.

Deməli, ali təhsil müəssisələrinin yerinə yetirməli olduğu vəzifələrdən biri də tələbələrdə pedaqoji tolerantlığı formalaşdırmaqdır.

**Problemin aktuallığı**. Pedaqoji tolerantlıq xüsusən respublikamızda son dərəcə az tədqiq olunan problemdir. Bu problemə tədqiqatçı İ.B. Əmirəliyeva tolerantlığa həsr etdiyi dissertasiya əsərində müəyyən qədər toxunmuşdur. Az işləndiyini nəzərə alaraq pedaqoji tolerantlığa aid bu məqaləni qələmə aldıq.

**Problemin yeniliyi**. Tolerantlıq pedaqoji problem kimi tədqiqata cəlb olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi imkanları**. Müəllim-tələbə münasibətlərinin düzgün qurulmasına öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. K. Camalov. Müəllim-şagird münasibətləri normal olarsa, təlimin keyfiyyəti də yüksək olar. "Təhsil problemləri" qəz., 2013, 16 avqust

2. S. Qarayeva. Müəllimlər "iki od arasında"!... http://old.525.az/view.php?lang=az&menu=19&id=6893&type=1

3. A. Kərimova. Müəllim-valideyn münasibətləri necə tənzimlənməlidir? http://simsar.az/news/a-59661.html

4. Н.Н. Колмогорцева. Технология формирования педагогической толерантности дополнительного образования http://shgpi.edu.ru/files/nauka/vestnik/2013/2013-1-36.pdf

**А.Ф. Гулиева**

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПЕДАГОГИЧЕСКОЙ ТОЛЕРАНТНОСТИ

## РЕЗЮМЕ

Проблема воспитания педагогической толерантности студентов - обуславливается ее значимостью для практического опыта как инструмента предупреждения и разрешения конфликта; существует необходимость разработки средств ее формирования у студентов в процессе обучения и внеаудиторных мероприятиях. Противоречие между потребностью общества в толерантной личности учителя и недостаточной направленностью системы образования на ее развитие может быть разрешено в ходе профессиональной подготовки.

**A.F. Guliyeva**

## CURRENT PROBLEMS OF TEACHING TOLERANCE

## SUMMARY

The problem of education of students of pedagogical tolerance - is caused by its relevance to practical experience as a tool for conflict prevention and resolution; there is a need to develop means of its formation at students in learning and extracurricular activities. The contradiction between the need for society as a tolerant person and a lack of teacher oriented education system on its development may be permitted during training.

*Redaksiyaya daxil olub*: 08.12.2014

# MƏKTƏBLƏRİN TƏDRİS AVADANLIQLARI İLƏ TƏMİNATI TƏHSİLİN KEYFİYYƏTİNİN ARTIRILMASI VASİTƏSİ KİMİ

**Nigar İsmayılova,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
AMİ
E-mail: niay.83@mail.ru

**Rəyçilər:** *prof.* Ə. Ağayev,
*dos.* V. Bəşirov

***Açar sözlər:*** *məktəb, tədris avadanlığı, təhsil, keyfiyyət, vasitə*
***Ключевые слова:*** *школа, учебное оборудование, образование, качество, средство*
***Key words:*** *school, teaching equipment, education, quality, tools*

Hər bir dövlətin, xalqın gələcək taleyi, ilk növbədə, onun malik olduğu elmi-intellektual potensialdan asılıdır. Bu baxımdan Azərbaycanda təhsil sisteminin dünya standartları səviyyəsinə çatdırılması son dərəcə vacibdir. Bəlli olduğu kimi, təhsil hər bir ölkədə nəinki sosial-iqtisadi, mədəni yüksəlişə nail olunmasında, eyni zamanda, təhlükəsizliyin təmin edilməsində, cəmiyyətin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və proqnozlaşdırılmasında mühüm yer tutan yaradıcı fəaliyyət sahəsidir. Respublikamızda həyata keçirilən təhsil siyasəti də məhz bu məqsədin uğurla yerinə yetirilməsinə yönəlmişdir.

Məktəblərin infrastrukturunun genişləndirilməsi istiqamətində kifayət qədər işlər görülüb və görülməkdədir. Belə ki, ölkə prezidenti cənab İlham Əliyevin məktəblərin yenidənqurulması, avadanlıqlarla təchizi sahəsində apardığı uğurlu işlər buna bariz nümunədir.

Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan bütün layihələr uğurla icra olunur. Tədbirlər planına müvafiq olaraq, hər il olduğu kimi, bu il də məktəblərin təmiri və yenidən qurulması davam etdirilir.

Prezident İlham Əliyev bir çox tam orta məktəblərin yeni binasının açılışında iştirak edib, həmçinin Sabunçu rayonundakı 72 saylı məktəb-liseydə və 80 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq orta məktəblərin, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda da orta məktəb binalarının yüksək standartlara uyğun yenidən qurulması və lazımi avadanlıqla təchiz edilməsi dövlətimizin təhsil sahəsinə olan qayğısını nümayiş etdirir. Qeyd edək ki, 1920-ci ildə inşa olunan məktəbin binasından (80 nömrəli tam orta məktəb nəzərdə tutulur – N.İ.) ilk vaxtlar hospital kimi istifadə olunub. 2012-ci ildə yararsız vəziyyətdə olan bina sökülüb və yerində ən müasir standartlara cavab verən 3 mərtəbəli bina tikilib. Hazırda 48 sinif otağı olan məktəb 1224 şagird yerlikdir. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri bilikləri laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıq quraşdırılıb. Təhsil ocağının idman zalı da müasirliyi ilə diqqəti cəlb edir. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi də yaradılıb. Müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb. Məktəbin açıq futbol, voleybol və basketbol meydançaları da var.

72 saylı məktəb-liseyin də bütün sinif otaqları və fənn kabinetləri yüksək standartlar səviyyəsində təmir edilib, müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb. Bu təhsil ocağında da otaqlar və fənn kabinetləri müasir standartlara cavab verən dərs ləvazimatları və avadanlığı ilə təchiz olunub. Müxtəlif idman qurğularının quraşdırıldığı zalda mini futbol, basketbol, voleybol yarışları keçirmək mümkündür. Bir sözlə, məktəb-liseydə təlim-tədris prosesinin yüksək səviyyədə aparılması üçün zəruri infrastruktur yaradılıb (1).

Məktəblərin əsaslı təmiri və tikilməsi, uşaqlara qayğı göstərilməsi və onların normal sosial və mədəni-intellektual inkişafı sahəsində ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın diqqətəşayan xidmətləri danılmazdır.

Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda qloballaşan dünyanın tələbləri səviyyəsində qurulmuş təhsil modelinin gerçəkləşdirilməsinə yardımçı olmaqdır. Bu məqsədə çatmağın yolu təhsilin infrastrukturunun yeniləşdirilməsindən, müasir tipli yeni məktəblər inşa etməkdən, təlim-tədris prosesi üçün lazımi şərait yaratmaqdan keçdiyi üçün Fond öz fəaliyyətində yeni məktəblərin tikintisinə, tədris müəssisələrinin bərpasına, təmirinə və müasir avadanlıqlarla təchiz olunmasına xüsusi önəm verir. Bu baxımdan Fondun ardıcıl həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı ölkədə xüsusilə böyük əks-səda doğurmuşdur. Proqram çərçivəsində tikilən yeni məktəblərin sayı 237-yə çatmışdır. 35 məktəb, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün 28 internat məktəb əsaslı təmir olunmuş, müasir avadanlıqlarla təchiz olunmuşdur (7, 100).

Fondun göstərdiyi qayğı və diqqət müxtəlif illəri əhatə etmişdir. Belə ki, məktəblər daima Heydər Əliyev Fondunun onlara qarşı göstərilən ürək yanğısını yüksək qiymətləndiriblər.

2008-ci ildə də davam etdirilən məktəb tikintisi və təmiri yeni müasir məktəb binalarının sayca artmasına imkan vermişdir. Bu məktəblər sırasında Yasamal rayonunda istifadəyə verilmiş Zərifə Əliyeva adına məktəb 840 yerlik nəzərdə tutulmuşdur. Təbii ki, bu bina ən müasir standartlara cavab verməkdədir. Bununla yanaşı, Heydər Əliyev Fondunun vəsaiti hesabına məktəb tədris avadanlığı və kompüterlə təchiz olunmuşdur. Məktəbin açılışında dövlət başçısı İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın iştirak etməsi tədris ocağının uğurlu başlanğıcı kimi dəyərləndirilə bilər.

Heydər Əliyev Fondunun göstərdiyi diqqət və qayğı Bakı şəhəri ilə məhdudlaşmır. Belə ki, bölgələrimizdə fəaliyyət göstərən məktəblərin yeniləşdirilməsi də daima onları düşündürmüşdür.

Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində İmişli şəhərində 300 şagird yerlik yeni məktəb binası tikilmişdir. 5 sinif otağı, idman zalı, kitabxana, kompüter kabineti olan yeni məktəb binasında istilik sistemi də vardır.

Ötən il sentyabrın 17-də ölkə başçısının iştirakı ilə açılışı keçirilmiş Qusar rayonunun Balaqusar kənd orta məktəbinin binası da qusarlılara Heydər Əliyev Fondunun töhfəsidir. Qəza vəziyyətində olan həmin məktəb üçün Fondun sifarişi ilə 2007-ci ildə 500 şagird yerlik yeni binanın inşasına başlanmış və o qısa müddətdə tikilib, istifadəyə verilmişdir. Məktəbin 25 sinif otağından əlavə, geniş idman salonu, fənn kabinetləri, kompüter otağı, atıcılıq tiri, akt salonu və kitabxanası vardır.

Heydər Əliyev Fondu Qusar rayonu Yeni Zeyxur kənd məktəbinin müəllim və şagird kollektivini də ötən il sevindirmişdir. Belə ki, sakinlərin arzusunu nəzərə alaraq, uzun illər yararsız vəziyyətdə olan kənd məktəbi üçün yeni bina inşa edilmişdir. Ötən il digər rayonlarda da Fondun təşəbbüsü ilə çoxlu məktəb binası tikilmişdir (8).

Məktəblərin tədris avadanlıqları ilə təmin olunması şagirdlərin həmin dərsləri yüksək səviyyədə keçmələri üçün dövlətin yaratdığı şəraitin göstəricisidir. Bütün bunlar, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.

Hazırda respublikamızın bütün sahələrdə mütəxəssislərin informasiya- kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə elə orta məktəbdən başlayır.

Tədrisdə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə edən müəllimlərin sözlərinə görə, İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim - şagird - dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, uşağın dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası,

rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və yekun etibarilə şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır (2).

Müasir dövrdə tədris prosesində istifadə olunan vasitələrdən biri di "Ağıllı" lövhələrdir. Tədris prosesində interaktiv lövhədən istifadə edilməsi dərsin əyaniliyini təmin edir.

Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. "Ağıllı" lövhə, həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini "möcüzəli" ekranda izləyə bilərlər. Bu isə şagirdlərin nəzəri-metodoloji biliklərini, praktiki bacarıq və təcrübələrini inteqrasiya etməklə tədrisi xeyli canlandırır, uşaqlarda yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətini daha da artırır (2).

Tədris prosesində "Ağıllı" lövhənin istifadə olunması burada aparılan bütün əməliyyatların yadda saxlanmasına şərait yaradır. Yaxşı xüsusiyyətlərdən biri də odur ki, bu zaman müəyyən səbəblərdən dərsdə iştirak edə bilməyən şagirdlər həmin dərsin elektron variantı ilə tanış olur və dərsdən xəbərsiz qalmırlar. Bu baxımdan məktəblərin tədris avadanlıqları olaraq informasiya-kommunikasiyaları texnologiyaları (İKT) ilə təchizatı xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Təhsil Nazirliyinin bu istiqamətdə aparılan işlər siyahısında rolu önəmli yer tutur. Belə ki, onlar maddi-texniki təchizat bazası yaradaraq, məktəblərin tədris avadanlıqları ilə təmin olunmasında mühüm rol oynayırlar. Təhsil Nazirliyi tərəfindən keçirilən "1 şagird: 1 kompüter" müsabiqəsi dediklərimizə əyani sübutdur. Müsabiqənin məqsədi informasiya-kommunikasiya texnologiyaları (İKT) əsasında fərdiləşmiş təhsilin formalaşması, "1 şagird: 1 kompüter" layihəsi çərçivəsində netbukların daha səmərəli istifadəsinə hazır olan müəllimlərin və məktəblərin seçilməsidir.

Məktəblərə netbukların verilməsinin müsabiqə formatında keçirilməsi "1 şagird: 1 kompüter" layihəsi çərçivəsində texnologiyalara daha böyük maraq göstərən təhsil müəssisəsinə netbukların verilməsinə imkan verəcək və müəllimlərin İKT biliklərinin tədrisdə istifadəsi üçün münbit şərait yaradacaqdır.

Təcrübənin uğurlu olacağı halda məhdud saylı digər texnoloji avadanlıqların da müsabiqə yolu ilə məktəblərə verilməsi istisna edilmir.

"1 şagird: 1 kompüter" layihəsi çərçivəsində Azərbaycanın 15 ümumtəhsil müəssisəsinə artıq 2077 netbuk təmənnasız olaraq verilmişdir. Şagirdlər bu netbuklardan həm məktəbdə, həm də evdə istifadə edirlər. Netbuklar həmçinin genişzolaqlı simsiz İnternet modemləri və təhlükəsiz İnternet paketi ilə təchiz olunmuşdur (3).

Təhsil Nazirliyinin 2013-cü il ərzində bu istiqamətdə gördüyü işlərin hesabatında qeyd etdiyimiz məsələlər öz əksini tapır:

- Təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminat işinin yaxşılaşdırılması;
- Təhsil müəssisələrinin İKT avadanlıqları ilə təmin edilməsi məqsədi ilə Respublika üzrə təhsil müəssisələrinə və Təhsil Nazirliyinin tabeçiliyində olan şəhər və rayon təhsil şöbələrinə 3707 ədəd stolüstü kompüter, 4853 ədəd noutbuk, 1976 ədəd proyektor və 2600 ədəd interaktiv elektron lövhələr paylanılmış;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqların distant təhsilinin inkişafı ilə əlaqədar distant tədris mərkəzindəki müəllim və şagirdlər 31 ədəd Traxus Roller Plus Joystick, 30 ədəd Qulaqcıq Microsoft LifeChat, 100 ədəd Qulaqcıq A4TECH və 100 ədəd Qrafik planşeti Wacom Bamboo Pen ilə təmin edilmiş;

- Məlumat və Resurs Mərkəzinin Azərbaycan Təhsil Şəbəkəsinə qoşulma sürətinin 1 Gb/s-dən 10 Gb/s-dək artırılması üçün avadanlıqlarla təchiz edilmişdir;

- Təhsil müəssisələrində İKT avadanlığına texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsi;

- "Elektron məktəb" layihəsi çərçivəsində iştirak edən təhsil müəssisələrinə texniki dəstək göstərilmiş;

- Bakı şəhər və Abşeron rayonunda 366 təhsil müəssisəsinə texniki dəstək xidməti göstərilmiş;

- CİSCO SMART net Service vasitəsilə təhsil müəssisələrində yerləşən şəbəkə avadanlığının işlək vəziyyətdə saxlanması üçün zəruri xidmətlər göstərilmiş;

- Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin bütün server, şəbəkə avadanlığı, infrastrukturun, köməkçi sistemlərin, habelə Qaynar Xətt, Şəbəkə İdarəetmə və Xüsusi Təhlükəsizlik mərkəzinin avadanlıqlarının 24 saat x 7 gün işlək vəziyyətdə saxlanması üçün texniki dəstək xidmətləri göstərilmiş;

- 146 nömrəli Qaynar Xətt xidmətində 2013-ci il ərzində 2000-dən çox zəng qəbul edilmiş, təhsil müəssisələrindəki kompüterlərə müvafiq texniki dəstək xidmətləri göstərilmiş və lazımi hissələrlə təmin olunmuş;

- "Elektron məktəb" layihəsi çərçivəsində 32 təhsil müəssisəsində quraşdırılmış şəbəkə avadanlığının və proqram təminatının fasiləsiz işlək vəziyyətdə saxlanması üçün texniki dəstək xidmətləri göstərilmiş;

- Milli Təhsil Portalının dəstəklənməsi xidməti-məlumatları daim yenilənmiş;

- Məlumat və Resurs Mərkəzində Elektron Sənəd dövriyyəsinin dəstəklənməsi və konsultasiya xidmətləri göstərilmiş;

- İntranet xidmətlərinin işlənilməsi və İnternet şəbəkəsinə çıxışın təmin olunması;

- Azərbaycan Təhsil Şəbəkəsinə (İntranet və İnternet) əlavə olaraq 70 təhsil müəssisəsi qoşulmuş;

- 2013-cü ilə qədər qoşulmuş 1695 təhsil müəssisəsi mütəmadi olaraq İntranet və İnternetə çıxışla təmin edilmişdir (4).

Hesabatda göstərilən istiqamətlərdə işlər 2014-cü ildə daha da genişlənmiş, məktəblərin maddi-texniki təchizatının kəmiyyətcə və keyfiyyətcə artması təlim keyfiyyətinin də xeyli yüksəlməsinə səbəb olmuşdur.

İnformasiya-kommunikasiya texnologiyalarının geniş vüsət aldığı bir dövrdə xarici şirkətlərlə əməkdaşlıq da məktəblərin avadanlıqlarla təchizində xüsusi əhəmiyyət kəsb edir.

Təhsil Nazirliyindən alınan məlumata görə, Təhsil Nazirliyi ilə İntel şirkəti arasında da 2006-cı ildə əməkdaşlıq haqqında Memorandum imzalanmış, 2006-2010-cu illərdə birgə proqramın həyata keçirilməsi nəzərdə tutulmuşdur. Layihə çərçivəsində 2006-2009-cu illərdə proqram materialları Azərbaycan dilinə tərcümə və çap edilmiş, ekspertlər, 100 məşqçi hazırlanmışdır.

2007-2008-ci illərdə Azərbaycanda ümumtəhsil məktəblərinin 3750 nəfər müəllimi və pedaqoji ali təhsil ocaqlarının 2950 nəfər tələbəsi olmaqla, ümumilikdə 6700 nəfər İntel şirkətinin "Gələcək üçün təhsil" proqramının məzunu olmuşlar. Sözügedən proqram Azərbaycanda 45 məktəbi, 1 kolleci, 3 universiteti və Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunu əhatə etmişdir. İki tədris ili ərzində Bakı, Sumqayıt, Lənkəran və Zaqatalada 650-dək treninq keçirilmişdir.

Hələ 2007-ci ilin sentyabrında "Bill Klintonun qlobal təşəbbüsü" assosiasiyasının keçirdiyi konfrans zamanı bəyan edilmişdir ki, İntel korporasiyası müəllimlərin hazırlanması üzrə proqramın onlayn variantını tətbiq edəcək. Bu proqram 15 ölkənin milyonlarla müəllimlərinə kompüter avadanlığını, proqram təminatını və müasir rabitə vasitələrini tədris prosesində tətbiq etməyə yardımçı olacaq. Bununla da şagirdlərin təlim göstəriciləri əvvəlkindən xeyli artıq olacaq. 2007-ci ildən başlayaraq, Avropa, Orta Şərq və Afrika ölkələrində 2 milyondan, dünyanın digər regionlarında isə 5 milyondan artıq müəllim həmin proqram çərçivəsində təhsil almışdır.

İntel şirkətinin son illər ərzində reallaşdırdığı ən maraqlı təşəbbüslərdən biri də "Bir şagird - bir kompüter" layihəsidir. Bu layihənin məqsədi təhsil müəssisələrində elektron tədris mühitinin yaradılmasıdır. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan təhsilin informasiyalaşdırılması və təhsil prosesində informasiya texnologiyalarının tətbiqi səviyyəsinə görə orta göstəricilərə malikdir. "Bir şagird - bir kompüter" tədris modeli yaxın zamanda Azərbaycan da daxil olmaqla, bir çox ölkələrdə həmin problemin həll edilməsinə istiqamətlənir (5).

Yuxarıda qeyd olunan məsələlər artıq öz həllini tapmışdır.

Hesabatlardan bəlli olur ki, 2013-2014-cü tədris ilində təhsil müəssisələri 3,695 ədəd kompüter, 4,853 ədəd notebook, 1,971 ədəd proyektor, 2,600 ədəd elektron lövhə ilə, ümumtəhsil müəssisələrinin fənn laboratoriyaları müasir tələblərə cavab verən avadanlıqlarla, respublika üzrə 240, o cümlədən Bakı şəhərindəki 27 ümumtəhsil müəssisəsində 370 fizika, kimya və biologiya fənn laboratoriyası müasir avadanlıqlarla təmin olunmuşdur (6).

Akademik Zərifə Əliyeva adına lisey "İnnovativ informasiya-kommunikasiya texnologiyaları əsaslı pilot tədris otağı" layihəsi çərçivəsində İKT avadanlıqları ilə təchiz edilmişdir.

Sevindici cəhət odur ki, son 10 il ərzində Azərbaycanda 2900 məktəb tikilib və təmir edilib. Belə ki, 2014-2015-ci tədris ilində təhsil müəssisələrində linqafon kabinetlərinin yaradılması və xüsusi avadanlıqlarla təchiz edilməsi, ilkin hərbi hazırlıq otaqlarının təmiri və müvafiq olaraq tam komplektləşdirilmiş hərbi avadanlıqlarla təmin olunması maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən vacib işlərdəndir. Təhsil müəssisələrindəki laboratoriya və idman zallarının xüsusi avadanlıqlar ilə təchiz olunması, müasir trenajor inventarlarının quraşdırılması da təhsilə dövlət tərəfindən göstərilən qayğının bariz nümunəsidir.

Qeyd olunan məsələlərlə yanaşı, məktəblərin stol-stul, şkaf, asılqanlarla təmin edilməsi də bu sahədə vacib yerlərdən birini tutur. Məktəblərdə bunun üçün hər cür şərait yaradılmışdır. Fiziki tərbiyə dərslərində şagirdlərin rahatlığını təmin etmək məqsədi ilə idman otaqlarının da düzgün və gigiyenik qaydalara uyğun olaraq avadanlıqlarla təchizi diqqət edilən cəhətlərdən biridir.

Şagirdlərin coğrafiya dərslərində xəritə, atlas və qlobuslarla təmin edilməsi də dərsin mənimsənilməsini asanlaşdırır. Çünki əyani şəkildə göstərilən məsələlər şagirdlərin hafizəsində uzun müddət qalır.

Göründüyü kimi, məktəblərin tədris avadanlıqları ilə təminatı orada göstərilən fəaliyyətin müasir tələblər səviyyəsində qurulmasına, təlim keyfiyyətinin yüksəldilməsinə səmərəli şərait yaradır.

## ƏDƏBİYYAT


1. http://www.aztv.az/readnews.php?lang=az&id=15869
2. http://www.muallim.edu.az/arxiv/2010/44/25.htm
3. http://portal.edu.az/index.php?r=article/item&id=626&lang=ru
4. http://ict.edu.az/ru/tehsil-sisteminde-ikt-infrastrukturunun-inkisaf-etdirilmesi.html
5. http://www.edu.gov.az/view.php?lang=az&menu=283
6. http://www.mincom.gov.az/media/xeberler/details/5773
7. İsmayılova N.R. Müstəqillik illərində Azərbaycanda ibtidai təhsilin inkişafı. Bakı: Mütərcim, 2013.
8. www.az-muallimi.com


**Н. Исмаилова**

## ОБЕСПЕЧЕНИЕ ШКОЛ УЧЕБНЫМИ ОБОРУДОВАНИЯМИ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

## РЕЗЮМЕ

В статье речь идет о работах касающихся постановки учебного оборудования в азербай-джанских школах. В этой области фактами показан результат, оказанной заботы и внимания со стороны

главы Республики Ильхама Алиева, Президента Фонда Гейдара Алиева – Мехрибан Алиевой. Являясь педагогической проблемой учебное оборудование в школах, служат для обеспечения качества образования. Как результат можно отметить, что обеспечение школ учебными оборудованиями создает фактически обстановку для того, чтобы судить о создании деятельности на основе современных потребностей.

**N. Ismayilova**

## SUPPLYING SCHOOLS WITH TEACHING EQUIPMENT AS A TOOL THAT IMPROVED THE QUALITY OF EDUCATION

### SUMMARY

The article is about the works done in the direction of supplying schools with teaching equipments in Azerbaijan.

The results of President Ilham Aliyev's , and the head of Azerbaijan's Heydar Aliyev Foundation – Mehriban Aliyeva's care and attention is reflected in the article.

In the article it is explained with scientific summarizing that, supplying schools with teaching equipments, as a pedagogical problem is a tool that improve the quality of education.

*Redaksiyaya daxil olub: 08.09.2014*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA ÜMUMİ TƏHSİLİN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ SƏYLƏR

**Xəyalə Məmmədova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
AMİ
E-mail: xayalamamedova@gmail.com

**Rəyçilər:** *prof.* Ə. Ağayev,
*dos.* Z. Kərimova

***Açar sözlər:*** *təhsil, ümumi təhsil, təhsilin məzmunu, islahatlar*
***Ключевые слова:*** *образование, общее образование, содержание образования, преобразование*
***Key words:*** *education, general education, content of education, reformation*

Məlumdur ki, SSRİ-nin süqutu onun tərkibinə daxil olan bütün müttəfiq respublikaların müstəqillik əldə etməsinə imkan yaratdı. 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya Aktı" Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini beynəlxalq aləmə bildirdi. Müstəqilliyin bərpası ilə ölkədə baş verən dəyişikliklər təhsil sistemində də özünü göstərdi. Təhsil sistemində mövcud olan məzmun, demək olar ki, dəyişdirildi, təhsilin milli və ümumbəşəri dəyərlərə əsaslanaraq təşkil olunmasına önəm verildi. Bütün bunlar isə təhsil sistemində demokratik və humanist mühitin yaradılmasını tələb edirdi. İlk növbədə mövcud olan vahid tədris planları, proqramlar və dərsliklər, dərs vəsaitləri ilə işləmiş məktəbləri yeni məzmunlu məktəblər əvəz etməli idi. Bunun üçün ilk növbədə ibtidai təhsilin qarşısında duran vəzifələr müəyyənləşdirilməli idi. Çünki ibtidai təhsil ümumi təhsilin ilk pilləsi olmaqla insanın bir şəxsiyyət kimi formalaşmasında, ilkin zəruri biliklərə və həyati bacarıqlara yiyələnməsində böyük rol oynayır. Bir sözlə, bütövlükdə təhsil sisteminin, xüsusilə ümumi təhsilin dayanıqlığı ibtidai təhsilin keyfiyyətindən çox asılıdır.

Müstəqilliyin ilk illəri Azərbaycanda ümumi təhsil sahəsində mühüm islahatlar aparıldı. 1991-ci ilin dekabr ayında latın qrafikalı əlifbaya keçilməsi qərara alındıqdan sonra, 1992-ci ilin sentyabr ayından orta məktəblərin 1-ci siniflərində dərslərin yeni əlifba ilə keçirilməsi, orta məktəblərin yuxarı siniflərində latın qrafikalı əlifbanı öyrədən fakütativ məşğələlərin təşkil edilməsi həyata keçirildi. Eyni zamanda qərarda 1993-cü ildə orta, orta-ixtisas və ali məktəb dərsliklərinin latın qrafikalı Azərbaycan əlifbası ilə çap edilməsi, ibtidai siniflərdə latın qrafikalı əlifbanın öyrənilməsinə başlanması, təhsil sisteminin bütün sahələri üzrə latın qrafikalı əlifbanın başa çatdırılması nəzərdə tutulurdu [2,671]

Sözsüz ki, bu qərar bir çox problemlərin yaranmasına səbəb oldu. Yeni əlifba yeni dərsliklərin, proqramların, pedaqoji ədəbiyyatın hazırlanmasının çapını tələb edirdi. Bunun isə müəyyən zamana ehtiyacı var idi. Bu problemləri belə səciyyələndirmək olar: Dərsliklərin tərtibi, nəşri və təqdim olunmasında böyük qaydasızlığın, sistemsizliyin hökm sürməsi müəllim və şagirdlərdə psixoloji hazırlığın olmaması və s. Əlifba dərsliyinin vaxtında tərtib edilib təhvil verilməsinə baxmayaraq, rəssamların şıltaqlığı üzündən gecikdirildi. Dərsliyin Türkiyədə iri formatda, nəfis, pulsuz nəşr olunacağı vədi onun nəinki kiçilməsi, həm də eybəcər şəkildə, nöqsanlı çap edilməsi ilə nəticələndi. Vəziyyətdən çıxmaq üçün "Yazı nümunələri" buraxıldı. Nazirlik və nəşriyyat orqanları bundan lazımi nəticəni çıxarmadıqlarından 1-ci sinfə tədris kompleksi verilmədi. Azacıq düzəlişlərlə "Əlifba" nəşr edildi, iş dəftəri süni şəkildə keçirdildi. II siniflər üçün "Türk dili" sentyabrın ortalarında çap edildi.

Latın qrafikalı əlifbaya keçidlə bağlı kitabların, dərsliklərin hazırlanması və çapı həmin dövrdə ölkə üçün problem idi. Bu səbəbdən Azərbaycan Türkiyə ilə bu məsələdə əməkdaşlıq edirdi. Hətta ibtidai siniflər üçün nəzərdə tutulan dərsliklərin bir çoxu Türkiyə dərsliklərinin əsasında

hazırlanırdı.

Məlumdur ki, 1979-1980-ci tədris ilindən 1992-ci ilədək 1 siniflərdən başlayaraq şagirdlərin dərsliklərlə pulsuz təminatına keçilmişdi. Nazirlər kabinetinin 18 may 1992-ci il tarixli qərarı ilə Azərbaycan hökumətinin "Ümumtəhsil məktəbi şagirdlərinin dərslikləri ilə pulsuz təminatı haqqında" 1978-ci il tarixli qərarı ləğv edildi və bu proses dayandırıldı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Nazirlər Kabineti ibtidai sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı haqqında 1994-cü il, 24 avqust 318 nömrəli qərar qəbul etdi və həmin qərarla şagirdlərin dərsliklərlə pulsuz təminatına mərhələlərlə keçidə başlandı.

Ümumtəhsil məktəbləri üçün dərsliklərdən əlavə metodik ədəbiyyatın latın qrafikasında nəşr edilməsi də mühüm şərtlərdən idi. Əvvəlcə dərsliklər məsələsi həll edilməli idi. 1992-1993-cü tədris ilindən ümumtəhsil məktəblərinin 1-ci siniflərində, 1993-1994-cü dərs ilindən isə bütün siniflərdə latın qrafikalı dərsliklərin nəşrinə başlanıldı. Əlbəttə, bu işdə nəşriyyat-poliqrafiya baxımından xeyli çətinliklər yarandı. Bu çətinliklərə baxmayaraq 1993-cü ildən I-IV siniflər üçün bütün dərsliklər, V-XI siniflər üzrə humanitar profilli (Azərbaycan dili, Ədəbiyyat, Tarix, Coğrafiya) dərslikləri milli zəmində hazırlanmasına və nəşrinə başlanıldı. Onu da qeyd etmək lazımdır ki, dərslik siyasəti sahəsində ən böyük nailiyyətlər məhz müstəqillik illərində əldə edilmişdir. Ona görə də bu istiqamətdə aparılan bütün işləri 3 mərhələdə həyata keçirmək nəzərdə tutuldu.

Birinci mərhələ 1991-1998-ci illəri əhatə edirdi. Bu dövr latın qrafikalı əlifbaya keçid, mövcud çətinliklər və onların aradan qaldırılması ilə xarakterizə olunurdu. 1991-ci ildən latın qrafikasına keçilməsi barədə qərar qəbul edilməsinə baxmayaraq, bu iş sistemli şəkildə ümumtəhsil məktəblərində başlanıldı. Heydər Əliyevin sərəncamı ilə 2000-ci ildən ölkədə, o cümlədən təhsil sistemində latın qrafikasına tam keçid bərqərar oldu.

Respublikada siyasi-iqtisadi sabitlik formalaşdıqca dərsliklərin məzmunca yeniləşdirilməsi istiqamətində müəyyən işlər görüldü. Lakin ölkənin mövcud iqtisadi vəziyyəti yeni dərsliklərin hazırlanması sahəsində təcrübə və səriştənin olmaması səbəbindən müstəqilliyin ilk illərindən daha çox Sovet dövründə hazırlanmış dərsliklərdən istifadə olunurdu. Bununla belə, həmin illərdə hazırlanmış tarix və ədəbiyyat dərsliklərində Sovet dövründəkindən fərqli olaraq milli və ümumbəşəri dəyərlərə üstünlük verilir, köhnə siyasi ideologiyadan imtina edilirdi. Çünki Sovet dövründə tarix dərsliklərində Azərbaycan və ümumtürk tarixi, eləcə də ədəbiyyatı obyektiv işıqlandırılmır, türk-islam mədəniyyəti ilə bağlı verilən məlumatlar tarixi reallıqları düzgün əks etdirmirdi.

Ümummilli lider H. Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışı dərslik islahatları sahəsində yeni mərhələnin əsasını qoydu. "Dərsliyin məktəb üçün strateji əhəmiyyətini dərindən bilən və yüksək qiymətləndirən ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Nazirlər kabinetinin 25 avqust 1994-cü il tarixli, 318 nömrəli qərarı ilə 1995-1996-ci tədris ilindən etibarən hər il ibtidai sinif dərslikləri dövlət vəsaiti hesabına çap edilib şagirdlərə pulsuz verilməyə başlandı" [2,138].

1993-1994-cü tədris ilindən ümumtəhsil məzmununda dəyişikliklər aparılırdı. Dəyişikliklərə uyğun olaraq milli dərsliklərin yenidən hazırlanmasına başlanıldı. V-XI siniflər üzrə 63 adda dərsliklər çap edildi. Bu iş ibtidai siniflərdə də davam etdirildi.

1994-1995-ci tədris ilində I-XI siniflər üçün 77 adda 6069000 nüsxə dərslik çap edildi. Yeni hazırlanan dərsliklər əvvəlkilərə nisbətən xeyli təkmilləşdirildi. Lakin dərsliyin məzmunu, tərtibatı, ideoloji istiqaməti, poliqrafik keyfiyyəti tələblərə cavab vermirdi. Bu dərsliklərdən istifadə etməklə sonrakı illərdə onların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində işlər genişləndirildi. 1995-1996-cı tədris ilində ibtidai siniflər (I-IV) üçün 21 adda, 2850000 nüsxə, 1996-1997-ci tədris ilində 22 adda 1050000 nüsxə dərslik çap olundu. 1996-1997-ci tədris ilində ilk dəfə olaraq ümumtəhsil məktəbləri üçün "Azərbaycan Respublikası Konstitusiyasının əsasları" dərsliyi hazırlandı.

Dərslik və dərs vəsaitlərinin hazırlanması işində ümummilli Lider Heydər Əliyevin söylədiyi belə bir konseptual fikir bu işlərə müəyyən istiqamət verdi. "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə,

mənəviyyatına, ənənələrinə uyğun qururuq. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaradılması xüsusi əhəmiyyət kəsb edir...”

1997-ci il sentyabrın 1-də Bakının Yasamal rayonundakı 18 nömrəli məktəbdə keçirilən görüşdəki nitqində dövlət başçısı qeyd etmişdir ki, uşaqlar, gənclər gərək mütləq bizim yeni dərsliklər əsasında oxusunlar. Ümummilli Lider Heydər Əliyevin bu konseptual göstərişi yeni milli dərsliklərin yaradılmasına ciddi təkan verdi. 1997-1998-ci tədris ilində dövlət vəsaiti hesabına ibtidai siniflər üçün 26 adda 1.227000 nüsxə dərslik hazırlanmış və nəşr edilərək istifadəyə verilmişdir.

1998-1999-cu tədris ilində 24 adda 1.250000 ibtidai və 15 adda V-XI siniflər üçün yeni dərsliklər dövlətin vəsaiti hesabına çap olunaraq istifadəyə yönəldilmişdir.

Bütövlükdə 1992-1998-ci illəri əhatə edən dərslik islahatının I mərhələsində ümumtəhsil məktəblərinin I-IV sinif dərsliklərinin, demək olar ki, 90 faizi, V-XI siniflər üzrə 75 faizdən çoxu məzmunca yeniləşdirildi.

Ümumtəhsil sahəsində əsaslı islahatlar 1999-2000-ci tədris ilindən başlayaraq həyata keçirilməyə başlandı. Bu tədris ili 162300 şagirdi və 161000 müəllimi əhatə edən 4549 ümumtəhsil məktəbi ilə fəaliyyətə başladı. Dövlətin 26 aprel 1999-cu il tarixli qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları – bazis tədris planı işlənib hazırlandı və təsdiq olundu, bu standartlar əsasında yeni işçi tədris planları tətbiqə başlandı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 iyun 1999-cu il, 168 saylı sərəncamı ilə təsdiq edilmiş, “Azərbaycan Respublikasının Təhsil sahəsində islahat Proqramı”nın icrası ilə əlaqədar dərslik siyasətinin II mərhələsinə start verildi. Proqramda təhsilin məzmununun, o cümlədən tədris planları və proqramlarının, dərs vəsaitlərinin və digər tədris metodik ədəbiyyatının məzmunca, keyfiyyətcə yeniləşdirilməsi, müasir təhsil standartlarına cavab verən yeni nəsil dərsliklərinin hazırlanması, nəşri və ümumtəhsil məktəblərinin bu dərsliklərlə dövlət vəsaiti hesabına fasiləsiz təmin edilməsi kimi geniş miqyaslı tədbirlər nəzərdə tutuldu. Məktəb islahatında təlim metodlarının təkmilləşdirilməsinə, şagirdlərin fəallığına, təlimin praktik istiqamətinə xüsusi önəm verildi. Təlimdə formalizm hallarının aradan qaldırılması irəli sürüldü. 3 illik təhsili əhatə edən ibtidai təlim 4 illik sistemə keçdi. 6 yaşlıların məktəb təliminə cəlb edilməsi, ibtidai təlimin məzmununun əsaslı surətdə dəyişməsi, maddi-texniki bazanın yaradılması islahatın əsas tələblərindən biri kimi müəyyənləşdirildi.

Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülən Azərbaycan təhsilində mühüm əhəmiyyət kəsb edən və 1999-cu il iyun ayının 15-də təsdiq olunan “Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramı” XXI əsr Azərbaycan təhsilinin strategiyasını müəyyənləşdirdi. İslahat proqramında təhsilin məzmunu müəyyənləşdirmək yeni dərsliklərin təhsil standartlarının hazırlanması, müasir təlim texnologiyalarından istifadə olunması qarşıya mühüm vəzifə kimi qoyuldu.

Onun ardınca 2000-ci ildə Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında Heydər Əliyevin fərmanı milli təhsilimizin problemlərinin həlli yollarına mühüm addım oldu. Fərmanda təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək məqsədilə pedaqoji kadrların hazırlanması, fəal təlim metod və texnologiyalarından istifadə olunması, maddi-texniki baza, kadr potensialı və digər vəzifələr qarşıya qoyuldu. Təhsilin məzmunu 1999-2000-ci dərs ilindən başlayaraq birinci sinifdən yeniləşməyə istiqamət aldı. Bu isə təlimin inteqrativ təşkilinə imkan verdi.

Bununla paralel təlim rus dilində və azsaylı xalqların o cümlədən talış, ləzgi, avar, gürcü dillərində olan məktəblər üçün də proqram və dərsliklər hazırlandı. Bu işlər 2000-ci ilə qədər Təhsil problemləri İnstitutunda fəaliyyət göstərən azsaylı xalqlar şöbəsində yerinə yetirildi.

Bu illərdə dərsliklərdən əlavə sinifdənxaric oxu, uşaq qəzet və jurnalların nəşri, əlavə oxu materialları, bədii və elmi-kütləvi əsərlərin nəşri istiqamətində ölkə səviyyəsində işlər davam etdirildi. Bunun nəticəsi olaraq 2004-cü ildə ölkə başçısı İlham Əliyevin sərəncamına əsasən məktəblər üçün bədii və elmi kütləvi kitabların ensiklopediyalarını, sorğu məlumat vəsaitlərinin

latın qrafikası ilə nəşri kütləvi olaraq həyata keçirildi.

1999-2000-ci tədris ilində dövlət vəsaiti hesabına nəşr edilən ibtidai sinif dərsliklərinin nəşrinin yeni qaydaları tətbiq edildi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 07 aprel 1997-ci il tarixli 570 nömrəli fərmanına uyğun olaraq dərsliklərin nəşrinin gender yolu ilə həyata keçirilməsinə başlanıldı və həmin ildə ibtidai siniflər üçün 21 adda 1210000 nüsxə dərslik çap olunub istifadəyə verildi. Bu proses isə mövcud olan inhisarın aradan qaldırılması, dövlət hesabına qənaət edilməsi, ən əsası isə dərsliklərin poliqrafik icrasının yaxşılaşdırılmasında mühüm addım idi. İslahat proqramının qəbul edildiyi vaxtdan başlayaraq ümumi təhsilin dövlət standartlarına uyğun olaraq tədris planlarına tam keçidə qədər bütün fənlər üzrə Təhsil Nazirliyində orta məktəb müəllimləri və tanınmış mütəxəssislərdən ibarət işçi qrupları yaradıldı. Bu qruplar V-XI siniflərin "Azərbaycan dili", Ədəbiyyat", "Tarix", "Riyaziyyat", "Coğrafiya", "Biologiya", "Fizika və astronomiya", "Kimya", "Rus dili" proqramlarını təkmilləşdirdi. Onu da qeyd edək ki, 1999-cu ilə qədər ümumtəhsil məktəbləri 1993-1994-cü illərin tədris proqramları ilə işləyirdi.

1991-ci ildə I sinif proqramları çap olunaraq yerlərə çatdırıldı. Eyni zamanda ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün "Azərbaycan dili", "Riyaziyyat", "Cografiya", "Rus dili", VII-XI siniflər üçün "Fizika" və Astronomiya", VIII-XI siniflər üçün "Kimya", "Azərbaycan tarixi", "Ümumi tarix" proqramları hazırlandı. Əlbəttə bu proqramların tətbiqi və nəticəsi göstərdi ki, həmin proqramlar müsbət qarşılansa da, nöqsanlar da var. Bəzi proqramlar lüzumsuz materiallarla yüklənilmiş, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmamış, pedaqoji və metodik prinsiplər gözlənilməmişdir.

Proqramların yenidən işlənilməsinə və əsaslı dəyişikliklər edilməsinə zəruri ehtiyac yarandığından 2000-ci ildə ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün xarici dil (ingilis, fransız, alman) "Azərbaycan tarixi", "Ümumi tarix", X-XI siniflər üçün "Rus dili" proqramları yenidən işlənərək çap edildi və məktəblərin istifadəsinə verildi. Bu proqramlara uyğun olaraq ümumtəhsil məktəblərinin qabaqcıl müəllimləri cəlb edilməklə dərslik və dərs vəsaitlərinin əsaslı şəkildə yeniləşdirilməsinə, yeni dərsliklərin hazırlanmasına başlandı [3,110].

2000-ci ildə 13 adda 1390000 nüsxə, 2001-ci ildə isə 27 adda 1288000 nüsxə ibtidai sinif dərsliyi pulsuz nəşr olundu və məktəblilərin istifadəsinə verildi.

Ümummilli lider Heydər Əliyevin göstərişi ilə Nazirlər kabinetinin 11 sentyabr 2000-ci il tarixli sərəncamına əsasən ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün milli təhsilin tələblərinə cavab verən yeni dərsliklərin çap olunması məqsədilə 2000-ci ilin dövlət büdcəsindən nəzərdə tutulmuş ehtiyat fondundan Təhsil Nazirliyinə 2 il müddətinə qaytarılması şərti ilə güzəştli kredit ayrıldı.

1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında görüşü zamanı Heydər Əliyev "İlk növbədə Azərbaycanın XIX-XX əsrlər tarixi yazılmalıdır" tapşırığını verməklə, milli tariximizin yazılmasının və tədrisinin zəruri olduğunu qeyd etmişdir. Bunun nəticəsi olaraq 2001-ci ildə XIX-XX əsrlər tarixini əhatə edən "Azərbaycan tarixi" (X-XI siniflər) VI-IX siniflər üçün "Qədim Dünya tarixi", "Orta əsrlər tarixi " və "Yeni tarix " kimi dərsliklər çap olundu.

Dərslik islahatının II mərhələsindəki ən mühüm yeniliklərdən biri fizika, riyaziyyat, kimya, biologiya fənləri üzrə yeni nəsil dərsliklərin hazırlanması və nəşri idi. 2001-ci ildə ümumtəhsil məktəblərinin V sinfi üçün "Riyaziyyat", VIII-XI siniflər üçün kimya (təkmilləşdirilmiş) proqramları çap olundu. Həmçinin inkişaf etmiş xarici ölkələrin təcrübəsi öyrənilərək təhlil olundu və müasir tələblərə cavab verən dərsliklərin tətbiqi prinsipləri müəyyənləşdirildi. Həmin prinsiplər əsasında V-XI siniflər üçün humanitar fənlər üzrə dərsliklər yeniləşdirildi." [3,526].

Məhz bu dövrdən başlayaraq ümumtəhsil müəssisələri şəbəkəsi inkişaf etdi. Ümumi təhsilin dövlət standartları və bazis tədris planı tətbiq edildi. Yeni tədris planına keçid prosesi 2002-2003-cü tədris ilində başa çatdırıldı. Ümumi orta təhsilin məzmunun yeniləşdirilməsi sahəsində ilk addım atıldı. Ümumi orta təhsil dövlət standartları bazis tədris planı orta təhsil proqramları məzmununun mütləq minimumunu, tədris yükünün maksimum həcmini, şagirdlərin hazırlıq səviyyəsinə verilən tələbləri müəyyən etməklə ibtidai, əsas və orta ümumi təhsilə şamil edildi" [2,672].

Ümumi orta təhsilin dövlət standartları mütərəqqi dünyagörüşünə malik və soykökünə bağlı

olan şəxsiyyəti formalaşdıran, təhsilin məzmunu və nəticələrinə verilən tələbləri uzlaşdıran, ümumi təhsil sistemi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyən, cəmiyyət və dövlət tərəfindən şagirdlərin sağlamlığına, mühafizəsinə təminat verən normalar və müddəaları özündə ehtiva edir. Ümumi orta təhsilin dövlət standartları şəxsiyyətin aşağıdakı hüquqlarının təmin edilməsinə imkan yaradırdı.

1. Ümumi orta təhsilin məzmunu və nəticələrinə verilən dövlət tələbləri haqqında tam və düzgün məlumatların alınması
2. Müasir ictimai tələbatlara uyğun mükəmməl və keyfiyyətli təhsil
3. Şagirdlərin təhsilalma imkanlarının müxtəlifliyi
4. Sosial, psixoloji və fiziki sağlamlığın mühafizəsi
5. Sosial, psixoloji və xüsusi pedaqoji köməyə ehtiyacı olanlara fərdi yanaşma və s. [1,146].

Bazis tədris planı təhsil müəssisəsinin növündən asılı olaraq ümumi təhsilin səviyyələrini, siniflər üzrə respublika və məktəb kompüterlərinin öyrənilməsinə ayrılmış tədris vaxtının bölünməsini və təlimin müddətini müəyyən edirdi. Bu tədris planı tədris yükünün yaş və fizioloji-gigiyenik normativləri əsasında işlənib hazırlanmışdır.

Beləliklə, axtarışlardan aydın olur ki, təhsilin məzmunun təkmilləşdirilməsi tədricən yeniləşməyə gətirib çıxardı. Bu isə yeni mərhələdə - 2003-cü ildən həyata keçirilməyə başladı.

## ƏDƏBİYYAT

1. M.C. Mərdanov Azərbaycan Təhsil tarixi. II cild. Bakı: Təhsil, 2011.
2. M.C. Mərdanov Azərbaycan Təhsil tarixi. III cild. Bakı: Təhsil, 2011.
3. M.C. Mərdanov Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Caşıoglu, 2009.
4. N.R. İsmayılova. Müstəqillik illərində Azərbaycan ibtidai sinif təhsilinin inkişafı. Bakı: Mütərcim, 2013.

**Х. Мамедова**

## АСПЕКТЫ ПО СОВЕРШЕНСТВОВАНИЮ СОДЕРЖАНИЯ ОБЩЕГО ОБРАЗОВАНИЯ В ГОДЫ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

**РЕЗЮМЕ**

Статья повествует о совершенствовании содержания образования в Азербайджане после обретения независимости. Обосновывается толчок нововведений, проведенных преобразований. Подчеркивается важность для страны подготовки и издания книг и учебников, связанных с переходом на латинский алфавит в тот период. Повествуется о необходимости и значимости проведения преобразований в области общего образования в первые годы независимости.

**X. Mamedova**

## ASPECTS FOR IMPROVING THE CONTENT OF GENERAL EDUCATION IN THE YEARS OF INDEPENDENCE IN AZERBAIJAN

**SUMMARY**

This article tells about improving of content of education in Azerbaijan after the years of independence. Push of innovations of carried out reformations is settled down in this article. Importance for the country the preparation and publication of books and textbooks, related to the transition to the Latin alphabet in that period is emphasized here. This article tells about the necessity and importance of the changes in the field of general education in the early years of independence.

*Redaksiyaya daxil olub: 23.12.2014*

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA VARİSLİK

**Vaqif Kərimov,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
ARTPİ
E-mail: k.vagif@rambler.ru

**Rəyçilər:** *ped.elm.dok.* P. Əliyev,
*dos.* M. Kazımov

***Açar sözlər:*** *varislik prinsipi, perspektivlik, məktəbəqədər təhsil, ibtidai təhsil, beşyaşlılar, valideynlər, müəllimin hazırlığı*

***Ключевые слова:*** *принцип наследственности, перспективность, дошкольное образование, начальное образование, дети-пятилетки, родители, подготовка учителя*

***Key words:*** *prinsip heritaqe, perspektive, presckhool edukation, children aged five, parents, teasher training*

Azərbaycan Respublikasında təhsilin modernləşdirilməsi sahəsində özünütəsdiqə qabil yaradıcı şəxsiyyətin inkişafına sosial sifariş formalaşmışdır. Bununla əlaqədar böyüməkdə olan gənc nəslin mənəvi, intellektual və mədəni potensialının inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmaq tələb olunur. Belə bir şərait təhsil sisteminin ilk pilləsində yaradılmalıdır.

Təsadüfi deyildir ki, dövlətimiz məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətini yüksək qiymətləndirir. Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda məktəbəqədər təhsilin vəzifələri belə müəyyənləşdirilmişdir: "Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixoloji inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, istedad və qabiliyyətlərinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətin formalaşmasını təmin edir".

Orta ümumtəhsil məktəblərində təlim və tərbiyənin düzgün təşkili təhsil sisteminin pillələri arasında təbii keçidin təmin olunmasından asılıdır. Məktəbəqədər, ibtidai və orta təhsilin məzmunu, forması, təşkili yolları arasında ardıcıllığın, vəhdətin olması zəruridir. Bu, insan həyatının körpəlik, yeniyetməlik və gənclik pillələri arasında təbii keçidi təmin edir. Məktəbəqədər və ibtidai təhsil arasında varisliyin nəzərə alınması fasiləsiz təhsilin ilk pillələrinin elmi əsaslar üzərində qurulması kimi qiymətləndirilməlidir.

Belə yanaşma o zaman pedaqoji prosesə tamlıq, ardıcıllıq verə bilər ki, məktəbəqədər və məktəb təhsili problemləri təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqədə həll edilsin. Bu, uşaqların məktəbəqədər dövrdəki inkişafına, əldə etdiklərinə əsaslanmağa imkan verir. Pedaqoji prosesin bütün iştirakçılarının (pedaqoqlar, uşaqlar, valideynlər) birgə fəaliyyəti, əməkdaşlığı olmadan bu, mümkün deyil. Xüsusilə məktəbəqədər təhsil pedaqoqları – tərbiyəçilər arasında anlaşma olmalıdır.

Məktəbəqədər və ibtidai təhsil arasında varislik problemi həmişə aktual olmuşdur. Bu gün varisliyin həyata keçirilməsinin humanitar mahiyyəti nədir? Müasir aləmdə insanın öz "mən"ini müəyyən etməsi və başqalarında da müəyyən olunmasına köməyini bəziləri qəbul etmirlər.

Bu proses, təhsil tam bir sistem kimi qurulduqda həyata keçirilə bilər. Bütövlük xüsusiyyəti təhsilin ənənəvi strategiyası ilə müqayisədə başqa strategiya tələb edir. Onun əsasında elmi biliklərin qurulması, insanı biliklər aləminə daxil edən məntiq dayanır. Bütövlük, keyfiyyət humanitar təhsil mühitinin müxtəlif səviyyələrində mövcud olmalıdır. Varislik olmadan pedaqoji prosesi məzmunlu şəkildə yenidən qurmaq olmaz və o, mühüm tərbiyə vasitəsidir. Varislik cəmiyyətin bəşəri qanunudur. Hər bir nəsil əvvəlki nəslin – ata-analarının, ulu babalarının, həmçinin

ictimai quruluşun yaxşı cəhətlərini qorumağa çalışır, adət-ənənələrə istinad edir, ona yeni xarakter verir və inkişaf etdirir.

İbtidai təhsilin məzmununda ciddi dəyişikliklər, keçən əsrin 90-cı illərində baş verdi. O zaman məktəbəqədər və ibtidai təhsilin prioritet məqsədi uşaq şəxsiyyətinin inkişafı hesab olunurdu. İndiki dövrdə təhsilin fərdiləşdirilməsi və diferensiallaşdırılması əsas götürülür, hər bir uşağın özünü komfort hiss etdiyi və onun inkişaf sürətinə uyğun təhsil mühitinin yaradılması zəruridir.

Məktəbəqədər müəssisələrdə və ibtidai məktəbdə təhsil prosesində qarşılaşdığımız ən mühüm problem təhsilin bu iki pilləsi arasında varislik və perspektivlik problemidir. Təhsil fasiləsiz bir prosesdir. Onun başlanğıcı ilə sonrakı pillələri arasında zəruri asılılıq mövcuddur. Məktəb məktəbəqədər dövrdə görülən işlərə əsaslanıb, öz işini onun üzərində qurursa, uşaqların inkişafını təbii yolla aparırsa, məktəbəqədər müəssisə kollektivi də məktəb təlimi dövründə tələb olunan səviyyəni öyrənir, məzunlarını həmin yükün altına girməyə hazırlayır. Beləliklə, varislik, təbii olaraq, perspektivliyi tələb edir.

Varislik prinsipi didaktikanın sistemlilik və ardıcıllıq prinsipləri ilə sıx əlaqədardır. Həmin prinsiplərin tələbləri məlumdur: bilik, bacarıq və vərdişlər müəyyən qaydada formalaşdırılır, tədris materialının hər bir elementi məntiqi cəhətdən digəri ilə bağlı olur, sonrakı element əvvəlkinə istinad edir, yenini mənimsəməyə hazırlayır.

Məktəbəqədər və ibtidai təhsil arasında varisliyə təhsilin hər bir komponenti (məzmun, məqsəd, vasitələr, metodlar, təşkilat forması) kimi baxılmalıdır. Bu, uşağın müvəffəqiyyətlə tərbiyə olunmasını, təhsilini və səmərəli inkişafını təmin edir.

Varislik anlayışı uşağın hər bir yaş dövrü üçün ümumi və özünəməxsus məqsədi olan tərbiyə və təhsilinin fasiləsiz prosesi kimi şərh olunur. İnkişafın müxtəlif mərhələləri arasındakı bu əlaqənin mahiyyəti yeni vəziyyətə keçəndə bütövlükdə və ya ayrı-ayrı səciyyəvi cəhətlərin qorunmasından ibarətdir. Təsadüfi deyildir ki, hazırkı dövrdə varisliyin gözlənilməsinin zəruriliyi və təhsilləndirici mühitin tamlığı təhsilin inkişafının prioritet sahələrindən birinə aiddir.

Varislik fasiləsiz təhsil sisteminin əsasına qoyulmuş prinsipdir. Bu zaman məktəbəqədər təhsil müəssisələri uşağın qabiliyyətlərinin bünövrəsinin qoyulmasını, ibtidai məktəb isə uşaq bağçasının təcrübəsindən istifadə etməklə şagirdlərin gələcək inkişafını təmin edir.

Adətən, I sinif müəllimlərinin əksəriyyəti məktəbə yeni qədəm qoymuş uşaqlarla işə sıfırdan başlayırlar və uşaqlara heç bir şey bilməyən subyekt kimi yanaşılması onların fəaliyyətində mühüm yer tutur. Belə müəllimlər uşaqlara fərdi yanaşmır, onların məktəbəqədər müəssisələrdə, ailədə nələri öyrəndikləri, nə kimi bilik, bacarıq və vərdişlərə yiyələndikləri ilə maraqlanmırlar. Nəticədə uşaqların çoxu üçün təlim maraqsız, cansıxıcı, ağır bir yükə çevrilir.

Müsahibələr zamanı aydın olur ki, müəllimlərin bir çoxu məktəbəqədər təhsil mərhələsini keçmiş uşaqların böyük əksəriyyətinin məktəbə hazırlıqlı gəldiyini unudurlar. Məktəbəqədər təhsil proqramı əsasında uşaqlar nitq səslərini düzgün tələffüz etməyi, fikrini rabitəli ifadə etməyi, eşitdiyi hekayənin, nağılın məzmununu düzgün çatdırmağı, dialoqda iştirak etməyi, soruşmağı, suallara cavab verməyi, böyük hərflərin çap şəklini yazmağı, 10 dairəsində hesablamağı və s. bacarırlar. Bəzən ailələrdən də belə hazırlıqlı uşaqlar gəlirlər. Bütün bunlar belə bir qənaətə gəlməyə imkan verir ki, I sinif müəllimi uşaqları öyrənmədən, onların fərdi xüsusiyyətlərini nəzərə almadan, nəyə qabil olduqlarını bilmədən təlimdə müvəffəqiyyət qazana bilməzlər.

Məktəb uşağın həyatında mühüm hadisədir. O, inkişafın sosial situasiyasını köklü şəkildə dəyişir və şəxsiyyətin inkişafının perspektivini müəyyən edir. Bu dövr aparıcı fəaliyyətin əvəz olunması – şagird rolunun meydana çıxması dövrüdür.

Təhsilin məzmunu, forması, onda tətbiq edilən texnologiyalar, metod və priyomlar bir yana, bu prosesin birinci tərəfinin formalaşması məktəbəqədər müəssisələrdə baş verir. Təlim prosesinin ilkin mərhələsi altıyaşlının hazırlığına istinadən fəaliyyətə başlayır. Altıyaşlıların hazırlığı, I sinifdə onlarla aparılan iş də kurikulumun tətbiqinə imkan verməlidir.

Uşağın məktəbə hazırlığı meyarı morfofizioloji yetkinlik, psixi proseslərin inkişafı, xüsusilə inteqral psixoloji xarakteristikanın, emosional-iradi mühit və sosial yetkinliyin inkişafının müəyyən səviyyəsidir. Bu əsaslandırma uşağın məktəbə hazırlığının meyarlarını fərqləndirməyə, təxəyyülünün xüsusiyyətlərini müəyyən etməyə imkan verir.

I sinifdə uşağın adaptasiyası prosesində bütün bu meyarlar mühüm əhəmiyyətə malikdir, lakin pedaqoqun əsas diqqəti uşağın sağlamlığını xarakterizə edən göstəricilərə yönəlməlidir. Uşaqların əsas hissəsinin sağlamlığı dərs ilinin sonlarında pisləşir. Hazırda I sinfə gələn altıyaşlıların 90 faizi bu tələblərə cavab vermir. Altıyaşlıların 60 faizə qədəri, demək olar ki, məktəbə hazırlıqsız gəlir. Belə şəraitdə, şübhəsiz, müəllimin işi çətinləşir. Müəllim müxtəlif hazırlıqlı, müxtəlif xarakterli uşaqlarla fəaliyyətin təşkili ilə əlaqədar ciddi araşdırmalar aparmalı olur. İndiki şəraitdə bu problemlərin həllində çətinliklər mövcuddur, lakin gələcəkdə uşaqların əksəriyyətinin məktəbəqədər müəssisələrə cəlb ediləcəyini, heç olmasa, bağçada və ya məktəbdə beşyaşlıların qısamüddətli hazırlıq qruplarına cəlb olunacaqlarını nəzərə alaraq varislik probleminin işlənməsi zəruridir.

Hazırda ölkəmizin məktəbəqədər müəssisələrində 180 minə qədər uşaq təlim-tərbiyə alır. Onların təxminən iyirmi minə qədəri beşyaşlılardır. Bu uşaqların təlim-tərbiyə prosesində məktəbəqədər müəssisə ilə məktəb arasında varisliyin yaranması mühüm əhəmiyyət kəsb edir.

Varisliyin ümumi əsası gələcək məktəblinin idrak fəallığı, hər şeyi bilmək həvəsinin inkişafı, yaradıcılığa və müstəqilliyə meyillilik, kommunikativlik, yaşıdları və yaşlılarla ünsiyyət bacarığıdır. Bu istiqamətdə axtarışlar gələcəkdə genişlənərək məktəbəqədər müəssisə şəbəkələri üçün nümunə ola, onların fəaliyyətinə istiqamət verə bilər. Bu axtarışların nəticələri həm də ailədə uşaqların məktəbə hazırlanması sahəsində işin canlandırılmasına, düşünülmüş elmi istiqamət almasına şərait yaradır.

Yuxarıda qeyd etdiyimiz kimi, hazırda istər şəhər, istərsə də kənd məktəblərinin əksəriyyətində uşaqların məktəbə gələnədək uşaq bağçasında, ailədə öyrəndikləri, ətraf aləm üzərində müşahidə əsasında sərbəst əldə etdikləri biliklər nəzərə alınmır. Hamını eyni səviyyəli hesab mənə müəllim onlarla “bir dildə” danışmaqla öz işini asanlaşdırmağa çalışır. Nəticədə təlim az-çox hazırlıqlı uşaqlar üçün gözləmədikləri qədər asan, mənasız, cansıxıcı bir prosesə çevrilir. Onlar müəllimin dediklərini dinləmir, “Onsuz da bilirəm.” deyə laqeydlik göstərir, təlim əməyinə alışmır və beləliklə, geridə qalanlar sırasına keçirlər.

Peşəsinə məsuliyyətlə yanaşan müəllim isə dərs ilinin ilk günlərində şagirdlərlə tanış olduqda görür ki, onların bir qismi məktəbə hazırlıqlı gəlib. Onlar tərbiyə və təlim proqramının tələbləri səviyyəsində ətraf aləmlə tanış olmuş, sual verməyi, cavab verməyi öyrənmişlər. Uşaqlar ətraf aləmdəki əşya və hadisələri tanıyır, onlara münasibət bildirir, onların insanların həyatındakı rolunu başa düşürlər. Onların lüğət ehtiyatı zəngin, şifahi nitqi inkişaf etmiş olur.

Tərbiyəçi kimlərlə işlədiyini, uşaqlara nələri, nə üçün, nə qədər, necə öyrətməli olduğunu, məktəbə gedərkən onların hansı yükün altına girəcəklərini təsəvvür etməlidir. Bunun üçün, o, I sinif müəllimi ilə əlaqə saxlamalı, uşaqların səviyyəsinə verilən tələblərlə yaxından tanış olmalıdır.

Müasir dövrdə məktəbəqədər təhsilin məzmununda baş verən yeniliklər problemin həllinə daha ciddi yanaşılmasını tələb edir. Məktəbəqədər tərbiyə müəssisələrinin məktəbəhazırlıq qrupuna savad təliminin gətirilməsi problemə tamamilə yeni yanaşma sisteminin yaradılması tələbini irəli sürür. Bu, artıq məktəbəqədər pillənin həqiqətən təhsilin ilk mərhələsi olduğunu təsdiq edir. İndi varislik məktəbəqədər mərhələdə formalaşmış ilkin oxu və yazı texnikası vərdişləri əsasında uşaqları sərbəst oxu, yazı, dil qaydalarını mənimsətmək, yaradıcı fəaliyyətə hazırlamaq vəzifələrini irəli sürür.

Psixoloqlar müəyyən etmişlər ki, uşaqların mühüm təbiət və cəmiyyət hadisələri haqqında baza təsəvvürləri bir-biri ilə sıx əlaqədardır. Onlardan hər hansı birinin zənginləşməsi digərinin əhəmiyyətli dərəcədə hərəkətə gəlməsi ilə nəticələnir.

Respublikamızda məktəbəqədər təlim-tərbiyə müəssisələri ilə məktəb arasında varislik məsələsinə müxtəlif dövrlərdə epizodik şəkildə toxunulmuşsa da, məqalələr yazılmışsa da, bununla

əlaqədar ciddi tədqiqat aparılmamış, xüsusilə müasir yanaşmaya toxunulmamışdır. Tədqiqatın məqsədi məktəbəqədər təhsil müəssisələri ilə ibtidai təhsil arasında varisliyin imkanlarını aşkara çıxarmaq, varislik və perspektivliyin səmərəli vasitə və yollarını işləmək, tərbiyəçilərin, xüsusilə, müəllimlərin yüksək hazırlığını təmin etməkdir.

**Problemin aktuallığı.** Problem tərbiyəçilər və ibtidai sinif müəllimlərinin peşə hazırlığının optimallaşdırılmasının müasir məsələlərinin əhatə edir.

**Problemin elmi yeniliyi.** Məqalədə varislik prinsipinin mahiyyəti, xüsusilə təhsilin iki mərhələsində – məktəbəqədər və ibtidai təhsil sahələri arasında varisliyin təmin edilməsinin forma, vasitə və metodları müəyyənləşdirilmişdir. Bu isə pedaqogika nəzəriyyəsinə töhfədir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən faydalanan tərbiyəçi və müəllimlər yalnız məktəbəqədər və ibtidai təhsil arasında deyil, ümumiyyətlə, varisliyin gözlənməsi üzrə işin yerinə yetirilməsi yollarını öyrənəcəklər.

## ƏDƏBİYYAT

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
2. Ağayev Ə., Rzayeva Y., Hüseynova T., Vahabova T., Sosial pedaqogika, Bakı: Mütərcim, 2008.
3. Beşyaşlıların uşaq bağçasında məktəbə hazırlanması təcrübəsindən // İbtidaİ məktəb və məktəbə-qədər tərbiyə, 2006, № 2
4. Birinci sinfə uşaq bağçasından və ailədən gələn uşaqların məktəbə hazırlıq səviyyəsinin müqayisəli təhlili // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2003, № 2
5. Cəfərova L., Cahangirova L. Məktəbəqədər yaşlı uşaqların idrak qabiliyyətlərinin inkişaf etdirilməsi // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2002, № 3
6. Kərimov Y.Ş. Uşaq bağçası ilə məktəb arasında varislik və perspektivlik // İbtidai məktəb və mə-k-təbəqədər tərbiyə, 2000, № 1

**В.Керимов**

## ПРЕЕМСТВЕННОСТЬ МЕЖДУ УЧРЕЖДЕНИЯМИ ДОШКОЛЬНОГО И НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ

### РЕЗЮМЕ

В статье речь идет о преемственности. Отмечается, что непрерывность между различными уровнями системы образования и перспективных контактов и связей, необходима для обеспечения идентификации. А также, установление преемственности между дошкольным и начальным образованиями имеет особое значения.

**V.Karimov**

## CONTINUITY BETWEEN PRESCHOOL AND PRIMARY EDUCATION

### SUMMARY

In this article we are talking about continuity. It is noted that the continuity between the different levels of the education system and promising contacts and connections necessary to ensure the identification. And also, to establish continuity between preschool and primary education is of particular importance.

*Redaksiyaya daxil olub: 06.10.2014*

# О КУЛЬТУРОЛОГИЧЕСКИХ ПОЗИЦИЯХ СОВРЕМЕННОЙ ПЕДАГОГИКИ

**Лачин Гасанова,**
*доцент Азербайджанского Государственного Педагогического Университета*
E-mail: lachinhasanova14@hotmail.com

**Rəyçilər:** *prof.* A. Abbasov,
*prof.* O. Rəcəbov

***Açar sözlər:*** *innovasiya, kulturoloji yanaşma, kulturoloji təhsil, kulturoloji mövqe, müasir pedaqogika*
***Ключевые слова***: *инновации, культурологический подход, культурологизация образования, культурологическая позиция, современная педагогика*
***Key words:*** *innovation, cultural approach, culturological education, culturological position, modern pedagogy*

Культурологический подход в образовании является важным фактором гармонического взаимодействия духовно-нравственных качеств личности. В основе современной социо-культурной концепции образования лежит гуманитарная составляющая, обеспечивающая готовность учащихся к восприятию и трансляции культуры на основе гуманистически ориентированной профессиональной позиции и профессиональных умений.

Особую значимость и актуальность культурологический подход приобретает в много-уровневой системе образования по подготовке специалистов с высшим музыкальным образованием.

Духовные ценности, постигаемые учащимися, всегда историчны и на каждом витке своего исторического развития обретают новый смысл. Взаимоисторическое развитие обретает новый смысл, и взаимодействуют с новыми ценностями, сохраняя в них их непреходящее значение.

Духовные ценности всегда выступают условием движения общества к высшим человеческим идеалам и ценностям. В связи с этим изучение культурных артефактов все больше выходит за рамки традиционного подхода, и становятся совокупностью духовных и материальных ценностей, создаваемых человеком в процессе его исторического развития. В этом смысле различают три типа культурологического развития – эволюционное, межкультурное и историческое.

Эволюционное развитие очень образно объясняется В.С. Библером: «Культура в своих произведениях позволяет нам – автору и читателю – как бы заново порождать мир, бытие предметов, людей, свое собственное бытие – из плоскости полотна, хаоса красок, ритмов стиха, философских начал, мгновений нравственного катарсиса».

Межкультурное развитие предполагает формирование у студентов равнозначного отношения к национальной и инновационной культуре, своего рода культурную толерантность.

Это позволит студентам сформировать в своем мировоззрении особый механизм смыслопостижения, связанный с интеграцией искусства.

Определенный тип культурологического развития – исторический – позволяет проследить возникновение и развитие новых культур в процессе смены исторических формаций.

Специфика музыки как вида искусства диктует необходимость изучения музыкальных произведений в более широком контексте художественной культуры, а именно во взаимосвязи и взаимодействии разных видов искусства. Культурологический подход, который аккумулирует целостность музыкально-педагогического образования и научно-

исследовательскую деятельность музыковедов способствует осуществлению анализа музыкальных произведений на историческом, теоретическом и методическом уровнях. Исторический уровень обобщает закономерности развития музыки в контексте художественной культуры, теоретический предполагает интеграцию музыки с другими видами искусства, устанавливает причинно-следственные связи музыкального образа с образным миром других видов искусств. Методический же уровень музыковедческие знания студентов с позиции теории художественно-педагогической деятельности.

«Культурологический метод… предполагает рассмотрения конкретного явления культуры как определенной самоценности, он будет направлен на анализ отношения данного феномена к культурной традиции и к культуротворчеству, раскрывая тем самым механизм социальной наследственности и регуляции».

Гармоническое взаимодействие духовно-нравственных качеств личности диктует культурологический подход в образовании. Сегодня в основе социокультурной концепции образования лежит гуманитарная составляющая, позволяющая учащемуся воспринимать и транслировать культуру на основе гуманистически ориентированной позиции, а также моделировать и проектировать вариативные способы деятельности.

Как было отмечено, что главенствующую роль в современной системе образования играет не традиционная трансляция знаний, а создание условий для формирования целостной личности, способной к полной реализации всех своих потенциальных возможностей, способной к инновациям.

В многоуровневой системе образования по подготовке специалистов с высшим музыкальным образованием культурологический подход имеет особую значимость и актуальность, поскольку профессионально-педагогическая направленность учебного процесса должна быть ориентирована на интеграцию музыкальных дисциплин, обеспечивающих культурологическую подготовку будущего специалиста, обеспечивающих инновационное понимание учебного контекста.

Так, специфика музыки как вида искусства диктует необходимость изучения музыкальных произведений в широком контексте художественной культуры, во взаимосвязи и взаимодействии разных видов искусств. И именно культурологический подход аккумулирует целостность музыкально-педагогического образования. Ученые предлагает осуществление культурологического подхода на историческом, теоретическом и методологическом уровнях.

Исторический уровень обобщает закономерности развития музыки в контексте художественной культуры, теоретический предполагает интеграцию музыки с другими видами искусства, методологический же уровень синтезирует музыковедческие знания учащегося с позиции теории художественно-педагогической деятельности.

Подчеркнем так же музыкальное искусство, являясь наиболее чувственным среди искусств, признано наиболее обобщенным, абстрактным искусством, своего рода художественным эквивалентом философии и математики.

Выработка новых, инновационных подходов к изучению музыкального искусства и культуры – одна из насущных, жизненно важных проблем современности науки и педагогики. Именно во время обучения формируется интерес к глубинным процессам, происходящим в искусстве, выявляется его эстетический базис, взаимосвязь традиции и новаторства, содержательности и мастерства. Между тем столь необходимая реформация отечественного музыкального образования до сих пор не имеет отчетливого концептуального обоснования.

Подчеркнем, что ведущая роль в системе музыкального образования принадлежит Вузам – поскольку в их структуре отпечатываются особенности всех предшествующих этапов (школы, училище) и вызревают общие прогностические тенденции учебного процесса в целом.

Нельзя недооценивать искусство как средство формирования эмоциональной и нравственной культуры. В этой связи отметим, что музыкальное образование в Азербайджане имеет глубокие и богатые традиции, но на сегодняшний день нуждаются в выработке инновационной концепции современного развития на основе синтеза сложившейся национальной образовательной системы, признанного опыта мировых музыкальных учреждений, а также новых и оригинальных введений в педагогический процесс.

Более того, стратегическая политика государства, направленная на решение данной проблемы заключается в исследовании концептуальных подходов к модернизации музыкального образования. Так, включение азербайджанской системы высшего образования в инновационное пространство еще ярче обозначило необходимость применения современных образовательных концепций и технологий.

В этом контексте особенно актуальным становится вопрос о разработке методологии общей теории музыкально-художественного образования, способной обеспечить реализацию ключевой задачи государственной политики в сфере культуры, искусства и образования, ориентированной на воспитание у молодого поколения потребности в непрерывном повышении уровня образованности посредством самообразования, призванной сохранять духовное здоровье нации, как основного ресурса, необходимого для ускорения прогресса.

В современном мире невозможно сводить музыкальное образование только к обучению и воспитанию музыкантов. Сегодня это социокультурный институт, в котором обучение организуется и осуществляется в сложнейшей системе общественно-государственных, культурных, экономических и иных отношений. Соответственно, история музыкального образования и его реформ представляет собой в определенной мере выражение истории музыкальной культуры. Изучение музыкального образования, протекавших в нем процессов поэтому не может ограничиваться рамками традиционной музыкальной педагогики. Оно вырастает в самостоятельную и по существу новую, интегративную область инновационных блоков.

В свою очередь в музыкознании складываются условия, способствующие подобному изучению: формирование новых исследовательских подходов, развитие таких отраслей, как музыкальная культурология, музыкальная эстетика, музыкальная психология, музыкальная социология компаративистика. При этом исследования, касающиеся музыкального образования и его реформ имеет не только самостоятельную ценность. Оно позволяет проникнуть в процессы развития музыкального искусства, культуры, науки и определить их связь под новым углом зрения.

**Актуальность статьи** заключается в рассмотрении автором культурологического подхода по подготовке специалистов с высшим музыкальным образованием в многоуровневой системы образования. Говорится о необходимости разработки методологии общей теории музыкально-художественного образования, способной обеспечить реализацию ключевой задачи государственной политики в сфере культуры, искусства и образования.

## ЛИТЕРАТУРА

1. Библер В.С. Нравственность. Культура. Современность. М., 1990.
2. Абдуллаева Р.Г., Саламзаде Э.А. Современное искусствознание: истоки, проблемы и методы. Баку: Элм, 1997.

**Л. Гасанова**

**О КУЛЬТУРОЛОГИЧЕСКИХ ПОЗИЦИЯХ СОВРЕМЕННОЙ ПЕДАГОГИКИ**

**РЕЗЮМЕ**

В данной статье подчеркивается, что именно духовные ценности выступают условием движения общества к высшим идеалам и ценностям. В этом смысле культурологические позиции в современной гуманитарной педагогики имеют мощный инновационный потенциал.

**L. Hasanova**

**ON THE CULTURAL POSITION OF MODERN PEDAGOGY**

**SUMMARY**

This article emphasizes that it is the spiritual values are the condition of society moving towards higher ideals and values. In this sense, cultural position in contemporary humanitarian pedagogy have a powerful potential for innovation.

*Redaksiyaya daxil olub: 14.10.2014*

# MÜASİR ŞƏRAİTDƏ KADR HAZIRLIĞINDA BİZNESİN ROLU

**Malik Qurbanov,**
*peşə-ixtisas təhsili şöbəsinin*
*böyük elmi işçisi*
*ARTPİ*
E-mail: tehsilproblemleri@mail.ru

**Rəyçilər:** *prof.* H. Əhmədov,
*prof.* İ. Cəbrayılov

***Açar sözlər:*** *strateji istiqamətlər, ilk peşə-ixtisas təhsili, maliyyələşdirilmə, şagird-müəllim nisbəti*

***Ключевые слова:*** *стратегические направления, начальное профессионально-специальное образование, финансирование, соотношение учителей и учащихся*

***Key words:*** *strategic directions, first profession-based education, financialization, student-teacher ratio*

Ölkəmizdə bazar iqtisadiyyatının inkişafı ilə bağlı işçi qüvvəsinə tələbat da artır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin İnkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"nın əsas məramı ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun peşə-ixtisas kadrlarına yaranan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki peşə təhsili sisteminin formalaşdırılmasıdır [1].

Bu sahədə mövcud problemlər aşağıdakılardır:

- İş dövründə təlim vasitəsi ilə bir sıra gənclər əsas bilik və bacarıqlara yiyənlənsələr də, dövlət əmək bazarının ehtiyaclarına uyğun təlimin təşkili üçün ilk peşə-ixtisas təhsili sisteminin təkmilləşdirlməsi və onun inkişafının dəstəklənməsi sahəsində müəyyən tədbirlər həyata keçirsə də bu günün tələblərindən geri qalır.
- Bazar iqtisadiyyatı şəraitində əlaqələrin pozulması nəticəsində ilk peşə-ixtisas təhsilinin fəaliyyət miqyası azalmışdır. Bu təhsil sahəsi və biznes qurumları arasında əlaqələr zəif olaraq qalmaqdadır.
- Təmir-tikinti, inşaat, kənd təsərrüfatı, metal emalı, maşınqayırma sənaye sahələri üzrə ixtisaslara ( elektrik – qaz qaynaqçısı, tornaçı, təmirçi çilingər və s.) kadr hazırlığı üçün sifarişlər azalmış, bir sıra ixtisaslara ("Proqramla idarə olunan dəzgahlar üzrə operator", "Alətçi çilingər", " Boru istehsalı üzrə operator", "Prokat istehsalı üzrə operator", "Zərgər" və s.) sifarişlər verilmir.
- Xidmət, ictimai iaşə sahələrinə sifarişlər artsa da əmək bazarındakı tələblərdən azdır.
- İlk peşə-ixtisas təhsili müəssisələri ilə maraqlı tərəflər arasında əməkdaşlığı tənzimləyən hökumət tərəfindən təsdiq edilmiş hüquqi normativ sənəd yoxdur.
- "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununda işəgötürənlər təhsil iştirakçıları siyahısına daxil edilməmişdir.
- Yüksək ixtisaslı və peşəkar mühəndis-pedaqoji kadrlar çatışmır.
- Əmək bazarının tələbləri dəqiq öyrənilmir.
- Mütəxəssis hazırlığı üçün verilmiş sifarişlər reallığı tam əks etdirmir.
- Hər hansı ixtisası (peşəni, profili və s.) seçib kadr hazırlayana qədər texnologiya qismən, yaxud tamam dəyişir (köhnəlir).
- Şagirdlərin ixtisaslarına uyğun istehsalat təcrübəsi keçməsi üçün lazımi şərait yoxdur.
- Maddi-texniki baza köhnədir.
- Normativ hüquqi baza zamanın tələblərinə tam cavab vermir.
- Çeviklik yoxdur.

- Fənnyönümlü tədris proqramları dövrün tələblərini ödəmir.
- Bir sıra ixtisaslar üzrə dərsliklər çatışmır.
- Yeni texnoloji avadanlığı almağa məktəbin maliyyə vəsaiti çatmır.
- Təhsil müəssisələrinin hazırladığı məhsul (mal, əmtəə və s.) bazarda rəqabətə dözmür, satılmır və s.
- Şagirdlərin hamısına eyni proqramla eyni səviyyədə ixtisas (peşə) öyrədilə bilmir.
- Sifarişçi, işəgötürən təhsil müəssisəsinə pul ödəmir, təhsilin keyfiyyəti ilə maraqlanmır, istehsalat təcrübəsinin təşkilinə şərait yaratmır.
- Təhsil müəssisəsi qazandığı pulu belə sərbəst şəkildə xərcləyə bilmir.
- Təhsilalanların hamısı eyni qabiliyyətdə deyil, amma məcburi şəkildə eyni ixtisası eyni vaxtda mənimsəməyə borcludurlar.
- İnsanları istədiyi vaxt məktəbə qəbul oluna bilmir, məktəbə ildə yalnız bir dəfə qəbul oluna bilirlər və yalnız təhsil müddəti başa çatdıqdan və bütün təhsil proqramını (kurikulumları) mənimsədikdən sonra təhsil haqqında sənədi ala bilirlər.
- Təhsil müddətində aldıqları təqaüd onların minimum istehlak səbətini ödəmir.
- Hüquqi baza onları qane etmir, sosial müdafiələri zəifdir , oğlanlar təhsili başa vurar-vurmaz, istehsalat təcrübəsini başa vurmadan və qazandıqları ixtisas üzrə işləmədən, məcburi şəkildə vaxtından əvvəl dövlət buraxılış imtahanı verib ordu sıralarında qulluğa aparılırlar.
- Təhsil müddəti çevik deyil.
- Məzunların qazandıqları bacarıqlar təhsil haqqında sənəddə öz əksini tam tapmır.
- Təhsil müddətində əldə edəcəkləri kompetensiyalar onlara tam məlum deyil.
- Təhsilalanların harada işləyəcəyi bilinmir. Məzunların böyük əksəriyyəti ixtisasları üzrə iş tapmaqda çətinliklərlə üzləşir.
- Mövcud təhsil proqramları (kurikulumlar) üzürlü səbəbdən vaxtından əvvəl təhsilini başa vurmaq istəyənlərə qazandıqları bacarıqlar üzrə işləmək hüququ verən təhsil haqqında sənəd almağa imkan vermir.
- Şagird nailiyyətlərinin qiymətləndirilməsinin mövcud meyarları təkmil deyil.
- Təhsilalanların əmək bazarı haqqında təsəvvürləri azdır.
- Təhsilalanların aldıqları nəzəri biliklərin çoxu gələcək işində ona lazım deyil.
- Praktik məşğələləri keçmək üçün aidiyyatı yeri yoxdur.
- Proqram materialının hamısını məcburi şəkildə öyrənilir, seçim yoxdur.
- Təhsilalanın istədiyi kompitensiyaları seçib öyrənmək imkanı yoxdur.
- İşəgötürənlərin ilk peşə - ixtisas təhsili müəssisələri barədə məlumatları məhduddur.
- İşəgötürənlərlə ilk peşə - ixtisas təhsili müəssisələri arasında əlaqələri tənzimləyən mexanizm yoxdur, bu barədə mövcud hüquqi baza təkmil deyil.
- İşləyən işçi heyətin fasiləsiz təhsili, onların ixtisasının artırılması və yenidən hazırlanması barədə işəgötürənlərin öhdəlikləri yoxdur.
- İşəgötürənlər kadr hazırlığının planlaşdırılmasında, təhsil proqramlarının (kurikulumların) hazırlanmasında və tətbiqində, istehsalat təlimi və təcrübəsinin təşkilində dövlət buraxılış imtahanlarında, məzunların ixtisası üzrə işlə təmin edilməsində, ilk peşə - ixtisas təhsili müəssisələrinin yüksək ixtisaslı işçi heyəti ilə təminində zəif iştirak edirlər.

İqtisadiyyatı sürətlə inkişaf edən Respublikamızda peşə təhsilini günün tələbləri səviyyəsinə çatdırmaq üçün ilk növbədə aşağıdakı məsələlər öz həllini tapmalıdır:

- Sürətlə dəyişən bazar iqtisadiyyatı şəraitində ilk peşə - ixtisas təhsili müəssisələri, işəgötürənlər və hökumət arasında tərəfdaşlıq qurmağa ciddi ehtiyac vardır. Hökumət TPT və işəgötürənlər arasında tərəfdaşlığın həyata keçirilməsi üzrə milli keyfiyyət çərçivəsi formalaşdırmalıdır.
- Stabil olmayan iqtisadi mühitə uyğunlaşa bilən ilk peşə-ixtisas təhsili müəssisələri yaradılmalıdır.

- İqtisadi sahələr üzrə qurumlar (işçi qrupları, sektor şuraları və s.) vasitəsi ilə işəgötürənlərin ehtiyaclarına cavab verən təlim nəticələrinin hazırlanmasında işəgötürənlərin birbaşa iştirakı təmin edilməlidir.
- Təcrübə mübadiləsi, xüsusi təlim və digər forma və üsullardan istifadə edərək ilk peşə - ixtisas təhsili müəssisələrini (İPİTM) yerli təlim ehtiyaclarının müəyyənləşdirilməsi və ödənilməsinə həvəsləndirmək, onlara dəstək göstərmək, işçi heyətinə biznes qurumları ilə təlim ehtiyaclarının təhlilini aparmaq bacarıqları aşılamaq.
- İPİTM pedaqoji şurasında, metodiki komissiyalarında (metodiki birləşmələrində) və digər müvafiq strukturlarında yerli biznes qurumlarının nümayəndələrinin fəal iştirakını təmin etmək.
- İPİTM-nin fənlərin məzmununu əmək bazarının tələblərinə və milli təhsil standartlarına uyğun dəyişə bilməsini və onların Təhsil Nazirliyi ilə razılaşdırılmasını təmin etmək.

İqtisadiyyatın inkişaf tempi ilə ilk peşə-ixtisas təhsili məzmununun uyğunlaşdırılması

Ölkə iqtisadiyyatının inkişafına və ilk peşə - ixtisas təhsilinin məzmununa təsir edən bir sıra amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Kompetensiyalara əsaslanan ixtisaslı kadr hazırlığı;
- məhsulun və xidmətin standart keyfiyyət səviyyəsinin işçinin hazırlığından, onun səriştəliliyindən, rəqabətəqabil olmasından və digər təsirlərdən çox asılı olması;
- müasir dövrün əsas gözəçarpan xüsusiyyəti olan sürətli *dəyişkənliyin* həyatın bütün sahələrində praktik olaraq mövcudluğu və yaxın keçmişə nisbətən çox sürətlə özünü göstərməsi;
- iqtisadiyyatın qloballaşması və onunla bağlı *“informasiya partlayışı”,* rəqabətin güclənməsi istehsal proseslərində, əməyin təşkilində, əmək qüvvələrinin məşğulluq modelində və əmək bazarında ciddi dəyişikliklər yaratması;
- fərdin yeni şəraitə uyğunlaşmaya hazır olması, qarşıya qoyulmuş yeni vəzifələrin öhdəsindən gələ bilməsi və öz karyerasını inkişaf etdirməsi məcburiyyətində qalması.

Hər bir ölkə iqtisadiyyatının inkişafına təsir edən əsas amillərdən biri kompetensiyalara əsaslanan ixtisaslı kadr hazırlığıdır. Peşə hazırlığı iqtisadiyyat həlqələrindən ən qiymətlisidir, çünki məhsulun və xidmətin keyfiyyət səviyyəsi işçinin hazırlığından, onun səriştəliliyindən çox asılıdır.

İqtisadiyyatın qloballaşması və onunla bağlı “informasiya partlayışı”, rəqabətin güclənməsi istehsal proseslərində, əməyin təşkilində, əmək qüvvələrinin məşğulluq modelində və əmək bazarında ciddi dəyişikliklər yaradır. Bu isə öz növbəsində fərdin bilik və bacarıqlarının məzmununda, həmçinin xarakterində modifikasiya tələb edir. İşçi yeni şəraitə uyğunlaşmalı, qarşıya qoyulmuş yeni vəzifələrin öhdəsindən gəlməli və karyerasını inkişaf etdirməlidir.

Bu sahədə Azərbaycanda aşağıdakı problemlər mövcuddur:

- Mövcud tədris plan və proqramların fənyönümlü olması;
- əmək bazarında baş verən sürətli dəyişkənlik barədə ilk peşə - ixtisas təhsili müəssisələrinin məlumatsızlığı;
- mövcud kurikulumların çevik olmaması;
- ilk peşə - ixtisas təhsili müəssisələrində kadr hazırlığı məzmununun yerli işəgötürənlərin xüsusi ehtiyaclarından geri qalması.

Azərbaycanda aşağıda qısaca şərhini verdiyimiz beynəlxalq təcrübədən istifadə etmək olar.

Birləşmiş Millətlər Təşkilatının xüsusi bölməsi olan Beynəlxalq Əmək Təşkilatı (BƏT) bir sıra ölkələrdə işsizliyin artması, işdən azad olmuş işsizlərin tez bir zamanda yenidən peşə hazırlığını və ya özünün məşğulluğunu təmin etməsi üçün ənənəvi pedaqogikanın çoxəsrlik təcrübəsinə əsaslanan çevik təlim sistemi yaratmışdır [14].

BƏT-in yaratdığı təlim sistemlərindən biri *əmək vərdişlərinin moduludur (ƏVM).* Bu termin:

✓ rus dilində - модул трудовых навыков (МТН),

✓ ingilis dilində - Modules of Employable Skills (MES) adlanır.

BƏT-in modul təlimi fasiləsiz peşə təhsilini (ömür boyu təhsili) təmin edir ki, bu da günün ən vacib məsələsidir.

ƏVM – qısa müddətdə kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılmasında mühüm rol oynayır və qısa müddətli kurslar üçün yaxşı alət sayılır. Başqa sözlə, *ƏVM – peşə hazırlığı metodu kimi* istənilən iş sahəsində bilik, bacarıq, vərdiş və xüsusi səriştələr əldə etmək üçün ən yaxşı alətdir. Peşə təhsilinin islahatı dövründə bir sıra ölkələr səriştəlilik prinsipinə əsaslanan modul təlimi tipi üzrə sənədlərin hazırlanmasına üstünlük verirlər. Çünki, bu tip hazırlama ənənəvi təlim sənədlərinin hazırlanmasına nisbətən (müqayisədə) çox əlverişli və yaxşı nəticə verən hazırlıq olub təhsil sistemi qarşısında duran problemlərin həlli üçün çox yararlıdır.

Almaniya, İngiltərə, Şotlandiya və bu kimi Avropa ölkələrində Kompetensiyalara Əsaslanan Modul Texnologiyaları da ilk peşə - ixtisas təhsili məzmununun iqtisadiyyatın inkişaf tempinə uyğunlaşmasına kömək edir [13]. Düşünürük ki:

- İqtisadiyyatın inkişaf tempi ilə ilk peşə-ixtisas təhsilinin məzmununun uyğunlaşdırılması üçün tezliklə kompetensiyalara əsaslanan modul təliminə keçmək.
- İlk peşə - ixtisas təhsili üzrə ixtisasların yeni Təsnifatına uyğun ixtisas qrupları (məsələn, iaşə xidməti, bank işi, gəmiçilik, yeraltı mədən işləri, metallurgiya və s.) üzrə daimi fəaliyyət göstərən, xüsusi statusa malik sektor şuraları yaratmaq lazımdır.

*İlk peşə-ixtisas təhsilinin yeni məzmunu.* Azərbaycan Respublikası Prezidentinin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007 – 2012 ci illər)"da göstərildiyi kimi ölkəmizdə texniki peşə təhsili məzmununun yeniləşdirilməsi sahəsində xeyli iş görülmüş, tədris plan və proqramlarının təkmilləşdirilməsi istiqamətində əməli addımlar atılmışdır [5].

Bununla yanaşı son illər ölkədə iqtisadiyyatın sürətlə inkişafı bazaryönümlü islahatların dərinləşməsi və regionların sosial-iqtisadi inkişafındakı müsbət dəyişikliklər ilk peşə-ixtisas təhsili sistemi qarşısında yeni tələblər qoyur. Hazırda əmək bazarında yüksək ixtisaslı kadrlara yaranan və gündən – günə artan tələbatı ödəmək üçün ilk peşə-ixtisas təhsilinin yeni məzmununun işlənib hazırlanması çox vacib məsələ kimi ön plana çəkilir.

İlk peşə-ixtisas təhsilinin maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sistemdə yeni iqtisadi münasibətlərin formalaşması, təhsilin bu pilləsi üçün kadr hazırlığı işinin və idarəetmənin təkmilləşməsi, texniki peşə təhsilinin ictimai statusunun yüksəlməsi ilə yanaşı onun məzmunca müasir tələblər səviyyəsində yeniləşdirilməsi istiqamətlərində də məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

İlk peşə-ixtisas təhsilinin yeni məzmununun əsasını təhsil proqramları (kurikulumlar) təşkil edir [7].

Bu proqramlar:

- Konkret peşə və ixtisas üzrə ilk peşə -ixtisas təhsilinin dövlət standartlarının məqsəd və vəzifələrinin həyata keçirilməsinə istiqamətlənməli;
- təhsilalanların fasiləsiz olaraq keyfiyyətli ümumi təhsil və peşə səviyyəsinin yüksəldilməsinə yönəldilməli;
- şagirdlərin öyrəndikləri peşə və ixtisas üzrə nəzəri, istehsalat təlimi və istehsalat təcrübəsinin həyata keçirilməsini özündə birləşdirməli;
- ümumtəhsil məktəblərinin müvafiq ümumi təhsil proqramları ilə ilk peşə-ixtisas təhsili müəssisələrinin təhsil proqramları arasında varisliyi təmin etməli;
- ilk peşə-ixtisas təhsili yalnız müvafiq lisenziyası olan ilk peşə təhsili müəssisələri tərəfindən həyata keçirilməli;
- ilk peşə-ixtisas təhsili üzrə dövlət standartları, əsasında ilk peşə təhsili müəssisələri tərəfindən müstəqil surətdə müvafiq təhsil proqramları tərtib və tətbiq olunmalı;
- elmi texniki tərəqqinin inkişafı və dəyişən bazar iqtisadiyyatı şəraitində istehsalatda və texnologiyada baş verən dəyişikliklərin nəzərə alınması ilə əlaqədar kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması zamanı onların əlavə təhsil almaları, təmin etməli.

Qeyd edək ki, ilk peşə - ixtisas təhsilinin yeni məzmununun işlənib hazırlanması üçün əməli tədbirlərin görülməsinə ciddi ehtiyac vardır. Yeni cevik təlim texnologiyaları hazırlanmalı, distant və digər təhsil formalarından geniş istifadə olunması mexanizmi işlənib hazırlanmalıdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin ilk peşə-ixtisas təhsili sahəsində sadalanan problemlərlə bağlı apardığı təhsil siyasətinə dəstək olmaq üçün Kompetensiyalara Əsaslanan Təhsil Proqramlarının (kurikulumların) hazırlanması və tətbiqi məsələlərinin tədqiq edilməsi ehtiyacı yaranmışdır. Güman edirik ki, bu tədqiqat nəticəsində əldə edilmiş məlumatlar və təhlillər sadalanan problemlərin aradan qaldırılmasına kömək edəcəkdir.

**Problemin aktuallığı.** Peşə-ixtisas təhsili müəssisələri bazar iqtisadiyyatı şəraitində biznes qurumlarının tələbləri əsasında kadr hazırlamalıdırlar. Hazırlanmış kadrlar elə kompetensiyalara malik olmalıdır ki, işə götürən onlarda axtardığı səriştəni tapa bilsin. Kadr hazırlığı xeyli vaxt və sərmayə tələb edən prosesdir. Odur ki, bu vaxt və sərmayə elə istiqamətə yönəlməlidir ki, onun hesabına hazırlanan kadrlara əmək bazarında ehtiyac olsun. Bazar iqtisadiyyatı şəraitində ehtiyac olmayan sahələr üçün hazırlanmış kadrların işsiz qalacağı qabaqcadan bəllidir. Bazar iqtisadiyyatı şəraitində kadr hazırlığı zamanı biznesin rolu böyük önəm daşıyır. Odur ki, kadrlar məhz onların sifarişi əsasında hazırlanmalı və onlara biznes qurumlarının tələb etdiyi kompetensiyalar aşılanmalıdır.

**Problemin elmi yeniliyi.** Məqalədə mövcud peşə təhsili sistemi üçün böyük önəm daşıyan bir məsələnin elmi şərhi verilmişdir. Belə ki, kadr hazırlığı üçün biznes qurumları ilə partnyorluq hər iki tərəf üçün faydalı olmaqla yanaşı böyük perspektivlər də açır. Biznes qurumları peşə standartlarını – yəni onun işə götürmək istədiyi şəxsdə görmək istədiyi keyfiyyətləri (kompetensiyaları) peşə təhsili müəssisəsinə verir, peşə təhsili müəssisəsi isə peşə standartlarını təhsil standartlarına çevirməklə texnoloji prosesi elə qurur ki, sonda işəgötürən ona lazım olan işçini əmək bazarını axtarmadan birbaşa tədris müəssisəsindən əldə edir.

**Problemin praktik əhəmiyyəti.** İşəgötürən ilə kadr hazırlayan peşə məktəbləri qarşılıqlı əlaqələr qurur. Tərəflər praktik olaraq bir-birini tanıyır, əlaqələr qurur və birgə işləyirlər. Biznes qurumu istədiyi peşə üçün tədris müəssisəsinə öz standartını təqdim etməklə arzuladığı kompetensiyaları (səriştələri) bildirir.

**ƏDƏBİYYAT**

1.Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər). Bakı, 2007.

2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqoqika, 2004.

3. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu, 2003.

**М. Гурбанов**

**РОЛЬ БИЗНЕСА В ПОДГОТОВКЕ КАДРОВ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ**

**РЕЗЮМЕ**

В статье говорится о требовании подготовки новых кадров в условиях рыночной экономики и о роли бизнеса в этой работе. По темпу развития экономики исследованы данные проблемы и определены аспекты соотношения учителя и ученика для подготовки высококвалифицированных кадров профессионально-технического образования. И статье говорится о необходимости перехода на модальную технологию, основанное на компетенциях.

**M. Kurbanov**

**ROLE OF BUSINESS IN TRAINING IN THE CURRENT CONDITIONS**

**SUMMARY**

The article refers to the requirement of training new personnel in a market economy and the role of business in this work. The pace of development of the economy studied these problems and identify aspects of teacher-student ratio for training highly qualified technical and vocational education. And the article says about the need to go to the modal technology, based on competences.

*Redaksiyaya daxil olub: 10.09.2014*

# МЕСТО И ЗНАЧЕНИЕ ПЕДАГОГИКИ В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ

**Зоя Велибекова,**
*доцент кафедры педагогики*
АГПУ
**Сахиля Оруджева,**
*доцент кафедры педагогики*
АГПУ
E-mail: sevilahundova1@yahoo.com

**Рецензенты:** *проф.* И. Исаев,
*докт.фил.по пед.* М. Гасанов

***Açar sözlər:*** *qloballaşma təhsil sistemi, təhsil islahatları, təhsil, dünyagörüşü, mədəniyyət*
***Ключевые слова:*** *процесс глобализации, система образования, образовательные реформы, обучение, кругозор, культура*
***Кей wордс:*** *элобализатион, едуъатионал сйстем, едуъатионал реформс, едуъатион, wорлдуриде, ъултуре*

Современный этап развития общественных отношений, процесс глобализации и интеграции в мировое пространство и, связанная с этими процессами дальнейшая социализация личности, ставит перед педагогической наукой новые задачи по воспитанию поколения, отвечающего этим требованиям и в первую очередь, создания в связи с этим такой системы образования, которая станет частью мирового образовательного пространства, предполагающего широкое внедрение в сферу образования новейших учебных, компьютерных, информационных, коммуникационных технологий и интернета.

В системе образования Азербайджанской Республики проводятся масштабные реформы, вызванные объективными, общественными, экономическими и социокультурными процессами, возникшими в конце XX столетия и которые направлены на интеграцию нашей системы образования в мировое образовательное пространство.

В настоящий период приобретения нашей страной экономического и политического суверенитета, национального возрождения и самосознания, в период возвращения к своим национальным истокам и историческому прошлому, на передний план выдвигается наиболее актуальная проблема сегодняшнего подрастающего поколения на основе национальных и общечеловеческих ценностей.

За последние 10 лет в системе образования республики, включившейся в Болонский процесс и подписавшей 19 мая 2005 года Болонскую декларацию «О создании единого европейского пространства высшего образования» происходят системные и коренные преобразования в среднем и высшем образовании, ориентированные на воспитание гражданина способного к интеграции в мировое и европейское образовательное пространство.

Образовательные реформы, осуществляемые в республике, преследуют цель воспитания образованного, обладающего высоким уровнем культуры гражданина, основное содержание знаний которого должно основываться на национальных и общечеловеческих ценностях, на самых передовых и прогрессивных идеях мировой общественной мысли, науки и культуры. Поколения, которое должно обладать всесторонними знаниями и умениями, высоким уровнем культуры, передовым демократическим мировоззрением. Все их помыслы, и деяния должны быть направлены на создание в Азербайджане высокоцивилизованного общества и сильного демократического государства. И поэтому, основной целью является воспитание личности, являющейся носителем идей национальной независимости, живущей в

современном многомерном мире с различными культурно-воспитательными и образовательными традициями, в стране уверенно входящей в мировое сообщество и в мировое образовательное пространство.

В связи с претворением в жизнь вышеизложенных задач и достижения поставленных целей встает необходимость внесения определенных корректив, как в содержание, так и в преподавание курса «Педагогики» педагогических учебных заведениях, готовящих будущих профессиональных педагогов.

Этот курс должен охватывать основные проблемы общей, сравнительной и социальной педагогики, дидактики, педагогической психологии, истории образования и воспитания. В рамках единого подхода сюда должны быть включены актуальные педагогические проблемы, связанные с предметом педагогики, воспитанием и образованием в современном и историческом контексте, вопросы профессиональной педагогической деятельности, педагогического и социального общения, как наиболее важного современного фактора воспитания. Личности учащегося, как участника педагогического процесса, её развития и дальнейшей социализации в обществе и семье, психолого-педагогической диагностики, как важного критерия подготовленности учителя к педагогической деятельности.

Закономерным является и изучение вопросов связанных со структурой образования, со знаниями о путях и способах воспитания, о видах и типах получения образования не только у нас в стране, но и во всем мире, об основах и особенностях среднего и высшего образования, которые в свою очередь будут содействовать расширению профессионального кругозора студентов и приобщению их к элементам педагогической культуры, как составной части общей культуры будущих специалистов в рамках реализации государственного образовательного стандарта современного высшего учебного заведения.

Правильная постановка преподавания педагогики стимулирует проявление у студентов интереса к проблемам и характеру обучения и воспитания, получения квалифицированного образования, приобщение к передовым учебным технологиям, тем самым обеспечивая их личностное и профессиональное становление и совершенствование, а также содействует укреплению позиции педагогики в общей системе подготовки человека к гуманному и компетентному решению жизненно важных задач.

Педагогика такая сфера человеческой деятельности, которая связана с передачей жизненного опыта от старшего поколения к младшему, т.е. она призвана осуществлять взаимосвязь народной педагогики с педагогическим мастерством и искусством воспитания. Именно педагогика изучает, познает и совершенствует способы влияния на развитие и формирование человеческой личности в неразрывной связи с природным, общественным и индивидуальным. И поэтому преподавание педагогики в свете поставленных задач должно строиться с опорой на целостные и систематические знания о развивающемся человеке, в тесной связи с психологией, философией, социологией и другими науками о человеке. Нужно учитывать и тот факт, что значение педагогики как отрасли гуманитарных знаний входит в общекультурный контекст современный жизни и проявляется в качестве педагогической культуры человека, что особенно важно с точки зрения подготовки учительских кадров. Воспитание и формирование человеческой личности очень трудоемкий, сложный и длительный процесс, и не каждый человек способен достойно заниматься этой деятельностью.

В этой связи очень современно звучат слова известного русского педагога К.Д.Ушинского: «Искусство воспитания имеет ту особенность, что почти всем оно кажется делом знакомым и понятным, а иным даже делом легким – и тем понятнее и легче кажется оно, чем менее человек с ним знаком, теоретически или практически. Почти все признают, что воспитание требует терпения, некоторые думают, что для него нужна врожденная способность и умение, т.е. навык, но весьма немногие пришли к убеждению, что кроме

терпения, врождённой способности и навыка необходимы еще и специальные знания» (Ушинский К.Д. Избр.пед.соч.в.2-х томах. М. 1974,т 1,с.231).

Необходимость целенаправленный и координированной профессиональной педагогической подготовки обусловлена и тем, что процессе профессионального решения педагогической задачи, при анализе той или иной сложившейся ситуации педагог сознательно опирается на определенную систему правил и требований, целенаправленно может выбрать из педагогической науки и практики эффективные методы, приемы и средства для решения педагогической задачи применительно к данной конкретной ситуации. Наряду с этим, грамотный педагог располагает определенными знаниями и умениями по планированию поступательности своих действии и поступков, а также может установить эффективность своей деятельности проанализировав ее в психолого-педагогическом аспекте.

Нужно так построить учебный процесс, чтобы будущий педагог был готов к профессиональному решению педагогических задач, владел спецификой деятельности по образованию и воспитанию и в ходе решения определенных педагогических задач приобретал определенный профессиональный опыт и мастерство. Для этого в процессе преподавания педагогики нужно сформировать будущего педагога- профессионала, умеющего решать такие важные педагогические задачи, как использования на уроках передовых учебных технологии, постановка и решение проблемных задач и проведение этих уроков, усовершенствование известной образовательной схемы и разработка новых учебных и образовательных ситуации, умение сочетать на уроках групповую, коллективную и индивидуальную формы работ с учащимися, обеспечение учителем условий для развития творческих способностей учащихся, стимулирование интереса к познавательной деятельности и ее активизация, создание правильной атмосферы в общении с учащимися в этом процессе и условии для правильной социализации учащихся и т.п.

Все это должно служить достижению основной цели формированию высокоинтеллектуального, образованного, воспитанного, обладающего передовым мировоззрением гражданина Азербайджанской Республики, достойно представляющего свой народ на международной арене. Достижение этой цели связано, в первую очередь, с достойным уровнем подготовки педагогических кадров.

**Актуальность проблемы.** Актуальность вопроса заключается в том, что современная система образования, которая находится в процессе реформирования, должна строиться на основе национальных и общечеловеческих ценностей. Этой цели служат образовательные реформы, проводимые в Республике в системе образования.

**Научная новизна проблемы.** Научная новизна заключается в том, что пожчеркивается важность и значение усовершенствования образовательной системы Азербайджана, которая будет стимулировать интерес молодежи к проблемам и характеру обучения через приобщение и изучение ими основ наук.

**Теоретико-практическое значение проблемы.** Теоретико-практическое значение заключается в том, что новая система образования Азербайджана будет служить важным задачам приобретения профессионального опыта у будущих педагогов, сегодняшних студентов во время учебы.

## ЛИТЕРАТУРА

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2007.
2. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. 2009.
3. Ali məktəb pedaqogikası. Bakı, 2009.
4. Бордовская Н., Реан А. Педагогика. М., 2011.

**Z.Vəlibəyova, Z.Orucova**

**MÜASiR TƏHSiLDƏ PEDAQOGiKANIN YERi VƏ ƏHƏMiYYƏTi**

**XÜLASƏ**

Məqalədə respublikada aparılan təhsil islahatları sahəsində ali məktəblərdə müasir təhsil prosesində pedaqogikanın tədrisi, əhəmiyyəti və rolundan bəhs edilir. Müasir təhsil sistemi milli və ümumbəşəri dəyərlər əsasında qurulmalıdır. Respublikada təhsil sistemində aparılan təhsil islahatları bu məqsədə xidmət edir. Bütün bunlar öz xalqını beynəlxalq arenada layiqincə təmsil edən, müasir dünyagörüşə malik Azərbaycan Respublikasının vətəndaşının formalaşmasına xidmət etməlidir.

**Z.Velibekova, Z.Orudjeva**

**PLACE AND IMPORTANCE OF PEDAGOGY IN MODERN EDUCATION**

**SUMMARY**

The urgency of the matter is that the modern system of education, which is in the process of reform should be based on national and universal values. This purpose is served by the educational reforms carried out in the Republic in the obrazovaniya. Scientific novelty lies in the fact that importance and value improvement of the educational system of Azerbaijan, which will stimulate the interest of young people to the problems and the nature of teaching and learning through the communion of the fundamentals of science.

*Redaksiyaya daxil olub: 25.11.2014*

# MƏKTƏBİN METODİK TƏMİNATININ OPTİMALLAŞDIRILMASI

**İlhamə Əsədova,**
*ARTPİ-nin elmi işçisi*
E-mail: ashadova@inbox.ru

**Rəyçilər:** *prof.* P.Əliyev,
*dos.* M. Kazımov

***Açar sözlər:*** *metodiki xidmət, metodiki təminat, təhsil müəssisəsi, maddi baza, təlim modulu*
***Ключевые слова:*** *методические услуги, методическое обеспечение, учебное заведение, материальная база, учебный модуль*
***Key words:*** *methodical service, methodical supply, Educational institution, the material base, Training module*

Təhsil sisteminin əsas istiqamətlərindən biri ümumtəhsil məktəblərində yüksək nəticələrin əldə edilməsinə xidmət edən məktəbin idarəetmə xidmətinin günün tələbləri səviyyəsində olmasıdır. Məktəbin idarə edilməsinin mühüm sahələrindən biri isə müəllimlərlə metodik işin təşkilidir. Bu iş rayon (şəhər) təhsil şöbələri (idarələri) nəzdində təşkil edilmiş metodik mərkəzlər tərəfindən icrası nəzərdə tutulur. Təhsil Nazirliyinin 01 fevral 2002-ci il tarixli, 111 nömrəli əmri ilə təsdiq edilmiş "Rayon (şəhər) təhsil şöbəsinin metodik kabineti haqqında Əsasnamə"sinə əsasən metodikmərkəz rayon (şəhər) təhsil şöbəsini (idarəsinin) işçi orqanı olmaqla onun tabeliyindəki bütün təhsil müəssisələrində metodik xidməti həyata keçirməli, öz fəaliyyətində ”Təhsil qanunu”n, direktiv orqanların təlim-tərbiyə sahəsinə dair normativ sənədlərini, “Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin nümunəvi Nizamnaməsi”ni, Təhsil Nazirliyinin, Təhsil Problemləri İnstitutunun və yerli təhsil orqanlarının əmr, sərəncam və təlimatlarını, həmçinin bu əsasnaməni rəhbər tutmalı, tabeliyindən asılı olmayaraq dövlət və qeyri – dövlət təhsil müəssisələrinə metodik xidmət göstərməlidir.

Əsasnamədə metodik mərkəzin vəzifələri, fəaliyyətinin məzmunu və formaları, strukturu, ştatları və ona rəhbərlik, maddi bazası, vəsaiti məsələləri əks olunmuşdur. Bundan əlavə metodiki xidmətin yaxşılaşdırılmasına, bu məqsədlə dayaq məntəqələrinin işinin xidmət edən bir sıra tədbirlər planı hazırlanmışdır. Ancaq yüksək nəticənin əldə olunması üçün əsas vəzifə nəzərdə tutulanların tətbiqi mexanizminin reallaşdırılması olmalıdır. Ən başlıcası, eyni məqsədlə tədris prosesi iştirakçılarının təhsil ehtiyaclarının və maraqlarının təmin edilməsini həyata keçirmək tələb olunur. Uzun müddət kölgədə qalan, lakin müəllimlərin metodik hazırlığı və peşəkarlıq səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyət daşıyan metodik xidmət təhsilin inkişafında həlledici qüvvə kimi xarakterizə olunur.

Müasir dərsin keyfiyyəti metodmərkəzlərin idarəetmə işinin məzmunundan və onun müasir tələbə uyğun təşkil edilməsindən asılıdır. Metodist müəllimin ən yaxış köməkçisi və təlimçisi olmalıdır. Deməк, metodistlər peşəkar təlimçilər kimi yetişməlidir. Metodik mərkəzlərin nəzdindəki dayaq məntəqələrinin rəhbərləri, metodbirləşmə rəhbərlərinin təlimçi və təşkilatçı kimi bacarıqlara malik olması da vacib məsələlərdəndir. Təhsildə mərkəzi və idarəetmə orqanları arasında planlaşdırma və hesabatvermə məsələləri öz əksini tapmalıdır. Metodist təhkim olunduğu məktəbdə işləyən müəllimin uğurları və geriliklərinə cavabdehlik və məsuliyyət olması, böyük məktəblərdə metodbirləşmə kafedralarla, məktəblərdə hazırda mövcud olan açıq dərslərin ustad dərslərlə əvəz edilməsi müsbət nəticələrin əldə olunmasına imkan yaradar. Metodik mərkəzin elə bir xüsusi elektron ünvanını yaradılmalıdır ki, bu ünvan, ümumtəhsil məktəblərinin metodik təminatında metodik mərkəzlərin işinin idarə olunmasına yardımçı olsun, metodiki təminatının müəyyən qədər ödənilməsinə xidmət göstərsin, müəllimin maraq və tələbatına cavab versin. Həmin ünvanda səlahiyyətli orqanların nəzarəti ilə metodiki təminata xidmət edən materialların: metodiki mərkəzin Əsasnaməsi, təhsil orqanları tərəfindən qəbul olunmuş qərarlar, yeni nəşr olunmuş dərslik və

metodik vəsaitlərin proqramı, xüsusən müəyyən tələblərə, standartlara cavab verən, yoxlamadan keçmiş yerli, həmçinin digər ölkələrin (dublajla da etmək mümkündür) ustad dərslərinin və s. yerləşdirilməsi də vacibdir. Pedaqoji təhsil müəssisələri bir-birləri ilə daha sıx əlaqələr yarada bilən, virtual əməkdaşlıq şəraitinin yaradılması, xüsusən bölgələrdəki məktəblərin inkişafı üçün bu tədbirlər günün tələbatı olmaqla, ölkədə bərabər təhsil almaq imkanına zəmin yaradar. Distant təhsil müəllimlərin ömürboyu təhsilinin təminatçısı ola bilər.

Aparılan araşdırmalar göstərir ki, bir sıra sahələrdə olduğu kimi metodiki mərkəzin idarə olunmasında da müəyyən irəliləyişlər olsa da, çatışmazlıqlar da özünü büruzə verir. Ən başlıcası odur ki, əvvəlki idarəetmə bu günün tələblərinə cavab verə bilmir, yeni idarəolunma mexanizmi isə hələ mükəmməl səviyyədə deyil, və ya yaranmayıb. Milli və beynəlxalq əmək bazarında rəqabətə davamlı kadr hazırlığı məhz müəyyən xüsusiyyəti özündə cəmləşdirən güclü, mükəmməl müəllim ordusu tərəfindən həyata keçirilə bilər. Bu gün təhsildə yaranan çatışmazlıqların səbəbi metodiki xidmətin planlaşdırılması və təşkilinin yeni yönümdə işlənməsinə, metodik mərkəzin idarə olunması işinə yeni yanaşmalar zərurəti yaradır.

Təbii ki, inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir milli təhsilin davamlı inkişafının başlıca şərtlərindən biri də rəqabət qabiliyyətliliyin təmin edilməsidir ki, bu da, yalnız modernləşdirmə vasitəsilə mümkündür. Başqa sözlə desək, milli təhsilin modernləşdirilməsi, davamlı inkişafdan irəli gələn bir zərurət kimi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan da, davamlı inkişaf, modernləşdirmə və s. kimi məsələlərin elmi cəhətdən araşdırılması, əsaslandırılması, bu istiqamətdə müvafiq təklif və tövsiyələrin işlənib hazırlanması, o cümlədən müvafiq mütəxəssislərin yetişdirilməsi olduqca mühüm aktuallığa malikdir və günümüzün reallığından irəli gəlir.

Bəs modernləşmə nədir? Modernləşmə (modernisation) dedikdə, müasir dövrün tələblərinə uyğunlaşmaq, yeni tələb və normalara, texnoloji proseslərə uyğunlaşmaq, bütün insan cəmiyyətlərinin, tarixin hər mərhələsində ehtiyac duyduğu, mövcud zamanla ayaqlaşma fəaliyyətidir.

Təhsil islahatının həyata keçirildiyi, ayrı-ayrı bilik sahələri üzrə informasiyaların çoxaldığı, fəal təlim metodlarının geniş miqyasda tətbiq edildiyi hazırkı şəraitdə metodiki mərkəzlərin strukturunun təkmil olmaması pedaqoji innovasiyaların çevik şəkildə təhsil müəssisələrinə çatdırılmasına, metodistlərin peşəkarlıq səviyyəsinin davamlı olaraq yüksəldilməsinə imkan vermir, onların tədqiqatçılıq, yaradıcılıq, istiqamətvericilik fəaliyyətini məhdudlaşdırır. Metodiki mərkəzlərin maddi-texniki bazasının zəif olması da metodik xidmətin səmərəli təşkilinə mənfi təsir göstərir.

Metodik xidmətin təşkili sahəsində mövcud beynəlxalq təcrübəyə əsaslanaraq Azərbaycan üçün məqbul variantın müəyyənləşdirilməsi metodik xidmətin səmərəli təşkili üçün yeni mexanizmlərin işlənib hazırlanması, metodik xidmət sahəsinin normativ - hüquqi bazasının yeniləşdirilməsi zamanın tələbindən irəli gəlir. Mövcud vəziyyət bir sıra məsələlər üzərində yenidən işlənilməsi zərurəti yaranır. Metodiki işin təşkili iki istiqamətdə aparıla bilər: regionlar üzrə və mərkəzləşmiş formada.

İlk növbədə modernləşmə tələbatının ödənilməsi istiqamətində fəaliyyət planının hazırlanmasına ehtiyac var. Azərbaycan təhsilində fəaliyyət göstərən hər bir müəllim, rəhbər pedaqoji işçilər innovasiyalardan xəbərdar olmalı, dünya təhsil sisteminin faydalı, müvəffəqiyyətli təcrübələrini öyrənməli, yaradıcı yanaşma ilə tətbiqinə nail olmalıdır. Digər tərəfdən tələblər elə qurulmalıdır ki, yeni elmi-metodik ideyalara yiyələnmək müəllimin daxili tələbatına çevrilsin. Bu, metodik mərkəzin fəaliyyət planında öz əksini tapan müəllimlərin müxtəlif təyinatlı (əlavə təhsilin yeni modelə əsasən əlavə təhsil aşağıdakı üç təlim modulu üzrə həyata keçirilir: I modul - peşə fəaliyyətinin ümumi əsasları üzrə təlim; II modul - ixtisas sahələri üzrə təlim; III modul - innovasiyalar üzrə təlim) təlimlərə cəlb olunması ilə bağlı məsələnin həllinə gətirib çıxarar. Son illər yeni təlim texnologiyalarının öyrənilməsi ilə bağlı respublika çərçivəsində geniş miqyaslı təlimlər həyata keçirilir. Əlbəttə bu sahədə müəyyən irəliləyişlər danılmazdır. Ancaq daha optimal variantların nəzərdən keçirilməsi ilə geriliklərin aradan qaldırılması vacibdir. Məktəbin metodik təminatının optimallaşdırılması prosesində gözlənilən nəticəni aşağıdakı kimi göstərmək olar:

1. Metodik mərkəzlər (gələcəkdə resurs mərkəzləri) öz işilərini rayon təhsil şöbələrinin (idarələrinin) (gələcəkdə Regional mərkəzlərinin) fəaliyyət planına uyğun planlaşdırır, təşkil və idarə edirlər.

2. Metodik mərkəzlər (gələcəkdə resurs mərkəzləri) metodik mərkəzin vəzifələrini, fəaliyyətinin məzmunu və formaları, strukturu, ştatları və ona rəhbərlik, maddi bazası, vəsaiti məsələlərini özündə birləşdirir.

3. Ümumtəhsil məktəblərinin metodiki təminatında metodik mərkəzlərin (gələcəkdə resurs mərkəzlərin) idarə olunması işinin məqsədi məktəblərə metodiki xidmətlər göstərməkdən ibarətdir. Yəni müəllimlərin pedaqoji - metodik hazırlığını yüksəltməkdən, özünütəhsilə və yaradıcı işə cəlb etməkdən, habelə onların ixtisasartırması və peşə ustalıqlarının yüksəldilməsi üçün şərait yaratmaqdan, milli və beynəlxalq qabaqcıl təcrübənin öyrənilməsi, yayılması və tətbiqinin təşkili işinin idarə olunmasını həyata keçirir.

4. Metodmərkəzlərin (gələcəkdə resurs mərkəzlərinin) işinin idarə olunması nəzərdə tutulan məqsədlərin reallaşdırılmasına xidmət edir. Nəzərdə tutulan məqsədlər və əldə olunana real nəticələri təhlil və müqayisə edir, uğursuzluqların olmaması üçün qabaqlayıcı tədbirlər hazırlayırlar.

5. Metodiki mərkəzlər (gələcəkdə resurs mərkəzləri) tədris prosesi iştirakçıların maraqlarını və ehtiyaclarının təmin edilməsini həyata keçirir

6. Dayaq məntəqəsi, fənn və metodbirləşmələrin rəhbərlik təlim kurslarından keçmiş, qabaqcıl təcrübəyə, ixtisas biliklərinə və İTK dan istifadə etmək bacarığına malik müəllimlərə tapşırılır.

7. Metodiki mərkəzlər (gələcəkdə resurs mərkəzləri) müasir məktəbin tələblərinə cavab verə bilən müəllim hazırlığında həlledici mövqedə dayanır. Müəllimlərin: ixtisas və şəxsi təhsillərinin artırılması, dərinləşdirilməsi və təkmilləşdirilməsi işində baza rolunu oynayır. Onları pedaqoji mühazirələr və dərs nümunələri müsabiqələrinə, elmi-praktik konfranslara, mətbuatda nəzəri və metodik məqalələrlə çıxışlarına hazırlığını və iştirakını təşkil edir.;

8. Metodmərkəzin müdiri kadrların seçilməsində iştirak edir və müəyyən səlahiyyətlərə malikdir.

9. Metodmərkəzin Təhsil Nazirliyinin qeydiyyatında keçmiş elektron ünvanı olmalıdır. Bu ünvanda pedaqoji işçilər, müəllimlər metodiki təminatla bağlı lazım olan dövlət sənədlərini, yoxlamadan keçmiş nümunə dərslərini əldə etmək və öz yaradıcılıq ılərinin bu ünvanda yerləşdirilməsinə imkanına yaradılmalıdırr.

10. Metodmərkəz distant təlim layihəsinə qoşumalı və tabeliyində olan pedaqoji işçiləri, müəllimləri distant təlimə cəlb etməlidir.

Məqalənin aktuallığı məktəbin metodiki təminatının ödənilməsində metodiki mərkəzlərin gücündən səmərəli istifadə olunması, işinin idarəolunmasının optimal variantlarına yönəlməkdən ibarətdir.

Məqalənin praktik əhəmiyyəti məkrəblərin metodik təminatında metodmərkəzlərin işinin idarə olunmasında məqsədəuyğun tətbiqinin təşkilidir.

Məqalənin elmi yeniliyi metodiki mərkəzlərin işinin idarə olunmasına yeni yanaşmalar və modernləşməsinə yönəlmələrdən ibarətdir.

**ƏDƏBİYYAT**

1. Rayon (şəhər) təhsil şöbəsini (idarəsinin) Metodik mərkəzi haqqında Əsasnaməsi (Təhsil Nazirliyinin 01.02.2002-ci il tarixli, 111 nömrəli əmri ilə təsdiq edilmişdir)
2. M.A. İsimxanov, R.Ə. Bəxtiyarova. Məktəbin idarə edilməsi. Bakı, 2012.
3. http://www.teach-nology.com/tutorials/teaching/poverty/print.htm.
4. M. Kazımov. İxtisasartırma təhsilinə yeni yanaşmalar, Bakı: Mtərcim, 2013.

**И.Асадова**

**ОПТИМИЗАЦИЯ МЕТОДИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ ШКОЛ**

**РЕЗЮМЕ**

В статье рассказывается об одной из важных отраслей школьного управления – об организации методической работы учителями. Остаюшаяся долгое время вне внимания методическая служба характеризуется решающей силой в повышении методической подготовки и профессионального уровня учителей и представляет большое значение в развитии образования. Несмотря на определенные работы в этом направлении, изучение существующего положения предполагает доработку ряда вопросов.

**İ. Asadova**

**SCHOOL TEACHING SOFTWARE OPTIMIZATION**

**SUMMARY**

The article describes the organization of methodical work of teachers of the school management, which is one of the most important sectors and, remove special attention. For a long time, methodological training and the professional development of teachers is of great importance in the development of education. Decisive force characterized great methodical service. Certain is to work with teachers to methodical preparation.

*Redaksiyaya daxil olub: 22.10.2014*

# <u>*YENİ PEDAQOJİ TEXNOLOGİYALAR*</u>

## АТЕСТАЦИОННЫЙ ПОРТФОЛИО ПРЕПОДАВАТЕЛЕЙ КАК ПОДХОД ПЕДАГОГИЧЕСКОЙ ЭКСПЕРТИЗЫ К ПОВЫШЕНИЮ КАЧЕСТВА ЕГО ПРОФЕССИОНАЛЬНОЙ КВАЛИФИКАЦИИ

**Нигяр Мурадова,**
*доктор философии по педагогике, доцент*
Email: rita-nigar@mail.ru

**Рецензенты**: *проф.* А. Аббасов,
*докт. пед. н.* Г. Ахмедов

***Açar sözlər**: müəllimlərin attestasiyası, portfolio, pedaqoji ekspertiza, hazırlığın keyfiyyəti, ixtisas dərəcəsi*

***Ключевые слова:** аттестация преподавателя, портфолио, педагогическая экспертиза, качество подготовки, профессиональная квалификация*

***Key words:** certification of teachers, portfolios, pedagogical expertise, quality training, professional qualifications*

На современном этапе профессиональная квалификация является интегральным образованием, включающим в себя профессиональный опыт, профессиональную мотивацию, профессиональные личностные качества и другие профессиональные характеристики. Она непосредственно влияет на качество и результативность деятельности преподавателя, обеспечивает готовность и способность выполнения различных профессиональных задач.

С позиции педагогической экспертизы одним из рациональных средств оценки профессионализма преподавателей является аттестация как плодотворный способ определения качества их профессиональной деятельности. Безусловно, аттестация проводится в целях подтверждения соответствия преподавателей занимаемым ими должностям и, естественно, на основе оценки их преподавательской деятельности. Основными задачами аттестации являются:

- стимулирование целенаправленного непрерывного повышения уровня квалификации преподавателей, их методологической культуры, личностного профессионального роста, использования ими современных технологий;
- повышение эффективности и качества методики преподавания;
- определение потенциальных возможностей преподавателей;
- выявление актуальных проблем подготовки и повышения квалификации преподавателей и поиск качественных путей их разрешения.

С позиции педагогической экспертизы возможность демонстрировать уровень профессионализма учителя и умение решать задачи своей профессиональной деятельности, способ фиксирования и накопления материалов, создание единого интернет пространства для обобщения, систематизации и распространения своего педагогического опыта - это всё возможности портфолио. В соответствии с этим для аттестации преподавателей портфолио является методом, который интенсивно и эффективно осуществляет процесс оценивания и развития профессиональной компетенции преподавателей.

*В чем отражается предназначение портфолио преподавателей при аттестации?*

Аттестационное портфолио преподавателей - это эффективная форма представления зафиксированных и оценённых индивидуальных достижений преподавателя за определённый отрезок времени. Основное предназначение портфолио заключается в том, что оно является инструментом:

- экспертного оценивания профессиональной компетентности и эффективности профессиональной деятельности конкретного преподавателя;

- самооценки результативности и профессиональной деятельности преподавателем.

Существенным в использовании портфолио является сбалансированность формализованных свидетельств достижений преподавателя и рефлексивно-аналитических продуктов собственной профессиональной деятельности. Это усиливает практическую ориентацию педагогической экспертизы, делает её содержательной. Являясь предметом педагогической экспертизы в сфере качества подготовки преподавателей, портфолио выполняет основные три функции при аттестации:

1) Оценочно-стимулирующая функция, которая дает основание для определения преподавателя к той или иной квалификационной категории, для начисления стимулирующей части заработной платы.

2) Развивающая функция по отношению к образовательной ситуации (структура портфолио представляет собой своеобразный ориентир возможных видов активности преподавателя).

3) Демонстрационная функция по отношению к процедуре оценки качества профессионального труда конкретного преподавателя и профессионального уровня в региональной системе образования.

Информация, содержащаяся в портфолио, с одной стороны должна быть полной, позволяющей дать обоснованную оценку профессионализма, квалификации и продуктивности деятельности преподавателя, с другой - структурированной и легко доступной для рассмотрения. Схематично изобразим это следующим образом: схема № 1




| | |
|---|---|
| *Общие сведения о преподавателе* | *Здесь в обязательном порядке фиксируются*:<br>- фамилия, имя, отчество, год рождения;<br>- образование (наименование образовательного учреждения, год окончания, полученная специальность и квалификация по диплому);<br>- трудовой и педагогический стаж, стаж работы в данном образовательном учреждении;<br>- повышение квалификации (название организации, где прослушаны курсы, год, месяц, проблематика курсов);<br>- информация о наличии учёных званий и почётных званий, наград. |

| | |
|---|---|
| *Информационно-аналитическая справка о профессиональной деятельности преподавателя* | **Информационно-аналитическая справка,** отражающая эффективность профессиональной деятельности преподавателя, а именно:<br>- характеристика условий, в которых работает преподаватель;<br>- сведения о реализуемых программах, их уровень, направленность (название программы, автор);<br>- результаты освоения обучающимися образовательных программ и показатели динамики их достижений не менее, чем за последние два года в сравнении со средними региональными;<br>- результаты внеурочной деятельности преподавателя по предмету.<br>- информация об использовании преподавателем современных педагогических и информационно-коммуникационных технологий;<br>- информация об участии преподавателя в различных мероприятиях по распространению его опыта;<br>- результативность участия обучающихся в олимпиадах, конкурсах, соревнованиях разного уровня;<br>- информация об использовании преподавателем технологий, содействующие пропаганде ценностей здорового образа жизни;<br>- информация, отражающая участие преподавателя в исследовательской, опытно-экспериментальной, творческой коллективной работе. |
| *Краткое описание методической системы преподавателя* | ***Краткое описание методической системы преподавателя*** показывает, что здесь материалы позволяют оценить, какой личный вклад аттестующийся преподаватель вносит в повышение качества своего образования в процессе своей инновационной деятельности.<br>Дается ***приложение***, в котором могут быть представлены:<br>- документы, подтверждающие достижения преподавателя;<br>- работы (видеоматериалы), демонстрирующие продукты профессиональной деятельности преподавателя;<br>- отзывы, рецензии, представляющие результаты внешней оценки деятельности преподавателя;<br>- материалы, отражающие процесс и результаты индивидуального профессионального развития преподавателя. |

Схема № 1 показывает, что портфолио преподавателя - это индивидуальная папка «Портфель достижений», в которой зафиксированы его личные профессиональные достижения в педагогической деятельности, результаты обучения, воспитания и развития его обучающихся. Структура такой модели отражает содержание, которое служит основой для разработки удобной модели «Аттестационное портфолио» как средство мониторинга профессионального роста преподавателя, уровень его компетентности и конкурентоспособности.

С позиции педагогической экспертизы аттестационный портфолио преподавателей является как ее подход к повышению качества их квалификации. Технология педагогической экспертизы в области проведения аттестации преподавателей акцентирует на совершенствование их профессиональной подготовки и переподготовки. Безусловно, в ходе аттестации большее внимание уделяется оценке эти базовые компетентности преподавателя: постановка целей и задач педагогической деятельности; мотивирование обучающихся на осуществление учебной деятельности; владение учебным материалом по предмету;

разработка программ и принятие педагогических решений; организация учебной деятельности. В связи с этим педагогическая экспертиза отмечает следующие действия преподавателя, которые схематично изобразим следующим образом: схема № 2

**Действия преподавателя:**

↓

- разрабатывает *параметры и критерии,* по которым следует отбирать и оценивать материал для «Портфеля достижений»;

- организует презентации «Портфеля достижений».

***Главное***: при создании и наполнении портфолио от преподавателя требуются *умения конструировать, моделировать и проектировать свою профессиональную деятельность*.

***Параметры для оценивания «Портфеля достижений» преподавателя:***

- оформление;
- улучшение качества отобранных работ;
- качество комментариев к педагогическим проектам (полнота, глубина, ясность, честность, убедительность);
- структурный порядок в «Портфеле преподавателя».

***Критерии оценивания «Портфеля достижений» преподавателя***:

отлично (!); приемлемо (+); неприемлемо (–)

↓

***Процедуры педагогической экспертизы аттестационного портфолио***:

1) регистрация аттестационных материалов (аттестационного портфолио) преподавателя в отделе аттестационной комиссии;
2) передача аттестационных материалов на экспертизу;
3) презентация аттестационного портфолио аттестующим преподавателем;
4) проведение педагогической экспертизы аттестационного портфолио;
5) оформление экспертного заключения;
6) представление итогов педагогической экспертизы в аттестационную комиссию.

↓

***Педагогическая экспертиза дает материалы о динамике результатов деятельности преподавателя, которые представляют***:

1) насколько аттестующийся преподаватель владеет современными образовательными технологиями и методиками и эффективно применяет их в своей профессиональной деятельности;
2) насколько преподаватель, претендующий на высшую квалификационную категорию, активно распространяет свой опыт.

«Портфель достижений» преподавателя также регистрирует результаты своей педагогической деятельности, полученные при помощи его рефлексивного дневника.

*В чем отражается сущность рефлексивного дневника преподавателя?*

Сущность рефлексивного дневника преподавателя заключается в том, что с его помощью он формирует умения самопознания собственных успехов и неудач. Краткая характеристика рефлексивного дневника преподавателя представляем таким образом: схема № 3

***Рефлексия*** - это умения *само*анализа, *само*контроля и *само*оценки преподавателя.
***Дневник*** - это *само*стоятельные записи преподавателя по дням, по порядку.
***Рефлексивный дневник*** - это странички развития *само*стоятельности преподавателя.

↓

**Преподаватель учится:**
- видеть свои успехи и проблемы в познавательно-педагогической деятельности;
- делать целенаправленный запрос о помощи - в чём преподавателю нужна помощь и где, у кого он может её получить;
- оценивать свою работу на уроке - проводить интеллектуальную, эмоциональную, физическую рефлексию;
- оценивать работу другого преподавателя на его уроке;
- планировать свою познавательно-преподавательскую деятельность.

**Вывод:** Педагогическая экспертиза с помощью портфолио решает такую проблему, как аттестация преподавателя, систематизирует и анализирует его работу в целом, создает условия для интенсивного самовыражения и самореализации преподавателя, рефлексии его педагогической деятельности, формирования успешности и индивидуального профессионального роста. Портфолио - одна из наиболее приближённых к реальному состоянию форма, которая ориентирует преподавателя на развитие навыков самооценивания, что и является одной из его ключевых компетентностей.

**Актуальность проблемы**. Изменения, происходящие в сфере образования Азербайджана, продиктованы необходимостью соответствия мировым стандартам качества образования. В соответствии с этим появилась необходимость наличии педагогической экспертизы как новой надежной технологии, позволяющей помочь решить проблему, связанную с объективным оцениванием профессионального роста преподавателя при помощи использования инструментария как портфолио.

**Новизна проблемы**. В настоящее время много пишут о построении и апробации моделей «Портфолио» преподавателей, обсуждаются различные варианты их составления. Новизной в рамках данной статьи являются процедуры педагогической экспертизы аттестационного портфолио как подход ее к форме представления и наполнения портфолио, к созданию условий для совершенствования профессионального мастерства и компетентности преподавателя, готового и способного обеспечить новое качество обучения.

**Практическая значимость**. Портфолио может послужить полезным материалом для того, чтобы учителя смогли поделиться своим положительным опытом для ознакомления и внедрения в педагогическую практику других преподавателей.

## ЛИТЕРАТУРА

1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Татарченкова С.С., Узкая М.В. Педагогическая экспертиза профессиональной компетентности учителя в ходе аттестации: Учебно-методическое пособие. Архангельск: Изд-во ИППК РО, 1999.
3. Зотова Н.К. Аттестация как способ повышения квалификации учителя: Дис. …канд. пед. наук. СПб, 2007.

**N. Muradova**

## MÜƏLLİMLƏRİN ATTESTASİYA PORTFOLİOSU ONUN İXTİSAS DƏRƏCƏSİNİN KEYFİYYƏTİNİN ARTIRILMASINA PEDAQOJİ EKSPERTİZANIN YANAŞMASI KİMİDİR

## XÜLASƏ

Məqalədə attestasiya portfoliosundan danışılır. Pedaqoji ekspertiza nöqteyi nəzərindən müəllimlərin ixtisas qiymətləndirilməsində səmərəli vasitə attestasiyadır. Buna əsasən deyə bilərik ki, müəllimlərin ixtisas

səriştəliliyinin qiymətləndirilməsi və prosesin inkişafının həyata səmərəli keçirilməsi üçün portfolio attestasiya metodudur.

**N. Muradova**

**ATTESTATION PORTFOLIO OF TEACHERS AS AN APPROACH OF PEDAGOGICAL EXPERTIZE TO IMPROVING OF PROFESSIONAL QUALIFICATIONS QUANTITY**

**SUMMARY**

As part of this article examines the certification portfolio. From a position of pedagogical expertize a rational means of assessing the professionalism of teachers is certification. Accordingly, for the certification of teachers portfolio is a method that rapidly and effectively in the process of evaluation and development of the professional competence of teachers.

*Redaksiyaya daxil olub: 03.11.2014*

# PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI

## İNTELLEKTUAL İNKİŞAFI PROBLEMLİ KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN TƏFƏKKÜRÜNÜN TƏLİM PROSESİNDƏ İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI

**Dilarə Dostuzadə,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail: d.dostuzade@mail.ru

**Rəyçilər:** *prof.* R. Əliyev,
*dos.* S. Həsənova

***Açar sözlər***: *əqli tərbiyə, intellektin rolu, təfəkkür, təlim, dərs.*
***Ключевые слова:*** *интеллектуальное воспитание, роль интеллекта, мышление, обучение, урок*
***Key words***: *mental training, the role of intellect, thinking, training, lesson.*

Təlim prosesində şagirdlər təkcə bilik mənimsəməklə kifayətlənmir, həm də təfəkkürlərinin müxtəlif xüsusiyyətlərini inkişaf etdirirlər. Şagirdlərin əqli inkişafı, xüsusən təfəkkürün inkişafı təlim işinin necə təşkil edilməsindən, hansı üsullardan istifadə olunmasından, kiçik yaşlı məktəb-lilərin təfəkkürünün inkişafı uğrunda müəllimin şüurlu olaraq necə mübarizə aparmasından asılıdır.

Təlim prosesində intellektual inkişafı problemli kiçik yaşlı məktəblilərin təfəkkürünün formaları inkişaf edir. Kiçik yaşlı məktəblilər hökmün müxtəlif növlərindən yerində, istifadə etməyi öyrənirlər və onlarda tədricən əqli nəticələr inkişaf edir. Bu zaman təlim prosesində şagirdlərdə fikri proseslər inkişaf edir: onlar təhlil, tərkib, ümumiləşdirmə, mücərrədləşdirmə, müqayisə etmə və s. kimi fikri proseslərə yiyələnirlər. Təfəkkür proseslərinin inkişaf etməsi sayəsində kiçik yaşlı məktəblilər müxtəlif təlim materiallarını asanlıqla mənimsəyə bilir və biliklərini zənginləşdirirlər.

İntellektual inkişafı problemli kiçik yaşlı məktəblinin təfəkkürünün inkişa-fında sözlərin böyük rolu vardır. Şagirdlərin həyata hazırlanması, onların təlim fəaliyyətində iştirakı, idrak proseslərinin inkişafı ilə bağlıdır. Valideynlər, müəllim-tərbiyəçilər kiçik yaşlı məktəblilərin tərbiyə edilməsində idrak proseslərinin - duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq və təxəyyül xüsusiy-yətlərinin öyrənilməsinə xüsusi fikir yetirməlidirlər. Məsələn, məktəbə yeni gələn şagirddə duyğuların hərtərəfli inkişaf etdirilməsi zəruri amildir. Bu dövrdə xüsu-silə görmə və eşitmə duyğuları uşağın ümumi inkişafında mühüm yer tutur.

Normal halda kiçik yaşlı məktəblilərdə görmənin itiliyi əsaslı inkişaf edir. Bəzən uşaq evdə oxu və yazı zamanı düzgün oturmur, kitab və dəftərin üzərinə çox əyilir, bəzən isə uşağın işlədiyi yer münasib olmur, işığın həddindən artıq güclü və ya zəif olması və s. uşaqda görmənin itiliyinə, görmə həssaslığına mənfi təsir göstərir.

Kiçik yaşlı məktəblilərin psixoloji xüsusiyyətlərdən biri də eşitmə duyğuları, xüsusilə eşitmə həssaslığıdır. Eşitmə həssaslığının inkişaf etdirilməsi uşağın ümumi inkişafında həlledici rola ma-likdir. Məktəbdə təlim-tərbiyə işinin təsiri altında uşaqda səsləri düzgün fərqləndirməklə, fonematik eşitmə imkanı xeyli yüksəlir. Buna oxu, yazı, nitq inkişafı üzrə aparılan işlər əsaslı təsir edir.

Ümumiyyətlə, kiçik yaşlı məktəblı uşaqlarda duyğuların inkişafı, aparılan tərbiyəvi işlərdən çox asılıdır. Təcrübələr göstərir ki, şagirdlərdə istər görmə, istərsə də eşitmə həssaslığını xüsusi şəkildə təşkil olunmuş şəraitdə xeyli yüksəlt-mək mümkündür. Oyun və təlim fəaliyyəti zamanı tətbiq olunan xüsusi məşğə-lələr bu cəhətdən böyük əhəmiyyət kəsb edir.

Məsələn, müxtəlif rəngdə və ya müxtəlif formada kağız parçaları götürülür. Oyun zamanı uşaqlardan biri rəngli kağız parçalarından birini götürüb yuxarı qaldırır. O biri uşaqlar dərhal ona uyğun olanını tapmalı olurlar. Burada sürətlə, düzgün hərəkət etməyə çalışan uşaqda görmə duyğularının inkişafı üçün şərait yaranır. Musiqi ilə aparılan məşğələlər uşağın eşitmə həssaslığını artırır.

Təcrübə göstərir ki, intellektual inkişafı problemli kiçik yaşlı məktəblilər, xüsusilə I-II sinif şagirdləri əksər halda cisim və hadisələri təsadüfi əlamətinə görə qavrayırlar. Məsələn, psixoloq Y.İ. İqnatyev I sinif şagirdləri ilə belə təcrübə aparmışdır: o, naturadan şəkil çəkmələri üçün uşaqların qarşısına rəngli güldan qoymuşdur. Uşaqlar güldanı bir anlığa nəzərdən keçirmiş, sonra isə güldana diqqət yetirmədən şəkil çəkməyə başlamışlar. Ona görə də natıradan çəkilmiş şəkillər müxtəlif formada olmuşdur. Bu ondan irəli gəlmişdir ki, uşaqlar güldanı «tanımamış», şəkli çəkərkən naturaya müraciət etməmişlər.

İntellektual inkişafı problemli kiçik yaşlı məktəbli uşaqlarda müşahidə və müşahidəçiliyi inkişaf etdirməklə, müəllimlərlə yanaşı valideynlərin də üzərinə mühüm vəzifələr düşür.

Şagirdlər təlim tapşırıqlarını yerinə yetirdikdən sonra qalan vaxtlarını əsasən oyuna sərf edirlər. Buna görə də oyun prosesində uşaqda müşahidəçiliyin inkişafına fikir vermək lazım gəlir. Məsələn, tərbiyəçi-müəllim 6-7 yaşlı uşaqlarla «Nə yerini dəyişmişdir?» tipli oyun keçirməklə onlarda müşahidə və müşahidəçiliyi inkişaf etdirə bilərlər.

Bu oyun belə aparılır: stolun üzərinə müxtəlif oyuncaq və ya şəkillər yan-yana düzülür. Uşağa tapşırılır diqqətlə onlara baxsın, Nəyin harada olmasına fikir versin, sonra uşaq üzünü başqa tərəfə çevirir. Müəllim oyuncaqlardan birini götürür və yerini dəyişir. Uşaq bir daha şeylərə baxıb nəyin yerini dəyişdiyini söyləyir. Belə oyunlar uşaqları müşahidəçi olmağa alışdırır, o cümlədən onlarda diqqətin inkişafına müsbət təsir göstərir.

Diqqətin təlim fəaliyyəti üçün əhəmiyyəti böyükdür. Görkəmli pedaqoq K.D. Uşinski bu cəhəti nəzərə alaraq yazır: «Diqqət ruhumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir. Deməli, təlimin hər bir kəlməsi bu qapıdan keçmədən uşağın ruhuna daxil ola bilməz. Uşağı bu qapını açıq saxlamağa alışdırmaq birinci dərəcəli əhəmiyyətli işdir. Təlimin müvəffəqiyyəti buna nail olmaq üzərində qurulur». Məktəbə yeni gələn uşağın diqqəti xeyli inkişaf etmiş olur. Buna baxmayaraq kiçik yaşlı məktəblilərin diq-qətinin bir sıra özünəməxsus xüsusiyyətləri vardır ki, bunların tərbiyə prosesində nəzərə alınması lazım gəlir.

Məktəbə yeni gələn eşitməsi qüsurlu uşaq sistemli təlim fəaliyyətinə cəlb olunur və ilk günlərdən başlayaraq təlim fəaliyyəti şagirdlərdən uzun müddət ayrı-ayrı cisim və hadisələrə diqqət yetirmək, diqqətlərini zəruri cəhətlərə paylamaq, lazım gəldikdə diqqəti bir sahədən başqa sahəyə keçirmək tələb edir. İntellektual inkişafı problemli kiçik yaşlı məktəblilərdə diqqətin davamlılığı yuxarı siniflərdə oxuyan uşaqlara nisbətən azdır. 8-10 yaşlı uşaqlar, xüsusilə I-II sinif şagirdləri öz diqqətlərini eyni obyekt üzərində 10-15 dəqiqədən artıq saxlaya bilmirlər. Kiçik məktəb yaşlı uşaqlarda diqqətin zəifliyi, onların diqqətlərini uzun müddət cəmləşdirməkdə çətinlik çəkmələri, ləngimə prosesinin zəifliyindən irəli gəlir.

Məktəbə daxil olmaqla uşaqda təlimə olan marağın inkişafı qeyri-ixtiyari diqqətin də inkişafına səbəb olur. Uşağı təlim prosesində qazanacağı bilikdən çox onun üçün yeni olan məşğələlər cəlb edir. Onu yazı, oxu prosesi, qiymət və s. maraqlandırır. Get-gedə uşağın diqqəti bir sahəyə doğru davamlı, başqa sahəyə doğru davamsız olur.

Məktəbdə təlim-tərbiyə işlərinin təşkili nəticəsində intellektual inkişafı problemli kiçik yaşlı məktəbli uşaqlarda hafizə də xeyli inkişaf edir. Buna baxma-yaraq, bir sıra xüsusiyyətlərinə görə kiçik məktəblilərin hafizələri orta və böyük məktəb yaşlı uşaqların hafizələrindən fərqlənir.

İntellektual inkişafı problemli kiçik yaşlı məktəbli uşaqlar konkret cisimləri, faktları, bilavasitə qavradıqları hadisələri daha yaxşı yadda saxlayırlar. Uzun–uzadı izahatları yadda saxlamaqda çətinlik çəkən 6-7 yaşlı uşaq, əyani olaraq qavradığı materialı asanlıqla yadda saxlayır, sonra onu yada sala bilir. İntellektual inkişafı problemli kiçik yaşlı məktəbli uşaqlar çox vaxt evə verilmiş materialı hərfən yadda saxlamağa çalışırlar. Bu ondan irəli gəlir ki, onlar lazımi yadda

saxlama metodlarından istifadə edə bilmirlər. Uşaqlar çox vaxt materialı dəfələrlə təkrar edir (oxuyur), əzbərləməyə, materialı olduğu kimi yadda saxlamağa çalışırlar.

Təlim zamanı müstəqil oxu prosesində uşağın bərpaedici təxəyyülə yiyələnməsi, ifadəli oxusu, nağıl etməsi üçün şərait yaradır. Nağıletmə və ifadəli oxu prosesində uşaqda bərpaedici təxəyyül inkişaf edir.

İntellektual inkişafı problemli kiçik yaşlı məktəbli uşaqlarda bərpaedici təxəyyüllə yanaşı olaraq, yaradıcı təxəyyül surətlərin yaradılması ilə xarakterizə olunur. Bu surətlər uşağın özündən nağıl düşünməsi, şəkil çəkməsi, oyunda yenilik tətbiq etməsi ilə bağlıdır. Bunlar intellektual inkişafı problemli kiçik yaşlı məktəblilərin həyatında mövcuddur və bunun inkişafı uşağın təlim fəaliyyətinə əsaslı təsir göstərir.

Görkəmli sovet psixoloqu S.L. Rubinşteynin fikrincə kiçik məktəb yaşı dövründə əqli nəticə müəyyən inkişaf mərhələləri keçir.

I mərhələdə əqli nəticə (I-II siniflərdə) əyanilik, müşahidə əsasında qurulur. Bu dövrdə uşaq qavradığı, müşahidə etdiyi cisim və hadisələrə əsasən nəticə çıxarır.

II mərhələdə (III-IV siniflərdə) artıq mücərrəd material əsasında əqli nəticə çıxarmaq mümkün olur. Bunun müvəffəqiyyətlə həyata keçməsi üçün həmin mücərrəd materialın əyani sxemlər, tanış materiallar vasitəsilə konkretləşdirilməsi əsas şərtdir

Əyanilik didaktikanın mühüm prinsipi olmaqla ibtidai təlimdə, o cümlədən qrammatikanın tədrisi prosesində mühüm əhəmiyyət kəsb edir. Əyani təlim bütövükdə uşaq psixikasının qanunlarına əsaslanır. Təlimdə əyaniliyi konkret-likdən mücərrədliyə doğru yol hesab edən K.D. Uşinski yazırdı: «Uşaq formalarla, boyalarla, səslərlə, ümumiyyətlə, duyğularla fikirləşir və uşağı başqa cür düşün-məyə vadar etmək istəyən şəxs onun təbiətini əbəs yerə zorlamış olar».

Əyanilik şagirdlərin müşahidəçiliyini inkişaf etdirir. K.D. Uşinskiyə görə, şagirdlər əyaniliyin köməyi ilə müşahidəçiliyə və öz müşahidələrini sözlərlə ifadə etmək, onlardan məntiqi nətijə çıxarmaq bacarığına yiyələnirlər. Əyani təlim, şagirdlərin təfəkkürünün inkişafını, təsəvvürlərinin obrazlılığını və düzgün anla-yışların yaranmasını tələb edir. Əyanilik şagirdlərin nitqinin inkişaf etdirilməsinin və biliklərin yaddaşda möhkəmləndirilməsinin qüdrətli silahıdır (Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, s. 168).

Uşaqlarda eşitmək, nitq-hərəki qavrayışın inkişafını müvafiq əyanilik təmin edir. Bu zaman görmə, eşitmə, nitq-hərəki və əl-hərəki fəaliyyət vəhdət təşkil edir. Bu məqsədlə müxtəlif növ əyani vəsait və didaktik materialdan istifadə olunur. Müəllimin nitqi, yazısı vasitəsilə təqdim olunan nümunələr ən gözəl əyanilikdir.

İntellektual inkişafı problemli kiçik yaşlı məktəblilərdə təfəkkür prosesləri əsaslı şəkildə inkişaf edir. Əgər I sinif şagirdlərində təhlil fəaliyyəti istər forma, istərsə də məzmunca sadə şəkildədirsə və əyani xarakter daşıyırsa, IV sinifdə nisbətən mürəkkəb xarakterə malik olur. Bu dövrdə uşaq təsəvvür materialları əsasında təhlil aparmağa daha çox meyil edir.

Ümumiyyətlə, uşaqların təfəkkürünü inkişaf etdirməkdə müxtəlif didaktik və stolüstü oyunlardan istifadə olunmalıdır. Xüsusilə şahmat, dama, domino oyunlarında iştirak edən uşaqda təfəkkür prosesləri, əqlin keyfiyyətləri inkişaf edir.

İntellektual inkişafı problemli kiçik yaşlı məktəblilərin təfəkkürləri onların nitqləri ilə əlaqəli şəkildə inkişaf edir. Məktəbə yenicə daxil olmuş uşağın şifahi nitqi bir qədər məhdud olur. I sinfə gəldikdən sonra təlim işinin təsiri altında uşaqda yenicə təşəkkül tapan yazılı və şifahi nitqi inkişaf edir. Uşaq fikrini düzgün, aydın cümlələrlə ifadə etməyə çalışır. Bununla yanaşı, bəzən kiçik yaşlı uşaqların nitqlərində müəyyən nöqsanlar özünü göstərir. Uşağın nitqindəki nöqsan ayrı-ayrı səsləri düzgün tələffüz edə bilməməsində ifadə olunur. Məsələn, uşaqlar g, r, ş və s. səsləri d, l, s şəklində tələffüz edirlər. Bütün bunlar müəllimlə yanaşı tərbiyəçi və valideynlərin uşağın nitq inkişafı ilə maraqlanmasını, bu sahədə lazımi işlər aparılmasını tələb edir.

**Məqalənin elmi yeniliyi**. İntellektual inkişafı problemli kiçik yaşlı məktəb-lilərin təfəkkürünün təlim prosesində inkişaf etdirilməsi çox vacibdir. Şagirdlərin korreksiya işinin aparılmasına aid verilən, fikirlər təlim prosesində nəzərə alına bilər.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən təkliflər intellektual inkişafı problemli kiçik yaşlı məktəlilərin təfəkkürlərini təlim-tərbiyə prosesində fərdi yanaşmaqla korreksiya işinin aparılmasında kömək etmiş olar.

## ƏDƏBİYYAT


1. S. Qasımov, Y.Talıbov. Əlahiddə pedaqogikanın əsasları. Bakı. 2000.
2. D. Dostuzadə. Eşitməsi qüsurlu uşaqlarla işin təşkili yolları: Monoqrafiya. Bakı, 2011.
3. N. Hüseynova, L.Rüstəmova. Xüsusi pedaqogika. Bakı, 2010/
4. S. Qasımov. E. Kərimova. Gəlin ünsiyyətdə olaq. Bakı, 2006.


**Д. Достузаде**

## ПУТИ РАЗВИТИЯ МЫСЛИТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ У МЛАДШИХ ШКОЛЬНИКОВ С ИНТЕЛЛЕКТУАЛЬНОЙ НЕДОСТАТОЧНОСТЬЮ

### РЕЗЮМЕ


У младщих школьников с интеллектуальными нарушениеми необходимо развивать мыслительную деятельность. Для этого необходимо использовать настольные и различные дидактичесные игры.

Из настольных игр следует отметить шахматы, шашки, домино. Кроме того следует отметить, что индивидуальный подход и коррекционное работа также способствуют развитию мыслительных процессов.


**D. Dostuzade**

## WAY OF THINKING ACTIVITY IN PRIMARY SCHOOL CHILDREN WITH INTELLECTUAL DISABILITIES

### SUMMARY


In primary school pupils with intellectual disabilities need to develop thinking. To do this, you must use the desktop and various didactic game. From the desktop should be noted chess, checkers, dominoes. In addition it should be noted that an individual approach and correctional work also contribute to the development of thought processes.


*Redaksiyaya daxil olub: 05.11.2014*

# GENDER İDENTİFİKASİYASI PSİXOLOJİ VƏ BİOLOJİ XÜSUSİYYƏTLƏRİN QARŞILIQLI ƏLAQƏSİ KİMİ

**Qızxanım Qəhrəmanova,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
ADPU
*E-mail: dgahramanov@bk.ru*

**Rəyçilər:** *prof.* R.Əliyev,
*dos.* L.Əmrahlı

***Açar sözlər:*** *məişət birliyi, sosial status, irqi mənsubiyyət, cinsi amil, mental strukturlar, cinslərin münasibəti, cinslərin yönümü*

***Ключевые слова:*** *бытовое единство, социальное единство, рассовая идентификация, половой факт, ментальные структуры, половые взаимодействия, ориентация пол*

***Key words:*** *domestic unity and social cohesion, racial identity, sexual fact, mental structures, the interaction of sex, gender orientation*

Gənc qızın mənəviyyatının formalaşmasında qızın yaş səviyyəsinə uyğun ona münasibət göstərilməsinin tərbiyənin nəticələrinə öz müsbət təsirini göstərir.

Gənc qızların şəxsiyyətinin formalaşmasında valideynin şəxsi nümunəsi tərbiyə işində son dərəcə böyük rol oynayır. Qızlar ata və ananın münasibətləri timsalında sosial təcrübəni mənimsəyirlər.

Müasir dövrdə, Avropaya sürətlə inteqrasiya etdiyimiz bir zamanda qadınların sosial fəallığı özünü qabarıq şəkildə göstərir.

Ailə üzvləri bir – birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlıdır. Ənənəvi ailə çoxnəsilli olub, ailəyə yaşca böyük kişi başçılıq edirdi. İdarəetmə üsulu isə avtoritar prinsiplər əsasında qurulurdu. Əgər bu cür ailəni həqiqətən də sosial cəmiyyətin ilkin forması kimi qavrasaq, onda qeyd etməliyik ki, müasir cəmiyyətdə ailə ilkin başlanğıc funksiyalarını itirmiş və transformasiyaya məruz qalmışdır.

Kişi və qadınların iqtisadi və sosial statusunun, qadınların peşəkar məşğulluğunun xüsusiyyətləri, ölkədə urbanizasiya prosesinin güclənməsi, ailə - nikah təsisatının dəyişməsi ilə əlaqədardır. Qadınların təhsil səviyyəsinin yüksəlməsi, peşəkar və ictimai fəaliyyətə cəlb olunması ailədə şəxsiyyətlərarası münasibətlərdə tələbkarlığı artırmış, fərdi – spesifik tərbiyə üsulunun yaranmasında özünü büruzə verən ailə davranışı rasionallığını gücləndirmişdir [1; 71].İnsanın özü haqqında təsəvvürləri özünü dərkin strukturunun formalaşması üçün, eləcə də cins-rol davranışının, şəxsiyyətin çoxsaylı psixofizioloji və sosial –psixoloji xüsusiyyətləri arasında mühüm əhəmiyyətə malikdir. Çox vaxt bu təsəvvürlər içərisində iki göstərici – irqi mənsubiyyət və cinsi amil daha əhəmiyyətlidir. Bu iki göstərici meqa səviyyədə sosial – psixoloji əlamətlərdir, belə ki, insanın sosial, mədəni, etnopsixoloji, mənəvi və etnofizioloji xüsusiyyətləri daha ümumi əlavələr şəkildə birləşdirir. Bu mənada mədəni assimilyasiya və şüurun mental strukturlarının formalaşması prosesi insanın cins, gender identifikasiyası kimi psixoloji və bioloji xüsusiyyətlərinin qarşılıqlı əlaqəsindən asılıdır.

İ.S. Kona görə “cins” bir-birilə qarşılıqlı kontrast təşkil edən generativ ( latın dilində genero – yaradıram, istehsal edirəm) və onunla əlaqədar əlamətlərin məcmusunu bildirən çox mürəkkəb və əhəmiyyətli elmi kateqoriyalardan biridir [2; 103]. Bu əlamətlər heç də bütün növlərdə eyni deyil və yalnız reproduktiv xüsusiyyətləri deyil, həm də cinsi dimorfizmin bütün spektrini, cinsindən asılı olaraq həmin növün insanlarının anotomik, fizioloji, psixi və davranış əlamətlərinin ziddiyyətini nəzərdə tutur. Bununla yanaşı, bəzi cinsi əlamətlər bir – birilərini qarşılıqlı surətdə istisna edir, kəmiyyət əlamətləri isə çoxsaylı fərdi variasiyalara imkan verir.

Beləliklə, cins – elementləri fərdi inkişafın, ontogenezin müxtəlif mərhələlərində formalaşan mürəkkəb çoxsəviyyəli sistemdir. Uşaq doğulduqdan sonra cinsi diferensasiyanın bioloji amilləri sosial amillərlə tamamlanır: yeni doğulan körpənin genital görünüşü əsasında vətəndaşlıq cinsi müəyyən edilir və uşaq bu cinsə müvafiq olaraq tərbiyə olunur, öz cinsinə mənsub olan mədəni normaları və s. mənimsəyir.

XX əsrin 60-70-ci illərində kişi və qadınlar arasındakı qarşılıqlı münasibətlərin sosial – psixoloji aspektləri "cins rol", "cins – rol gözləntiləri", "cinsi identiklik" anlayışları ilə təsvir olunurdu. Bu terminologiya göstərir ki, kişilər və qadınlar arasındakı sosiomədəni fərqlər yalnız cinsi dimorfizmlə şərtlənən fundamental, əsas, universal fərqlərin təzahür forması və rəsmiləşdirilməsi üsuludur. Gender rolları, xüsusilə də onlara istiqamətlənən davranış heç də birmənalı olmur. Kütləvi etnoşüurun mental strukturlarına münasibətdə kişi və ya qadının sosial rolunun qavranılmasının mədəni stereotipləri mövcuddur. Ənənəvi gender rollarının formalaşmasına daha çox xalqın sosial – siyasi və mədəni – dini ənənələri təsir göstərir. Bu amillərlə müəyyənləşən davranış gözləməri kişi və qadın rolunu tənzimləyir və bu da sonradan kütləvi şüurda möhkəmlənən ənənəvi gender rollarını formalaşdırır. Lakin gender anlayışı çərçivəsində fərqlər yalnız qadınlıq və ya kişilik (yəni maskulinlik və feminlik) haqqında təsəvvürlərin sosiomədəni stereotipləri ilə əlaqələndirilmir.

Məlumdur ki, gender psixologiyası yalnız qadın və kişilərin psixoloji xüsusiyyətlərində özünü göstərən, təzahür edən fərqli cəhətləri tədqiq etmir. Gender tədqiqatları hər şeydən öncə şəxsiyyətin elə inkişaf qanunauyğunluqlarını öyrənir ki, bu qanunauyğunluqlar bilavasitə cinsi diferensasiya, stratifikasiya və ierarxiya vasitəsilə özünü göstərir. Bununla belə gender tədqiqatları həm də qadın və kişilərin davranışına gender amillərinin təsirini başa düşməyə və anlamağa imkan verən özünügerçəkləşdirmə prosesinin psixoloji mexanizmlərini müəyyənləşdirməyə imkan verir.

Müxtəlif yönümlü tədqiqatlar göstərir ki, cinsi fərqlərin əsasında bioloji və sosial mədəni amillər dayanır. Lakin sosial – mədəni amillərin təsir dərəcəsi bilavasitə elə keyfiyyətlərə yönəlir ki, onlar insanlara bilavasitə təbiət tərəfindən verilmişdir.

"Gender" ingiliscə cins məfhumunun çox çalarlarını (bioloji – növ, sosial cins və s.) ifadə edən sözdür. Gender termini – sosial cins olub, mədəniyyətin məhsulu, sosial – bioloji inkişafın nəticəsi və şəxsiyyətin sosial – psixoloji xarakteristikasıdır. "Cins" sözü fərdlərin onları kişi və ya qadın kimi müəyyənləşdirən faktiki fiziki müəyyənlik mənasını bildirir. Cins genetik müəyyənlik, daxili törədici orqanlar, beynin təşkili və zahiri cinsiyyət üzvləri ilə təyin edilir. Bunun əks olaraq, fərdlərin kişi, yaxud qadın kimi davranışı, öhdəliklərinə götürdükləri rolların növləri və onların şəxsi xüsusiyyətləri elə bir funksiyada çıxış edə bilər ki, xalis bioloji aspekt kəsb edə bilsin.

"Gender" sözünün müxtəlif mənaları var. Filosoflar deyir: ümumi təksiz mövcud olmur. Normal dilə və gender problemlərinə nisbətdə tərcümə etsək: ümumiyyətlə, insanlar yoxdur, kişi və qadınlar var. İnsan nə etsə, nə hiss etsə və nə desə də bu onun cinsi mənsubiyyətindən keçir. Buna görə də insan nə etsə, nə desə, yaxud nə etsə, hamısı gender probleminin aspektləridir [3; 156 ].

Varlığın ümumiliyi onun müəyyən oluna bilməməyi deməkdir. Varlıq bir tam kimi müəyyənolunmazdır, çünki onun xarici sərhədləri yoxdur. Digər tərəfdən, varlıq konkret keyfiyyətlərə malik olan konkret cəhətlərdən ibarətdir. Varlıq məntiqinə əsasən – məkana sinonim olan və onun mövcud olmayan hüdudlarından kənara can atan, ədəbi dəyişməz olan və hər dəqiqə dəyişən yeganə reallıqdır. Bir sözlə, bu – tamamilə ziddiyyətli və öz ziddiyyətində vahid olan bir anlayışdır. Eyni sözləri – amma varlığın xüsusi bir hadisəsi kimi – bir – birini tamamlayan kişi və qadın başlanğıclarının ziddiyyətli və ədəbi birliyi haqqında demək olar və "kişi – qadın" anlayış cütlüyü – varlığın ən yaxşı rəsmi, varlığın əks olunduğu ən gözəl güzgüdür.

Kişi və qadınlığın qarşılıqlı təsiri heç bir vaxt münaqişəsiz olmur. Cəmiyyətin konkret üzvlərinin mental əlamətləri onun daha çoxsaylı qruplarının əlamətləri ilə gözəçarpan ziddiyyət təşkil edir. Bu – daxili prosesin və nisbətən tamın ziddiyyətidir.

İnsan doğulur və xarici aləmin bir hissəsinə çevrilir, lakin bu vaxt onun təsirinə reaksiya verərək bununla sanki özünü ondan ayırır. Beləliklə insan həyatı və kollektiv insan birlikləri

vektoru üzrə kişiliyin və qadınlığın qarşılıqlı təsiri qeyri – irqi hisslərin ( genotipə analoji), şüuraltı qatın və şüurun qarşılıqlı təsir məntiqi üzrə inkişaf edir.

Qadın təbiətinin öyrənilməsi ictimai fikir tarixində əsas problemlərdən biridir. Müxtəlif feminist müəlliflər hesab edirlər ki, qadın xarakteristikasına bioloji şərh verən ilk filosof məhz Aristotel olmuşdur. Qadın passiv ana, kişi isə aktiv formaya bənzədilir. Onun fikrincə qadın ikinci dərəcəli bioloji cinsdir. Uşaqların tərbiyəsində həlledici rolu kişi oynayır, qadın isə uşağa həyat verən "inkubatordur". Əksər halda kişi özünün yeni və daha mükəmməl obrazını yaradır. Yalnız bəlli hallarda ananın uşağı səviyyədə olan material qanunu üstünlük qazanır və dünyaya "natamam kişi" yəni qadın gəlir. Aristotelin fikrincə, kişi ilə müqayisədə qadının düşüncəsi, fiziki sağlamlığı, iradəsi çox zəifdir. Qadın kişinin təbii ki, quludur və bir qul kimi, öz sahibinə tabe olmalıdır. İnsanın hökm, yaxud itaətdə bulunması ilə əlaqədar kişinin və qadının təmkinliyi və cəsarəti bir - birindən fərqlənir: əgər kişinin cəsurluğu cəsarətli qadının cəsurluğu qədər olsaydı, onda o, qorxaq kimi görünərdi, qadınsa əgər ki, xoşxasiyyət kişi kimi təvazökar olsaydı çərənçi adam kimi görünərdi; həm də kişidə və qadında ayrı – ayrı təsərrüfatları idarə etmək bacarığı məlum olur; kişinin işi toplamaq, qadının işi isə - saxlamaqdır [4; 92.]. Aristotelin qadın – natamam varlıq kimi konsepsiyası bütün ictimai fikir tarixinə təsir göstərmişdir.

Fəlsəfi fikrin tarixində insana verilən təriflər, məsələn, "ictimai heyvan" (Aristotel), "siyasi məxluq" (Qobs), "azadlığa sahib olan" (Russo), "rasional canlı" (Kant), əsasən kişilərə aiddir, çünki qadın ictimai – siyasi istehsal həyatından uzaqlaşdırılmışdır və irrasional, emosional keyfiyyətlərin daşıyıcısı sayılırdı.

Qadınla kişi arasında olan fərq barədə isə alman filosofu Hegelin də düşüncələri bu yönümdədir. Əgər hökumət başçısı qadındırsa dövlət təhlükəyə uğrayır, çünki onun hərəkətləri ümumi tələblərə deyil təsadüf meyil və fikirlərə əsaslanır [5; 405 – 406].

Qadınları öyrədən həyatdır, kişilər isə əksinə çalışır ki, yüksək elmə yiyələnsin və cəmiyyətdə müvafiq yer tutsun.

Ayrı – ayrı mədəniyyətə mənsub olan insanlar təbiəti, dünyanı, kosmosu müxtəlif cür qəbul edir və cinslərin münasibəti ilə bağlı məsələləri müxtəlif şəkildə həll edirdi. Bəşər təkamülü prosesində qadının keçdiyi yol olduqca çətin və məşəqqətli olmuşdur. Ümumi mədəni səviyyə aşağı olduqca, qadının vəziyyəti daha ağır olurdu. İnsan inkişafının daha aşağı pillələrində fiziki cəhətdən daha zəif olan qadın həmişə üzərinə ən ağır işin yükləndiyi kəniz olmuşdur.

Cinslər arasındakı münasibətlər sistemi də bu proseslərdən kənarda qala bilməzdi. Kişi və qadın arasında ictimai və ailədaxili əmək bölümü, qadınların ictimai proseslərdə iştirakı, ətrafda baş verən proses və hadisələrin ümumi kontekstində qadınların hüquq və azadlıqları problemi, cinslərin yönümü, xüsusiyyətləri və qarşılıqlı münasibəti məsələlərinə ümumfəlsəfi yanaşmalar, maskulinlik və feminliyə baxış – bütün bunlar müasir dövrdə müəyyən dəyişikliyə və tənqidi təhlilə məruz qalır, bəzi məsələlər üzrə isə prinsipcə yeni qoyuluşu ilə səciyyələnir.

XVII əsrdə qadının cəmiyyətdə vəziyyəti barədə nəzəri mübahisə özünə yer alır. Qadına münasibətdə ənənəvi baxışları təkzib edən və onun kişi kimi tamhüquqlu insan sayılmaq hüququnu əsaslandıran əsərlər meydana gəlir. Belə ki, qadın bərabərliyinin tərəfdarı olan Fransua Pulen de lya Bar özünün Fransa və İngiltərədə çox tez yayılmış olan "Cinslərin bərabərliyinin haqda" essesində isbat edirdi ki, cinsi bərabərsizlik təbiətin göstərişi yox, qadının kobud kişi gücünə tabe olmasının nəticəsidir [6; 127].

Bəzi maarifçilər bu yanaşma ilə razı idi: Volter qadın taleyinin ədalətsizliyini ifşa edir; Didro qadının alçaldılmış vəziyyətini vətəndaş qanunları və adətlərlə bağlayır; Monteskyö qadınların ictimai həyatda iştirakının lehinə çıxış edir; Helvetsiy sübut edirdi ki, qadının vətəndaş maarifsizliyi onun tərbiyəsindəki çatışmazlıqlarla və s. bağlıdır. Lakin qadının kişiyə bərabər ola bilməməsi və ikinci dərəcəli məxluq olması barədə mifin absurdluğunu ifşa edərək bu maarifçilər növbəti addımdan – onun vətəndaşlıq bacarığı, tarixin subyekti rolunda çıxış etmək bacarığını qəbul etməkdən çəkinirdi.

Cinslər arasındakı münasibətlərdə Russo heç bir iyerarxiya və subordinasiya görmürdü. Lakin

Russonun siyasi baxışlarını onun cinsi tərbiyə prinsipləri ilə müqayisə edərkən olduqca mühüm ziddiyyətlərlə qarşılaşırıq. Onun siyasi fəlsəfəsinin əsas ideyaları azadlıq və bərabərlik ideyaları, istismarın bütün növlərinin tənqidi, dövlətin əsas iradəsinin azad vətəndaşın maraqları ilə birləşməsi idi. Qadının tərbiyə nəzəriyyəsini Russo nəzarət tərbiyəsi kimi qələmə alır ki, bunun əsas prinsipləri ailədə və əyalətdə ev tərbiyəçisi funksiyasının ərə gedəndən sonra qızın ərinə keçməsidir. Qızın tərbiyəsi prosesi yalnız onun əri üçün itaətkar, xeyirxah, qayğıkeş, üzügülər və həmişə əri deyənlə razılaşan rəfiqə kimi yetişməsindən ibarətdir. Bununla da özünün siyasi baxışlarında onun fikrincə insanı ən çox alçaldan hadisəyə - bərabərsizliyə, köləliyə və hər hansı asılılığa qarşı çıxan Russo bu baxışlarını qadına aid etmirdi [7; 79].

İ. Kantın fəlsəfi baxışlarına görə idealda kişiyə nəciblik, dərin düşüncə, çətinlikləri aradan qaldırmaq bacarığı, prinsipiallıq, əməksevərlik, mücərrəd təfəkkür; qadına isə müvafiq olaraq – gözəllik, hissiyyatlılıq, təvazökarlıq, qayğıkeşlik, xeyirxahlıq, cazibəlik, qayğıkeşlik və s. kimi keyfiyyətləri aid edir. Kant cinslərə xas olan xüsusiyyətlərin onlar arasında təbiət tərəfindən məqsədə müvafiq bölündüyünə və cinslərdən heç birinin digəri qarşısında üstünlüyünün olmadığına əsaslanırdı. Hər bir cins o birini tamamlayan dəyərlərə malikdir. Lakin sonra Kantın mühakimələri qadının asanlıqla, təbii meyli ilə bağlı gərginlik çəkmədən yerinə yetirdiyi yaxşılığın heç bir mənəvi dəyəri olmadığı fikrinə yönəlir. Kişinin yaxşılığı isə həmişə borc hissi ilə, çətinlik dəf etməklə bağlıdır, buna görə də ona universal mənəvi prinsipə - kateqorik imperativə əməl etmək xasdır. Belə çıxır ki, qadın yenə də xarakterin ən yüksək dəyərinə malik ola bilməz, yəni kişi ilə müqayisədə onun təbiəti qeyri – mükəmməldir. Monteskyö də cinslərarası münasibət barəsində öz dövrü üçün olduqca maraqlı fikirlər söyləyirdi. Onun fikrincə, bu münasibətlər ölkədən və siyasi rejimdən asılı olaraq dəyişir [8; 105]. Cinslər arasında münasibətlərin dəyişməsi rejimin xarakterindən asılıdır. Hər bir kişinin dövlətin idarə olunmasında iştirak etməyə cəhd etdiyi respublikalarda qadın kişidən ayrı yaşamağa məcburdur. Əgər hamının və hər kəsin funksiyası ictimai rifaha səmtlənmişsə, qadının rolu ailə həyatına istiqamətlənir və ictimai həyat iltifatına burada yer yoxdur. Respublika üsulu labüd olaraq qadınları dövlətin idarəolunmasından çıxarır. Hüquq bərabərliyi anlayışı ilə birləşmiş hökumət və vətəndaşlar "cinslərin qarışması"na yol verməməlidir. Demokratik dövlət faktiki olaraq tam özünü unutmağa və hissiyyatın intizamına əsaslanır. Əgər qanun qadınları azad edirsə, demək onları əxlaqın çərçivəsinə salmaq lazımdır.

XIX əsr Azərbaycan mədəni həyatında qadın probleminin əsas inkişaf meyilləri öz əksini tapdı. Hər şeydən əvvəl bu – cəmiyyətin mədəniyyətində qadın rolunun aktivləşməsi kimi mühüm bir meyil idi. Buna ən parlaq misal olaraq görkəmli Azərbaycan şairi, Mehdiqulu xanın qızı, "Xan qızı" adı il məşhur olan və Şərqin ən təhsilli qadınlarından biri Xurşudbanu Natəvanı göstərmək olar. Tərəqqipərvər baxışlarına baxmayaraq Natəvan kişi auditoriyasında çıxış edərkən üzünə ağ örtük çəkirdi. Bu fakt şəriətin qadınlara aid dini göstərişlərinin güclü olduğuna bir misaldır [9; 67]. Təsadüfi deyil ki, Şərqin qabaqcıl ictimai fikir nümayəndələri qadın istismarına qarşı, onun gerilikdə və mədəniyyətsizlikdən azad olması uğrunda mübarizə edərək qadın istismarının çadra gəzdirmək kimi eybəcər formasını qəti pisləyirdi. Buna misal olaraq Mirzə Şəfi Vazehin "Çadranı atmaq" əsərini göstərmək olar.

İctimai şüurda mənəvi dəyərlərdə, mentalitetdə baş vermiş dəyişiklər son onilliklərdə Azərbaycan qadınına qarşı münasibəti də dəyişdirdi. Bizdə əvvəlki kimi qadın cinsinin zəifliyi barədə təsəvvür üstünlük təşkil edir və qadınların çiyninə düşən fiziki zəhmət, psixoloji yük, ağır məişət yükü həmin təbii zəiflikdə ziddiyyət təşkil edir; daha doğrusu zəiflik kişi hökmranlığından total asılılıq kimi qəbul edilir.

Getdikcə daha çox sayda qadının hakimiyyətə daxil olması problemi bir çox ölkələr kimi Azərbaycan üçün də olduqca vacibdir. Qadına hakimiyyətin ehtiyacı var, çünki qadınlar dəyişiklik katalizatoru rolunu oynaya bilər; onların hakim strukturlara gəlişi bütövlükdə cəmiyyətdə qadın əhalisinin demək olar ki, ayrılıqda götürülmüş hər bir qadının statusunun yaxşılaşması üçün obyektiv vacib şərtdir.

Qadın – lider cəmiyyət üçün daha mühüm olan problemləri həll etməlidir. Dünya təcrübəsi siyasətdə (digər sahələrdə olduğu kimi) elə sahələrin olduğunu göstərir ki, orada qadın, yaxud kişilər daha səriştəlidir. Burada hər şey konkret hadisədən, mühitdən, şəraitdən asılıdır, amma hər halda hakim vəzifəyə təyin edərkən, yaxud seçərkən gender əlamətini deyil, peşəkar xüsusiyyətləri nəzərə almaq vacibdir. Qadınların rəhbər mövqelərdə olmasına tərəfdar çıxaraq hər şeydən əvvəl kəmiyyət yox, keyfiyyət göstəricilərini əsas götürmək lazımdır.

**Problemin aktuallığı:** Kişi və qadın arasında ictimai və ailədaxili əmək bölümü, qadınların ictimai proseslərdə iştirakı, ətrafda baş verən proses və hadisələrin ümumi kontekstində qadınların hüquq və azadlıqları problemi, cinslərin yönümü, xüsusiyyətləri və qarşılıqlı münasibəti məsələlərinə ümumfəlsəfi yanaşmalar, maskulinlik və feminliyə baxış – bütün bunlar müasir dövrdə müəyyən dəyişikliyə və tənqidi təhlilə məruz qalır və bu amillərin öyrənilməsi çox vacib şərtdir.

**Problemin elmi yeniliyi:** Qadın təbiətinin öyrənilməsi ictimai fikir tarixində əsas problemlərdən biridir. Cinslər arasındakı ictimai-sosial bərabərsizliyin yeni kontekstdə öyrənilməsi baxımından faydalı ola bilər.

**Problemin praktik əhəmiyyəti:** Məqalədən psixoloqlar, sosioloqlar faydalana bilər.

## ƏDƏBİYYAT


1. Fərrux Rüstəmov. Komenski Y.A. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012 388 s.
2. Кон, И:С. На стыке наук: Социально-психологические проблемы пола [Текст] / И.С. Кон // Вопросы философии, 1981, № 10
3. Здравомыслова, Е.А., А.А. Темкина. Социология гендера // Введение в гендерные исследования. 4.1 / Под. ред. И.А. Жеребкиной. Харьков: ХЦГИ; СПб. : Алегейя, 2001.
4. Aristotel. Siyasət. Böyük etika. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2006.
5. Hegel/ Fəlsəfə elmləri ensiklopediyası. 1-ci cild. Məntiq elmi. Bakı, 2005.
6. Fransua P., Bannister D. A Manual for repertory grid technique. Academic Press,'London-NY, 1977.
7. Алешина Ю.А., Волович А.С. Проблемы усвоения ролей мужчины и женщины // Вопросы психологии, 1991, № 4,
8. К. Уэст, Д. Зиммерман. Создание гендера (Doing gender) // Гендерные тетради. Под ред. А.А. Клецина. Вып. 1. СПб.: Изд-во СПБ филиала ИС РАН, 1997.
9. Quluzadə Z. Müasir dövrdə Azərbaycanda gender və qadın problemləri. Bakı: 2001.


**Г. Гахраманова**

## ГЕНДЕРНАЯ ИДЕНТИФИКАЦИЯ КАК ВЗАИМОСВЯЗЬ БИОЛОГИЧЕСКИХ И ПСИХОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЕЙ

### РЕЗЮМЕ

Понимание гендера как социокультурного конструкта, детерминирующего весь образ жизни представителей того или иного пола, привело к терминологической путанице таких понятий, как "гендер" и "половая роль". Считаем необходимым дифференцировать данные понятия.В социальной психологии "роль пола" понимается как модель, как некая форма социального поведения, специи-фический набор ожиданий и требований, предъявляемых обществом к лицам женского, мужского пола, как явление непостоянное, как некий континиум, действующий в определенных ситуациях, который легко сменяется на другие, более эффективные ролевые модели, тогда как "гендер" отражается в каждом действии, поступке, поведении человека и "от него невозможно отказаться, сменить на другой".

**Q. Qahramanova**

## GENDER IDENTITY AS THE RELATIONSHIP OF BIOLOGICAL AND PSYCHOLOGICAL CHARACTERISTICS

### SUMMARY

Understanding of gender as a social and cultural construct, which determine the whole life of representatives of either sex, led to the terminological confusion of concepts such as "gender" and "sex role". We consider it necessary to differentiate these concepts.In social psychology, "gender role" is understood as a model, as a form of social behavior, a specific set of expectations and requirements of society to persons of the female, male, as impermanent phenomenon as a continuum, acting in certain situations, which can be easily replaced by other more effective role models, while "gender" is reflected in every action, deed, human behavior, and "it is impossible to refuse, change to another."

*Redaksiyaya daxil olub: 13.10.2014*

# ЗНАЧЕНИЕ РАННЕЙ ДИАГНОСТИКИ ЗАДЕРЖКИ ПСИХИЧЕСКОГО РАЗВИТИЯ

**Эльмира Керимова,**
*старший научный сотрудник*
ИПОАР
E-mail: ema.umudova@mail.ru

**Рецензенты:** *докт фил. наук. пед.* Д.Д остузаде,
*докт.фил наук. пед.* М. Кязымов

***Ключевые слова:*** *дети с ограниченными возможностями здоровья, задержка психического развития, ранняя диагностика, коррекция.*

***Açar sözlər***: *sağlamlıq imkanları məhdud uşaqlar, psixi inkişafın ləngiməsi, erkən diaqnostika, korreksiya.*

***Key words:*** *children with disabilities, mental retardation, early diagnosis, correction.*

Система образования создает условия для развития не только отдельно взятой личности, но и для общества в целом. Расширение образовательного пространства, новое педагогическое мышление и новые идеи о привлечении всех детей, независимо от их культурного и социального положения в это пространство, все больше овладевало у нас умами просвещенной интеллигенции. А это требовало новых решений и новых подходов. Именно в это время в республике было решено включить специальное образование в обычное образование в рамках усилий, известных как «меры по интеграции», тем более, что социально – экономические преобразования позволяли это сделать.

Следует отметить, что еще до перехода к инклюзивному образованию в республике была создана нормативно – правовая основа специального образования. Так, в Конституции республики отмечено, что каждый гражданин, независимо от его социальной, этнической, гендерной и т.д. принадлежности имеет право на образование; в 2001 – ом году президент Гейдар Алиев подписал «Закон о специальном образовании лиц с ограниченными возможностями здоровья»; начиная с этого же года Кабинетом Министров издано около 9 важных указов, регулирующих специальное образование; позднее Министерство Образования приняло планы развития специального образования на 2005 – 2009 и на 2010 – 2015 годы. Внедряемое в республике с 2004 – го года инклюзивное образование соответствует всем международным актам и декларациям международных конференций, регулирующим образование (Общая Декларация прав человека; Декларация прав инвалидов; Декларация прав лиц с умственной отсталостью; Конвенция прав ребенка; Стандартные правила равных возможностей для инвалидов, принятые ООН и др).

Учитывая все вышесказанное отметим, что ранняя диагностика и коррекция отклонений психомоторного развития детей являются главным условием их эффективного обучения и воспитания, предупреждения у них тяжелой инвалидности и социальной дезадаптации.

Полученные современной медициной данные свидетельствуют об эффективности ранних коррекционно-воспитательных мероприятий. Это связано с тем, что именно в первые годы жизни мозг ребенка развивается наиболее интенсивно. Кроме того, на ранних этапах развития дети усваивают двигательные, речевые и поведенческие стереотипы. Если у ребенка с отклонениями в развитии они изначально сформированы и закреплены неправильно, то впоследствии скорректировать их крайне сложно.

Воспитание детей с отклонениями в развитии отличается своеобразием, которое заключается, во-первых, в его коррекционной направленности, во-вторых, в неразрывной

связи коррекционных мероприятий с формированием практических навыков и умений. Конкретные особенности воспитания таких детей зависят от вида аномального развития, степени и характера нарушений различных функций, а также компенсаторных и возрастных возможностей ребенка.

Многие дети с отклонениями в развитии помимо правильного воспитания, обучения и коррекции нарушенных функций нуждаются также и в специальном лечении. Все это обусловливает необходимость ранней диагностики различных отклонений в психомоторном развитии.

В данной статье мы хотели бы остановиться на проблеме ранней диагностики задержки психического развития.

Задержки психического развития у детей и их коррекция являются актуальной проблемой не только педагогики, но и психологии и медицины. Термин «задержка психического развития» был предложен Г. Е. Сухаревой еще в 1959 г. Под задержкой психического развития (ЗПР) понимают замедление нормального темпа психического созревания по сравнению с принятыми возрастными нормами. ЗПР начинается в раннем детском возрасте без предшествующего периода нормального развития, характеризуются стабильным течением (без ремиссий и рецидивов, в отличие от психических расстройств) и тенденцией к прогрессивному нивелированию по мере взросления ребенка. О ЗПР можно говорить до младшего школьного возраста. Сохраняющиеся признаки недоразвития психических функций в более старшем возрасте свидетельствуют об олигофрении различной степени выраженности и о других нарушениях психического развития.

В Азербайджане в результате исследований, проведенных нами в 2003 году, выявлено, что распространенность истинной первичной ЗПР в структуре общих задержек развития составляет 38%.

По мнению М.С.Певзнер, основным механизмом ЗПР является нарушение созревания и функциональная недостаточность более молодых и сложных систем мозга, относящихся главным образом к лобным отделам коры больших полушарий, которые обеспечивают осуществление созидательных актов поведения и деятельности человека.

Существует деление ЗПР на первичную и вторичную. При этом вторичная задержка психического развития возникает на фоне первичного неповрежденного головного мозга при хронических соматических заболеваниях (пороки сердца и пр.), сопровождающихся церебральной недостаточностью.

В первые годы жизни в силу незрелости нервной системы у детей чаще наблюдается дисфункция созревания двигательных и общепсихических функций. Поэтому обычно в раннем детстве речь идет об общей задержке психомоторного развития с большей выраженностью отставания психических функций.

У детей же старше трех лет становится возможным выделение уже более очерченных психоневрологических синдромов. Главным клиническим признаком ЗПР (по М. Ш. Вроно) являются: запаздывание развития основных психофизических функций (моторики, речи, социального поведения); эмоциональная незрелость; неравномерность развития отдельных психических функций; функциональный, обратимый характер нарушений.

Если интеллектуальная недостаточность в дошкольном возрасте маскируется речевыми расстройствами, то в школьном возрасте она проявляется отчетливо и выражается в бедном запасе сведений об окружающем мире, медленном формировании понятий о форме и величине предметов, трудностях счета, пересказа прочитанного, непонимании скрытого смысла простых рассказов. У таких детей преобладает конкретно-образный тип мышления, психические процессы инертны, поведение незрелое. Выражены истощаемость и пресыщаемость. Уровень наглядно-образного мышления довольно высок, а абстрактно-логический уровень мышления, неразрывно связанный с внутренней речью, оказывается недостаточным.

При диагностике аномального развития мало только констатировать интеллектуальную, речевую, двигательную или сенсорную недостаточность, необходимо поставить клинический диагноз, который отражал бы причину и механизм нарушения развития, определял бы школьный и социальный прогноз, а также намечал пути и методы лечебно-коррекционной работы. Поэтому специалисты медико-психолого-педагогических комиссий и работники дошкольных учреждений должны хорошо ориентироваться в вопросах диагностики различных форм аномального развития, иметь представление о современных методах их лечения и психолого-педагогической коррекции.

В связи со сказанным очень важна своевременная диагностика ЗПР.

При ЗПР, в отличие от умственной отсталости, имеет место обратимость интеллектуального дефекта. Особенностью задержанного психического развития является неравномерность нарушений различных психических функций; при этом логическое мышление может быть даже более сохранным по сравнению с памятью, вниманием, умственной работоспособностью и т. п.

Кроме того, в отличие от олигофрении, у детей с задержкой психического развития отсутствует инертность психических процессов; они способны не только принимать и использовать помощь, но и переносить усвоенные умственные навыки в другие ситуации. С помощью взрослого они могут выполнять предлагаемые им интеллектуальные задания на близком к норме уровне. Этим они качественно отличаются от детей с умственной отсталостью.

Для детей с ЗПР характерна низкая познавательная активность.

Особенностью психического развития детей с задержанным развитием в дошкольном возрасте является недостаточность у них процессов восприятия, внимания, памяти.

Недостаточность восприятия обусловлена несформированностью интегративной деятельности мозга и прежде всего нескольких сенсорных систем (зрительной, слуховой, осязательной). Известно, что интегративность — взаимодействие различных функциональных систем — является основой психического развития ребенка. В связи с недостаточностью интегративной деятельности мозга дети с задержкой психического развития затрудняются в узнавании непривычно представленных предметов (перевернутые или недорисованные изображения, схематичные и контурные рисунки); им трудно соединить отдельные детали рисунка в единый смысловой образ.

Эти специфические нарушения восприятия у детей с задержкой развития определяют ограниченность и фрагментарность их представлений об окружающем мире.

При выполнении задания нарисовать фигуру человека старшие дошкольники допускают много ошибок. На их рисунках заметна диспропорция частей тела, некоторые важные детали изображены примитивно или вовсе отсутствуют.

Таким образом, одной из основных особенностей детей с задержкой психического развития является недостаточность образования связей между отдельными перцептивными и двигательными функциями. Так, ребенок может затрудняться в оценке идентичности форм предметов, воспринимаемых им с помощью осязания и зрения. Он также испытывает затруднения при воспроизведении ритма, воспринимаемого на слух.

Одной из характерных особенностей детей с задержкой в развитии является отставание в развитии у них пространственных представлений, недостаточная ориентировка в частях собственного тела. Кроме того, в дошкольном возрасте у них нередко наблюдается перекрестная или невыраженная латеральность. По мнению некоторых авторов, среди этих детей отмечается некоторое преобладание леворуких и детей с невыраженной латеральностью. Характерным признаком детей с задержкой психического развития является недостаточность у них тонкой моторики.

Характерной особенностью детей с задержкой психического развития является выраженное нарушение у большинства из них функции активного внимания. Рассеянность

внимания, усиливающаяся по мере выполнения задания, свидетельствует о повышенной психической истощаемости ребенка.

Кроме того, для многих детей характерен ограниченный объем внимания, его фрагментарность, когда ребенок в определенный момент времени воспринимает лишь отдельные части предъявляемой ему информации. Эти нарушения внимания могут задерживать процесс формирования понятий. Одной из частых особенностей нарушений внимания у детей с задержкой психического развития является его недостаточная концентрация на существенных признаках. В этих случаях при отсутствии соответствующей коррекционной работы может отмечаться недоразвитие мыслительных операций. Нарушения внимания особенно выражены при двигательной расторможенности, повышенной аффективной возбудимости, т. е. у детей с гиперактивным поведением. При гиперактивном поведении отмечается общее двигательное беспокойство, неусидчивость, недостаточная целенаправленность, импульсивность. Эти дети раздражительны, взрывчаты, проявляют агрессивность и негативизм, у них часто наблюдается ухудшение сна.

При нарушениях внимания особенно четко проявляется одна из характерных особенностей восприятия детей с задержкой психического развития — трудность выделения фигуры из фона.

Для многих детей с задержкой психического развития характерна своеобразная структура памяти. Это проявляется иногда в большой продуктивности непроизвольного запоминания. Однако и она всегда ниже, чем у нормально развивающихся сверстников, что связано с более низкой познавательной активностью этих детей.

Недостаточность произвольной памяти у детей с ЗПР в значительной степени связана со слабостью регуляции произвольной деятельности, недостаточной ее целенаправленностью, несформированностью функции самоконтроля. Этими же факторами объясняются характерные нарушения поведения у данной категории детей.

Дети с задержкой развития отличаются, как правило, эмоциональной неустойчивостью. Они с трудом приспосабливаются к детскому коллективу, им свойственны колебания настроения и повышенная утомляемость.

Группа детей с задержкой психического развития крайне неоднородна. У одних из них на первый план выступает замедленность становления эмоционально-личностных характеристик и произвольной регуляции поведения, нарушения же в интеллектуальной сфере выражены нерезко. Это дети с различными формами инфантилизма. Наиболее отчетливо инфантилизм проявляется к концу дошкольного возраста и в начальной школе. У этих детей задержано формирование личностной готовности к обучению, с трудом формируется чувство долга, ответственности, критичности к своему поведению. Они, как правило, приветливы, общительны, часто повышенно оживлены, крайне внушаемы и подражательны, но эмоции их обычно поверхностны и неустойчивы.

При других формах задержки психического развития преобладает недоразвитие различных сторон познавательной деятельности.

Наблюдаются также формы ЗПР, при которых эмоционально-волевая и личностная незрелость сочетается с недостаточностью различных компонентов познавательной деятельности.

В основе коррекции ЗПР лежит мультидисциплинарный подход с активным участием неврологов, педиатров, психологов, психиатров, логопедов, педагогов-дефектологов.

Воспитание и обучение ребенка с отклонениями в развитии — нелегкая задача. Очень важно, чтобы родители и окружающие относились к нему естественно, каков бы ни был у него дефект. Известно, что душевное состояние ребенка зависит от его отношения к своему дефекту, а не от тяжести самого нервно-психического заболевания, обуславливающего отклонения в развитии. Поэтому главным условием, при котором ребенок с нарушениями развития вырастает общительным и счастливым,— это прежде всего правильное отношение

к нему родителей. Если родители получают радость от общения со своим ребенком и любят его таким, какой он есть, не проявляют излишнего беспокойства, чрезмерно не суетятся вокруг него, не критикуют и не стесняются его, и поддерживают его общение с другими детьми, он вырастает уравновешенным, общительным и ему будет легче адаптироваться в коллективе здоровых сверстников.

Научная новизна. В статье уделено внимание проблеме детей с ЗПР, в частности своевременной диагностике этого состояния. Отмечено, что своевременная диагностика является залогом вовремя начатой и успешной коррекционной работы.

Практическое значение. Статья может быть полезна в первую очередь для воспитателей детских садов и учителей начальных классов.

**ЛИТЕРАТУРА**


1. Актуальные проблемы диагностики задержки психического развития детей / Под ред. К. С. Лебединской. М.: Педагогика, 1982.
2. Василевская В. Я. Дети, не успевающие в младших классах массовой школы // Принципы отбора детей во вспомогательные школы / Под ред. Г. М. Дульнева и А. Р. Лурия. М.: Просвещение, 1973.
3.


**E. Kərimova**

**PSİXİ İNKİŞAFIN LƏNGİMƏSİNİN ERKƏN DİAQNOSTİKASININ VACİBLİYİ**

**XÜLASƏ**

Psixi inkişafın ləngiməsi problemi Azərbayjan üçün çox aktual bir problemdir. Son illər bu problemin həllini belə uşaqların inklüziv təhsilə jəlb edilməsində görürlər. Amma hansı sinifdə və məktəbdə təhsil almasından asılı olmayaraq psixi inkişafın ləngiməsinin erkən diaqnostikası problemi öz həllini gözləyən problemlərdən biridir.

**E. Kerimova**

**THE VALUE OF EARLY DIAGNOSIS OF MENTAL RETARDATION**

**SUMMARY**

Problem of mental retardation in Azerbaijan is relevant for more than 20 years. In recent years, the solution to this problem lies in bringing these children ininclusive education. But the usual or inclusive classrooms studentswith mental retardation problem of early diagonostiki with mental retardation, as well as other deviations in psychophysical development, is very important andrequires svoegorešeniâ. A timely solution to this problem is a prerequisite to effective teaching and upbringing of the children and with mental retardation,warning them of severe disability and social exclusion.

*Redaksiyaya daxil olub: 12.10.2014*

# XÜSUSİ PSİXOLOGİYANIN TƏTBİQİ PROBLEMLƏRİ VƏ PSİXODİAQNOSTİKANIN ASPEKTLƏRİ

**Nailə Hüseynova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ADPU*
E-mail: naila_h@gmail.com

**Reyçilər:** *dos.* T. Ağayeva,
*ped.ü.f.d.* S. Aslanova

***Acar sözlər:*** *psixoloji adaptasiya, funksiyaların kompensasiyası, psixodiaqnostika, xüsusi psixologiya, psixoloji xidmət*

***Ключевые слова****: психологическая адаптация, компенсация функций, психодиагностика, специальная психология, психологические услуги*

***Keywords****: psychological adaptation, compensation of functions, psychodiagnostics, developmental psychology, psychological services*

Psixologiyada adaptasiya termini insanın ətraf şəraitə uyğunlaşması deməkdir. İnsanın adaptasiyası iki aspektdə öyrənilir – bioloji və psixoloji. Psixofiziologiyada hissiyyat üzvlərinin öyrənilməsi – orqanizmin davamlı və dəyişkən şəraitinə uyğunlaşan istiqamətləri daxil edən, bioloji adaptasiyanın şəxsi büruzə verilməsidir. Psixoloji adaptasiyanın əsas vasitələri tərbiyə, təhsil, əmək və peşə hazırlığıdır. Psixoloji adaptasiya insanın mühüm həyat tərzinin dəyişmələrində baş verir: uşaq bağça şəraitinə düşürək, yeni şəraitə adaptasiya olmalıdır. Adaptasiyaya ehtiyac mikrososiumun dəyişməsi zamanı yaranır: ailə, valideynlərin boşanması, yaxın adamın ölümü.

Yeni şəraitə uyğunlaşma prosesi bir çox hallarda çətinliklə keçir, bir çox hallarda qeyri-adekvat davranış reaksiyaları, kəskin psixoloji situasiyalar yaranır. Bu zaman dezadaptasiya baş verir, inkişaf pozulmaları olan uşaqlarda dezataptasiyanın vəziyyəti bir qədər yüngül keçir nəinki normal inkişaf etmiş uşaqlarda. Adaptasiya proseslərinin özünəməxsusluğu müəyyən funksional sistemlərinin çatışmazlıqları ilə xarakterizə olunur. Bu çatışmazlıqlar analizatorların və ya mərkəzi sinir sisteminin üzvü zədələnmələri ilə nəticələnir. Adaptasiya çətinliklərinin azalması və anomal uşaqların psixi inkişaflarının maksimal dərəcədə normaya yaxınlaşması, korreksiya və inkişaf pozulmalarının kompensasiya yolu ilə həll olunur. Bildiyimiz kimi, korreksiya – psixi və fiziki çatışmazlıqların psixoloji-pedaqoji təsir ilə zəifləməsi və ya aradan qaldırılmasıdır.

Funksiyanın kompensasiyası mürəkkəb prosesdir. Kompensasiya prosesində zədələnmiş üzv və ya struktur öz funksiyasını sağlam üzvlə əvəzləndirir, fəaliyyətini gücləndirir. Kompensasiya orqanizmin adaptasiya reaksiyalarının əsas növlərindən biridir. Kompensasiya funksiyaları müxtəlif səviyyələrdə baş verir: sistemlər daxili və sistemlər arası. Sistemlər daxili kompensasiya müəyyən funksional sistemin ehtiyat imkanlarının istifadəsi vasitəsi ilə həyata keçir. Sistemlər arası kompensasiya funksiyanın daha ağır pozulmaları zamanı baş verir və orqanizmin fəaliyyətinin mürəkkəb yenidən qurulmasını təqdim edir və bu prosesə o biri funksional sistemlərin kompensasiyasını daxil edir.

Xüsusi psixologiyanın mürəkkəb problemi, baş beyin qabığının zədələnməsi zamanı funksiyaların kompensasiyasıdır. Bu pozulma zamanı təlimin və əqli inkişaf proseslərinin mexanizmləri pozulur. Belə pozulmalar zamanı kompensator proseslərin pozulmaları daha mürəkkəbdir. Bir çox hallarda funksiyaların kompensasiyası üçün tibbi preparatların, fizioterapiyanın və başqa tibbi tədbirlərin aparılması səmərəlidir. Kompensasiyaların təcrübəsində və nəzəriyyələrində L.S. Vıqotski, A.R. Luriya, A.N. Leontyev kimi psixoloqların mühüm rolu var. Onlar həm də o biri alo psixi funksiyaların inkişafı və onların insanın fəaliyyətindəki rolu haqqında fikirləri irəli sürmüşlər.

İnkişaf çatışmazlıqlarının aradan qaldırılmasında müəyyən rol psixoterapiyaya ayrılır. Psixoterapiyanın tətbiqi zamanı beynin birinci və ikinci siqnal sistemlərinin qarşılıqlı əlaqəsinin pozulmaları da nəzərə alınır. Bu vasitə ilə şagirdlərin şəxsi keyfiyyətlərinə təsir etmək mümkündür, onların davranışlarını dəyişmək və özünənəzarət formalaşdırmaq vacibdir. Məktəbəqədər yaşlı uşaqlarla korreksiya iş prosesində artterapiyanın səmərəliliyi Y.A. Medvedevanın tədqiqatlarında geniş təhlil olunmuşdur. Bu tədqiqatlarda artpedaqogikanın və artterapiyanın kompleks proqramı göstərilir və məktəbəqədər yaşlı PİL uşaqlar üçün istifadəsinin səmərəliyi qeyd olunur.

Optimal və adekvat şərait, məzmuna uyğun gələn təlim metodları, vacib olan texniki vəsaitlər, xüsusi hazırlığı olan müəllimlər, uşaqda olan çatışmazlıqları effektiv korreksiya edə bilə və onun qabliyyətlərini maksimal inkişaf edə bilər. Psixi inkişafın özünəməxsusluğunu aşkar etmək, onun psixoloji xüsusiyyətlərini araşdırmaq inkişaf pozulmalarının psixodiaqnostikasının əsas vəzifəsidir. Bu xüsusiyyətlərin başa düşülməsi, inkişaf çatışmazlıqları olan uşaqları təliminin əsas istiqamətlərini müəyyən edir. İnkişafında çatışmazlıqları olan uşaqların təlim sistemi – pedaqoji praktikanın sahəsidir, bu sahədə psixoloji diaqnostikanın xüsusi əhəmiyyəti var. Bu prosesdə psixodiaqnostika - kompleks müayinənin tərkib hissəsidir. Müayinədən sonra uşağın inkişafında sensor-perseptiv funksiyaların, motorikanın, əqli fəaliyyətin və ya emosional-iradi sferanın çatışmazlıqları üzərində korreksiya işi kompleks şəkildə aparılır. L.S. Vıqotski qeyd edib ki, bu çatışmazlıqların olması zamanı uşaqda psixi inkişaf pozulur və şəxsiyyətin inkişafında olan çatışmazlıqlar kobud büruzə verilir. İnkişaf pozulmalarının struktur təhlili psixoloji diaqnostik metodikaların seçilməsi üçün əhəmiyyət kəsb edir. Metodikalar bu və ya digər psixoloji xüsusiyyətin büruzə verilmə səviyyəsinin aşkarlanmasına yönəlir.

Bu ümumi qanunauyğunluqlar inkişafın ardıcıl əvəzlənməsi, əsas psixi funksiyaların inkişaf dinamikasının müəyyən ardıcıllığı, psixi funksiyaların formalaşmasında senzititv mərhələlərin olması təlimin aparıcı rolu aiddir. Psixodiaqnostik müayinənin aparılması zamanı dəqiq göstəricilərin alınmasının əsas şərti, uşaqla ünsiyyətin qurulmasıdır. Psixodiaqnostikanın göstəriciləri psixoloji-pedaqoji diaqnozu müəyyən edir.

Psixoloji diaqnostikanın aşağıdakı meyarlarını göstərmək olar.

1) psixoloji müayinə, kompleks tibbi-fizioloji, psixoloji-pedaqoji və sosial müayinənin tərkib hissəsidir;

2) müayinənin hərtərəfliyi. Bu prinsip uşağın psixikasının öyrənilməsini və onun hər tərəflərinin (idrak prosesləri, nitq, emosional-iradi sfera, şəxsi xüsusiyyətlər) müayinəsini daxil edir;

3) müayinə edilən uşağın yaşını nəzərə alaraq onun inkişaf səviyyəsini araşdırmaq;

4) müayinə uşağa tanış olan fəaliyyət formasında aparılmalıdır;

5) diaqnostik tapşırıqlar sisteminin seçimi hər yaş dövrü üçün elmi əsaslanmalıdır. Buna müvafiq olaraq diaqnostika üçün o tapşırıqlardan istifadə olmalıdır ki, hansıların yerinə yetirilmə xarakteri müəyyən elmi təsnifata uyğun gəlir;

6) tapşırıqların yerinə yetirilməsinə təqdim olunan mümkünlük. Uşağa elə tapşırıqlar verilməlidir ki, o, onları yerinə yetirə bilsin, əks halda ona öz yaşından aşağı olan uşaqlar üçün tapşırıqlar verilməlidir.

Məktəbdə psixoloji xidmətin məqsədləri və vəzifələrinə uyğun olaraq xüsusi psixoloqların fəaliyyətinin aşağıdakı əsas istiqamətlərini ayırmaq mümkündür:

- pozulması olan uşaqların idrak proseslərinin və şəxsi inkişafının dərin müayinəsi zamanı psixodiaqnostika;
- idrak və şəxsi keyfiyyətlərin aradan qaldırılmasına yönəlmiş psixokorreksiya;
- psixoloji məsləhət – valideynlərə və müəllimlərə problemin həllində köməklik məqsədi ilə psixoloqun yardımıdır;
- psixoloji maariflənmə - pedaqoji kollektivin, valideynlərin psixoloji biliklərə yiyələnməsi.

Psixoloji xidmətin təşkilinin konseptual müddəaların əsaslanaraq məktəblərdə psixodiaqnostika zamanı müəyyən ardıcıllıq güdülməlidir. Psixodiaqnostika zamanı mərkəzi yer

psixoloji diaqnoza ayrılır. Diaqnoz müayinə zamanı toplanılan məlumata əsaslanmalıdır. İlk növbədə psixoloji problem düzgün ayrılmalıdır;

- sonra məlumatlar toplanmalıdır;
- alınan informasiya təhlil olunmalıdır;
- nəticənin formalaşması və onun praktik məqsədi.

Xüsusi korreksiya məktəblərdə psixoloqun işinin məqsəd, vəzifələri və məzmunu məktəbin spesifikasından asılıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə xüsusi psixologiyanın tətbiqi problemləri geniş təhlil olunub. Psixoloji adaptasiyanın əsas istiqamətləri açıqlanıb. Xüsusi müəssisələrdə fəaliyyət göstərən psixoloqların iş sisteminin müasir vasitələri barədə məqalədə məlumat verilib.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunan məlumatlar xüsusi təhsil müəssisələrində fəaliyyət göstərən psixoloqlar üçün əhəmiyyət kəsb edir. Təqdim olunan psixodiaqnostikanın istiqamətlərindən istifadə edərək problemli uşaqların dərin diaqnostikası üçün şərait yaradılır və gələcək düzgün korreksiyasına şərait yaradılır.

## ƏDƏBİYYAT


1. Л.С. Выготски. Проблемы дефектологии. М, 1995.
2. В.И. Лубовский. Психологические проблемы диагностики аномального развития детей. М, 1989.
3. Основы обучения и воспитания аномальных детей / Под ред. А.И. Дьячкова. М, 1965.
4. Основы психодиагностики / Под ред. А.Г. Шмелева. Д, 1996.
5. Qasımov S.Ə., Kərimova E.M. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı, 2004.


**Н.Гусейнова**

## ПРИКЛАДНЫЕ ПРОБЛЕМЫ СПЕЦИАЛЬНОЙ ПСИХОЛОГИИ И АСПЕКТЫ ПСИХОДИАГНОСТИКИ

## РЕЗЮМЕ


В психологии термин адаптация означает приспособление человека к окружающей среде. Адаптация человека изучается в двух аспектах - биологическом и психологическом. Основные средства психологической адаптации это воспитание, образование, труд и профессиональная подготовка.

Компенсация функций сложный процесс. Компенсация одна из самых основных форм адаптационной реакции организма. Показатели психодиагностики определяют психо-педагогический диагноз. Можно показать следующие критерии психологической диагностики:

1. Психологическое обследование часть медицинского, физиологического, психо-педагогического и социального обследования.
2. Комплексное обследование.
3. Принимая во внимание возраст ребенка, изучение уровня его развития.
4. Осмотр должен проводиться в форме привычной для ребенка деятельности.
5. Выбор системы диагностических задач, должен научно обусловливаться для каждого возраста.
6. Представленные возможности для выполнения задач. Ребенку должна быть предоставлены задачи, которые он может выполнить, в противном случае ему нужно предложить задачи для детей младше его возраста.

**N.Huseynova**

## THE PRACTICAL ISSUES IN DEVELOPMENTAL PSYCHOLOGY AND ASPECTS OF PSYCHODIAGNOSIS

### SUMMARY

In psychology, the term of adaptation is adjustment of human to the environment. Human adaptation is studied in two aspects - biological and psychological. The main means of psychological adaptation is nurture, education, labour and vocational training. The compensation of functions is a complicated process. Compensation is one of the main types of adaptive reactions of the organism.

Psychodiagnostic indicators define pedagogical - psychological diagnosis. The following criteria of psychological diagnosis can be shown:

1. Psychological examination is a part of complex medical and physiological, psycho-pedagogical and social examination.
2. Comprehensive examination
3. Taking into account the examining child's age , examine the level of its development
4. The examination should be conducted in the form of the familiar activity to the child
5. The choice of diagnostic tasks system should be based scientifically for each age.
6. The possibility of the implementation of the presented tasks. The child should be given the tasks that he/she can complete, otherwise it should be given tasks for children younger than their age.

*Redaksiyaya daxil olub: 07.10.2014*

# MƏKTƏBDAXİLİ PSİXOLOJİ İQLİMİN YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ROLU

**Arzu Məmmədova,**
*Bakı şəhəri 18 nömrəli tam orta məktəbin psixoloqu*
E-mail: arzu_1120@mail.ru

**Rəyçilər:** *prof.* R. Əliyev
*dos.* L. Əmrahlı

***Açar sözlər:*** *psixoloji iqlim, ictimai fəaliyyət, emosional atmosfer, şəxsiyyətlərarası münasibətlər, ünsiyyət bacarığı*

***Ключевые слова:*** *психологический климат, общественная деятельность, эмоциональная атмосфера, межличностные отношения, умение общаться*

***Key words:*** *pshycology atmosphere, emotional atmosphere, velationship between personalities, the ability of communication*

Məktəbdaxili psixoloji iqlim probleminin tədqiqi həmişə diqqət mərkəzində olmuşdur. Azərbaycan alimlərindən Ə.Ə. Əlizadə (1), R.İ. Əliyev (2), İ.Ə. Məmmədov (4) rus alimlərindən A.N. Lutoşkin (3), İ.V. Dubrovina (6), E.İ. Roqov (7) və başqalarının bu sahədə əhəmiyyətli tədqiqatları var. Müasir dövrdə də məktəbdaxili psixoloji iqlimin şagird şəxsiyyətinin formalaşmasındakı rolunun öyrənilməsi aktuallıq kəsb edir. Məktəbdaxili psixoloji iqlimin yeniyetmə şəxsiyyətinin formalaşmasındakı əhəmiyyətinin öyrənilməsi isə xüsusi maraq doğurur.

Məktəbdaxili psixoloji iqlim birbaşa məktəbin ən başlıca vəzifəsi olan şagird şəxsiyyətinin formalaşdırılması vəzifəsinə təsir edir. Şagird şəxsiyyətinin formalaşdırılması bütövlükdə təhsil sisteminin əsas vəzifəsidir. Şagirdin fərdiliyi nəzərə alınmalı, onun bir şəxsiyyət kimi bənzərsiz və təkrarolunmaz olduğu daim diqqət mərkəzində saxlanılmalı, müsbət xüsusiyyətləri inkişaf etdirilməli, mənfi xüsusiyyətləri isə vaxtında islah edilməlidir. Məktəbdaxili psixoloji iqlim əlverişli olmadığı halda şübhəsiz ki, bu vəzifələri layiqincə həyata keçirmək mümkün olmayacaq. Çünki məktəbdaxili psixoloji iqlim yeniyetmələrin həm mənəvi, həm də əqli inkişafında böyük rol oynayır. Məktəbdəki işgüzar əhval-ruhiyyə, əlverişli psixoloji iqlim yeniyetmədə oxumaq, təhsil almaq əzmini daha da gücləndirir, əlverişsiz psixoloji iqlim, qeyri-sağlam münasibətlər isə əksinə yeniyetmənin təhsilə olan marağının günbəgün azalmasına səbəb olur. Nəticədə yeniyetmə maraqsız mühitdən uzaqlaşır, nəinki oxumaq həvəsi olmur, hətta məktəbə belə getmək istəmir.

Məktəbdaxili psixoloji iqlim orada fəaliyyət göstərən və təhsil alan insanların birgə səyi nəticəsində yaranır və bir sıra mühüm amillərdən asılıdır: müdiriyyətin iş üslubundan, şagirdlərin yaş xüsusiyyətlərindən, psixi, fiziki sağlamlığından, tədrisə münasibətindən, müəllim-şagird, müəllim-müəllim, şagird-şagird münasibətlərindən və s.

Mövcud məktəbdaxili psixoloji iqlim hər bir sinif kollektivinə təsir edir. Yeniyetmələrin təhsil aldıqları siniflərdə isə məktəbdaxili psixoloji iqlim daha qabarıq şəkildə özünü büruzə verir, yeniyetmə kollektivinin münasibətlər sistemində özünü əks etdirir. Bu da yeniyetməlik yaşının özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. Yeniyetməlik yaşı-ümumi dünyagörüşün formalaşması dövrüdür. Bu yaş dövründə şagirdin özünə və ətraf aləmə, insanlara qarşı olan münasibətlərində digər yaş dövrləri ilə müqayisədə fərqli xüsusiyyətlər meydana çıxır. Yeniyetmənin həyat və insanlar haqqındakı təsəvvürləri dəyişir, yeni-yeni xüsusiyyətlər kəsb etməyə başlayır. Özünəməxsus qiymətləndirmə sistemində yeniyetmənin məktəbdaxili psixoloji iqlim haqqında da təsəvvürləri formalaşır, buna müvafiq olaraq o təhsil aldığı məktəbi, oradakı münasibətləri qiymətləndirməyə başlayır. Hər bir yeniyetmə məktəbdaxili psixoloji iqlimə öz töhfəsini verərək onda müəyyən dəyişikliklərin yaranmasına səbəb olur, eyni zamanda özü də məktəbdaxili psixoloji iqlimin ümumi təsirinə məruz qalır. Ümumiyyətlə, yeniyetmə şəxsiyyətinin formalaşmasında mühit

xüsusi rol oynayır. Əksər hallarda yeniyetmələrin xarakterində mövcud psixoloji iqlimə müvafiq xüsusiyyətlər cəmlənir. Yeniyetmə özündən asılı olmadan mənsub olduğu mühitin xüsusiyyətlərini öz rəftar və hərəkətlərində əks etdirir. Məktəb mühiti şübhəsiz ki, yeniyetmə şəxsiyyətinin formalaşmasında həlledici əhəmiyyətə malikdir. Şagird məktəbdə təhsil almaqla yanaşı bir şəxsiyyət kimi formalaşır, bu mühitin, eyni zamanda bu mühitdə hökm sürən psixoloji iqlimin təsiri altında yeni-yeni xüsusiyyətləri özündə cəmləşdirməyə başlayır. Məhz buna görə yeniyetmənin gündəlik daxil olduğu məktəb və burada hökm sürən məktəbdaxili psixoloji iqlim onun şəxsiyyətinin formalaşmasına təsirsiz ötüşə bilməz.

Məktəbdaxili psixoloji iqlim təlim-tərbiyə işinin səmərəli, istənilən səviyyədə qurulması baxımından çox böyük, həlledici əhəmiyyətə malikdir. Müasir dövrdə şagirdlərin böyüklərlə və həmyaşıdları ilə münasibətlərini tənzimləyən xüsusi bir psixoloji vasitə yoxdur. Müxtəlif yaş dövrlərində şagirdlərin məktəbə, təlimə, özünə və ətrafdakı insanlara qarşı neqativ münasibətlərinin formalaşması məhz bununla bağlıdır. Şəxsiyyətin səmərəli təlimi və hərtərəfli inkişafı isə bu şəraitdə mümkün deyil.

Məktəbdaxili psixoloji iqlimin nə dərəcədə əlverişli və ya əlverişsiz olması əsasən şəxsiyyətlərarası münasibətlərdən asılıdır. Burada müəllim-müəllim, müəllim-şagird və şagird-şagird münasibətlərinin özünəməxsus yeri vardır. Məktəbdaxili psixoloji iqlim fərdi-psixoloji xüsusiyyətlərdən asılı olaraq hər bir şagirdə fərqli təsir göstərir və müvafiq cavab reaksiyası ilə özünü büruzə verir. Əlverişli psixoloji iqlimi qəbul etmək, onun qayda və qanunlarına tabe olmaq çətin deyil. Lakin bu da bir həqiqətdir ki, çox vaxt psixoloji iqlim son dərəcə korlanmış olur. Sinifdə elə bir psixoloji iqlim hökm sürür ki, şagird üçün burada oxumaq, inkişaf etmək, münasibət qurmaq çətin olur. Elə şagird olur ki, sinifdəki ab-havanın təsiri altında ruhdan düşür, oxumaq və münasibət qurmaq həvəsi olmur. Məktəb onun üçün yad, dözülməz bir mühitə çevrilir. Elə şagirdə də rast gəlmək mümkündür ki, əlverişsiz psixoloji iqlim onu nəinki ruhdan salmır, əksinə ondakı rəqabət hissini gücləndirərək onu daha yaxşı oxumağa, öz üstünlüyünü qoruyub saxlamağa vadar edir. Şagirddə özünü təsdiq etmə meyli o dərəcədə güclü olur ki, bəlkə də əlverişli psixoloji iqlimin hökm sürdüyü hər hansı bir sinifdə şagird bu dərəcədə müsbət irəliləyişlərə nail ola bilməzdi. Qeyd olunanlar yeniyetməlik dövründə özünü xüsusilə aşkar şəkildə büruzə verir.

Məktəbdaxili psixoloji iqlimin əlverişli və ya əlverişsiz olması yeniyetmə həyatının bütün sahələrində özünü büruzə verir. Məktəbdəki qeyri-sağlam psixoloji iqlim yeniyetməni hər yerdə izləyir. Psixoloji iqlimin istənilən səviyyədə olmaması yeniyetmələrin gələcəkdə bir sıra problemlərlə rastlaşmalarına, həyatlarını istədikləri kimi qura bilməmələrinə zəmin yaradır. Çünki məlum olduğu kimi yeniyetmələrin gələcək taleyi hazırkı təlim uğurlarından çox asılıdır. Məktəbdaxili psixoloji iqlim əlverişsiz olduqda yeniyetmənin oxumağa olan həvəsi günbəgün azalır, ilk növbədə bu onun ev tapşırıqlarını könülsüz halda yerinə yetirməsi və ya tamamilə yerinə yetirməməsi ilə müşayiət olunur. Məktəbdaxili psixoloji iqlimin nə dərəcədə əlverişli olması eyni zamanda yeniyetmələrin müxtəlif fənlərə qarşı olan münasibətində də özünü büruzə verir.

Məktəbdaxili psixoloji iqlim hər şeydən əvvəl tərbiyə məsələsidir. Tərbiyəvi təsir yalnız müəllimin şagirdi başa düşdüyü, onların daxili vəziyyətlərini, real münasibətlərini, bu münasibətlərin inkişaf imkanlarını və perspektivlərini dərk etdiyi halda uğurlu ola bilər. Tərbiyə olunanları öz arxasınca aparmaq, onlara nümunə olmaq üçün tərbiyə edən özü daim şəxsiyyət kimi təkmilləşməli, özünə uşaqların gözü ilə baxmağı bacarmalıdır.

Məktəbdaxili psixoloji iqlim problemi mahiyyət etibarilə elə bir ciddi məsələdir ki, əldə etmək istədiyimiz son nəticə birbaşa onunla bağlıdır. Məktəbdə şagirdə qarşı əlverişli münasibətin olmaması, onun rəyinə, fikir və düşüncələrinə, şəxsiyyətinə hörmət etməmək son dərəcə acınacaqlı nəticəyə gətirib çıxarır. Məktəbdaxili psixoloji iqlim yeniyetmə xarakterinin formalaşmasına təsir edir. Mühitin təsiri ilə yeniyetmədə bir sıra xarakter əlamətləri formalaşaraq möhkəmlənir. Buna görə də şagirdin fərdiliyi nəzərə alınmalı, onun bir şəxsiyyət kimi bənzərsiz və təkrarolunmaz olduğu daim diqqət mərkəzində saxlanılmalı, müsbət xüsusiyyətləri inkişaf etdirilməli, mənfi xüsusiyyətləri isə vaxtında islah edilməlidir. Məktəbdaxili psixoloji iqlim əlverişli olmadıqda

şübhəsiz ki, bu vəzifələri layiqincə həyata keçirmək mümkün olmayacaq. Məktəbdə hökm sürən psixoloji iqlim hər bir sinfin ümumi ab-havasına təsir edir. Təsadüfi deyil ki, hər bir məktəb psixoloji iqlim etibarilə bir-birindən fərqlənir. İstənilən məktəbə daxil olduqda orada hökm sürən özünəməxsus psixoloji iqlimin digər məktəbdəki psixoloji iqlimdən fərqli olduğunun şahidi oluruq. Məktəbin özünəməxsus daxili psixoloji iqlimi hər bir sinif kollektivinə təsir edir. Məktəbdaxili psixoloji iqlim yeniyetmələr arasındakı bütün münasibətlərə öz təsirini göstərir. Başqa insanlarla münasibət bütün yaş qruplarından olan insanlar üçün vacib və aktualdır. Lakin yeniyetmə şəxsiyyətinin formalaşması zamanı başqa insanlarla qarşılıqlı münasibətlərin rolu və əhəmiyyəti ikiqat artır. Yeniyetmə öz yaşıdları ilə qarşılıqlı ünsiyyət sayəsində insanlar arasındakı münasibətlərin nə qədər mürəkkəb və ziddiyyətli olduğunu mənimsəyir. Eyni zamanda başqa insanlarla ünsiyyətə olan tələbatını ödəyir. Qarşılıqlı münasibət, ünsiyyət sayəsində yeniyetmədə özünütəsdiq, özünü dərk etmə, bağlılıq, sədaqət kimi vacib insani xüsusiyyətlər formalaşmağa başlayır.

Məktəb illərinin, sinif kollektivinin, sinifdəki emosional-psixoloji iqlimin yeniyetmə həyatında özünəməxsus yeri var. Təsadüfi deyil ki, hər məktəbdə elə siniflərə rast gəlmək mümkündür ki, müəllimlər ora həvəslə gedir, öz fənlərini böyük ruh yüksəkliyi ilə tədris edirlər. Elə siniflər də var ki, müəllimlər ora həvəssiz gedir, həmin şagird kollektivi ilə münasibətdən mənəvi zövq almırlar. O da inkarolunmazdır ki, hər bir şagird kollektivində "zəif" şagirdlərlə yanaşı, "güclü", intellektual cəhətdən kifayət qədər inkişaf etmiş şagirdlərə rast gəlmək mümkündür. Elə isə müəllimlərin sinfə girmək istəməməsini nə ilə izah etmək olar? Əlbəttə ki, birmənalı şəkildə sinifdə hökm sürən mənəvi-psixoloji iqlimlə. Çünki elə siniflər var ki, orada aqressiv əhval-ruhiyyə, qeyri-səmimi münasibətlər, qarşılıqlı anlaşılmazlıq, hörmətsizlik və s. üstünlük təşkil edir.

Məktəbdaxili psixoloji iqlim ilk növbədə özünü münasibətlərdə büruzə verir. Şübhəsiz ki, məktəbdaxili münasibətlər içərisində müəllim-şagird münasibətləri aparıcı yer tutur. Yeniyetməlik yaşında isə şagird şəxsiyyətinin inkişafında müəllimlər daha mühüm rol oynayırlar. Təsadüfi deyil ki, şagirdlərin ayrı-ayrı fənlərə münasibəti onların müəllimlərə olan münasibətləri ilə birbaşa bağlıdır. Şagird çox vaxt müəllimə rəğbət bəsləmədikdə onun tədris etdiyi fənni də sevmir. Yeniyetməlik dövründə isə şagird-müəllim ünsiyyətindən qaynaqlanan ayrı-ayrı fənlərə qarşı olan bu münasibət daha da kəskin şəkildə özünü biruzə verir. Müəllim-şagird münasibətləri məktəbdaxili psixoloji iqlimin yaranmasında, yeniyetmə şəxsiyyətinin formalaşmasında ən həlledici yer tutur.

Mütəxəssislər təsdiq edir, eyni zamanda təcrübə göstərir ki, sinifdəki emosional əmin-amanlıq yeniyetmə şəxsiyyətinin formlaşmasında vacib amillərdən biridir. Buna görə də yeniyetmə kollektivlərində psixoloji iqlimin öyrənilməsi fikrimizcə son dərəcə aktualdır. İnsanın psixoloji cəhətdən həm yaşamaq, həm də işləmək istəyini gücləndirən psixoloji iqlim necə yaranır? Yeniyetmələrin psixoloji iqlimin mahiyyətini yaxşı və asan başa düşmələri üçün onun əsas məzmununu sinif kollektivinin misalında onlara çatdırmaq lazımdır. Nəzərə almaq lazımdır ki, bir məktəb daxilində hətta paralel siniflər belə fərqli xüsusiyyətləri ilə seçilirlər.

Sinfin psixoloji iqlimi nədən asılıdır? İlk növbədə yeniyetmələrlə birlikdə bu suala cavab tapmaq lazımdır. Psixoloji iqlim hər şeydən əvvəl insanın işə münasibəti ilə müəyyən olunur. Çünki qrup və ya kollektiv əslində hər hansı bir işə nail olmaq üçün mövcud olur. Məktəbdə isə əsas məqsəd - oxumaqdır, əsas iş isə-tədrisdir. Əlverişli iqlim yalnız hər bir uşağın öz vəzifəsinə vicdanlı və doğru münasibətindən asılıdır. Hər kəs mövcud problemlərdən asılı olmayaraq tədrisdə, ictimai işdə və s. müsbət nəticəyə nail olmaq üçün səy göstərməlidir. Yalnız bu halda münasibətlər bərabərləşir və hər kəsə hörmət mövcud olur. Müəllim siniflə birlikdə "Təhsilə vicdanla yanaşma" mövzusunu müzakirə edə bilər. Təhsilə vicdanlı münasibətin psixoloji iqlimə təsiri yeniyetmələrlə birlikdə təhlil oluna bilər. Yeniyetmələrə çatdırmaq lazımdır ki, təlim fəaliyyətindən razı qalmaq əhval-ruhiyyəyə təsir edir. Bu isə yalnız o halda baş verir ki, hər kəs biliklərə yiyələnmək yolunda uğurlara can atır, sinif yoldaşlarının onun işləri ilə maraqlandığını bilir, dəstəklərini hiss edir və özü də öz növbəsində yoldaşlarına kömək etməyə hazır olur.

Təbii ki, yeniyetmələrin həyatında təlim fəaliyyəti ilə yanaşı ictimai fəaliyyət də əhəmiyyətlidir. Hər kəsin sinfin ictimai həyatına daxil olması, həm də çox vaxt kollektivin psixoloji

iqlimini müəyyən edir. Əlverişli psixoloji iqlimdən o vaxt danışmaq olar ki, bütün oğlanlar və qızlar hər hansı bir ümumi işin yerinə yetirilməsində bərabər iştirak edir, daimi fəallıq var, sinfə tapşırılmış ümumi işdə hər kəsin şəxsi cavabdehliyi mövcuddur, yeniyetmələr özləri göstəriş gözləmədən faydalı iş axtarırlar. Məhz bununla işə münasibət və sinifdəki emosional atmosfer müəyyən olunur.

Qeyd etdiyimiz kimi, məktəb təcrübəsində elə hallara rast gəlmək mümkündür ki, şagird bir fənni sevir, onunla maraqlanır və şagirdin bu sahədə xüsusi istedadı olduğu özünü biruzə verir. Lakin həmin fənni tədris edən müəllimin digər bir müəllimlə əvəz olunması şagirddə həmin fənnə qarşı olan maraq və həvəsin sönməsinə səbəb olur. Əslində bu fakt çox maraqlı eyni zamanda da vacibdir. Belə ki, şagirdin bir fənni sevib-sevməməsi, onunla maraqlanıb-maraqlanmaması çox vaxt onun müəllimə qarşı olan münasibəti ilə bağlı olur. Şagird müəllimi sevirsə, onun tədris etdiyi fənnə də maraq göstərir, əksinə şagird müəllimi sevmirsə onun tədris etdiyi fənnə də maraq göstərmir. Bu hala bütün yaş dövrlərində rast gəlmək mümkündür. Yeniyetməlik yaşında isə bu halla daha tez-tez rastlaşmaq və bu halın yaratdığı problemlərlə üzləşmək mümkündür. Bu isə təsadüfi deyil, maraq və hisslər bir-biri ilə sıx bağlı olduğundan müvafiq vəziyyət yaranır: yeniyetmə sevdiyi müəllimin dərsinə maraq göstərir, sevmədiyi müəllimin dərsində sıxılır, dərs ona maraqsız görünür.

Müəllim öz nümunəsində yeniyetmə şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Lakin bununla yanaşı yeniyetməlik dövründə müəllim-şagird münasibətlərinin ikinci plana keçməsi və şagird-şagird münasibətlərinin daha əhəmiyyətli rol oynadığı psixoloji ədəbiyyatlarda tez-tez vurğulanır. Əlbəttə ki, bu fikirləri irəli sürən müəlliflər bu yaş dövrünün xüsusiyyətlərinə və həyati təcrübəyə istinad edərək bu qənaətə gəlirlər. Lakin hesab edirik ki, yaxşı müəllim şagirdlə dostcasına münasibət quraraq, onun etimadını qazanaraq yeniyetmə şəxsiyyətinin formalaşmasında, həmyaşıdlarla müqayisədə daha müsbət rol oynaya bilər.

Yeniyetmə psixologiyası özünəməxsus xüsusiyyətləri və öz daxili inkişaf qanunauyğunluqlarına malikdir. Bu yaş dövrü özünün mürəkkəblikləri ilə seçilir: yeniyetmə artıq uşaq deyil, ancaq böyük də deyil. Yeniyetmənin özünüqiymətləndirməsi qeyri-sabitdir, hər söz və hərəkət ona tez toxunur, hər şeyə tənqidi yanaşır, sərbəstliyə can atır. Əgər müəllim münasibətlərdə yeniyetmənin yaş xüsusiyyətlərini nəzərə almırsa bu halda yeniyetmə ya özünə qapanır, ya da mübahisə edir, konflikt yaradır. İstənilən cisim və hadisələrə müəllim və yeniyetmənin münasibəti müvafiq yaş dövrünə uyğun olaraq müxtəlifdir. Əgər müəllim müxtəlif situasiyalara yeniyetmənin gözü ilə baxmağı bacarmazsa, onların arasında anlaşılmazlıq yaranar və günü-gündən inkişaf edər, nəticədə onlar "müxtəlif" dillərdə danışdıqları üçün psixoloji iqlim də korlanar.

Əslində hər bir müəllim ideal şagird, hər bir şagird ideal müəllim arzusunda olur. Yeniyetmə üçün ideal müəllim-ədalətli, namuslu və səmimi olmalı, başa düşməyi və dinləməyi bacarmalı, öz fənnini yüksək səviyyədə və maraqlı tədris etməlidir. Müsbət psixoloji iqlimin yaranmasına və yeniyetmələrlə əlverişli münasibətlərə nail olmaq istəyən müəllim bəzi keyfiyyətlərə malik olmalıdır. Yüksək emosional dayanıqlıq, emosional yetkinlik, ünsiyyət bacarığı onun əsas keyfiyyətlərinə çevrilməlidir.

Emosional dayanıqlıq-müəllimə hadisə və faktları adekvat və sakit şəkildə qiymətləndirməyə, yeniyetmənin istənilən sualına qarşı hazır olmağa imkan verir. Emosional dayanıqlıq yeniyetmələr arasında sakitliyini, emosional dayanıqlığını qorumaq üçün müəllimə kömək edir.

Emosional yetkinlik-şagirdlərin fikirlərinə hörmətlə yanaşma, xeyirxahlıq, qarşılıqlı anlaşma kimi bacarıqları özündə birləşdirir. Emosional yetkinlik sayəsində yeniyetmə və müəllim arasında daha səmimi münasibətlər yaranır. Məhz emosional yetkinliyə malik müəllimlər həmişə şagirdlər tərəfindən hörmət və ehtiramla yad edilir, uzun illər keçsə də şagirdlər həmin müəllimi unutmur və onları ideal insan kimi xatırlayırlar.

Ünsiyyət bacarığı-yeniyetmənin yaş xüsusiyyətlərini nəzərə alaraq onu olduğu kimi qəbul etməyə, ona hörmətlə yanaşmağa imkan verir. Ünsiyyət bacarığına malik malik olan müəllim daimi tənqid və təhqirə yol vermir, yeniyetmənin çatışmazlıqlarını istehza ilə qarşılamır.

Yeniyetmə dövründə şagirdin özünəməxsus dəyərlər sistemi formalaşır. Bu yaş dövründə insan üçün ən vacib dəyər ünsiyyət və müəyyən insanlar qrupuna daxil olmaqdan ibarətdir. Məhz burada bir çox yeniyetmələrin problemləri başlanır. Şübhəsiz ki, bu problemlərin mövcudluğu məktəbdaxili psixoloji iqlimə də təsirsiz ötüşmür. İstər yeniyetməlik dövründə, istərsə də ilk gənclik dövründə insanın həyatında onun həmyaşıdları ilə münasibəti mühüm əhəmiyyət kəsb edir. Yeniyetmə həmyaşıdlarına bəzən valideynlərindən də artıq inanır. Bütün bunlar isə onunla bağlıdır ki, yeniyetmə ünsiyyətə, ilk növbədə isə başqası tərəfindən başa düşülməyə can atır. Bu isə digər insanlarla müqayisədə yeniyetmənin həmyaşıdları ilə münasibətlərində daha uğurlu alınır. Yeniyetmələrin dostluğu üçün ən xarakterik cəhət emosionallığın yüksək olmasıdır. Onların dostluğu hisslərin güclü axını ilə müşayiət olunur. Buna görə də yeniyetmə kollektivinin necə təşkil olunması böyük tərbiyəvi əhəmiyyət kəsb edir. Yaxşı təşkil olunmuş yeniyetmə kollektivi şübhəsiz ki, məktəbdaxili psixoloji iqlimə də öz töhfəsini verəcək. Lakin burada bir cəhət də nəzərə alınmalıdır ki, yeniyetmə kollektivlərində psixoloji iqlim sabit olmur, onun üçün qeyri-sabitlik, dəyişkənlik daha xarakterikdir. Bu isə qeyd olunduğu kimi, yeniyetmələrdə emosionallığın yüksək səviyyədə olması ilə xarakterizə olunur.

Məktəbdaxili psixoloji iqlimin əlverişli olmaması bəzən yeniyetmələrin davranışında da müəyyən dəyişikliklərlə nəticələnir və hətta bütün bunlar sonda psixi dəyişikliklərə səbəb ola bilər. Yeniyetmə yaşında ünsiyyətə olan yüksək tələbat tənhalığa, təkliyə olan tələbatla uyğun gəlir: daimi söhbətlər, birgə vaxt keçirmə yeniyetmələrin tək qalmaq cəhdi ilə əvəz olunur. Müvəqqəti uzaqlaşmadan sonra yeniyetmə yenə də qarşılıqlı ünsiyyətə can atırsa deməli münasibətlərdə həqiqətən də səmimilik, yaxınlıq olub. Əgər yeniyetmə uzun müddət bu cür mənfi hisslərin təsirindən çıxa bilmir və real həyata uyğunlaşmaqda çətinlik çəkərsə, yenidən yaxınlaşmağa cəhd etməzsə bu hal bir sıra sıxıntılara, psixi pozğunluğa, əsəbiliyin meydana çıxmasına səbəb ola bilər.

Yeniyetmənin özünü sinifdə nə qədər təhlükəsiz hiss etdiyini, məktəbdaxili psixoloji iqlimdən məmnunluğunu müəyyən etmək üçün aşağıda qeyd olunan metodlardan istifadə etmək olar:

-Yeniyetməni müşahidə etmək. Müşahidə zamanı qorxu ilə bağlı qeyd etdiyimiz davranış xüsusiyyətlərinin olub-olmamasına fikir vermək olar.

-Yeniyetmənin tez-tez gecikmələri və dərsdən yayınmaları onu göstərir ki, o sinifdə olmaq istəmir. Yeniyetmənin emosional vəziyyəti barədə onun pozasını müşahidə edərək məlumat əldə etmək olar. Məsələn: yeniyetmə həmsöhbətini dinləyərkən ağzını əli ilə örtürsə bu onu göstərir ki, o danışana inanmır.

-Valideynlərlə söhbət. Müəllim şagirdin sinfə həvəslə gəlib-gəlmədiyini, sinif haqqında söhbət və danışdıqlarını müəyyən etməlidir. Məktəbdən sonra və ya səhərlər əzginlikdən şikayət edirmi? Yeniyetmə dərslərini necə hazırlayır: müstəqil yerinə yetirir, yoxsa valideynlərin təzyiqi ilə.

Sinifdəki ümumi psixoloji iqlimə yeniyetmənin özünə əminlik dərəcəsi də təsir göstərir. Özünə inamı yüksək olan şagirdlə yanaşı, özünə inamı aşağı olan, daim öz gücünə, bacarığına, ümumi işdə uğura şübhə ilə yanaşan şagird üçün də sinfə uyğunlaşmaq çətin olur. Buna görə də sinifdə gərgin, əsəbi şərait, iqlim yarana bilər. Qarşılıqlı münasibətlərdə mədəniyyətin ən vacib göstəricisi-özünü və öz mövqeyini obyektiv qiymətləndirməkdən ibarətdir. Yeniyetmə hər hansı çətin situasiya ilə rastlaşdıqda özünə inam, özünə pozitiv münasibət ona bu sınaqdan çıxmağa kömək edir.

**Problemin aktuallığı.** Məktəbdaxili psixoloji iqlimin əlverişli olması yeniyetmə şəxsiyyətinin formalaşmasına mütləq müsbət təsirini göstərəcəkdir. Yalnız müsbət psixoloji iqlim sayəsində məktəblərimiz qarşıda duran təlim-tərbiyə vəzifələrinin öhdəsindən uğurla gələ bilər. Bu sahədə aparılan faydalı işlər günün aktual məsələsidir.

**Problemin elmi yeniliyi.** Məktəbdaxili psixoloji iqlimin yeniyetmə şəxsiyyətinin formalaşmasındakı mühüm rolunu nəzərə alaraq aparılan işlərin elmi-nəzəri əhəmiyyəti vardır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən məktəb psixoloqları, o cümlədən orta ümumtəhsil məktəblərinin müəllimləri faydalana bilərlər.

## ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986.
2. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
3. Лутошкин А.Н. Эмоциональная жизнь детского коллектива. М., 1978.
4. Məmmədov İ.Ə. Məktəbdə psixoloji xidmət: Psixoloji praktikanın elmi metodik problemləri və yaradılması təcrübəsi. Bakı: Təhsil, 2002.
5. Практическая психология оброзования. Творческий центр. М., 1978.
6. Рогов Е.И. Настольная книга практического психолога. М.: Владос, 1998.

**А. Мамедова**

## РОЛЬ ВНУТРИШКОЛЬНОЙ ПСИХОЛОГИЧЕСКОЙ АТМОСФЕРЫ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ПОДРОСТКОВ

### РЕЗЮМЕ

Внутришкольная психологическая атмосфера влияет на формирование личности ученика, как основная прямая обязанность школы. Несомненно, при отсутствии благоприятной внутришкольной психологической атмосферы невозможно как следует осуществить эту обязанность. А в классах, в которых подростки получают образование, влияние внутришкольной психологической атмосферы еще более ярко выражается, подросток проявляет себя в системе отношений подросткового коллектива. Учитывая это, каждый член педагогического коллектива обязан сделать все возможное для достижения благоприятной внутришкольной психологической атмосферы.

**A. Mammadova**

## ROLE OF INTERSCHOLASTIC PSYCHOLOGICAL CLIMATE IN THE FORMATION OF ADOLESCENT PERSONALITY

### SUMMARY

Interscholastic psychological climate influences formation of student personality which is the main duty of school. In case of not being interscholastic psychological climate favorable, it is impossible to perform this duty properly. Influence of interscholastic psychological climate appears more distinctly in the classes of adolescents, reflects itself in relation system of adolescent body. Taking into consideration all of these, every member of teaching staff should do the best for being interscholastic psychological climate favorable.

*Redaksiyaya daxil olub: 26.10.2014*

# UŞAQLARIN BƏDİİ YARADICILIQ QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI İŞİNİN PSİXOLOJİ ƏSASLARI

**Cem Söker,**
fəlsəfə doktoru proqramı üzrə doktorant
GDU
E-mail: cemegede@hotmail.ru

**Rəyçilər:** *prof.* F.Sadıqov,
*dos.* A.Qasımov

***Açar sözlər:*** *uşaqların bədii yaradıcılığı, bədii yaradıcılıq qabiliyyətləri, qabiliyyətlərin formalaşdırılması, bədii yaradıcılıq işinin psixoloji əsasları*

***Ключевые слова:*** *художественное творчество детей, способности художественного творчества, формирование способностей, психологические основы, работы по художественному творчеству*

***Key words:*** *art creative work of the children, forming of the abilities of art creative work abilities, psychological bases of the work of art creative work*

Azərbaycan Respublikasında həyata keçirilən Təhsil İslahatına dair direktiv sənədlərdə istedadlı uşaqların seçilməsi, onların xüsusi qayğı ilə əhatə olunması ilə bağlı elmi-pedaqoji ideyalar mövcuddur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları "Xüsusi istedada malik oğlan və qızların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə dövlət proqramı"nın təsdiq edilməsi barədə sərəncam (5, 10) imzalamışdır. Həmin sərəncam bu sahədə çalışan mütəxəssislər qarşısında istedadlı uşaqların seçilməsi, yetişdirilməsi ilə bağlı mühüm vəzifələr qoyur.

İstedadlı uşaqların seçilməsi isə bir sıra pedaqoji qaydalara əsaslanır. Onlardan biri də orta ümumtəhsil məktəblərində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prosesi ilə bağlıdır.

Orta ümumtəhsil məktəblərində uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması əsasən üç istiqamət üzrə həyata keçirilir. Birincisi, təlim prosesində, ikincisi dərsdənkənar tədbirlərdə, üçüncüsü məktəbin məktəbdənkənar tərbiyə müəssisələri ilə əlaqəsi zamanı. Hər üç istiqamət üzrə həyata keçirilən işlərin müvafiq elmi-pedaqoji və psixoloji əsaslara istinad edilməsi zəruri hesab olunur. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, inkişaf etdirilərək formalaşdırılması üçün bütün mərhələlər üzrə görülən işlər zamanı müəyyən pedaqoji tələblərin gözlənilməsi, ümumpedaqoji prinsiplərə istinad olunması, müvafiq didaktik üsulların tətbiq olunması nə qədər vacibdirsə, psixoloji əsasların da nəzərə alınması bir o qədər vacibdir.

Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı həyata keçirilən məqsədyönlü, planlı işlərin əsasında bu sahədə çalışan mütəxəssislərin bu işlərə psixoloji cəhətdən düzgün yanaşılması zərurəti dayanır. Yəni həmin mütəxəssislər uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin psixoloji əsaslarını dərindən öyrənməli və tətbiq etməyi bacarmalıdırlar.

Orta ümumtəhsil məktəblərinin V-XI siniflərinin ədəbiyyat, musiqi, təsviri sənət dərslərini aparan müəllimlərlə yanaşı bədii özfəaliyyət dərnəklərində, bədii yaradıcılıq kurslarında, məktəb studiyalarında, maraq kurslarında çalışanlar uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması işini planlı şəkildə, mərhələlər üzrə həyata keçirməlidirlər. Bunun üçün onlar ilkin olaraq bədii yaradıcılığa, onun ayrı-ayrı sahələrinə meyl göstərən şagirdlərin seçilməsi üzərində iş aparılmalıdırlar. Bu zaman bədi yaradıcılığın müvafiq sahələri üzrə qabiliyyətləri olan uşaqların psixoloji cəhətdən öyrənilməsi lazımdır.

Yəni ilk mərhələdə bu tipli uşaqların daxili tələbatlarını öyrənmək gərəkdir. Hər bir uşağın daxili tələbatları onu bədii yaradıcılığın müəyyən sahəsinə olan maraq və meylini üzə çıxarır. Müşahidələr nəticəsində həmin uşağın bədii tələbatları onun yaradıcılığının fəaliyyətini motivləşdirir. Çünki uşağın fəaliyyətinin bünövrəsində onun tələbatları dayanır.

**Tələbatlar** hər hansı bir insanın fəaliyyətinin bünövrəsi hesab olunur. Hansı ki, insanın fəaliyyətinin müəyyən tələbatlarla təmin olunması müvafiq iş motivini üzə çıxarır. Deməli, tələbatlardan yaranan təhrikedici amillər motivlərin ortaya çıxmasına səbəb olur. Ona görə **tələbat** – insan fəaliyyətinin bünövrəsi, **motiv** – fəaliyyətin müəyyən tələbatlarla təmin olunması ilə bağlı təhriklərdir. Bütün bunlara rəğmən tərbiyəçi pedaqoji prosesdə psixoloji qüvvələrin inkişaf etdirilməsini bir prinsip olaraq qəbul etməyə borcludur. Əgər belə olmasa o, tərbiyə işində heç bir nailiyyət qazana bilməz.

Deməli bədii yaradıcılığa meyl edən şagirdləri psixoloji cəhətdən öyrənmədən onların qabiliyyət sferasını da müəyyənləşdirmək olmaz. Qabiliyyət sferası öyrənildikdən sonra uşaqlara psixoloji təsirin nikbinlik gətirən formalarından istifadə etməklə yaradıcı şəkildə yanaşmaq və onları bir növ bu sahəyə həvəsləndirmək lazımdır. Hələ XIII əsrdə Xacə Nəsirəddin Tusi uşaqları ruhlandırmağın, həvəsləndirməyin əhəmiyyətindən bəhs edərək yazmışdır:

Uşaqda xoşagələn bir hərəkət baş verdikdə onu tərifləyib həvəsləndirmək lazımdır. Lakin əks hallarda hər dəqiqə danlayıb başına vurmaq doğru deyildir: "qəbahətli iş görübsən", bəlkə belələrinin səhv, bilməmək üzündən etdiyini demək yaxşıdır ki, sırtılmasın. Bir daha təkrar etməsə, üstü vurulmamalıdır, təkrar edilsə, möhkəm danlamalı, belə işlərin yaramazlığı şişirdilməli və qadağan edilməlidir (4, 169).

Doğrudan da bədii yaradıcılığın hər hansı bir sahəsinə meyl göstərən uşaqların qabiliyyət sferasına uyğun olaraq ona psixoloji cəhətdən düzgün yanaşmaqla onun gələcək fəaliyyətinin stimullaşdırılmasına nail olmaq olar. Uşaqların gələcək fəaliyyətinin düzgün stimullaşdırılması isə onun gələcək həyatının dinamik inkişafının istiqamətlərinin də düzgün müəyyənləşdirilməsinə səbəb ola bilər. Bu şərtlə ki, bu sahəyə rəhbərlik edənlər uşaqların qabiliyyətlərinin elmi-psixoloji məzmununu yaxşı dərk edə bilsinlər. Çünki qabiliyyətlərin aşağıdakı səviyyələrini ayırırlar: ünsiyyət və fəaliyyət nümunələrinin, hazır biliklərin mənimsənilməsi və fəaliyyətə tətbiq edilməsini təmin edən reproduktiv qabiliyyətlər və orijinalın, yeninin yaradılmasını təmin edən yaradıcı qabiliyyətlər. Lakin nəzərə almaq lazımdır ki, qabiliyyətlərin produktiv səviyyəsində yaradıcı qabiliyyətlərin elementləri mövcuddur, eləcə də əksinə (1, 232).

Bunlardan başqa hələ sosial qabiliyyətlər də mövcuddur. Sosial qabiliyyətlərin müşahidəsi isə yalnız sosial mühitdə mümkündür. Ona görə də uşaqlardakı bədii yaradıcılıq qabiliyyətlərinin səviyyələrini təkcə orta ümumtəhsil məktəblərində deyil sosial mühitdə də izləmək lazım gəlir. Bədii yaradıcılıq işinə rəhbərlik edənlər bilməlidirlər ki, uşaqlar yaşadıqları, fəaliyyət göstərdikləri mühitin qabiliyyətli, talantlı, istedadlı adamlarından da bədii örnəkləri əxz edirlər. Ona görə bu məsələyə də diqqətin yönəldilməsi lazım gəlir. Sosial qabiliyyətlərin bioloji əsası hələ də tam mənası ilə öyrənilməmişdir. Bu, sosiomədəni baxımdan şərtləndirilən qabiliyyətdir. Onun inkişafının ilkin şərti insanın həyat şəraitdir: cəmiyyətin həyat tərzi, sosiomədəni mühit, nəsillərin əmək təcrübəsi, uşaqlıqda istifadə edilən əşyalar, təlim şəraiti, yüksək səviyyəli ünsiyyət və fəaliyyət şəraiti, əhatə olunduğu insanlar, səmərəli təlim-tərbiyə vasitəsilə bilik, bacarıq və vərdişlərin qazanılaması və s.

Sosial qabiliyyətlərin anatomik-fizioloji əsasını funksional orqanların inkişafı, sinir sistemi, əzələlərin inkişafı və s. təşkil edir (1, 231).

Buradan belə bir qənaət hasil olur ki, istər ümumtəhsil məktəblərindəki təlim-tərbiyə prosesində, istərsə də sosial mühitdə müşahidə edilən qabiliyyətli uşaqların üzə çıxarılması üçün onlara psixoloji cəhətdən düzgün yanaşılmalıdır. Psixoloji cəhətdən düzgün yanaşmağın spesifik şərtlərindən biri də bədii tipin müəyyənləşdirilməsi və həmin tipik növlərinin diferensiallaşdırılmasına nail olmaqdır. Bədii tipin isə düzgün diferensiallaşdırılması bədii yaradıcılıq qabiliyyətinin tipinin düzgün müəyyənləşdirilməsini şərtləndirir.

İnsanın psixi fəaliyyətində birinci siqnal sistemi siqnallarının nisbi üstünlüyü bədii tipi, siqnallar siqnalının, yəni sözlərin nisbi üstünlüyü mütəfəkkir tipi və hər iki siqnalın bərabər təmsil olunması insanların orta tipini səciyyələndirir (4, 469).

İstər təlim-tərbiyə müəssisələrində istər ictimai-sosial mühitdə aparılan müşahidələrin elmi-psixoloji şərtlərinə əməl etməyin əhəmiyyəti ondan ibarətdir ki, bədii yaradıcılıq mühiti üçün seçimin mütləq mahiyyət daşıyacağı aksioma dərəcəsinə yüksəlir. Hətta nisbi seçimə ehtiyac qalmır. Çünki seçilən uşaqların təxəyyül itiliyi, emosional fəallığı, bədii obrazlılığı fantaziyalar əsasında təqdim etmələri bu fikri təsdiq edir.

Psixoloqlar göstərirlər ki, bədii tip üçün bilavasitə təsir, canlı təəssürat, emosiyalar nəticəsində yaranan obrazların parlaqlığı xasdır. Mütəfəkkir tipdə mücərrədləşdirmə, məntiqi mühakimələr, nəzəri məsələlərə meyl üstün olur. İnsanın bədii tipə aid olması heç də onun mütləq rəssam və ya aktyor olacağını və bu fəaliyyət üçün yarandığını göstərmir. Başqa bir cəhət şübhəsizdir – bu tipin nümayəndəsi başqa tiplərə nisbətən həssaslıq, hadisələrə emosional münasibət, canlı və obrazlı fantaziya tələb edən fəaliyyəti daha asanlıqla mənimsəməyə qadirdir. Təsadüfi deyildir ki, rəssamların, artistlərin, heykəltəraşların, musiqiçilərin, aktyorların böyük əksəriyyətində bu tipin əlamətləri daha üstündür (1, 469).

Deməli bədii yaradıcılıq mühiti üçün seçimin düzgün aparılması bədii yaradıcılıq qabiliyyətləri olan uşaqların üzə çıxarılmasına daha düzgün istiqamət verir. Məhz bu baxımdan onlarla aparılan planlı, mütəşəkkil işin elmi-pedaqoji cəhətdən əhəmiyyəti ondan ibarətdir ki, qabiliyyətli uşaqların qabiliyyət sferalarını düzgün müəyyənləşdirdikdən sonra onlarla aparılan mütəşəkkil işlərin nəticəsində həmin uşaqları talantlı uşaqlar kimi yetişdirmək mümkündür. Çünki bir sıra mütəxəssislər onların qabiliyyətlərini fitri qabiliyyətlər kimi dəyərləndirirlər.

Qabiliyyətlərin fitriliyinin inkarı mütləq səciyyə daşımır. Psixologiya qabiliyyətlərin fitri olması fikrini qəbul etmir, lakin o hər hansı fəaliyyətin (adətən müəyyən qrup peşələrin, ixtisasların, əmək fəallığı növlərinin və s.) müvəffəqiyyətlə icrası üçün şərt ola bilən diferensial xüsusiyyətlərin – beyin quruluşundakı bu xüsusiyyətlərin fitri olmasını inkar etmir. (1, 476).

Əslində fitri qabiliyyətlər anadangəlmə olsa belə hər hansı pedaqoji mühitdə uşaqların bədii yaradıcılıq qabiliyyətləri üzərində məqsədyönlü, planlı və mütəşəkkil işlər aparılmasa həmin qabiliyyətlərin talantlılıq səviyyəsini nə üzə çıxarmaq, nə də düzgün müəyyənləşdirib inkişaf etdirmək olar. Ona görə ki, bədii yaradıcılıq qabiliyyətlərinin hər biri inkişaf edərək talantın strukturuna daxil olması ilə şərtlənir.

**Talantın strukturuna** gəlincə deməliyik ki, talant qabiliyyətlər kompleksinin məcmusudur. Ayrıca götürülmüş, təcrid olunmuş qabiliyyət nə qədər yüksək inkişaf səviyyəsinə çatmış olsa da, nə qədər parlaq təzahür etsə də talantın bənzəri (analoqu) ola bilməz. Bunu fenomenal, qeyri-adi hafizəsi olan şəxslərin müayinəsi bir daha sübut edir. Halbuki bir çoxları talantın ekvivalentini məhz hafizədə, onun möhkəmliyində və həcmində görürlər. (1, 471).

Tutaq ki, V sinif şagirdlərinin bədii yaradıcılıq müsabiqəsinin ilk turunda seçilən bir şagird aktyorluq qabiliyyətlərinə malik olduğu üçün seçilir. Onunla aparılan məqsədyönlü, planlı və mütəşəkkil işlərin nəticəsində o, talantlı bir şagird kimi üzə çıxır. Sonrakı siniflərdə oxuyarkən səhnə hərəkətləri, tryuklar, jestlər, mimika, səhnə danışığının nitq mədəniyyətinin tələblərinə uyğunlaşdırılması, ifadəli nitqin spesifik səs tembrinə uyğunlaşdırılması, personajların daxili aləminin açılması ilə bağlı qazandığı bacarıq və vərdişlər onun talantlılıq səviyyəsini yüksəldir. Hansı ki, bu talantlılıq səviyyəsi onun ciddi fəaliyyətindən nəşət edən qabiliyyətlər kompleksidir. Psixoloqlar göstərirlər ki, hər hansı bir qabiliyyətin ən yüksək mərhələsi talant adlanır. Talant insana hər hansı mürəkkəb əmək fəaliyyətini müstəqil, müvəffəqiyyətlə və orijinal surətdə icra etməyə imkan verən qabiliyyətlər kompleksidir.

Talant da qabiliyyətlər kimi yalnız yaradıcılıqda böyük müvəffəqiyyət və yüksək ustalıq əldə etmək üçün imkandır. Yaradıcılıq nailiyyətləri isə son nəticədə insanların varlığının ictimai-tarixi şəraitindən asılıdır. Əgər cəmiyyət talantlı (istedadlı) adamlara ehtiyac hiss edirsə və onların inkişafı üçün şərait yaranmışsa, o zaman belə adamların meydana çıxması da mümkün olur (1, 470).

Ailədə, təlim-tərbiyə müəssisələrində, məktəbdənkənar tərbiyə müəssisələrində talantlı, istedadlı uşaqların üzə çıxarılmasına ehtiyac yaranırsa, hökmən onların inkişafı və formalaşdırılması üçün xüsusi şərait yaratmaq lazım gəlir. Bu şərtlə ki, talantlı və istedadlı uşaqların gərgin əməyə alışdırılması pedaqoji-psixoloji cəhətdən düzgün planlaşdırılmalıdır. Çünki bədii yaradıcılıq qabiliyyətləri ciddi əmək vərdişləri əsasında formalaşır.

Bir sıra istedadlı uşaqların öyrənilməsi nəticəsində bütövlükdə istedadın strukturunu təşkil edən bəzən çox mühüm qabiliyyətləri üzə çıxarmaq mümkün olmuşdur. Şəxsiyyətin bu yolda müəyyən edilə bilən birinci xüsusiyyəti – diqqətlilik, topluluq, gərgin işə həmişə hazır olmaqdır. ... Yüksək istedadlı uşağın birinci xüsusiyyəti ilə ayrılmaz surətdə bağlı olan ikinci xüsusiyyəti ondan ibarətdir ki, əməyə hazırlıq bu cür uşaqda əməyə meylə, işgüzarlığa, yorulmadan işləmək tələbatına keçir. Qabiliyyətlərin üçüncü qrupu bilavasitə zehni fəaliyyətlə bağlıdır. Burada təfəkkürün xüsusiyyətləri, fikri proseslərin sürəti, əqlin sistemliliyi, daha yüksək təhlil etmək və ümumiləşdirmək imkanları, zehni fəaliyyətin yüksək məhsuldarlığı aiddir (2, 473).

Bilik, bacarıq, vərdişlər əsasında formalaşan qabiliyyətlərinin ən yüksək fazasına yüksələn və bu fazadakı qeyri-adi qabiliyyət elementlərini öz bədii yaradıcılığında ifadə etməyi bacaran şagirdlər istedadlı uşaqlar kimi təqdir olunmalıdırlar. Çünki bədii yaradıcılıq sahəsində rəğbətləndirmə üsulunun tətbiq olunması istedadlı uşaqların bədii yaradıcılıq fəaliyyətlərini bir növ stimulaşdırır. Belə stimullaşdırma şagirdləri əgər bir tərəfdən həvəsləndirirsə digər tərəfdən onları öz maraqlarının istiqaməti üzrə gedərək həyatda düzgün mövqe tutmağa təhrik edir.

İstedadlı uşaqlar üzərində aparılan çoxlu müşahidələr göstərir ki, zehni istedadın tərkibinə daxil olan və yalnız hər birinin təzahür dərəcəsi ilə fərqlənir. İstedadda olan spesifik fərqlərə gəldikdə isə onlar əsasən maraqların istiqaməti ilə bağlıdır. Müəyyən axtarış dövründən sonra uşaqlardan biri ədəbi-bədii yaradıcılığa həvəs göstərir. Belə ki bu uşaqlardan hər birinin qabiliyyətlərinin sonrakı inkişafı konkret fəaliyyətdə baş verir; həmin fəaliyyət bu qabiliyyətlər olmadan həyata keçirilə bilməz. (1, 473).

Bunun üçün də orta ümumtəhsil məktəblərində həm təlim prosesində, həm də dərsdən və məktəbdənkənar tədbirlər prosesində uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin düzgün formalaşdırılmasına istiqamət verən müvafiq pedaqoji əsasların müəyyənləşdirilməsinə zəruri ehtiyac duyulur.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, məqalədə ilk dəfə olaraq uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinə istiqamət verən ən zəruri psixoloji əsaslar müəyyənləşdirilmiş və onlara istinad olunmasının imkanları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə məktəblilərin bədii yaradıcılıq qabiliyyəti ilə bağlı irəli sürülən elmi-ideyaların elmi-psixoloji modelindən orta ümumtəhsil məktəblərində humanitar fənlərdən dərs deyən müəllimlər, bədii dərnəklərində, maraq kurslarında çalışanlar örnək praktik nümunələr kimi faydalana bilərlər.

Bütün bunlar deməyə əsas verir ki, uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin elmi-psixoloji əsaslarını dərindən öyrənmədən bu işin müvəffəqiyyətli həllinə nail olmaq mümkün deyil.

## ƏDƏBİYYAT

1. Ramiz Əliyev. Psixologiya (dərs vəsaiti). Bakı: Nurlan, 2008.
2. Ümumi psixologiya / Prof. A.V. Petrovskinin redaktorluğu ilə. Bakı: Maarif, 1982.
3. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika, yeni kurs. Bakı: Nurlan, 2007.
4. Xacə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı: , 2005.
5. O. Həsənli, K. Camalov. Sosial psixologiyada istedadlı uşaqlar problemi. Bakı: Elm və Təhsil, 2011.

**Д. Сокер**

## ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ РАБОТЫ ПО ФОРМИРОВАНИЮ СПОСОБНОСТЕЙ ХУДОЖЕСТВЕННОГО ТВОРЧЕСТВА ДЕТЕЙ

### РЕЗЮМЕ

Статья посвящена учету психологических особенностей детей в процессе формирования их способностей художественного творчества и использования в этой работе ряда психологических основ. Отдающий в основном предпочтение теоретическим вопросам, автор выводит на первое место поэтапное ведение работы по формированию способностей художественного творчества детей. Автор делает попытку раскрытия способностей и таланта с психологической стороны и считает потребность фундаментом человеческой деятельности. Затем автор освещает мотивы, связанные с обеспечением определенных потребностей деятельности.

**C. Soker**

## THE PSYCHOLOGICAL BASIS OF THE FORMATION OF ART CREATIVE WORK ABILITIES OF CHILDREN

### SUMMARY

Their psychological characteristics of children in forming the art creative work abilities of the article to be considered and referred to in this work deals with a number of other psychological reasons. Author draws preferring to theoretical theses mostly carry out on stages of the work of the forming of the art creative work abilities of the children to the front. The abilities, author making an effort to elucidate presents the talent for, talent for needs as foundation of the man activities at first. Author considers securities motives connected with provide by definite needs of the activities then.

Then he grounds the psychological bases of all of these from the theoretical and practical side.

*Redaksiyaya daxil olub: 28.10.2014*

# ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİNİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

**Xalidə Həsənova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
**Sevda Əkbərov,**
*riyaziyyat üzrə fəlsəfə doktoru*
**Natəvan Allahverdiyeva,**
*assistent*
Sumqayıt Dövlət Universiteti
E-mail: novreste1982@box.az

**Rəyçilər:** *prof.* A. Adıgözəlov,
*dos.* N. Abbasov

***Açar sözlər:*** *təlim, idrak, intellektual inkişaf, ənənəvi təlim, problemli təlim*
***Ключевые слова:*** *обучение, познавательность, интеллектуальное развитие, традиционное обучение, проблемное обучение*
***Key words:*** *training, cognitive, intellectual development, tradition training, problematic training*

Şagirdlərin idrak fallığının yüksəldilməsi didaktların, metodistlərin və psixoloqların daim diqqət mərkəzində olmuş, bu yöndə müxtəlif dövrlərdə xeyli tədqiqatlar aparılmışdır. Bu istiqamətdə tədqiqatlar hələ də davam edir, problem isə real praktik həllini tapmamışdır. Şagirdlərin idrak fəallığının (müəyyən zaman kəsiyi üçün) qənaətbəxş olması barədə qəti söz demək asan deyil. Yalnız bunu söyləmək olar ki, müəyyən bir dövr ərzində digər dövrə nisbətən şagirdlərin idrak fəaliyyətinin səviyyəsi daha yüksək olmuşdur. Qeyd etmək lazımdır ki, şagirdlərin idrak fəallığının ən yüksək səviyyəsi (yəni hər bir şagirdin fərdi əqli imkanlarının müvafiq səviyyəsi) asanlıqla əldə edilmir. Bu təbiidir. Bir tərəfdən bəzi şagirdlərin əqli (intellektual) inkişaf səviyyəsi qənaətbəxş deyil. Digər tərəfdən həyati tələblərin sürətlə yeniləşməsi, informasiya cəmiyyətinin daha çox bərqərar olması, müəllimlərin istifadə etdikləri metodikalarda fərqlər, idrak fəallığının insanın intellekti, təhsili, savadı qarşısında qoyduğu yeni tələblər, tədqiq olunan problemin (idrak fəaliyyəti) dinamikliyi şagirdlərin idrak fəallığının yüksəldilməsi yollarını tədqiq etməyi bir daha aktuallaşdırır, məsələyə dəyişən zaman prizmasından baxmağı tələb edir.

Şagirdlərin idrak fəallığının yüksəldilməsi, onun mahiyyətinin açıqlanması problemi qeyd etdiyimiz kimi, pedaqoji tədqiqatların daim diqqət mərkəzində olmuşdur. Akademik M.İ. Maxmutov idrak fəallığının mahiyyətini belə müəyyən etmişdir: “Şagirdlərin idrak fəallığı məktəblinin təlimə olan fəal münasibətinin təzahür formasıdır. Bu zaman şagird bütün qüvvə və qabiliyyətlərini səfərbər edir, böyük məsuliyyətlə, intensiv sürətdə işləməklə verilən tapşırıqları müəyyən olunmuş vaxt ərzində yerinə yetirir”.

Şagirdlərin idrak fəallığı kortəbii surətdə, özbaşına formalaşmır. Şagirdlərin idrak fəallığı həm təlim prosesində (təlimin müxtəlif metodlarının, təşkilat formalarının, təlim prinsiplərinin səmərəli tətbiqi nəticəsində), həm də şagirdin potensial imkanlarının, onun meyl, maraq və tələbatının istifadə edilməsi nəticəsində formalaşır.

Şagirdlərin idrak fəallığının artırılması məqsədilə məktəblərdə uzun illər ərzində nisbətən asan üsuldan-şagirdə qəbul edə biləcəyi, gücü çatan bilik, məlumatları vermək ideyasından edilmişdir. Müəyyən dövr ərzində təlim fəaliyyətinin əsası kimi qəbul edilən bu metodik ideya pedaqoji elmlərdə özünə mövqe qazana bilmişdir. Bu ideyanın özülünü didaktikanın müvafiqlik prinsipi təşkil edirdi.

Ənənəvi təlimdə müəllim məlumat verir, şagird qəbul edir, yadda saxlayır. Bu metodika şagirdin məlumatı yadda saxlaması üzərində qurulur. Hansı şagird məlumatı yaxşı yadda saxlayırsa,

o idrakı cəhətdən fəal hesab edilir, əks halda isə idraki cəhətdən passiv hesab edilir. Bu səbəbdən ənənəvi didaktik sistemi “hafizə məktəbi” adlandırırlar. Belə təlim növünə müəllimlər izaha daha çox üstünlük verirdilər. Metodik məqsəd ondan ibarətdir ki, şagirdlər verilən məlumatı anlayıb, şüurlu şəkildə dərk etsinlər.

Məlumdur ki, eyni bir sinifdə şagirdlər müxtəlif anlama səviyyələrinə malikdirlər. Bu amil, müəllimlərin işini çətinləşdirir. Bu səbəbdən müəllimlər verilən məlumatları şagirdlərin anlama səviyyəsinə uyğunlaşdırır, onların fərdi xüsusiyyətlərini nəzərə almalı olurlar.

Riyaziyyat fənni üzrə proqram və dərslik müəllifləri də ənənəvi olaraq öz fəaliyyətlərini müvafiqlik prinsipinin tələblərinə uyğun qurmağa çalışırlar (bu daha çox profilli siniflərə aid dərsliklərdə hiss olunur). Müəlliflər müxtəlif sinif şagirdlərinin səviyyəsinə müvafiq, konkret məzmun etmişlər. Onlar müəyyən materialları qruplaşdırıb, sistem halında müəllim və şagirdlərin ixtiyarına verirlər. Müəllimlər isə öz növbəsində, elmi səviyyəsindən və metodik ustalığından asılı olaraq həmin materialdan metodiki düzgün istiqamətdə, yaradıcılıqla istifadə edirlər. Pedaqoji təcrübədə müəllimlər çox vaxt şagirdin gücünə müvafiq materialları daha da sadələşdirməklə, sinifdəki ən zəif şagirdin səviyyəsinə uyğunlaşdırır, beləliklə şagirdlərin bu materialı asan öyrənməsinə çalışırlar. Şagirdin gücünə müvafiq olan materiallar müəyyənləşdirilərkən, hansı meyarlardan istifadə edilməsi, hansı meyarlarla şagirdlərin mənimsəmə imkanlarının araşdırılması diqqətdən kənar qalır (son illər respublikada test sisteminin geniş yayılması, test materiallarının çoxluğu bunlardan diaqnostik material kimi istifadəyə imkan versə də, bir çox riyaziyyat müəllimləri bu amildən faydalanmırlar). Real diaqnostik metodlardan istifadə əvəzinə müəllimlərin əksəriyyəti sadəcə olaraq, şagirdlərə verilən bilik, bacarıq və vərdişlərinin səviyyəsini intuitiv olaraq müəyyənləşdirirlər (hazırda siniflər üzrə riyaziyyatdan şagirdlərin biliklərinə verilən konkret tələblər və dövlət standartları bu işi elmi-metodik cəhətdən düzgün qurmağa, daha dəqiq elmi-metodiki meyarlardan istifadə etməyə imkan verir).

Şagirdə sistematik olaraq onun gücünə müvafiq materialın verilməsi, onun idrak imkanlarını zəiflədir, intellektual inkişafını ləngidir. Ənənəvi təlimin şagirdin gücünə müvafiq qurulması prinsipi pedaqoji ədəbiyyatda “təlimin asanlaşdırılması” kimi qiymətləndirilməlidir. Aparılan fundamental psixoloji və pedaqoji tədqiqatlar problemin alternativ istiqamətinin praktik baxımdan daha əhəmiyyətli olduğunu göstərir.

Görkəmli rus psixoloqu L.S. Vıqotski XX əsrin 30-cu illərdə özünün nəzəri- ekspremental tədqiqatları vasitəsi ilə inkişafın iki səviyyəsini müəyyənləşdirmişdir.

1) aktual inkişaf səviyyəsi 2) yaxın inkişaf səviyyəsi. L.S. Viqoskinin fikrincə, təlim aktual inkişaf səviyyəsinə əsaslanırsa, o məlumatverici xarakter daşıyır. Əgər təlim yaxın inkişaf səviyyəsinə əsaslanırsa, o inkişafetdirici xarakter daşıyır. Bu aspektdə L.S. Viqotskiyə görə, tədris materialının uyğunluq dərəcəsi yaxın inkişaf səviyyəsinin xüsusiyyətləri ilə müəyyənləşdirilməlidir. Başqa sözlə, tədris materialının çətinliyi yaxın inkişaf səviyyəsinin xüsusiyyətlərinə uyğun olaraq müəyyənləşdirilməlidir.

Tədris materialının çətinlik dərəcəsi şagirdin gücünə (aktual inkişaf səviyyəsinə) müvafiq olduqda, şagirdin onu mənimsəməsi asanlaşır və nəticədə idraki fəallığı aşağı düşür. Ənənəvi təlimin əsas nöqsanı məhz bundan ibarətdir. Əslində təlim prosesi məlumatverici xarakterdə olmayıb, daha çox inkişafetdirici xarakter daşımalıdır. Düzdür şagirdə sadə məlumat verildikdə də müəyyən (bəsit) inkişaf baş verir. Lakin bu inkişafın səviyyəsi zəif olur. Şagird ilk növbədə çətinliyə salınması və ona bu çətinlikdən çıxmağın yolu göstərilməlidir. Təəssüf ki, ənənəvi təlimdə bu imkanlardan çox vaxt istifadə edilmir.

L.S. Vıqotskinin bu ideyaları öz sonrakı inkişafını L.V. Zankovun tədqiqatlarında tapdı. Təlimin psixi inkişafda həlledici rolunu qəbul edən L.V. Zankov qeyd edir ki, “bilik inkişafın şərtidir, lakin onu hələ öz-özlüyündə təmin etmir. Şagirdi məqsədyönlü, kompleks didaktik sistem əsasında inkişaf etdirmək zəruridir”.

Bir qrup alimlərin fikrincə təlimdə şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsi onların təfəkkürünün fəallaşdırılması deməkdir. N.D. Nikandrov göstərir ki, fəallaşma tədris

məqsədlərindən, şagirdlərin inkişaf səviyyəsindən və nəyi "fəallaşdırmaq" sualının cavabından asılıdır. Təlimin fəallaşdırılması dedikdə təfəkkürün fəallaşdırılması nəzərdə tutulur. Alimin fikrincə fəallaşmanı təlimdə problemlilik elementlərindən istifadə ilə də reallaşdırmaq olar. Belə yanaşma şübhə doğurmur: məhz təfəkkür insanı digər canlılardan fərqləndirir, tərəqqidə, elm və mədəniyyətdə olan nailiyyətlərə görə biz təfəkkürə borcluyuq.

Ümumiyyətlə şagirdlərin idrak fəallığının yüksəldilməsi probleminə müxtəlif yönlərdən yaxınlaşmaq olar. Bu səbəbdən problemli təlim məsələlərinə işdə bir neçə dəfə, müxtəlif rakurslardan müraciət edəcəyik. Problemli təlim inkişafetdirici təlim prinsipinə söykənir. Akademik M.İ. Maxmutovun sözləri ilə desək, problemli təlimin əsas məqsədini informasiya mübadiləsi, bilik, bacarıq, vərdişlərin verilməsi, mənimsənilməsi deyil, şagirdin yaradıcılıq qabiliyyətinin inkişafı təşkil edir. Məsələnin belə qoyuluşu, şagirdlərin idrak fəallığının artırılmasına şərait yaradır.

Problemli təlimin həyata keçirilməsinin müəyyən çətinlikləri var. Təlimin bu tipinə şagirdlərin idrak fəaliyyəti təfəkkür prosesi kimi, yeninin axtarışı, kəşfi kimi təhlili edilir. "Problemin ayırd edilməsi, formula olunması, həll edilməsi-dərsdə bu tip təfəkkür qanunları çərçivəsində müəyyən fikir məkanı yaranır: şagird axtarır, arayır, kəşf edir və tədricən yeni məziyyətlər kəşf edir". Problemli təlim, təfəkkürün formalaşmasında özünəməxsus rol oynayır. Bu məqam psixoloqların diqqətindən yayınmamışdır. S.L. Rubinşteynin, A.M. Matyuşkin bu istiqamətdə apardıqları tədqiqatlar xüsusi əhəmiyyət kəsb etmişdir. Məhz bu tədqiqatlar və eləcə də İ.Y. Lernerin və M.İ. Maxmutovun əsərləri problemli təlim konsepsiyasının inkişafına təkan verdi.

Problemli təlim ideyası respublika pedaqoji elminin də diqqət mərkəzində olmuşdur. Keçən əsrin 70-ci illərində milli pedaqoji ədəbiyyatda qeyd edilirdi ki, ənənəvi dərsdə, izahlı-reproduktiv təlim forması əsas yer tutur, yeni biliyi müəllim şərh edir, şagirdlər isə suallara cavab verirlər. Müasir dərsdə isə bundan əlavə proqramlaşdırmış təlim, təlimin alqoritimləşdirilməsi, problemli təlim, diferensial təlim(təlimin fərdiləşməsi) kimi təlim tipləri tətbiq edilir. B.A. Əhmədov öz tədqiqatlarında problemli təlimi (təlimin digər tipləri ilə birlikdə) müasir dərsin əsas növlərindən biri kimi qiymətləndirir.

Şagirdlərin idrak fəallığının yüksəldilməsi problemində idrak marağın da xüsusi rolu var. Şagirdlərin idrak maraqlarının formalaşması istiqamətində rus alimləri Q.İ. Şukina, T.İ. Şamova, E.L. Belkin, V.V.Karqov və başqaları uzun illər ərzində tədqiqatlar aparmışdır. İdrak fəallığı ümumi anlamda, idrak sahəsinə, onu doğuran stimul və biliklərə yiyələnmək prosesinə yönəldilmiş, xüsusi şəxsiyyət meyli kimi qarşıya çıxır. İdrak marağının xüsusiyyəti belə marağa malik şəxsin hadisələrin zahirində olması deyil, dərk olunmuş şeyin mahiyyətinə nüfuz etməsi meylidir.

T.İ. Şamova öz tədqiqatlarında problemli təlimin şagirdlərin idrak maraqlarının formalaşmasında müsbət rol oynadığını xüsusi qeyd edir. Q.İ. Şukina qeyd edir ki, dərsdə yaradılmış problem situasiya şagirddə sual doğurur, sualın yaranması idrak marağın möhkəmlənməsi üçün qiymətli olan, daxili impulsda (həmin hadisənin dərkolunması üçün zəruri olan) öz ifadəsini tapır.

Şagirdlərin idrak fəallığın yüksəldilməsi problemində müstəqil işlərin təşkilinin də xüsusi rolu var. Belə ki, N.F. Talızina şagirdlərin idrak fəallığını müstəqil iş prosesində öyrənir. Onun fikrincə "müstəqil iş" anlayışına, əlaqədə olan ikili keyfiyyətə malik didaktik proses kimi baxmaq olar. Bir tərəfdən bu təlim tapşırığıdır, şagird onu yerinə yetirməlidir, bu onun fəaliyyət obyektidir. Tapşırıq şagirdə müəllim tərəfindən təklif olunur. Digər tərəfdən müstəqil iş şagirdin təlim tapşırığını yerinə yetirməsi zamanı yaddaş, təfəkkür, yaradıcı təxəyyül fəaliyyətinin təzahür formasıdır. Nəticədə şagird ya əvvəllər bilmədiyi yeni billik əldə edir, ya da artıq əldə olunmuş bilikləri daha da dərinləşdirir, fəaliyyət sferasını genişləndirir. Hər iki halda müstəqil iş şagirdin əqli gücünün – intellektinin inkişafına səbəb olur.

P.İ. Pidkasistıy şagirdlərin müstəqil işinin təşkili prosesində idraki tapşırıqlarının imkanlarını yüksək qiymətləndirir. "Müstəqil işin istənilən növündə, tapşırığın məzmununda yeni bilikləri ya məlum metod və yollarda əldə etmək, tətbiq etmək, ya da yeni bilikləri əldə etmək üçün yeni yollar

tapmaq, aşkarlamaq, müəyyən etmək zərurəti əks olunur". Bu istiqamətdə idraki tapşırıqların inkişaf edərək, tədricən yaradıcı tapşırıqlara əvəz olunmasına xüsusi diqqət yetirilir.

Şagirdlərin idrak fəallığının yüksəldilməsi problemində təlim prosesinin optimallaşdırılmasının xüsusi rolu var. XX əsrin 70-cı illərində Y.K. Babanski təlimin optimallaşdırılması ideyasını irəli sürdü. Təlimin optimallaşdırılması ən qısa vaxt ərzində ən yüksək nəticənin əldə olunmasını nəzərdə tutur. Elə buna görə də təlimin optimallaşdırılmasının iki əsas meyarı irəli sürülmüşdür: 1) təlim nəticələrinin optimallığı; 2) vaxt itkisinin optimallığı.

Təlimdə optimallaşdırma nəzəriyyəsi ilə didaktikaya yeni kateqoriya-təlimin optimallaşdırılma üsullarına sistemli kateqoriyasını irəli sürmüşdür. Bu sistem təlim qanunauyğunluqları və prinsiplərindən yaranır və konkret xarakter daşıyır.

Təlimin optimallaşdırılması üsulları sistemi müəllimdə şagirdin qarşılıqlı əlaqədə olan elə fəaliyyətidir ki, əvvəlcədən müəyyən edilmiş gigiyenik normativlərə müvafiq şagird və müəllimin yüklənməməsi şərtilə, təlim səmərəliliyinin ən yüksək nəticəsi əldə olunur. Bu zaman təlimin bütün əsas elementlərinin (məqsəd, vəzifə, məzmun, metod, vasitə, formaların və s.) optimal variantlarının seçilməsi xüsusi əhəmiyyət kəsb edir.

Pedaqoji prosesdə idrarəetmənin tədricən azaldılması müstəqilliyin və yaradıcı fəallığın artmasına səbəb olur. İdrak fəaliyyətinin yüksəldilməsi idarəetmənin azalmasına yönəlmiş aşağıdakı səhv nəticəyə gətirə bilər: müəllimin rəhbər, idarəedici rolu nə qədər az olarsa, şagirdin idrakı bir o qədər fəal olur. Burada ciddi amillərdən biri şagirdlərin fəaliyyətinin motivləşməsidir. Motivləşmədə idarəetmə səviyyəsinin məqsədyönlü azaldılması fəallığın yüksəlməsinə səbəb olur. Zəif motivləşmə riyaziyyat fənninə olan marağı aşağı salır və şagirdin məqsədyönlü fəaliyyətini zəiflədir. Şagirdin idrakını müəyyən edən digər amil onun inkişaf səviyyəsi, öyrənmə və oxumasına təsir edən yaddaş, təfəkkür, psixika ilə əlaqədardır.

Son vaxtlar pedaqoji ədəbiyyatlarda şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsində interaktiv təlim metodlarından istifadə barədə çox yazılır. İnteraktiv təlim metodlarının bu istiqamətdə imkanlarını göstərməklə yanaşı, onun mahiyyəti barədə də fikrimizi bildirəcəyik.

Pedaqoqların fikrincə, məktəbliləri fəal təlimə alışdırmaq üçün aşağı siniflərdən başlayaraq onlarda tədricən, mürəkkəbə keçməklə məntiqli axtarış, sübuta yetirmək bacarıqları tərbiyə olunmalıdır. Axtarış aparmaq, isbat etmək bacarıqları aşağıdakı yollarla yaranır və formalaşır:

-həll ediləcək problem məsələnin (tapşırığın) şərtindəki verilənlərin, bir-birilə əlaqələrini və ziddiyyətlərini nəzərə almaq;

-məsələnin şərtində artıq olanları və ya çatışmayanları müəyyənləşdirmək;

-məsələdə verilən suallara uyğun olaraq, ardıcıllıqla onun həllinə (axtarışa)
başlamaq;

-çıxarılan hər bir nəticəni isbat etmək;

-mümkün sualları müəyyənşdirməyə çalışmaq;

-məsələnin suallarına müvafiq bütün nəticələri əldə etmək;

-həllin məsələnin şərtinə uyğunluğunu yoxlamaq.

Təlim prosesində yaradılan problem situasiyaların məzmun və mürəkkəblik dərəcəsi problemin kim tərəfindən və hansı şəraitdə(şagirdlərin problemi müstəqil, yaxud müəllimin köməyi ilə) həll edilməsi ilə uyğunlaşdırılmalıdır. Fəal təlimdən istifadə edilməsi təhsildə üç mühüm funksiyanın yerinə yetirilməsini təmin edir: a) yaradıcılıq səviyyəsində biliklərin dərindən mənimsənilməsi; b) elmi təfəkkürə və idrak metodlarına yiyələnmə; c) yaradıcılıq fəaliyyəti təcrübəsi və vərdişlərinə yiyələnmə. Bununla belə problemli təlim məktəblərin elmi dünyagörüşünün formalaşmasına səmərəli təsir edir, onlarda ətraf aləmdə baş verən hadisələri müstəqil təhlil etmək, qiymətləndirmək, tənqidi vəziyyətdə özünü aparmaq bacarıqlarını tərbiyə edir.

XX əsrin 80-ci illərin əvvəlindən başlayaraq şagirdlərin elmi biliklərə marağının azalması, tədris məşğələlərində idrak fəaliyyətinə həvəssiz qoşulması, ümumi passivlik özünü göstərməyə başlayır (bunun çox səbəbi var, əsas səbəblərdən biri informasiya kütləsinin həndəsi silsilə ilə çoxalması və bunun nəticəsi olaraq dərsliyin, müəllimin, məktəbin bilik vermə imkanlarının bu

rəqabətə dözə bilməməsidir). Bunu müşahidə edən praktik pedaqoqlar dərslərdə şagirdlərin fəallığını artıran, onlarda öyrənmək marağın stimullaşdıran yol, fəaliyyət üsulları, metodik fəndlər axtarmağa və onları öz dərslərində sınaqdan keçirməyə başladılar. Beləliklə, tədris praktikasında qeyri-standart (mövcud pedaqoji prinsiplərdən, standartdan kənara çıxan) dərslər meydana gəldi. Hazırda şagirdlərin yüksək fəallığını təmin edən belə dərslərdə həyata keçirilən növü interaktiv təlim adlandırılır (hərçənd interaktiv təlimin elementlərinin tətbiqinin məktəb tarixi qədər yaşı var).

İnteraktiv təlim tədris prosesini intensivləşdirir, şagirdlərə müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı məsələ barədə başqasının fikrinə hörmətlə yanaşmaq, öz münasibətini bildirmək, çoxluğun qərarını qəbul etmək xüsusiyyətlərini formalaşdırır, məşğələlərdə şagirdlərin fəallığını maksimum artırır, təlimin inkişafetdirici aspektini gücləndirir.

İnteraktiv təlim üçün aşağıdakılar səciyyəvidir:

-şagirdlərin qruplara bölünməsi (təlimin diferensiallaşması) ;

-hər bir şagirdin aktiv fəaliyyəti;

-müəllim-şagird və şagird-şagird əməkdaşlığı;

-didaktik oyunların təşkili;

-şagirdlərin müzakirə və diskussiyalara cəlb edilməsi;

-şagirdlərin özünü və bir-birini qiymətləndirməsi.

İnteraktiv təlim problemli təlimə nisbətən şagirdlərin idrak fəaliyyətinin daha dinamik və demokratik formasıdır. İnteraktiv təlim praktikasında müxtəlif metod və üsullarından istifadə olunur: “işgüzar oyunlar”, “əqli hücum”, “rollu oyunlar”, “cütlər və qruplarla işin təşkili”, “layihələrin hazırlanması”, “yarış dərsləri”, “kompyuter dərsləri”, “qarşılıqlı təlim dərsləri”,”konfrans dərsləri”, “test suallarına cavab hazırlanması dərsləri”, “fantaziya dərsləri”, “rəsm çəkmə”, “ekspremental məsələ həlli dərsləri”, “yaradıcılıq dərsləri” və s.

İnteraktiv təlimin mühüm xüsusiyyətlərindən biri şagird müstəqilliyinə geniş yer verilməsidir. Burada müəllimin başlıca vəzifəsi təlim (pedaqoji) problemini müəyyənləşdirmək, onun həlli üçün tapşırıq və yönəldici suallar qoymaq, şagirdlərin işinə nəzarət etmək, nəticələri yekunlaşdırmaqda, fəaliyyətlərini düzgün qiymətləndirməkdə onlara kömək etməkdir. Müəllim əvvəlcə şagirdlərə müstəqil işləməyi öyrətməli, sonra tədricən onların müstəqilliyinin artmasına şərait yaratmalıdır.

## ƏDƏBİYYAT

1. Əliyev A.Ə. Riyaziyyat təlimində problemli yanaşma. Bakı: ADPU, 1995.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.
3. Quliyev Ə.A. Riyaziyyatın tədrisində ümumiləşdirmə. Bakı: Elm, 2009.
4. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.
5. Məmmədov O.İ. Təlim prosesində şagirdlərin biliklərə marağının formalaşmasının səmərəli yolları (V-IX siniflərdə fizika və riyaziyyat tədrisi materialları əsasında). Ped. elm. nam. ...dis.avtoref. Bakı, 1998.

**Х. Гасанова, С. Акберова, Н.Аллахвердиева**

## ПЕДАГОГИЧЕСКИЕ-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ УВЕЛИЧЕНИЯ ПОЗНАВАТЕЛЬНЫХ СПОСОБНОСТЕЙ УЧАЩИХСЯ

### РЕЗЮМЕ

В статье говорится о познавательной деятельности студентов. Трудности определяются в зависимости от характера развития учебного материала. Содержание и уровень сложности проблемы в процессе изучения ситуаций и условий показывает, в каких условиях и при помощи кого оно осуществляется. Другим фактором, который определяет уровень познавательной деятельности студентов, связан с развитием, мышлением, умением учить и читать.

**Xh. Hasanova, S. Akberova, N.Allahverdieva**

## INCREASE STUDENTS' COGNITIVE ABILITIES PEDAGOGICAL-PSYCHOLOGICAL BASES

**SUMMARY**

Students' cognitive activity has been noted in the article about. The difficulty is determined according to the nature of the development of teaching material. The content and difficulty level of the problem is in the process of learning situations and conditions under which the solution of the problem by one with the flexibility to adapt. Another factor that determines the level of its development cognitive student, learning to read, and that affects memory, thinking, due to the state of mind.

*Redaksiyaya daxil olub: 27.10.2014*

# MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ PEDAQOJİ ÜNSİYYƏTİN PSİXOLOGİYASI

**Aygün Əzimova,**
*Bakı Sənaye Pedaqoji Kollecinin müəllimi*
E-mail: azimova.aygun@mail.ru

*Mən müəllimlərin müəllimi olmağa hazıram, əgər onlara nə isə öyrədə bilsəm, mən şagirdlərin şagirdi olmağa da hazıram əgər onlardan nə isə öyrənə bilsəm.*
**Yan Amos Komenski**

**Rəyçilər:** *dos.* L.Əmrahl,
*dos.* İ.Sultanova

***Açar sözlər:*** *şəxsiyyət, ünsiyyət, fəaliyyət, əməkdaşlıq pedaqogikası, müəllimlik sənəti*
***Ключевые слова:*** *личность, общение, деятельность, педагогика сотрудничества, профессия учителя*
***Keywords****: personality, communication, work, education cooperation, the teaching profession*

Rus pedaqoqu İ.V. Bodalevin fikrincə, insanlar bir-birini fiziki, davranış və geyim cəhətdən qavrayırlar (1). Şəxsiyyətin sosial qrupda yerini təhlil etmək üçün onun mövqeyini iki şkaladan-maaş cədvəli və hörmət şkalasından müəyyən edirlər. Psixoloji tədqiqatlar göstərir ki, şəxsiyyətin səlahiyyəti bilavasitə onun hüquqları ilə müəyyən olunur. Lakin səlahiyyət hələ şəxsiyyətin hörmət və nüfuzunu öz-özünə müəyyən etmir. Şəxsiyyətin qrup üzvlərinə psixoloji təsir dərəcəsi onun hüquqlarından daha çox, öz vəzifəsini layiqincə yerinə yetirməsi ilə bağlıdır. Bu baxımdan pedaqoji ünsiyyətdə müəllimin şəxsiyyətinə hörmət onun öz sənətini nə dərəcədə bilməsi və müəllimlik vəzifəsini nə dərəcədə yerinə yetirə bilməsi ilə bağlıdır. Müəllim şəxsiyyəti onun peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir.

Müəllim-gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan əsas professional şəxsdir. Məhdud mənada müəllim kiməsə (şagirdə, tələbəyə, kursanta və s.) nəyisə öyrədəndir. Geniş mənada isə müəllim - gənc nəsli sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan, elmin, iqtisadiyyatın, mədəniyyətin və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli insandır. Müəllim-pedaqoqdur, tədris edəndir, təhrik edəndir və ustadır. Müəllimlik sənəti olduqca nəcib, şərəfli, müqəddəs bir sənətdir. Bu baxımdan bütün dövrlərdə müəllimlik sənətinə görkəmli insanlar çox böyük dəyər və qiymət vermişlər. Məşhur yunan filosofu Sokrat müəllimi "əqlin törədiciləri" adlandırmışdır (2). Y.A. Komenski müəllimi "şüa saçan günəşə" (3), K.D. Uşinski "gənc qəlblər üçün məhsuldar günəş şüaları"na (4), M.T. Sidqi isə məktəbi cismə, müəllimi isə onun ruhuna bənzətmişdir (5).

Müəllim şəxsiyyəti pedaqoji ünsiyyət zamanı üzə çıxır və əsl dəyərini göstərir. Pedaqoji ünsiyyət təlim-tərbiyə prosesində müəllimlə şagird arasında olan ünsiyyətdir. Bu ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasına yönəlmiş olmaqla bərabər, kollektivdəki sosial-psixoloji prosesləri idarə etməyə və məhsuldar psixoloji iqlim yaratmağa imkan verir. Pedaqoji ünsiyyət ünsiyyətin bütün xüsusiyyətlərini özündə əks etdirdiyi üçün ilk öncə onun tərəflərini bilmək lazımdır.

Pedaqoji ünsiyyətin yerinə yetirdiyi vəzifələrə uyğun olaraq onun informasiya mübadiləsi, başqa adamların davranışını tənzim etmək və şəxsiyyətlərarası anlamanı həyata keçirmək kimi tərəflərini ayrıd etmək olar. Pedaqoji ünsiyyətdə məzmun çox əhəmiyyətlidir. Pedaqoji ünsiyyətin məzmununu müəllimlə şagirdin bir-birinə ötürdüyü informasiya mübadiləsi təşkil edir. Bu məzmun təlim prosesində müəllimin qarşıya qoyduğu məqsədlə bağlıdır. Ünsiyyətin səmərəli olması və hər

iki tərəf üçün maraqlı olması üçün vahid məqsəd olmalıdır. Pedaqoji ünsiyyətin səmərəli olması motivlərdən də asılıdır. Motivlərin düzgünlüyü və dərk edilən olması pedaqoji ünsiyyətə müsbət təsir edir. Məqsədlə motivin həyata keçirilməsi üçün vasitələr nə qədər uyğun olarsa pedaqoji ünsiyyət də bir o qədər səmərəli olar.

İnsanlara bir şeyi öyrətmək, onlara nəsihət vermək, üstəlik onlara elmvə mərifət təbliğ etmək qədər çətin və məsuliyyətli bir iş təsəvvür etmək mümkün deyil. Ona görə də bu peşəni seçənlər öz məsuliyyətlərini dərk etmək məcburiyyətindədirlər. Gürcü yazıçısı Nodar Dumbadzenin ifadəsi ilə desək "müəllimliyə" əlahəzrət mədənin əmri ilə baxmaq olmaz (6). Mənəviyyatımıza görə şagird müəllimin övladıdır və bu deyim öz əksini pedaqoji ünsiyyətdə tapır. Pedaqoji ünsiyyətdə bir sıra münasibətlər özünü göstərir. Müəllimin pedaqoji ustalığı, həmdə psixoloji qabiliyyətləri bu münasibətlərdə öz əksini tapır. Müəllimlərin hamısında ünsiyyət üslubu eyni olmur. Hər bir müəllimdə ünsiyyətin konkret forma, priyom və metodu olur ki, bu da onu digərlərindən fərqləndirir. Pedaqoji ünsiyyəti tədqiq edən alimlər bu münasibətdə eyni üslubları müəyyən etmişlər. Pedaqoji ünsiyyətdə idarə etmənin avtokraatik, avtoritar, demokratik, laqeyd (liberal) və qeyri-sabit kimi üslubları müəyyən edilmişdir.

Avtokrativ və avtoritar üsluba malik olan müəllimlər pedaqoji ünsiyyətin təşkilində şagirdlərə yalnız obyekt kimi yanaşırlar. Hər şey onların istədiyi, fikirləşdiyi kimi olmasına çalışırlar. Bu isə şagirdlərdə müəllimə qarşı neqativ hal yaradır, ünsiyyət prosesində "məna maneəsi" formalaşdırır. Necə deyərlər müəllimin dediyi sözlər şagird üçün "kümbəzin başına atılan qoz kimi" qayıdıb düşür. Ona görə də pedaqoji ünsiyyətdə ən səmərəli üslub demokratik üslubdur. Belə münasibət üslubunda şagird subyekt olaraq qavranılır və ona bərabər- hüquqlu şəxsiyyət kimi baxılır.

"Mən sizə hər şey öyrədən atanız kimiyəm" deyən Peyğəmbərimizin (s.ə.s) öz insanlarına münasibəti bizim üçün əsl nümunə olmalıdır. Ata öz övladına sevgi və qayğı ilə yanaşdığı kimi müəllimdə şagirdlərinə qayğı ilə yanaşmalı, onları sevməli, onların arzu və fikirlərini, xahiş və məsləhətlərini, fərdi xüsusiyyətlərini, fəallıq və təşəbbüslərini nəzərə almalıdır. Təcrübələrdən də aydın olur ki, şagirdlərlə qarşılıqlı münasibətdə pedaqoji ünsiyyətin demokratik üslubundan istifadə edən müəllimlərlə onların arasında olduqca səmərəli münasibət yaranır. Şagirdlər isə bu cür müəllimlərlə ünsiyyətə daima can atır, onlardan köməklik istəməyə çəkinmirlər.

Pedaqoji ünsiyyətdə laqeyd, yaxud liberal üsluba üstünlük verən müəllimlərin şagirdlərlə münasibəti kortəbii xarakter daşıyır. Belə müəllimlər ünsiyyət prosesində şagirdlərin diktəsi ilə hərəkət edir. Qeyri-sabit ünsiyyət zamanı da şagirdlər müəllimin necə hərəkət edəcəyini bilmirlər və öz tələbatlarının ödəniləcəyinə inanmadıqlarından ona müraciət etmək istəmirlər. Şagird sosial varlıq olaraq məktəbdə müəllimlərlə və sinif yoldaşları ilə görünən və görünməyən min bir tellərlə bağlıdır. O, həyatının çox hissəsini məktəb adlı psixoloji məkanda yaşayır. Müasir psixoloji təsəvvürə görə "Müəllim-şagird münasibətləri" ikitərəfli mürəkkəb proses olsa da, bu münasibətin formalaşmasında əsas rol müəllimə,onun şəxsi keyfiyyətlərinə bağlıdır.

M. N. Lukyanova özünün "Müəllimin pedaqoji-psixoloji qabiliyyətləri" adlı kitabında dediyi kimi, "Müəllim bu münasibətlərin təcrübəli iştirakçısı kimi şagirdin bir şəxsiyyət kimi formalaşmasına və inkişafına min bir görünməz tellərlə təsir göstərir. Müəllifin fikrincə müəllim-şagird münasibətlərinin inkişafı bir çox cəhətdən məhz müəllimin bir şəxsiyyət kimi aktivliyindən aslıdır" (7). Ümumiyyətlə, pedaqoji-psixoloji ədəbiyyatlarda pedaqoji ünsiyyətin humanistləşdirilməsi nəticəsində müəllimin sosial-psixoloji portreti bu cür verilmişdir.

Müəllim hər bir şagirdə hörmətlə yanaşır, onları yüksək dəyərləndirir, şagirdlərin taleyi ilə yaxından maraqlanır, onların qabiliyyət və istedadlarına optimistcəsinə inanır, şagirdlərlə onların əməkdaşı kimi rəftar edir, onlarda daxili motivlər yaradır, şagirdlərin nöqsanlarına qarşı dözümlüdür, ünsiyyət mədəniyyəti seçimlidir. Şərq mədəniyyətində müəllimin adı həmişə uca tutulmuşdur. Lakin şagirdə obyekt kimi baxan Sovet məktəbində isə müəllim-şagird münasibətlərində Çin səddi mövcud olmuşdur. Belə bir səddi yıxmaq üçün yeni sistem olan əməkdaşlıq pedaqogikası yaradılmışdır. Əməkdaşlıq pedaqogikasında müəllim-şagird münasibətləri subyekt-subyekt münasibətləri kimi aparılır. Bu münasibət demokratizmə, bərabərliyə əsaslanır. Müəllimlə şagirdin

əməkdaşlığına əsaslanan sistem, inkişafetdirici sistem olub nəzəri təfəkkürün, təfəkkür üsullarının formalaşmasına xidmət edir. Əməkdaşlıq pedaqogikasında şagirdə şəxsiyyət kimi baxılır. Müəllim şagirdə inanır, onun müvəffəqiyyət qazanmasına şərait yaradır.

Burada müəllim şəxsiyyətinin strukturu xüsusi rol oynayır. Müəllim şəxsiyyətinin strukturu onun pedaqoji əməyinə istiqamət və məna verir. Müəllimin şəxsiyyətinin strukturuna onun işinin xarakterini müəyyənləşdirən psixi keyfiyyət və qabiliyyətlərinin vəhdəti aiddir. Müəllimin şəxsiyyəti özünün istiqamət və motivasiyası, yaradıcı mövqeyi, şəxsi üslubu ilə xarakterizə olunur. Müəllim şəxsiyyətinin istiqaməti ilk öncə özünün motivlər aləmi, ideyaları, əqidə və inamı ilə müəyyən olunur. Müəllim şəxsiyyəti lazımi səviyyədə formalaşmazsa cəmiyyətin onun qarşısında qoyduğu sosial tələbi həyata keçməz. Cəmiyyət öz gələcəyi və ümid yeri, qiymətli sərvəti olan uşaqların gələcəyini müəllimə tapşırır, müəllimə etibar edir. Bu səbəbdən də gələcək nəsli şəxsiyyət kimi formalaşdıran müəllimin öz şəxsiyyəti yüksək səviyyədə olmalıdır. Öz işində müvəffəqiyyət qazanmaq istəyən müəllim nəinki öz fənnini bilməli, eyni zamanda təbiət və cəmiyyət haqqında biliklərə malik olmalı, ideya inamına və mühüm peşə keyfiyyətlərinə malik olmalıdır.

Müəllim şəxsiyyəti pedaqoji fəaliyyətdə həm də öz fərdi xarakter daşıması ilə fərqlənir. Pedaqoji fəaliyyət layihəsindəki təcrübələr göstərir ki, cəmiyyətin müəllim qarşısında qoyduğu tələbi onlar müxtəlif əməliyyatlardan, yollardan ,istifadə edərək həyata keçirirlər. Bu hər bir müəllimin fərdi üslubu adlanır. Və bu üslub onun yetişdirdiyi şagirdlərin tərbiyəlilik və mənimsəmə səviyyəsi ilə ölçülür. Ona görə də müəllim öz üslubundakı zəif cəhətləri bilməli və onu daha səmərəli cəhətlərlə əvəz etməlidir. Bu işdə müəllimə onun iradi qüvvələri, təkidliliyi, dözümlülüyü, təvazökarlılığı, özünə qarşı tələbkarlığı köməklik edit. Öz peşəsinin ustası olan müəllim nə qədər müvəffəqiyyət qazanırsa qazansın hələ çox işlər görmək lazım gəldiyini bilir. Görkəmli rus pedaqoqu K.D. Uşinski deyirdi ki, tərbiyəçi insanı həqiqətdə olduğu kimi bilməli, onun bütün zəif və qüvvətli cəhətləri, xırda ehtiyacları ilə tanış olmalı insanı ailədə, cəmiyyətdə, xalq arasında və bəşəriyyət içərisində və öz vicdanı ilə üzbəüz durduğu halda öyrənməli, insanı bütün yaşlarda, bütün vəziyyətlərdə, şadlıq və qəmginlik hallarında öyrənməli, yalnız bu zaman o, insan təbiətinin özündən tərbiyə vasitələrini əxz edə bilər.

Bu işdə müəllim daim öz üzərində işləməli, elm və texnikanın inkişafından xəbərdar olmalı, yeni Təhsil Strategiyasında deyildiyi kimi müəllim-təhsil prosesinin istiqamətləndiricisi və koordinatoru rolunu oynamalıdır. Dərs şagirdi sadəcə olaraq bilik, bacarıq və vərdişlərə yiyələndirmir, eyni zamanda bir şəxsiyyət kimi formalaşdırır, onun canlı həyatının bir parçasına çevrilir. Ona görə də hər bir müəllim öz fəaliyyətinə yeni Təhsil Strategiyasının tələbləri baxımından yanaşmalı, Strategiyanı müəyyən edən əsas vasitə kimi "Açıq təhsil" modelinin qurulması və tətbiqini reallaşdırmalıdır.

**ƏDƏBİYYAT**

1. Водалаев А.А. Психология о личности М., 1988.
2. Komenski Y.A. Böyük didaktika . Bakı, 2011.
3. Ушински К.Д. Человек как предмет воспитание: Опыт педагогической антропологии. М., 1868.
6. Лукянова М.И. Психолого-педагогическая компететность учителя. Сфера, 2004.
7. Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın bəzi məsələləri. Bakı, 2000.
8. Bayramov B, Əlizadə Ə. Psixologiya. Bakı, 2002.
9. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2007.
10. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, 2008.
11. Əkbərov F. Ən böyük əxlaq. Bakı, 2004.
12. Qaralov Z.İ. Tərbiyə. 3 cilddə, 2-ci c. Bakı, 2003.

**А.Азимова**

**ПЕДАГОГИЧЕСКАЯ ЛИЧНОСТЬ И ПСИХОЛОГИЯ ПЕДАГОГИЧЕСКОГО ОБЩЕНИЯ**

**РЕЗЮМЕ**

В статье говорится о педагогическом общении, педагогическом исполнение педагогического общения в соответствии с обменом информации, регулирование отношений людей, характеристика межличностных отношений, претворение в жизнь педагогического общения, об основном лице учительской профессии, ее характеристики, учительской личности.

**A. Azimova**

**EDUCATIONAL PSYCHOLOGY AND PERSONALITY OF PEDAGOGICAL COMMUNICATION**

**SUMMARY**

The article says about pedagogical communication, their duty and information, the regulation of behavior of other people, teaching as the face of interpersonal understanding the basis of implementation, prominent features of the teacher assessment of his communication styles and pedagogy employee.

*Redaksiyaya daxil olub: 19.09.2014*

# МОТИВАЦИЯ И ПУТИ ЕЁ ПОВЫШЕНИЯ У СТУДЕНТОВ ЯЗЫКОВОГО ВУЗА

Самира Гасанова,
*докторант по программе доктора философии*
АУЯ
E-mail: fira_350@mail.ru

**Рецензенты:** *ped.fəls.dok.* F. Rzayeva,
*filol.fəls.dok.* G.Yusifova

***Ключевые слова:*** *мотивации, компетенции, интерес*
***Açar sözlər:*** *motivasiya, səriştə, maraq*
***Keywords:*** *motivation, competence, interest*

В последнее время тема мотивации и пути её создания привлекают всё большее внимание методистов. Прежде всего, следует отметить, что вопросы создания мотивации в процессе обучения языку рассматриваются с различных позиций. Следует также подчеркнуть, что пути создания мотивации самым непосредственным образом зависят от особенностей изучаемого иностранного языка, а также целей обучения иностранному языку в той или иной конкретной аудитории.

Как известно, не существует единого, универсального метода обучения иностранным языкам, который одинаково успешно мог бы быть использован в различных учебных контекстах. То же самое может быть сказано относительно способов мотивации студентов, изучающих иностранный язык. Следует отметить, что студенты изучают иностранные языки, в том числе английский язык, в самых различных целях. Так, английский язык изучают в академических целях (EAP), в специальных целях (ESP). В условиях тотальной глобализации крайне актуальной является проблема изучения английского языка в целях общения на интеркультурном уровне (EIP). Особые цели ставятся перед студентами, изучающими английский язык в профессиональных целях (1, с. 459).

В соответствии с программными требованиями, предъявляемыми к речи выпускников языкового вуза, их речь должна быть максимально приближена к уровню речи лингвистически образованных носителей языка.

В условиях современности основной целью обучения английскому языку является формирование у будущих учителей коммуникативной компетенции на изучаемом иностранном языке. Соответственно, весь процесс обучения языку должен строиться с непременным учетом поставленных целей, т.е. быть коммуникативно-ориентированным.

Нам представляется, что одной из первоочередных задач, стоящих перед учителями английского языка в условиях языкового вуза, является вовлечение студентов в процесс изучения языка в качестве активных, мотивированных участников данного процесса, непосредственно заинтересованных в его результатах.

Следует отметить, что студенты языкового вуза в целом положительно относятся к изучению языка. Однако следует с сожалением отметить, что уровень мотивированности и заинтересованности студентов-старшекурсников, изучающих язык в профессиональных целях, зачастую снижается в сравнении с соответствующим уровнем студентов-первокурсников. Парадоксальная, на первый взгляд, ситуация, вовсе не является парадоксальной. Снижение уровня мотивации у студентов, изучающих иностранный язык в условиях языкового вуза, часто происходит вследствие того, что в процессе организации обучения не учитываются интересы и потребности самих обучаемых. Кроме того, очень часто процесс изучения иностранного языка сводится к усвоению знаний и информации о языке, а не

усвоению самого языка как средства коммуникации.

Между тем студенты, изучающие язык на языковых факультетах, стремятся к овладению изучаемым иностранным языком как средством речевого общения. Более того, в случае с являющимся основным «lingua franca» на глобальном уровне английским языком речь должна идти об обучении данному языку в целях речевой коммуникации на интеркультурном уровне. Несоответствие процесса обучения языку ожиданиям студентов неизбежно приводит к потере интереса к изучению иностранного языка и демотивации.

Таким образом, проблема создания мотивации, повышения её уровня, предотвращения и устранения причин, приводящих к демотивации, является одной из актуальных и всё ещё недостаточно изученных проблем современной методики преподавания иностранных языков.

Нам представляется, что процесс обучения тому или иному иностранному языку должен непременно строиться с учётом интересов и потребностей людей, изучающих язык, их возрастного, образовательного и интеллектуального уровня. Следует отметить, что при отборе учебных материалов, выборе технических средств, методов и способов обучения целесообразно, наряду с программными требованиями, ориентироваться также на интересы и потребности студентов конкретной аудитории. В условиях языкового вуза необходимо создание среды, в максимально возможной степени содействующей мотивированному использованию изучаемого иностранного, в нашем случае английского языка в целях коммуникации.

В современных условиях демократизации процесса обучения языку и переноса акцента с обучающего на обучаемых, представляется крайне целесообразным опрос студентов, проведение анкетирования в целях выявления того, насколько позитивно или отрицательно оценивают студенты используемые учебные материалы, информационно-коммуникационные средства, методы обучения, деятельность преподавателя, его профессиональный уровень и т.д. Полученные в результате проведенного опроса или анкетирования данные (feedback) должны быть непременно проанализированы преподавателем. При этом следует отметить, что подобные опросы должны проводиться регулярно, с последующей обработкой полученных результатов, что позволит строить и корректировать процесс обучения языку в соответствии с интересами студентов и их потребностями. Подобная организации процесса обучения с ориентацией на интересы и потребности студентов («learner-centredness») является одним из весьма эффективных способов повышения уровня мотивации и заинтересованности студентов и их постепенной трансформации из в некоторой степени пассивных обучаемых в активных участников процесса изучения языка (2, с. 78).

Участие студентов в процессе организации процесса обучения языку, осознание студентами того, что они могут влиять на данный процесс, внося те или иные изменения и коррективы в качестве равноправных его участников, вне всякого сомнения, содействует повышению уровня их мотивации и провоцирует их на использование изучаемого языка в процессе обсуждения тех или иных проблем, с которыми они сталкиваются в процессе изучения языка.

Исследователи проблемы отмечают, что существует ряд факторов, оказывающих весьма заметное влияние на степень успешности изучения иностранного языка. Сюда могут быть отнесены следующие факторы: текстовые и учебные материалы, используемые на уроках иностранного языка, взаимоотношения между учителем иностранного языка и студентами, а также индивидуальные факторы, такие как способность отдельных индивидуумов к изучению того или иного языка, и то, насколько контекст, в котором происходит изучение языка, содействует успешности данного процесса. Необходимость поиска новых, более эффективных путей мотивации студентов, изучающих язык в профессиональных целях, не вызывает сомнений. Однако, прежде всего, следует определить, насколько актуальна проблема мотивации самих учителей, и то, насколько взаимосвязаны эти два вида мотивации.

Совершенно очевидно, что мотивированный студент гораздо более результативен. Немотивированный и незаинтересованный студент оказывает отрицательное, демотивирующее влияние, как на остальных студентов,, так и на самого учителя. Именно поэтому проблема повышения уровня мотивации каждого студента является столь важной и актуальной.

Говоря об учителе иностранного, в нашем случае английского языка, следует отметить, что это должен быть человек, любящий свою профессию, любящий английский язык, коммуникативно компетентный, обладающий необходимыми знаниями, умениями и навыками, хорошо информированный относительно культуры, ассоциирующейся с данным языком, с уважением относящийся к ценностям и нормам, принятым в обществе носителей языка. Только учитель, владеющий английским языком на достаточно высоком уровне, способный адекватно использовать язык на уровне интеркультурной коммуникации, может служить эталоном для изучающих язык, тем самым мотивируя их его изучению.

Однако весьма важным является также умение учителя управлять процессом обучения языку, ориентируя студентов в нужном направлении. Сегодня крайне актуально говорить о необходимости предоставления студентам автономии в процессе изучения языка (3, 110). Следует отметить, что данный фактор весьма положительным образом влияет на повышение уровня мотивации, активизируя студентов, изучающих язык, и содействуя их вовлечению в учебный процесс в качестве сознательных его участников, непосредственно заинтересованнных в результатах данного процесса.

Совершенно очевидно, что вовлечение студентов в процесс обсуждения тех или иных, значимых и интересующих их проблем, организация проведения подобных обсуждений в парах и группах, будет самым положительным образом влиять на повышение эффективности процесса обучения языку и повышение уровня мотивации.

Говоря о студентах с низким уровнем мотивации, следует отметить, что и в данной ситуации существуют положительные моменты. Так, в подобной ситуации учитель должен быть особенно креативен, изобретателен с тем, чтобы стимулировать участников аудитории к изучению языка.

Прежде всего, следует определить, в чём же заключается основная цель обучения иностранному языку? Является ли основной задачей усвоение иностранного, в данном случае английского языка? Чрезвычайно важными аспектами обучения языку являются следующие: формирование у студентов уверенности в своих возможностях в процессе изучения языка и его использования, способность получать удовлетворение и удовольствие от самого процесса изучения языка, ориентированность на достижение успешного результата, а также креативность всех участников учебного процесса. Следует отметить, что обучение языку является комплексным процессом, где в качестве участников выступают учителя и студенты. Предполагается постоянное сотрудничество учителей и студентов, и вмешательство учителя в процесс в случае возникновения тех или иных проблем. При этом следует учесть, что одним из основных средств, содействующих решению возникающих проблем и повышению эффективности процесса обучения иностранному языку, является повышение уровня мотивации студентов.

Наиболее целесообразным способом определения того, в каких целях участники данной аудитории изучают язык и каковы наиболее предпочтительные методы, подлежащие использованию в данном контексте, является анкетирование студентов. Аналогичным образом можно также определить методы и средства, которые могут оказаться неэффективными в данной аудитории. Подобный опрос, а также анкетирование целесообразно проводить в начале семестра, что позволит организовать весь процесс обучения с учетом интересов и потребностей самих обучаемых.

Ориентированность на интересы и потребности обучаемых, их участие в процессе отбора учебных материалов и выборе методов и технических средств, подлежащих использованию в процессе обучения языку, способствует осознанию студентами того, чю

они являются равноправными участниками данного процесса, является весьма действенным мотивирующим фактором, стимулирующим деятель-кость студентов, и в значительной степени повышающим результативность данного процесса.

Вне всякого сомнения, студенты должны осознавать, что они не являются объектами учебного процесса, а выступают в качестве его субъектов, чьё мнение является важным для учителя и остальных участников учебного процесса. При этом следует учесть, что обучение иностранному языку является гораздо более творческим процессом, чем обучение другим дисциплинам. Соответственно, организаторы данного процесса, в первую очередь, учителя иностранного языка, должны быть творческими людьми, способными вовлечь студентов в увлекательный, интересный и творческий процесс, каковым в действительности является изучение иностранного языка.

Интерактивный характер занятий по иностранному языку позволяет учителю находиться в процессе постоянного общения со своими студентами, поддерживая в них интерес к иностранному языку и культуре носителей языка.

Актуальность проблемы. Проблема изучения английского языка в целях общения на интеркультурном уровне является крайне актуальной на сегодняшний день. Весь процесс обучения языку должен быть коммуникативно-ориентированным, т.к. основной целью обучения языку является формирование у будущих учителей коммуникативной компетенции на изучаемом иностранном языке. Несоответствие процесса обучения языку ожиданиям студентов приводит к демотивации студентов и потере интереса к обучаемому языку. Поэтому проблема создания мотивации и пути ее повышения, а также устранение и предотвращение причин демотивации является актуальной и все еще недостаточно изученной проблемой современной методики преподавания иностранных языков.

## ЛИТЕРАТУРА


1. Bacon, S.M. and M.D. Finnemann 1990. A Study of the attitudes, motives, & strategies of university foreign language students and their disposition to authentic oral & Written input. Modern Language Journal, 1974.
2. Underwood, M. Effective Classroom Management. Longman, 1987.
3. Weiner, B. Theories of Motivation: From Mechanism to Cognition. Chicago Marknam, 1972.


**S. Həsənova**

## MOTİVASİYA VƏ İXTİSAS DİL OLAN ALİ MƏKTƏBLƏRDƏ TƏLƏBƏLƏRDƏ ONUN YÜKSƏLDİLMƏSİ

## XÜLASƏ


Motivasiyanın yaradılması və motivasiya səviyyəsinin artırılması müasir metodikanın aktual və kifayət qədər tədqiq olunmamış sahəsidir. Bu və ya digər xarici dilin öyrənilməsi prosesi dil öyrənənlərin maraq və tələblərinə, habelə yaş hədlərinə, dil və intellekt səviyyələrinə əsasən planlaşdrılmalıdır.

Xarici dilin öyrədilməsində müəllimin rolu, səriştəliliyi, öyrənmə prosesində tələbələrdə motivasiyanın yaradılması və motivasiya səvisyyəsinin yüksəldilməsi müəllimin rolu, səriştəsi əsas amildir.

**S.Hasanova**

**MOTIVATION AND WAYS OF IMPROVING ITS STUDENTS LANGUAGE HIGHER SCHOOL**

**SUMMARY**

Problem of creating motivation and increasing its level is one of the actual and not enough investigated problem of the modern methodology.The process of teaching foreign language should be structured on the basis of interests and demands of people üho learn language as üell as thir educational, age, intellectual level.

The role of a teacher, and his/ her competence in teaching foreign language, also creating students` motivation, and increasing its level is the main factor.

*Redaksiyaya daxil olub: 03.10.2014*

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNDƏ SİNİF RƏHBƏRİNİN ROLUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Hüseyn Mirzəyev,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
ARTPI
*E-mail: huseyn8002@gmail.com*

**Rəyçilər:** *prof.* R. Əliyev,
*ped. fəls. dok.* S. Həsənova

***Açar sözlər:*** *məktəbin idarə edilməsi səviyyəsi, fənn müəllimi ilə sinif rəhbəri arasındakı münasibətlər, şagirdlərin nailiyyətləri ilə valideynlərin məlumatlandırılmaslı*

***Ключевые слова:*** *школы управления уровень, преподаватель по предмету отношения между классный руководитель, информирование родителей с достижениями учащихся,*

***Key words:*** *School management level, subject teachers of relations between the head of the class, development of students' speech, with the achievements of students awareness of parents,*

Müəllim-şagird münasibətlərinin öyrənilməsi və bu istiqamətdə müxtəlif yanaşmaların irəli sürülməsi məsələləri çox mürəkkəb bir təbiətə malikdir. Çünki insan özü çox təzadlı bir varlıqdır. Doğulduğu andan etibarən, dünyanı qavramağa çalışan insan həyatı boyu bir çox mərhələlərdən keçmək məcburiyyətində qalır. Bu günün şagirdi sabahın müəlliminə çevrilə də bilir. Həyat təcrübəsi, dünyagörüşü, hadisələrə münasibət ifadəetmə nöqteyi-nəzərindən müəllimlə şagird arasında çoxlu fərqli baxışların olması normal hal kimi qiymətləndirilməlidir. Lakin elə etmək lazımdır ki, bu fərqliliklər təlim prosesinin gözlənilən səviyyədə həyata keçirilməsinə öz təsirini göstərə bilməsin.

Təbii ki, dərs-təlim prosesinin faydalı və nəticələrə əsaslanan şəkildə təşkilində əsas obraz müəllimdir. Müəllim bir mütəxəssis kimi bu prosesin uğurlu alınması üçün əsas yükü daşıyır. Müəllimlə şagird arasında olan ünsiyyət təkcə təlim prosesindəki qarşılaşma ilə bitmir. Dərsdənkənar zamanlarda da bu tərəflərin bir-birinə qarşı hansı münasibətdə olması daha aydın üzə çıxmış olur. "Sevimli müəllim obrazı" amili bu məsələdə mühüm əhəmiyyət kəsb edir.

Bir zamanlar görkəmli rus mütəfəkkirləri L.S. Vıqotski, B.F. Lomov, A.M. Matyuşkin və başqaları yazırdılar ki, məktəbdə şagirdlərin yaxşı xüsusiyyətlərinin ortaya çıxması üçün onlarda ünsiyyət kompleksini aradan qaldırmaq vacib amillərdən biridir. Ünsiyyətin geniş çevrəni əhatə etməsi bu günün şagirdi, sabahın isə müstəqil şəxsiyyətinə çevriləcək insanın normal inkişafını təmin edir. Bu mənada, müəllimlərlə şagirdlərin münasibətlərinin iki istiqamətdə müşahidəsi və təhlilinin aparılmasını məqsədəuyğun hesab etmək olar:

a. Dərs-təlim prosesindəki münasibətlər
b. Dərsdənkənar zamanlarda münasibətlər

Yuxarıda verilən aspektlər bütövlükdə təhsilverənlə təhsilalanın qarşılıqlı ünsiyyətini ifadə etmiş olur. Bu münasibətlərin qənaətbəxş səviyyədə təşəkkül tapması üçün bir çox təsirlərin, faktların rolu danılmazdır. Məktəb mühiti, müəllimin şəxsi keyfiyyətləri kimi faktorlarla yanaşı, digər amillərin də bu məsələdə xüsusi rolu hiss olunur.

Müəllimlə şagirdin münasibətlərini tənzimləyən əsas vasitələrdən biri də sinif rəhbərinin fəaliyyəti ilə bağlıdır. Müəllim və şagird münasibətlərində həmin şəxsin fəaliyyətinin əvəzsiz rolu vardır. Sinif rəhbərinin şagirdlərə dərs-təlim prosesində yanaşma üsulları, onlarla münasibətlərini hansı səviyyədə qurması, təsadüfi deyildir ki, öyrədənlə öyrənənin qarşılıqlı əlaqələrinə öz təsirini göstərir.

Təcrübə göstərir ki, sinif rəhbərlərinin bir qismi şagirdlərə özlərini sevdirmək üçün bütün potensial imkanlarından istifadə edirlər. Onların öz fəaliyyətlərini belə ifadə etmələrinin müsbət nəticələri nəzərə çarpacaq dərəcədə çox olur. Lakin bu cür fəaliyyət üsulunun seçilməsi çox zaman yanlışlığa gətirib çıxarır. Belə ki, prosesin belə bir məzmunda qurulması, nəinki, sinif rəhbərlərinin

özlərinin, eyni zamanda təhsil prosesinin digər iştirakçılarının da iş keyfiyyətinə təsirsiz ötüşmür. Belə halları daha çox qadın sinif rəhbərlərinin işlərində müşahidə etmək olur. Müşahidələrdən irəli gələrək (M.P. Şulç qeyd edir ki, təlim-tədris prosesində müəllim-şagird münasibətlərində yaranan konfliktlərin əsas səbəbi baş verənlərə qarşı birtərəfli mövqe tutmaq, gərgin vəziyyətlərin aradan qaldırılmasında şagirdlərin hüquqlarını nəzərə almamaq, şagirdlərin fərdi fəaliyyət qabiliyyətlərini məhdudlaşdırmaq və bununla da, şagirdlərin tədris prosesindəki rolunu minimuma endirməkdir.) təhsil mühitində bu tipdən olan sinif rəhbərlərində rast gəlinən neqativ (fərdi üsul və vasitələri) keyfiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Sinifdəki şagirdlərin sevgisini qazanmaq məqsədilə onları hər zaman (istənilən halda) tərifləmək (yerli-yersiz);
2. Şagirdlə münasibətinin pozulmaması naminə onun real təhsil nailiyyətləri barədə valideyni dəqiq, səhih və konkret məlumatla təmin etməmək;
3. Fənn müəllimi (müəllimləri) ilə özünün şəxsi münasibətləri zəminində yaşanan gərginliyi şagirdin üzərinə köçürməklə, onun (uşağın) həmin müəllimə qarşı münasibətində dəyişikliyin baş verməsinə səbəb olmaq;
4. Sinif şagirdlərinin hamısına eyni gözlə baxmamaq;
5. Təhsil mühitində şagirdləri onların valideynlərinin ictimai mənşəyi, sosial mövqeyi və maddi durumu baxımından fərqləndirmək;
6. Valideynlər arasında əks təbliğat aparmaqla, onları məqsədli şəkildə fənn müəllimlərinə qarşı qaldırmaq;

Sinifdəki şagirdlərin sevgisini tez bir zamanda qazanmaq arzusu sinif rəhbərlərinin fəaliyyətində diqqəti çəkən əsas istiqamətlərdən biridir. Amma bu nəticəyə gəlmək üçün sinif rəhbəri öz işinə peşəkarcasına yanaşmalı, əzmlə çalışmalı, çox diqqətli və təmkinli olmalıdır. Təəssüf ki, iş mexanizminin bu cür qurulması çətinlik törətdiyindən sinif rəhbərləri, bəzən, asan yollar axtarırlar. Tərif söyləmək belə yanaşmalardan biri kimi uşaqları arxayınlaşdırır və tənbəlləşdirir. Böyük şairimiz Məmməd Arazın misraları ilə desək:

Tərif də şirin bir yuxuya bənzər,
Uyudar qələmi iş üstündə də.
İstedad elə bir toxuma bənzər,
Göyərər quru bir daş üstündə də.

Sinif rəhbərinin funksiyalarından biri də valideynləri mütəmadi olaraq övladlarının təhsildəki nailiyyətləri ilə tanış etməkdir. Təlim nəticələri aşağı olan şagirdlər bu informasiyanın onlar üçün problem yaradacağından çox zaman qorxurlar. Sinif rəhbəri bəzən bu vəziyyətdə öz "xeyirxah əməl"indən yararlanmaqdan çəkinmir. Amma hər iki tərəf anlamalıdır ki, bu "gediş" çox zərərlidir. Həmin münasibətin kökündə yalan dayandığından sonda ifşa olunmaqla nəticələnməlidir. Reallıq isə münasibətlərin düzgün qurulmaması səbəbindən "şagirdin itirilməsi" kimi acı bir faktı ortaya qoymuş olur. Burada təkcə uşağın tədrisdəki yaranan çatışmazlığı deyil, onun mənəvi dünyasının "zəhərlənməsi" amili öndə dayanır. Uşaq yalana öyrəşir və həyatda lazım gələrsə, ondan bir çıxış yolu kimi istifadə edilməsini gələcəkdə normal hesab edir. Yaranmış vəziyyət, digər tərəfdən, vaideynin müəllimə, məktəbə olan inamını qırmış olur. Qarşılıqlı inamın təzahürü təhsil prosesində müəllim-şagird-valideyn münasibətlərinin tənzimləyən ən əsas amillərdən biridir. Hər bir tərəf çalışmalıdır ki, bu məsələyə həssas yanaşılsın. Çünki idarəçilikdə ünsiyyət əsas rol oynadığı kimi, inam səviyyəsi də böyük əhəmiyyət daşıyır.

Sinif rəhbəri təlim-tərbiyə prosesi üzrə təşkilatçılıq məsələlərinin həllini həyata keçirməklə bərabər, kommunikativ işdə də çox fəal olmalıdır. Belə demək olar ki, kommunikativ fəaliyyətlərin düzgün tənzimlənməsi və bu istiqamətdə yaranmış problemlərin zamanında həll edilməsi sinif rəhbərinin öz səlahiyyətləri çərçivəsində yüksək həssaslıq nümayiş etdirməsindən çox asılıdır. Lakin bəzən məktəbdə bu vəzifə sahibi öz xarakterinin spesifik xüsusiyyətlərindən çıxış edərək özü ilə fənn müəllimi arasında müəyyən ziddiyyət yaratmış olur. Bu cür konfliktlər, əsasən, sinif rəhbərinin idarəçilik üslubunda müəyyən çatışmazlıqların olması səbəbindən baş verir. Burada incə

məqamlardan biri də sinif rəhbərinin xarakterində özünü göstərən sərtlik, özünə tabeetdirmə istəyi, xudbinlik kimi keyfiyyətlərin təsirinin açıq şəkildə hiss olunmasıdır. Bu tip situasiyalar həll olunmadıqca getdikcə tərəflər arasında münaqişənin yaranmasına gətirib çıxarır və ümumi işin nəticəsinə mənfi təsir göstərir. Belə ki, təhsil mühitində uşaq daha çox sinif rəhbəri ilə birlikdə olduğundan ona çox bağlı olur. Nəticədə şagirdin bir tərəfə (sinif rəhbərinə) çox bağlılığı gələcəkdə müəyyən problemlərə yol aça bilir. Problem böyüdükcə onun mənfi təsirlərinin təzahürləri də çoxalır. Tərəflər bütün qeyd olunan fəsadların qarşısını almaq üçün ziddiyyətin ortaya çıxdığı ilk anlardan etibarən, səy göstərməli, xarakterdən gələn iddialardan əl çəkməlidirlər. Əks halda, bu tipli məsələlərə məktəb rəhbərliyinin müdaxiləsi şərtdir. Əsas məqsəd şagirdlərin dünyasını bu cür təsirlərdən qorumaq olmalıdır.

Məktəb mühitində rast gəlinən hallardan biri də sinif rəhbərinin uşaqlar arasında fərq qoymasıdır. Bu zərərli halın yaranması bir neçə səbəbdən baş verə bilir:

1.Uşağın valideyni ilə sinif rəhbəri arasındakı münasibətlərin gərgin olması;

2.Şagirdin məktəbdə özünü həddindən artıq ərköyün, nadinc aparması və bu hərəkətləri ilə ətrafdakıları bezdirməsi;

3.Şagirdin tədrisdəki nailiyyətlərinə görə digərlərindən aşağı səviyyədə olması;

Yuxarıda səbəb kimi sadalanan məqamların sayını artırmaq da olar. Əsas prinsip hər hansı bu və ya digər səbəbin baş verməsindən asılı olmayaraq məktəb həyatında şagirdlərin bir-birilərindən fərqləndirilməsinə yol verməməkdir. Bunun üçün əsas məsuliyyət sinif rəhbərinin üzərinə düşsə də, təhsil prosesində iştirak edən bütün insanlar bu məsələdə çox diqqətli olmalıdırlar. Çünki ən böyük zərbə burada şagirdə ünvanlanmış olur.

Şagirdlərin onların valideynlərinin cəmiyyətdə tutduğu mövqeyə görə və maddi durumu baxımından fərqləndirilməsi, bunun açıq formada hiss etdirilməsi reallığı bütün dövrlər üçün aktual olaraq qalıb. Bu yanaşma şagirdlərlə ünsiyyət prosesində, pedaqoqların onlara yanaşmasında, uşaqların qarşılıqlı münasibətlərində nəzərə çarpır. Əsas təsir vasitəsi burada sinif rəhbəri və müəllim komandasıdır. Təmənnanın güdülməsi və ya digər səbəblərdən təhsil müəssisəsində bu cür neqativ hallar baş qaldırırsa, deməli, həmin məktəbdə idarəçilik düzgün qurulmamışdır. Nəticədə, şagirdlərin bir qisminin məktəb mühitində sıxılması, ünsiyyət probleminin yaranması üçün münbit şərait formalaşır. Pedaqoji prosesin təşkilatçılığı ilə məşğul olan təhsil işçilərinin ən əsas vəzifələrindən biri də (istər təlim, istərsə də dərsdənkənar zamanlarda) şagirdlər arasında bərabərhüquqluluğun qorunub saxlanılmasını təmin etməkdir. Əks halda, bu cür yanaşma uşaqların psixoloji travma almasına yol açan vasitələrdən biri kimi çıxış edə bilər. Bu məsələdə sinif rəhbərinin nə qədər böyük cavabdehlik daşıdığını başa düşmək çətin deyildir.

Orta məktəblərdə təlimin keyfiyyətinə müsbət təsir göstərən, şagirdlərin nailiyyətlərinin yüksək olmasına zəmin yaradan əsas faktor məhz təhsil üçbucağının təşəkkül tapmasıdır. Təhsil üçbucağı dedikdə, müəllim-şagird-valideyn münasibətlərinin işgüzar və səmərəli formada məktəb mühitində öz əksini tapmasıdır. Həmin münasibətlərin geniş və məqsədyönlü şəkildə inkişafı, ümumilikdə, məktəbin valideynlərlə daima sıx əlaqədə olmasının göstəricisidir. Valideyn şuraları, valideyn komitələri də bu missiyanı həyata keçirən məktəbdaxili qurumlar kimi təhsil müəssisəsinin fəaliyyətinə öz töhfələrini verirlər. Lakin etiraf etmək lazımdır ki, bir çox məktəblərdə hələ də müəllim-şagird-valideyn münasibətləri qənaətbəxş səviyyədə deyildir. Bu problemin səbəblərini, əsasən, məktəbin idarəçilik sistemində əsas yer tutan müəllim-şagird-valideyn münasibətlərində nəzərə çarpan boşluqlarla əlaqələndirmək olar. Sinif rəhbərinin valideynlərlə münasibətlərində üzə çıxan boşluqlar məhz sözügedən əlaqələrin mütəşəkkil qurulmasına mənfi təsir göstərən amil kimi özünü göstərir.

Bəzən sinfi idarə edən şəxs (pedaqoji prosesin iştirakçısı) valideynlər arasında əks təbliğat aparmaqla, onları məqsədli şəkildə fənn müəllimlərinə qarşı qaldırmaq niyyətində də ola bilir. Burada da yenə əsas səbəb amili kimi şəxsi konfliktlər, xarakter uyğunsuzluğu və müəyyən məqsədin həyata keçirilməsi niyyəti durur. Bu təbliğat, əsasən, iki istiqamətdə gedir:

1.Fənn müəllimi barədə şagirddə mənfi rəy yaradaraq sonradan onun vasitəsilə valideynə ötürülməsi;

2.Valideynlə birbaşa ünsiyyət zamanı hər hansı fənn müəlliminin mənfi obrazının yaradılması.

Hər iki halda, bu məsələnin kökündə konkret tərəflərdən birinin (sinif rəhbərinin) zərərli məqsədi dayanmış olur. Sinif rəhbəri və məktəb idarəçiliyində iştirak edən digər pedaqoji proses iştirakçılarının fəaliyyətlərində belə yanaşmaların nümayiş etdirilməsi, təlim-tədris prosesinin gedişinə, şagirdlərin nailiyyətlərinə, eyni zamanda uşaqların psixologiyasına da çox ağır təsir göstərir. Digər tərəfdən, təhsil sferasındakı münasibətlərdə rast gəlinən bu kimi neqativ hadisələr fənn müəllimlərinin psixologiyasında da bir sıra fəsadlar törədir, onlarda kinli xarakterin formalaşmasına zəmin yaratmış olur.

Buradan görmək olur ki, məktəbin kollektivinin hər hansı bir üzvünün fəaliyyətində yol verilən nöqsanlar ümumi idarəçilikdə böyük çətinliklər yaratmaqla yanaşı, eyni zamanda ümumi işin keyfiyyətinə də əsaslı təsir göstərir. Hesab edirəm ki, hər bir şəxs yaxşı mütəxəssis olmaqla bərabər, kamil insan kimi də formalaşmalıdır.

Özünü islah etmək yuxarıda qeyd olunmuş fəsadlardan qurtulmaq üçün ən faydalı çıxış yoludur. Tutduğu vəzifədən və cəmiyyətdəki mövqeyindən asılı olmayaraq hər bir insan həyatı boyu özünü islah etməyə ehtiyac duymalı və buna həmişə hazır olmalıdır. Bu həqiqəti hamı dərk edərək qəbul edərsə, o zaman insanların daxilində də bir rahatlıq yaranmış olar. *Kamillik təkamüldən keçir.*

**Problemin aktuallığı:** Çağdaş dövrdə orta məktəblərdə sinif rəhbərinin fəaliyyətinin fasiləsiz izlənilməsi mexanizminin formalaşması

**Problemin elmi yeniliyi:** Orta məktəblərdə təhsilin idarə edilməsində inzibati komandanın fəaliyyətinin təhlilində sinif rəhbərinin fəaliyyət mexanizminə hərtərəfli yanaşmanın təmin edilməsi

**Problemin praktik əhəmiyyəti**. Hazırkı dövrdə məktəblərin bir çoxunda sinif rəhbərinin funksiyalarının yerinə yetirilməsində qabarıq nəzərə çarpan çatışmazlıqların aradan qaldırılması təhsil prosesinin rahat, inamlı, ədalətli təşkil olunmasını təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1.R.Əliyev. Psixologiya. Bakı: Nurlan, 2008.

2.Bayramov H.B., Kəlbəliyev Ə.A. Təhsili idarəetmənin əsasları. Bakı, 1998.

3.Əhmədov N.H. Məktəb işinin planlaşdırılması. Bakı, 1984.

4.Əhmədov N.H., Əhmədova İ.N. Məktəbin idarə edilməsinin nəzəri və praktik məsələləri. Bakı, 1997.

5.Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.

6.Cabbarov R.H. Təhsil müəssisələrində təlim-tərbiyə işlərinin planlaşdırılması sistemi, Bakı, 1996.

7.Məmmədzadə R.H., İdarəetmə mədəniyyəti. Bakı, 1999.

8.Məktəbə rəhbərliyin demokratik əsaslarla təşkili, Bakı, 1990.

**Г. Мирзаев**

## РОЛЬ ПСИХОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЕЙ КЛАССНОГО РУКОВОДИТЕЛЯ В ОТНОШЕНИЯХ УЧИТЕЛЬ-УЧЕНИК

## РЕЗЮМЕ

В управлении школой роль классного руководителя имеет особо важное значение. Классный руководитель, кроме создания налаживания отношений, должен создать информационную систему и механизм общения, дружелюбную атмосферу и связь между учителями и учащихся.

Формирование механизма такой работы классного руководителя даёт толчок в продвижении к обучению, стимулирует к учебному процессу, создаёт формы общения с учителями. Основная деятельность классного руководителя должна поддерживаться и анализироваться руководством школы.

**H. Mirzayev**

## TEACHER-STUDENT RELATIONSHIP CLASS OF THE ROLE OF PSYCHOLOGICAL CHARACTERISTICS

### SUMMARY

The head of the class action are of particular importance in the management of the school. These individuals are required to create an environment of mutual communication and establishing a system administrator and information transmission mechanisms work properly and as in desirable. The head of the class, students should be able to establish the necessary communication with parents and teachers, subject only to the caring, attentive and.

Class so that students in education and formation as individuals to obtain advances of its activities attaches great support. School always be tracked and analyzed the activity of the head of the main administration as one the branches of the class should.

*Redaksiyaya daxil olub: 07.10.2014*

# METODİKA: FƏNLƏRİN TƏDRİSİ

## İBTİDAİ SİNİFLƏRDƏ İNGİLİS DİLİNİN TƏLİMİNƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

**Ülviyyə Mehdiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
ARTPİ
E-mail: ulviyye-87@yahoo.com

**Rəyçilər:** *prof.* D. İsmayılova,
*dos.*V.Qənbərov

***Açar sözlər:*** *ibtidai siniflər, şagirdlər, metodlar, üsullar, təlimin təşkili formaları*
***Ключевые слова:*** *начальные классы, учащиеся, методы, приёмы, формы организации обучения*
***Keywords:*** *elementary school, students, methods, techniques, forms of learning organization*

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyillərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi xarici dillər sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha da zəruri etmişdir. Bu amil xarici dillərin tədrisinin təkmilləşdirilməsini, beynəlxalq təcrübədə uğurla istifadə olunan metodikaların ölkəmizdə də tətbiqini xeyli aktuallaşdırmışdır.

Məlumdur ki, sovet dövründəki təlim ənənəsinə uyğun olaraq müstəqillik illərində də xarici dillərin tədrisi şagirdlərdə nitq bacarıqlarının formalaşdırılmasından daha çox qrammatik qaydaların mənimsədilməsinə xidmət edirdi. Odur ki, şagirdlər xarici dili məktəbdə yox, daha çox həmin dillərin daşıyıcıları olan insanlarla ünsiyyətdə öyrənirdilər. Bu cür faktların müəllimlərin həm ilkin, həm də yenidən hazırlanmasında nəzərə alınması dövrün tələbidir.

Müasir dövrün tələblərinə uyğun olaraq təlim metodlarının, üsullarının, formalarının seçimi zamanı aşağıdakı meyarların nəzərə alınması zəruridir:

- şagirdin özünü rahat və sərbəst hiss etdiyi atmosferin yaradılması, onun maraqlarınının stimullaşdırılması;
- şagirdlərin şəxsiyyətinə hörmət edərək onların emosiyalarının, hisslərinin təlim prosesinə cəlb edilməsi və yaradıcı qabiliyyətlərinin stimullaşdırılması;
- məktəblinin fəallaşdırılması, onu təlim prosesinin fəaliyyət göstərən əsas siması hesab edilməsi;
- təlim prosesində müəllimin yalnız istiqamətverici kimi çıxış etməsi;
- fiziki, intellektual və emosional imkanları səviyyəsində ibtidai sinif şagirdlərinin ingilis dili üzrə müstəqil işləməsini, daha doğrusu, təlim prosesində diferensiasiya və fərdiləşdirmənin təmin edilməsi;
- sinifdə müxtəlif iş formalarının tətbiq edilməsi: fərdi, qruplarla, müstəqil iş, şagirdlərin yaradıcılığını inkişaf etdirən işlər və s.

İbtidai siniflərdə layihə işi daha çox maraq kəsb edir. Layihə texnologiyası müxtəlif fənn sahələrində, o cümlədən xarici dilin və həmin dil daşıyıcılarının mədəniyyətinin öyrənilməsində, əməkdaşlıqda təlimi reallaşdıran şəxsiyyətyönümlü texnologiya kimi geniş vüsət almışdır.

Layihə texnologiyasının şagird və xarici dil müəllimləri arasında populyarlıq qazanması və perspektivliyi onunla izah olunur ki, layihədəki tapşırıq müəyyən biliklərin mənimsənilməsi prosesini, onların real istifadəsini əlaqələndirir.

Layihə işinin kompleks və inteqrativ xarakteri şagirdlərə müxtəlif mənbələrdən istifadə edərək öz biliklərini toplayıb dünyanın vahid təsvirini yaratmağa imkan verir. Bu o deməkdir ki,

təlim prosesində alınan biliklər, vərdiş və bacarıqlar pərakəndə və lazımsız qalmır. Onlar şagirdlər tərəfindən üzvi surətdə mənimsənilir.

Bu zaman şəxsiyyətyönümlü təhsilin məhsulu kimi layihənin yaranmasına olan meyil fənn biliklərinin mənimsənilməsi prosesini daha da asanlaşdırır və motivasiya təmin olunur.

Layihə texnologiyası idraki fəallığı aktuallaşdırır və fəaliyyətin subyekti kimi şagirdi aktivləşdirir, onun şəxsi potensialını reallaşdırır. Bu, şagirdin kreativliyinin inkişafı üçün şərait yaradır, sözün əsl mənasında təlim fəaliyyətinin məhsuldar xarakterini və təlim prosesinin nəticəyönümlü olmasını təmin edir. Layihə texnologiyası təlim prosesində şagirdlərin bir-birinə qarşılıqlı təsiri, qarşılıqlı təlim ideyası üzərində qurulur. Belə ki, onlar təlim vəzifələrinin həlli üçün öz üzərinə yalnız fərdi deyil, kollektiv məsuliyyəti də götürərək bir – birinə kömək edir, hər birinin müvəffəqiyyəti üçün cavabdeh olur. Əməkdaşlıq şəraitində təlimin əsas ideyası sadəcə olaraq nəyi isə həll etmək deyil, birlikdə öyrənməkdir. Belə şəraitdə zəif şagirdlər də fəallaşır və onlarda özünə inam yaranır.

Layihə texnologiyasının tətbiqi prosesində təlim fəaliyyəti subyektinin fəallaşması – sosiallaşmaya, sinifdə qarşılıqlı təsir qabiliyyətlərinin inkişafına, yalnız şəxsi maraqlarına görə deyil, kollektivə görə də məsuliyyəti öz üzərinə götürməsi kimi zəruri keyfiyyətlərin formalaşmasına müsbət təsir göstərir. Bu, şəxsiyyətin sosiallaşması , işgüzar fəallığın inkişafı üçün şərait yaradır.

Layihə texnologiyası təlim prosesində, həmçinin xarici dilin tədrisində sosial qarşılıqlı təsir modelinə əsaslanan texnologiyalardan biridir. Mahiyyətinə görə layihə texnologiyası təlim prosesində qarşılıqlı təsirdir. Bu prosesdə şagirdlər müxtəlif sosial rolları qəbul edir, yerinə yetirirlər (təşkilatçı, lider, icraçı və s.) və bu problemlərin həllinə real situasiyalarda nail olurlar.

Layihə metodunun əsasını şagirdlərin idrak vərdişlərinin inkişafı, bacarıqları, biliklərini müstəqil tətbiq etməsi, tənqidi və məntiqi təfəkkürünün inkişafı təşkil edir.

Layihə metodunun istifadə edilməsi üçün aşağıdakı ümumdidaktik tələblər irəli sürülür:

1. Problemin həllinin axtarışını tələb edən inteqrativ biliklərdən yaradıcı istifadə.
2. Gözlənilən nəticələrin praktik, nəzəri və idraki əhəmiyyətliliyi.
3. Şagirdlərin müstəqil (fərdi, cütlərlə, qruplarla) fəaliyyəti.
4. Layihənin məzmun hissəsinin qurulması (mərhələli nəticələr göstərilməklə).
5. Tədqiqatçılıq metodlarının istifadə edilməsi: problemin müəyyən olunması, onun vəzifələri, fərziyyənin irəli sürülməsi və onun həlli, tədqiqat metodlarının müzakirəsi, son nəticələrin formalaşdırılması və alınmış dəlillərin təhlili, yekun qərarların çıxarılması, nəticələr.

Xarici dilin öyrənilməsi prosesində layihə metodu təlim fəaliyyətinin kompleks növüdür. O, müəyyən konstruktiv – praktik, informasiya, tədqiqatçılıq, ssenari, başqa problem və yaradıcı vəzifələrin həlli məqsədi ilə xarici dil ünsiyyətinin müxtəlif növlərini inteqrasiya edir. Bu vəzifələr şagirdlər tərəfindən müxtəlif növ konstruktiv yaradıcı biliklərin yaranmasına yönəlir.

Layihə işi şagirdin xarici dili istifadə etməsi üçün real situasiya yaradır, onun öz şəxsi fəaliyyətində xarici dili öyrənməsinin məqsəd və imkanlarını dərk etməsinə təsir göstərir və bu prosesin onun yaradıcı fəaliyyətinə daxil edilməsinə imkan yaradır.

Layihə fəaliyyətinin son nəticələrinin xarakterinə görə ibtidai siniflərdə ingilis dilinin öyrənilməsi sahəsində layihələrin aşağıdakı növlərini göstərmək olar:

1. Konstruktiv – praktik layihələr: (kollaj, müşahidə gündəliyi, oyun və onun təsviri).
2. Rollu oyunlar layihəsi (oyunların keçirilməsi, kiçik hekayə və ya pyeslərin səhnələşdirilməsi).
3. İnformasiya və ya tədqiqatçılıq layihələri.
4. Konkret sosioloji yoxlama layihələri.
5. Nəşriyyat layihələri (divar qəzetinə materiallar hazırlamaq və s.)
6. Ssenari layihələri.
7. Yaradıcı işlər.

Layihələrin bu növləri fənlərarası xarakter daşıya bilər. Layihə texnologiyalarının istifadəsi aşağıdakı müddəalara əsaslanır:

- layihə fəaliyyətinin şagirdlərə təlim – tədqiqatçılıq subyekti kimi tam yönəldilməsi;
- qarşılıqlı təsir, əməkdaşlıq, qarşılıqlı kömək, qarşılıqlı məsuliyyət, müəllimin rolu dəyişir və o, kollektivin üzvlərindən biri olur.

Layihələr üzrə iş bir neçə mərhələdə həyata keçirilir. Bu mərhələlər aşağıdakılardır:

1. Mövzunun seçimi və layihənin problemi.
2. Layihə planının işlənilməsi.
3. Layihə çərçivəsində tapşırıqların yerinə yetirilməsinin müddətinin müəyyən olunması.
4. Layihənin formalaşdırılması.
5. Layihənin müdafiəsi.
6. Layihənin qiymətləndirilməsi.

Konkret layihənin yerinə yetirilməsinin gedişini izləyək:

1. "Trees of my country" mövzusunun seçimi.
2. Layihənin yerinə yetirilmə planının işlənilməsi.
3. Konkret tapşırıqların yerinə yetirilməsi:

- mövzu üzrə sözlərin seçimi: birch, elm, willow, maple, poplar, lime, aspen, pine;
- bu mərhələdə iş artıq fənn çərçivəsindən kənara çıxır və biologiya fənni ilə inteqrasiya gedir;
- adı çəkilən ağacların şəkilləri seçilir;
- ingilis dilində hər bir ağacın haqqında qısa məlumat verilir.

Şagirdin vəzifəsi dərs prosesində alınmış biliklərdən istifadə edərək cümlələri düzgün tərcümə etməkdir. Müəllim və digər şagirdlər isə buna nəzarət edir.

İngilis dilinin öyrədilməsi prosesində əsas şərtlərdən biri müəyyən nəticələrin əldə edilməsi üçün problem - axtarış, tədqiqatçılıq metodlarından istifadə olunmasıdır. Bu nəticələrin xarakteri layihə işinin tipini müəyyənləşdirir.

Beləliklə, layihə işinin köməyi ilə şagirdlərdə ingilis dilini öyrənməyə maraq yaranır, onların yaradıcı təfəkkürü inkişaf edir, müstəqil işləmək qabiliyyəti artır ki, bu da kommunikativ nitq bacarığının formalaşmasını təmin edir.

**Problemin aktuallığı** ondan ibarətdir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyillərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi xarici dillər sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha da zəruri etmişdir.

**Problemin yeniliyi** ondan ibarətdir ki, ibtidai siniflərdə şagirdlərə müasir təlim texnologiyalarından istifadə etməklə ingilis dili fənninin tədrisinin səmərəli yolları göstərilmiş və elmi cəhətdən əsaslandırılmışdır.

**Problemin praktik dəyəri** şagirdlərin kommunikativ nitq bacarığının və kompetensiyalarının formalaşmasının təmin edilməsi ilə izah olunur.

## ƏDƏBİYYAT

1. Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar // Azərbaycan məktəbi, 2013.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz.,, 2013, 25 oktyabr
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
4. Brown H. Douglas. Teaching by principles and interactive approach to language pedagogy/ H. Douglas Brown – 2 nd ed., 2001.

**У. Мехтиева**

**О ТРЕБОВАНИЯХ, ПРЕДЪЯВЛЯЕМЫХ К ОБУЧЕНИЮ АНГЛИЙСКОМУ ЯЗЫКУ В НАЧАЛЬНЫХ КЛАССАХ**

**РЕЗЮМЕ**

В статье раскрываются сущность и требования, предъявляемые к обучению английскому языку в начальных классах. Указываются основные критерии подбора методов, приёмов и форм организации обучения. Основное внимание уделяется технологии проектирования, которая носит интегративный характер, создаёт условия для креативного развития учащихся и обеспечивает плодотворный характер и результативность учебного процесса. В статье говорится также о требованиях применения на уроках английского языка технологии проектирования.

**U. Mehdiyeva**

**ABOUT REQUIREMENTS PRESENTED FOR TEACHING OF ENGLISH IN PRIMARY SCHOOL**

**SUMMARY**

The article describes the nature and requirements presented for teaching English in primary school. It identifies the main criteria for selecting methods, techniques and forms of learning organization. Main attention is paid on project technology, which is integrative in nature, creates conditions for the creative development of students and provides productive character and effectiveness of learning process. The article also deals with application requirements of project technology at English lessons.

*Redaksiyaya daxil olub: 16.10.2014*

# PUNKTUASİYA QAYDALARI VƏ ONLARIN TƏTBİQİ TARİXİNƏ DAİR

**Aygün Mikayılova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
ARTPİ
E-mail: aygunmikayilova@gmail.com

**Rəyçilər:** *dos.* A.Hacıyev,
*dos.* S. Abbasova

***Acar sözlər:*** punktasiya qaydaları, durğu işarələri, ayırıcı durğu işarələri, fərqləndirici durğu işarələri, nitq mədəniyyəti, kommunikativ funksiya

***Ключевые слова:*** правила пунктуации, знаки препинания, делительные знаки препинания, отличительные знаки препинания, ораторское искусство, коммуникативная функция

***Key words:*** punctuation rules, punctuation, dividing punctuation, distinctive punctuation, oratory, communicative function

Durğu işarələrinin şifahi nitqdə, nitq mədəniyyətində müstəsna rolu vardır. A. P. Çexov demişdir: "Durğu işarələri yazılı nitqin notlarıdır" (1, 123 ). "Durğu işarələrini səciyyələndirsək, belə bir ümumiləşdirici fikirlə onu təqdim edərdik ki, durğu işarələri yazılı nitqin formalaşmasında mühüm bir vasitədir və kommunikativ funksiyaya malikdir. Həmçinin yazılı dilin məzmun dolğunluğunun yaranmasında, fikrin dəqiq və emosional təsir gücünün üzə çıxmasında, aydın, ifadəli tələffüzündə durğu işarələrinin rolu böyükdür" (2).

Müasir Azərbaycan dilində "Durğu işarəsi yazılı nitqin daha yaxşı başa düşülməsinə xidmət edir. Şifahi nitqdə səlislik, aydınlıq və sairə, əsasən, pauza, intonasiya və vurğu ilə ifadə edilir" (3, 3).

Deməli, durğu işarələri nitqin sintaktik bölünməsinə, cümlələrin sərhədini müəyyən etməyə, intonasiya və məna çalarlığını əks etdirməyə kömək məqsədi ilə işlədilən işarələrdir.

Görkəmli Azərbaycan dilçisi Q. Kazımovun fikrincə, punktuasiyanın əsaslarının izahında 3 meyl, 3 istiqamət vardır: bəziləri mənaya, bəziləri sintaktik quruluşa, bəziləri intonasiyaya əsaslanan 3 meyl və istiqamət(4). Alim yazır, "Əksərən 3 cəhət birgə fəaliyyət göstərsə də, bəzən bunlardan biri digərinə nisbətən üstün mövqeyi ilə diqqəti cəlb edir. Bir sıra hallarda durğu işarələrinin işlədilməsinin intonasiya ilə heç bir əlaqəsi olmur; məsələn, vasitəsiz nitqin dırnaqda verilməsi, sitatlarda ixtisarların 3 nöqtə ilə göstərilməsi, müxtəlif emosiyaları çatdırmaq üçün mötərizə içərisində sual işarəsi, nida işarəsi qoyulması və s. intonasiya ilə əlaqəsi yoxdur və ya çox zəifdir" (4).

Durğu işarələri 2 yerə bölünür: ayrıcı və fərqləndirici. Ayırıcı durğu işarələrinin əsas funksiyası cümlələri, cümlənin həmcins üzvlərini, mürəkkəb cümlənin komponentlərini və s. ayırmaqdır. Bu qrupa nöqtə, sual və nida işarələri, qoşa nöqtə, nöqtəli vergül, çox nöqtə daxildir. Fərqləndirici durğu işarələri cütüzvlüdür, vasitəsiz nitqi, sitatları, ara cümlə və əlavə konstruksiyaları fərqləndirmək üçün işlədilən iki vergül, iki tire, mötərizələr və dırnaqlardan ibarətdir.

Q. Kazımovun fikrincə, durğu işarələri mətnin düzgün anlaşılmasına kömək etməklə mühüm kommunikativ funksiya daşıyır" (5, 486). A. Qurbanov isə durğu işarələrinin imla və əlifba ilə bağlı olduğunu, fikrin tez və asan qavranılmasına: yazıda dəqiqliyə və sintaktik hədd təyininə , oxuda ifadə dürüstlüyünə, tələffüzdə mənalı fasiləyə, ton və sürət ölçüsünü gözləməyə kömək etdiyini söyləyir" (6,180).

Durğu işarələrinin nitq mədəniyyətində nə qədər vacib və müstəsna rolu olduğundan danışarkən, durğu işarələrinin nə vaxt yaranması, onlardan ilk dəfə nə şəkildə istifadə olunması kimi suallara da cavab tapmağa çalışdıq. Bu məqsədlə durğu işarələrinin rus, türk, Azərbaycan dillərində işlənmə tarixinə nəzər yetirəcəyik.

İlk öncə punktuasiya qaydaları nə vaxtdan tətbiq olunmağa başlamışdır? Dünya xalqlarından ilk dəfə kimlər bu qaydalardan istifadə etmişdir? Bu suallar ətrafında mülahizələrimizi ümumiləşdirək . Qədimdə yazı bitişik yazılırdı. Yazıda sözləri ayırmaq tələbi meydana çıxdıqdan sonra bəzi xalqlar sözləri şaquli xətlər qoymaqla ayırdılar. Bəziləri isə xüsusi işarələrdən istifadə etdilər. Qədim şumerlər əyri bir cizgi ilə sözləri bir-birindən ayırdılar (7).

Durğu işarələrinin tarixi fonoqrafik yazının meydana gəlməsindən başlanır. İlk dəfə Finikiyada, Yunanıstanda durğu işarələrindən istifadə edilməyə başlamışdır. Ən qədim durğu işarəsi nöqtə sayılır. A. Qurbanov göstərir ki, nöqtənin ilk vəzifəsi finikiya, yunan və latın yazılarında sözlərin sərhəddini müəyyən etmək olmuşdur (6, 280). Qədim dövrlərdə nöqtə işarəsi böyük və kiçik fasiləni bildirmək üçün tətbiq olunmuşdur. Yalnız XII əsrdən nöqtə indiki vəzifəsində işlənməyə başlamışdır. Bu dövrdən başlayaraq hər bir dilin milli xüsusiyyətlərinə uyğun durğu işarələri yaranmışdır. XV əsrdən durğu işarələrinin inkişafı daha çox diqqəti cəlb edir. XVIII əsrdən sual və nida işarələri indiki vəzifələrində işlənməyə başlayır.

Maraqlıdır ki, müxtəlif dillərdə durğu işarələrinin işlənmə yerləri müxtəlif olmuşdur. Əgər latın yazısında sual və nida cümlənin sonunda qoyulursa, ispan yazısında isə hər iki tərəfdə qoyulur. A. Qurbanovun fikrinə görə, ispanların durğu işararəsinin cümlənin başında və sonunda qoyması yaxşı haldır. Çünki oxucu cümləni oxumağa başlamamışdan hansı intonasiya ilə oxuyacağını əvvəlcədən bilir. Biz də A. Qurbanovun fikri ilə şərikik. Bu hal tədris prosesində də yaxşı effekt verə bilər.

Hərçənd durğu işarələrinin meydana gəlişi vizantiyalı Aristofanla da əlaqələndirilir. Lakin eramızın 1 ilinə qədər yunanlar yazıda yalnız üç işarədən istifadə edirdilər. Həmin işarələr hərfin altında, ortasında və üstündə qoyulan nöqtələrdən ibarət idi. Nöqtə hərfin aşağısında qoyulduqda nöqtənin özünü, ortasına qoyulduqda vergülü, üzərinə qoyulduqda isə iki nöqtəni əvəz edirdi. Sağ tərəfə yönələn adi iki nöqtəli xətdən ibarət idi. (nöqtələr xəttin üzərinə qoyulurdu). Yalnız XV-XVI əsrlərdə Ald Manuçiy yazıdakı durğu işarələrini indiki vəziyyətə gətirib çıxarır.

Rus dilçiliyində L. A. Bulaxovskiy durğu işarələrindən geniş bəhs etmişdir. Rus dilində durğu işarələri XVIII-XIX əsrlərdən aktiv halda işlənməyə başlamışdır.(8.s.413) Durğu işarələri rus dilində frazaların, cümlələrin,sadə sərhədlərini, mətndəki intonasiyanı,eləcə də sərhədi müəyyənləşdirmək üçün işlənir (8, 430).

Türkiyə dilçiliyində də durğu işarələrindən ilk dəfə istifadə olunması Aristofanla əlaqələndəirilir. Lakin bu işarələrdən istifadə XVI əsrdə mətbəənin meydana gəlməsi ilə reallaşmışdır. Türkiyə ədəbiyyatında durğu işarələrindən, ancaq türklərin Avropanı tanıdıqdan sonra, XIX əsrdən etibarən diqqəti cəlb etdiyi müşahidə olunur. Şəmsəddin Sami, “Kamus-ı Türkü” adlı lüğətində iki nöqtə (:) və vergüldən (,) istifadə etmişdir.

Türk yazılı dilində apostrofun vəzifəsini əvəz edən müxtəlif işarələr işlənmişdir. Gabain, Uyğur mətnlərində nöqtə, iki nöqtə və az da olsa, ikidən çox nöqtədən istifadə edildiyini yazmışdır.Alim Mani mətnlərinin o biri mətnlərdən nöqtələrinin qırmızı olmasıyla ayrıldığını bildirmişdir (9, 11). Mani mətnlərində nöqtə qırmızı bir dairə içində verilmişdir (9. 283).

Türkiyə türkçəsində durğu işarəsindən istifadə VIII əsrdə iki nöqtə üst-üstə işarəsi ilə başlanır. Mani və Buddist mətnlərində görülən nöqtə və üç nöqtə işarələri və ərəb mətnlərdə görülən səcâvənd hərfləri (yalnız Quranda istifadə olunub) və bəzəmə çiçəkləri, XIX əsrə qədər Türkiyə türkçəsində istifadə olunan durğu işarələridir. XVIII əsrdə latın əlifbası ilə yazılan mətnlərdə nəzərə çarpan qərb tipli durğu işarələri Avropa mətbəələrində, çap olunan ərəb mətnlərində, türk mətnlərdə görünməkdədir. XIX Şəmsəddin Saminin “Şair evlənməsi” adlı əsərində üç durğu işarəsindən istifadə edilmişdir. Bu işarələrin hansı məqsədlə istifadə edildiyini də əsərinin başında açıqlamışdır. Daha sonralar isə yazılan əsərlərdə artıq altı durğu işarəsindən istifadə etmişdir: vergül, nöqtəli vergül, iki nöqtə, sual işarəsi və nida işarəsi.

Sonralar o, Türkiyə türkçəsində durğu işarələrinin sayını on üçə qaldırır. Türkiyədə 1928-ci ildə latın əlifbası qəbul olunsa da, 1941-ci ilə qədər durğu işarələrindən o qədər geniş istifadə edilmir. Ancaq 1941-ci ildən Türk Dil Qurumunun hazırladığı əsərlərdə durğu işarələri haqda elmi-nəzəri məlumat verilir. Hətta durğu işarələri haqqında kitab da çap edilir.

Araşdırmalar göstərir ki, Türkiyədə ilk vaxtlarda nəsr əsərlərində istifadə olunan durğu işarələri şeirdə istifadə edilmirdi. Sonralar Tofiq Fikrətin şeirlərində, durğu işarələrindən istifadə edildiyi müşahidə olunur.Cumhuriyyət dövründə, durğu işarələrinə daha çox əhəmiyyət verilir, bu işarələrin növləri artırılır.

Azərbaycan dilində də durğu işarələrinin işlənməsinin maraqlı tarixçəsi mövcuddur. Bildiyimiz kimi, 3000 il Azərbaycan xalqı ərəb əlifbasından istifadə etmişdir. Bu əlifba isə durğu işarələrindən istifadə üçün çox yararsız idi. M. Cahangirov yazır: "...ilk ana dili dərsliklərindən birinə yalnız 4 durğu işarəsi daxil edilmişdir" (10, 180). M. Cahangirovun bəhs etdiyi bu əsər A.O. Çernyayevski və S. A. Vəlibəyovun "Vətən dili" dərsliyi idi. M. Cahangirovun fikrincə, XIX əsrdən etibarən durğu işarələrinin tətbiqi yalnız təlimi səciyyə daşıyırdı (10, 181). M. Kazım bəy 1839-cu ildə cap etdirdiyi "Qrammatika turesko-tatarskoqo yazıka" ("Türk-tatar dilinin qrammatikası") dərsliyində tələbələrin çalışması üçün ərəb əlifbası ilə verdiyi səkkiz səhifəlik mətndə hər biri iki yerdə olmaqla cəmi, iki durğu işarəsindən –nöqtə yerinə ulduzabənzər işarədən və tiredən istifadə etmişdir. Halbuki, eyni mətnlərin rus hərfləri ilə verildiyi transkripsiyasında müəllif Avropa yazı sistemindəki durğu işarələrindən yeddisini işlətməli olmuşdur. Lakin tədqiqatçılar söyləyirlər ki, Azərbaycan dilində durğu işarələrinin işlənmə tarixini Mirzə Kazım bəydən başlamaq doğru deyildir. Çünki alim bu işarələri rusca oxuyan tələbələrə Azərbaycanca öyrətmək məqsədi ilə hazırladığı rus hərfləri ilə olan transkripsiyalarda tətbiq etmişdir.

Durğu işarələri məsələsi nisbətən geniş planda ilk dəfə M. F. Axundov tərəfindən elmi surətdə əsaslandırılmışdır. Lakin M.F. Axundzadə özü durğu işarələrindən əməli şəkildə istifadə etməmişdir. Lakin Azərbaycan dilində punktuasiya işarələrinin işlənməsinin ilk təşəbbüskarı kimi M.F. Axundzadə göstərilir.

M. Cahangirov Azərbaycan ədəbi dil tarixində durğu işarələrinin ilk dəfə ardıcıl şəkildə işlənməsini "Əkinçi" qəzeti ilə bağlayır (10, 185).

N. Nərimanov XIX əsrin sonlarında çap etdirdiyi "Türk Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" dərsliyində "Nişanlar" adı altında durğu işarələrindən ayrıca bəhs etmiş, həmin işarələrin sayını 10-a çatdırmışdır.

"Ümumən, XIX əsrin ikinci yarısınadək Azərbaycan ədəbi dilində durğu işarələrindən nadir hallarda, son dərəcə məhdud, qeyri-müəyyən və qeyri-ardıcıl istifadə olunmuşdur. Ayrı-ayrı əsərlərdə nöqtə vəzifəsinə müxtəlif işarələrdən, əksərən ulduzabənzər (*) əlamətdən arabir istifadə edilmişdir.

XIX əsrin xüsusilə 30-cu illərindən başlayaraq, rus və Avropa yazı sistemi ilə bilavasitə tanışlıq, yeni məktəblərin təşkili, yeni üsulda dərs vəsaiti hazırlamaq durğu işarələrindən istifadəyə ehtiyac doğurur. Bununla da, qərb xalqlarının işlətdiyi durğu işarələrindən istifadə meyli artır, ayrı-ayrı hallarda isə alınma durğu işarələrinin tətbiqinə təşəbbüs göstərilir və bunlar daha çox təlimi səciyyə daşıyır" (6, 181). Müasir dövrdə Azərbaycan yazısında istifadə edilən durğu işarələri bunlardır: nöqtə, sual işarəsi, nida işarəsi, qoşa nöqtə, nöqtəli vergül, çox nöqtə, vergül, tire, mötərizə, dırnaq.

Professor Z. Budaqovanın 1977-ci ildə çap etdirdiyi "Azərbaycan dilində durğu işarələri" adlı kitabı bu sahədə yazılmış ilk tədqiqat əsərlərindəndir. Yazılı dilin məzmun dolğunluğunun yaranmasında, fikrin dəqiq və emosional təsir gücünün üzə çıxmasında, aydın və ifadəli tələffüzündə durğu işarələrinin rolu böyükdür. Hər bir durğu işarəsi müəyyən məqsədlə işlədilir. Başqa sözlə, durğu işarələrinin cümlədə vəzifəsi, xidməti rolu vardır. Bütün zamanlarda durğu işarələrinin yerli-yerində işlənməsinə ehtiyac duyulur.

Odur ki, professor Zərifə Budaqova "Azərbaycan dilində durğu işarələri" kitabını yazmaqla hər hansı durğu işarəsinin yerli-yerində işlədilməsinin möhkəm qaydalarını dəqiq izah etmiş, durğu işarələri ilə əlaqəli olan qaranlıq məqamları, durğu işarələrinin funksiyasını aydınlaşdırmışdır.

Görkəmli Azərbaycan dilçisi M. Adilov qəzet yazılarında durğu işarələrinin işlənməsi haqqında yazmışdır (11, 297). "....qəzetlərimizdə ən çox qüsur durğu işarələrinin işlədilməsində

özünü göstərir" (11, 296). Onun fikrincə, durğu işarələrindən düzgün istifadə edə bilmədikdə fikir oxucuya səhv çata bilər, qrammatik məna dolaşıq ifadə edilmiş olar (11, 297).

Ümumiyyətlə, yazıda durğu işarələrinin işlədilməsi son dərəcə vacibdir. Bu, nitqin düzgünlüyü və ifadəliliyi baxımından xüsusilə əhəmiyyət daşıyır. Ona görə də dilin durğu işarələri sistemi zaman-zaman yeniləşdirilməklə inkişaf etdirilir və onlardan istifadənin imkanları genişləndirilir. Dilciliyin xüsusi sahəsi olan punktasiyada Azərbaycan dilinə məxsus olan işarələrdən istifadənin qaydalarının formalaşdırılması üzərində iş aparılır. Buna baxmayaraq hələ də həmin işarələrdən istifadə olunmasında bəzi kənara çıxma hallarının olması müşahidə olunur.Son dövrlərdə bu məsələ ilə bağlı tədqiqat aparan mütəxəssislər belə qənaətə gəlmişlər ki, "...müasir ədəbi dilimizdə durğu işarələrindən istifadə olunmasında çox vaxt sabit qayda gözlənilmir" (1, 125). Durğu işarələrinin işlənməsində sabit qaydaların gözlənilməməsi çox vaxt dolaşıqlıq yaradır. Adətən mətbuatda durğu işarələrinin səhv işlədilməsi vahid nitq rejiminin pozulması kimi başa düşülür. Təlim prosesində durğu işarələrindən düzgün istifadə olunmaması şagirdlərə yazı mədəniyyətinin formalaşdırılmasındakı catışmazlıqlardan biri kimi dəyərləndirilir. Məhz elə buna görə də şagirdlərin nitq mədəniyyətini düzgün inkişaf etdirmək üçün dilimizdə işlənən durğu işarələri haqqında şagirdlərə ən zəruri biliklər çatdırılmalı, yazı mədəniyyətinin inkişafında xüsusi əhəmiyyəti olan vasitələrdən biri kimi mənimsədilməlidir.

**Problemin aktuallığı.** Azərbaycan dilinin durğu işarələri sisteminin zənginləşdirilməsi və araşdırılması nitq inkişafı və Azərbaycan dilinin tədrisi metodikasının təkmilləşdirilməsi baxımından aktual hesab edilir.

**Problemin elmi yeniliyi.** Hazırki şəraitdə punktuasiya nəzəri və metodik cəhətdən tədqiqata cəlb olunur və mulahizələr irəli sürülür.

**Problemin tətbiqi əhəmiyyəti**. Məqalədə irəli sürülən müddəalar nəzəri və metodik cəhətdən əhəmiyyətli hesab edilr.

## ƏDƏBİYYAT

1. Miriyev A. Durğu işarələrini yerində işlətməli. Dil mədəniyyəti. Bakı: Elm nəşriyyatı, 1979.
2. www.azerbaijan-news.az/index/php?mod=3
3. Budaqova. Z., R. Rüstəmov. Azərbaycan dilində durğu işarələri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1965.
4. www.qkazimov.gen.az/arxiv/107htm
5. Kazımov Q. Müasir Azərbaycan dili. Bakı: Elm və təhsil, 2010.
6. Qurbanov. A. Ümumi dilçilik. Bakı: Maarif, 1977.
7. Atasoy Faysal Okan. Noktalama işaretlerinin tarihi. www.turkishstudies. net/DergiPdfDetay/ aspx?ID
8. Булаховский Л.А. Курс русского литературного литературного языка. Том 1.Киев,1952.
9. Qoç Aylin. «Durğu igaretlerinin tarixçəsi.» Mədəniyyət Tariximizdə Gizli Dillər və Parollar içində, yazan Gürsoy-Naskali və Erdal ģahin, İstanbul: Picus nəşriyyat, 2008.
10. Cahangirov. M. Azərbaycan milli ədəbi dilinin təşəkkülü. Bakı: Elm nəşriyyatı, 1978.
11. Adilov M. Əsərləri I. C. Bakı: Elm və təhsil, 2010.

**А. Микаилова**

## ПРАВИЛА ПУНКТУАЦИИ И ОБ ИСТОРИИ ИХ ПРИМЕНЕНИИ

**РЕЗЮМЕ**

В статье рассматривается пунктуация и история пунктуации Азербайджанского языка. Роль и значение пунктуации рассматривается со ссылками на цитаты исследователей предыдущих лет. Автор рассматривает проблемы связанные с пунктуацией Азербайджанского языка и выдвигает решения этих проблем. Пунктуация носит особо важное значение с точки зрения выразительности речи. Неверное использование знаков пунктуации на письме является одним из недостатков

формирования культуры письма учащихся. Поэтому для правильного развития культуры речи ученики должны усвоить все важнейшие знания о пунктуации, как одном из важнейших средств развития культуры речи.

**A. Mikayilova**

**PUNCTUATION RULES AND THE HISTORY OF THEIR USE**

**SUMMARY**

The article discusses the history of punctuation and punctuation Azerbaijani language. The role and importance of punctuation is considered with reference to the quotation of researchers in previous years. The author examines the problems associated with punctuation Azerbaijani language and puts forward solutions to these problems. Punctuation is particularly important in terms of expressive speech. Incorrect use of punctuation in writing is one of the disadvantages of building a culture of writing students. Therefore, for the proper development of speech culture students should learn all the important knowledge about punctuation, as one of the most important tools for the development of speech culture.

*Redaksiyaya daxil olub: 26.11.2014*

# TEOREMLƏRİN İSBATINDA VƏ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ VEKTORLARDAN İSTİFADƏ EDİLMƏSİ METODİKASI

**Azadxan Adıgözəlov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
**Gülçin Məmmədova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
ADPU
E-mail: gulcin_402@list.ru

**Rəyçilər:** *prof.* S. Həmidov,
*dos.* A. Cəfərov

***Açar sözlər:*** *vektor, skalyar hasil, metod*
***Ключевые слова:*** *вектор, скалярное произведение, метод*
***Key words:*** *vector, scalar product, method*

Hazırki dərsliklərdə isbatların bir çoxu süni şəkildə mürəkkəbləşdirilmişdir: nə üçün, məhz belə nəticə almaq, məhz belə əlavə qurmalar yerinə yetirmək lazım gəldiyi anlaşılmazdır.

Təkliflərin isbatında bir qayda olaraq şərhin "inzibati-hakim" metodu üstünlük təşkil edir: belə-belə edirik, belə qurmaları yerinə yetiririk və s. Şagirdlərə isə yalnız yadda saxlamaq və icra etmək qalır. Əlbəttə, analoji "metod" isbatların "vektorla" qurulmasında istifadə oluna bilər. Bu da indiki dərsliklərdə uğurla nümayiş etdirilir. Lakin, əgər əzbərləmə zərurətini minimuma endirmə məqsədi qoyularsa, onda vektorun tətbiqi ilə bir sıra isbatlar ənənəvi isbatlardan üstün olur. Vektorun tətbiqi ilə yerinə yetirilən bir çox isbatlar əlavə qurmalardan qaçmağa imkan verir və ya onları isbatın məntiqindən təbii alınacaq şəklə gətirmək olar.

Üçbucağın hündürlükləri yerləşən düz xətlərin kəsişməsi haqqındakı teoremin vektorlardan istifadə etməklə isbatını göstərək. Qeyd edək ki, şagirdlər vektorların skalyar hasili və onun xassələri ilə tanışlıqdan sonra isbat edilə bilər. Bundan başqa, şagirdlər teoremlə tanış olan zaman mənimsəməlidirlər ki, düz xətlərin perpendikulyarlığını isbat etmək üçün bu düz xətlər üzərində yerləşən vektorların skalyar hasilinin sıfra bərabər olduğunu isbat etmək kifayətdir.

Bizim vəzifəmiz isbat haqqında hazır məlumat verməmək və bu zaman vektorlardan istifadə edərək elə etmək lazımdır ki, hər bir şagird onu "kəşf" etmək imkanına malik olsun.

*Teorem 1.* Vektordan istifadə edərək üçbucağın bütün hündürlüklərinin yerləşdiyi düz xətlərin bir nöqtədə kəsişdiyini isbat edin.

*Verilir*: $\Delta ABC$-də $OB \perp AC, OC \perp AB$ (şəkil 1.).

*İsbat edin:* $OA \perp BC$.

*İsbatı.* Üçbucağın iki hündürlüyünün yerləşdiyi düz xətlər bir nöqtədə kəsişirlər. Şəkil 1-də $OB$ və $OC$ düz xətləri üzərində yerləşən uyğun hündürlüklərin kəsişmə nöqtəsi $O$ ilə işarə olunmuşdur. $A$ nöqtəsindən $BC$ tərəfinə çəkilən hündürlüyün yerləşdiyi düz xəttin də $O$ nöqtəsindən keçdiyini



şəkil 1

isbat etmək tələb olunur. Başqa sözlə, əgər artıq mövcud olan $O$ nöqtəsindən və $A$ təpə nöqtəsindən düz xətt çəkilərsə, onda üçbucağın üçüncü hündürlüyünün alınacağını isbat edin (şəkil 2.).

Teoremin vektor metodu ilə isbatının tapılması məsələsi qoyulduğundan alınan informasiyanı vektor dilinə çevirməyə çalışaq.



şəkil 2

Nəzərdən keçirilən məsələdə hündürlüklərin uzunluqları bizi maraqlandırnadığından $O$ nöqtəsi və üçbucağın təpələri ilə verilən $\overline{OA}$, $\overline{OB}$, $\overline{OC}$, $\overline{AB}$, $\overline{AC}$, $\overline{BC}$ vektorlarının nəzərdən keçirilməsiəlverişlidir. $OB \perp AC$ şərtindən alınır ki, $\overline{OB}$ və $\overline{AC}$ vektorlarının skalyar hasili sıfra bərabərdir: $\overline{OB} \cdot \overline{AC} = 0$.

Analoji olaraq $OC \perp AB$ şərtindən alınır ki,

$$\overline{OC} \cdot \overline{AB} = 0. \quad (1)$$

$\overline{OA} \cdot \overline{BC} = 0$ olduğunu isbat etmək tələb olunur. Üç nöqtə qaydası $\overline{OA}$ və $\overline{BC}$ vektorlarını

$$\overline{OA} = \overline{OC} + \overline{CA} \text{ və } \overline{BC} = \overline{BA} + \overline{AC}$$

cəmi ilə əvəz etməyə imkan verir. Bunları (1) bərabərliyində nəzərə alsaq

$$(\overline{OC} + \overline{CA})(\overline{BA} + \overline{AC}) = 0$$

olar. Paylanma qanununa əsasən

$$\overline{OC} \cdot (\overline{BA} + \overline{AC}) + \overline{CA} \cdot (\overline{BA} + \overline{AC}) = \overline{OC} \cdot \overline{BA} + \overline{OC} \cdot \overline{AC} + \overline{CA} \cdot \overline{BA} + \overline{CA} \cdot \overline{AC}$$

alırıq. $\overline{OC} \cdot \overline{BA} = \overline{OC} \cdot \overline{AB} = 0$ olduğundan $\overline{OC} \cdot \overline{AC} + \overline{CA} \cdot \overline{BA} + \overline{CA} \cdot \overline{AC}$ cəminin sıfra bərabərliyini isbat etmək tələb olunur. Qeyd edək ki, hər bir toplananda vuruqların biri ya $\overline{AC}$ vektoru, ya da ona əks olan vektordur. Bu da paylanma qanunundan istifadə etməyə və $\overline{AC}$ vektorunu mötərizənin xaricinə çıxarmağa imkan verir:

$$\overline{AC} \cdot (\overline{OC} - \overline{BA} + \overline{CA}) = \overline{AC} \cdot (\overline{OC} + \overline{AB} + \overline{CA}) = \overline{AC} \cdot \overline{OB} = 0,$$

bunu isbat etmək tələb olunurdu.

Digər bir misal olaraq üçbucağın medianlarının kəsişməsi haqqında teoremin isbatını nəzərdən keçirək. Bu həm də onunla maraqlıdır ki, həmin isbat olduqca sadədir və isbatı əzbərləməyi tələb etmir, metodik ədəbiyyatda verilənlərdən xeyli dərəcə də asandır.

*Teorem 2.* Üçbucağın medianlarının üçü də bir nöqtədə kəsişir. Medianların kəsişmə nöqtəsindən tərəfə qədər hər bir median parçası bu medianın $\frac{1}{3}$ - ə bərabərdir.

*Verilir.* $ABC$ üçbucağında $AP, BM, CK$ mediandır.

*İsbat edin.* Bütün medianlar bir $O$ nöqtəsində kəsişirlər və

$$OK = \frac{1}{3}CK, \quad OP = \frac{1}{3}AP, \quad OM =$$

*İsbatı.* Hər bir median üzərində elə nöqtə vardır ki, bu medianın çəkildiyi



şəkil 3

tərəfdən hesab etməklə medianın $\frac{1}{3}$ hissəsini ayırır. Şəkil 3-də $AP$ medianı üzərində bu nöqtə $O$ ilə işarə olunmuşdur. Bunları vektor dilinə aşağıdakı kimi çevirmək olar: $\overline{OP} = \frac{1}{3}\overline{AP},\ \overline{AO} = \frac{2}{3}\overline{AP},\ OP = \frac{1}{2}AO.$

$B$ və $O$ nöqtələrindən $BO$ şüası çəkməklə elə $\overline{OM}$ vektoru qurmaq olar ki, $\overline{OM} = \frac{1}{2}\overline{BO}$. Əgər $M$ nöqtəsinin $AC$ tərəfinin orta nöqtəsi olduğunu isbat edə bilsək, onda bununla da $BM$ medianın $O$ nöqtəsindən keçdiyi isbat olunar və $O$ nöqtəsi $AC$ tərəfindən hesab etməklə $\frac{1}{3}BM$ parçasını ayırır. Bunun üçün $\overline{PM} = \frac{1}{2}\overline{BA}$ olduğunu isbat etməyə çalışaq. Bu halda $PM$ parçası $BA$- ya paraleldir, yəni, $ABC$ üçbucağının orta xətti ilə bir şüa üzərində yerləşir. Bundan başqa, $PM = \frac{1}{2}BA$, yəni, bu üşbucağın orta xətti ilə üst-üstə düşür.

$\overline{PM}$ vektorunu $\overline{BA}$ vektoru ilə ifadə etmək üçün $\overline{OP} = \frac{1}{2}\overline{AO}$ və $\overline{OM} = \frac{1}{2}\overline{BO}$ münasibətlərindən istifadə edək:

$$\overline{PM} = \overline{PO} + \overline{OM} = -\overline{OP} + \overline{OM} = -\frac{1}{2}\overline{AO} + \frac{1}{2}\overline{BO} = \frac{1}{2}(\overline{AO} + \overline{BO}) = \frac{1}{2}\overline{BA}.$$

Bununla da, $BM$ medianı $O$ nöqtəsindən keçir və $O$ nöqtəsi $AC$ tərəfindən hesab etməklə $\frac{1}{3}BM$ parçasını ayırır.

Pifaqor teoreminin və kosinuslar teoreminin vektor metodla isbatını göstərək. Bunlar yalnız vektorların tətbiqi baxımından deyil, həm də müəyyən süniliklərin olmaması ilə maraqlıdır.

*Teorem (Pifaqor teoremi).* Üçbucaq düzbucaqlı üçbucaqdırsa, onda onun hipotenuzunun kvadratı katetlərinin kvadratları cəminə bərabərdir.

*Verilir.* $AMK$ üçbucağında $\angle AMK = 90^\circ$ (şəkil 4.).

*İsbat edin.* $AK^2 = AM^2 + MK^2$.



şəkil 4

*İsbatı.* Pifaqor teoremini müxtəlif üsullarla isbat etmək olar. Vektorla isbat üsulunu tapmağa çalışaq. Şərtdən alınır ki, aralarındakı bucaq $\angle M = 90^\circ$ olan iki $\overline{MA}$ və $\overline{MK}$ vektorunun skalyar hasili sıfra bərabərdir: $\overline{MA} \cdot \overline{MK} = 0$. $AK^2, AM^2, MK^2$ vektor dilində də $\overline{AK}, \overline{MA}, \overline{MK}$ vektorlarının skalyar kvadratları ilə eyni mənalıdır. Bu qayda ilə Pifaqor teoremi $\overline{AK}, \overline{MA}, \overline{MK}$ vektorlarının skalyar kvadratları arasında əlaqəni müəyyən edir.

Üç nöqtə qaydası $\overline{AK}$ vektorunu bizi maraqlandıran $\overline{MA}$ və $\overline{MK}$ vektorları ilə ifadə etməyə imkan verir:

$$\overline{AK} = \overline{AM} + \overline{MK}.$$

Onda

$$\overline{AK}^2 = (\overline{AM} + \overline{MK})^2 = (\overline{AM} + \overline{MK}) \cdot (\overline{AM} + \overline{MK}),$$

$$\overline{AK}^2 = \overline{AM}^2 + \overline{MK}\cdot\overline{AM} + \overline{AM}\cdot\overline{MK} + \overline{MK}^2$$

alarıq. Daha sonra

$$\overline{MK}\cdot\overline{AM} = \overline{AM}\cdot\overline{MK} = 0,\ \overline{AK}^2 = AK^2,\ \overline{AM}^2 = AM^2,\ \overline{MK}^2 = MK^2$$

olduğundan $AK^2 = AM^2 + MK^2$ alırıq.

Şagirdlər müstəqil olaraq çoxlu sayda teorem isbat edə bilərlər. Bunu ancaq ona görə etmirlər ki, "teoremi isbat edin" ifadəsi onlarda qorxu hissi yaradır. Belə psixoloji maneəni aradan qaldırmaq üçün biz bir sıra teoremləri məsələ şəklində ifadə edirik və yalnız isbat yekunlaşdıqdan sonra şagirdlərə məlumat veririk ki, onlar teorem isbat etmişlər. Faktik olaraq kosinuslar teoreminin isbatını tələb edən tapşırıq nümunəsini nəzərdən keçirək.

*Tapşırıq.* $MKP$ üçbucağında $MK = p,\ KP = m,\ \angle MKP = \beta$ olarsa, $MP$ tərəfinin kvadratını tapın (şəkil 5.).



şəkil 5

*Həlli.* Pifaqor teoremini isbat edərkən biz uzunluğunu tapmaq lazım gələn tərəfin təpələri ilə verilmiş vektoru üçbucağın digər iki tərəfləri ilə verilmiş vektorlarla ifadə etdik, sonra isə alınan bərabərliyin skalyar kvadratını tapdıq. Burada da bu üsuldan istifadə etməyə çalışaq:

$$\overline{MP} = \overline{MK} + \overline{KP},$$

$$\overline{MP}^2 = (\overline{MK} + \overline{KP})^2 = (\overline{MK} + \overline{KP})\cdot(\overline{MK} + \overline{KP}),$$

$$\overline{MP}^2 = \overline{MK}^2 + \overline{KP}\cdot\overline{MK} + \overline{MK}\cdot\overline{KP} + \overline{KP}^2$$

olur. Skalyar hasilin tərifinə görə

$$\overline{KP}\cdot\overline{MK} = \overline{MK}\cdot\overline{KP} = KP\cdot MK\cdot\cos\alpha,$$

burada $\alpha$ - $\overline{MK}$ və $\overline{KP}$ vektorları arasındakı bucaqdır. Daha sonra

$$\overline{MP}^2 = MP^2,\ \overline{MK}^2 = MK^2,\ \overline{KP}^2 = KP^2$$

bərabərliklərini də nəzərə alsaq

$$MP^2 = MK^2 + KP^2 + 2KP\cdot MK\cdot\cos\alpha$$

olar. $\alpha = 180^\circ - \beta,\ \cos\alpha = \cos(180^\circ - \beta) = -\cos\beta$ olduğuna görə

$$MP^2 = MK^2 + KP^2 - 2KP\cdot MK\cdot\cos\beta.$$

Vektorların hətta "vektor" sözü, vektor işarəsi işlədilməyən yerlərdə, digər anlayışların təyin edilməsində də istifadəsi məqsədəuyğundur. Məsələn, homotetiya anlayışına vektorun köməyilə belə tərif verilir: $k \neq 0$ əmsallı $O$ mərkəzli homotetiya müstəvinin özünə elə inikasına deyilir ki, hər bir $X$ nöqtəsi $\overline{OX_1} = k\cdot\overline{OX}$ bərabərliyini ödəyən $X_1$ nöqtəsinə inikas olunur. Çox asanlıqla isbat etmək olar ki, $k \neq 0$ *əmsallı homotetiyada hər bir vektor* $k$ *ədədinə vurulur*. Doğrudan da, tutaq ki, $k \neq 0$ əmsallı $O$ mərkəzli homotetiyada $X$ nöqtəsi $X_1$ nöqtəsinə, $Y$ nöqtəsi $Y_1$ nöqtəsinə inikas olunur. Onda $\overline{OX_1} = k\cdot\overline{OX}$ və $\overline{OY_1} = k\cdot\overline{OY}$. Buna görə də

$$\overline{X_1Y_1} = \overline{OY_1} - \overline{OX_1} = k\cdot\overline{OY} - k\cdot\overline{OX} = k\cdot(\overline{OY} - \overline{OX}) = k\cdot\overline{XY}.$$

Bundan başqa, belə tərif homotetiyanı başa düşməyi asanlaşdırır, vektorun ədədə hasili ilə əlaqədar materialın təkrarlanması və möhkəmləndirilməsinə imkan verir.

Həndəsədən əvvəllər öyrənilmiş materialların məqsədyönlü təkrarını təşkil etmək üçün vektordan istifadə etmək əlverişlidir. Məsələn, paraleloqramın xassələri və əlamətləri ilə əlaqədar şagirdlərə məlum olan bütün teoremlərin vektor metodla isbatının tapılmasını təklif etmək olar.

**Problemin aktuallığı.** Şagirdlərin idrak fəallığının yüksəldilməsində, məntiqi təfəkkürünün formalaşmasında və inkişafında vektor metodunun imkanlarından tam istifadə olunması məqsədəuyğundur.

**Problemin elmi yeniliyi.** Vektor metodunun riyaziyyatdan nəzəri və praktik materialların mənimsənilməsini sadələşdirir, şagirdlərin riyaziyyata marağını yüksəldir, ənənəvi metodlardan sadə və başa düşüləndir.

**Problemin praktik əhəmiyyəti.** Vektor metodunun məktəb riyaziyyat kursunda tətbiqlərinə xüsusi diqqət yetirilməsi şəxsiyyət yönümlü təlimin səmərəliliyinə xidmət edir, şagirdləri məntiqi düşünməyə sövq edir, axtarışlar aparmağa yönləndirir.

## ƏDƏBİYYAT

1. Mərdanov M.C., Mirzəyev S.S. və b. Həndəsə 8: Dərslik. Bakı: Çaşıoğlu, 2003.
2. Mərdanov M.C., Mirzəyev S.S. və b. Həndəsə 10: Dərslik. Bakı: Çaşıoğlu, 2003, 216 s.
3. Mahmudov N.M. və b. Vektor anlayışı və onun tətbiqlərinin öyrədilməsi metodikası. Bakı: Müəllim, 2005.
4. Кушнир А.И. Векторные методы решения задач. Киев: Обериг, 1994.
5. Горская Е. С., Азиев И. К. Скалярное произведение в школьном курсе алгебры // Математика в школе, 2008, №8

**А. Адыгезалов, Г. Мамедова**

## МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ ВЕКТОРОВ ПРИ ДОКАЗАТЕЛЬСТВЕ ТЕОРЕМ И РЕШЕНИИ ЗАДАЧ

### РЕЗЮМЕ

В статье дана методика использования понятий вектора и его свойств при доказательстве теорем и решении задач. Автор считает целесообразным использование в полной мере всех возможностей векторного метода обучения при формировании и развитии логического мышления, при повышении познавательной деятельности учащихся. Векторный метод облегчает усвоение теоретического и практического математического материала, повышает интерес учащихся к математике, а так же является более простым и понятным методом нежели традиционные. Наша работа посвящена применению векторного метода к решению некоторых алгебраических задач.

**A. Adigizalov, G. Mammadova**

## METHOD OF USING VECTORS AT THE THEOREM PROVING AND PROBLEM SOLVING

### SUMMARY

The paper presents the method of using the concepts of vector and its properties in the proof of theorems and solving problems. The author considers it appropriate to make full use of all the features of the vector method of teaching in the formation and development of logical thinking, while increasing cognitive activity of students. Vector method facilitates the assimilation of the theoretical and practical mathematical material increases students' interest in mathematics, as well as a more simple and intuitive than the traditional method. Our work focuses on the application of the vector method to the solution of some algebraic problems.

*Redaksiyaya daxil olub: 07.10.2014*

# İŞIQ DİODUNUN İŞ PRİNSİPİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

**Musavər Musayev,**
*Azərbaycan Dövlət Neft Akademiyasının professoru*
E-mail: af_64@mail.ru
**Xavər Sadiq,**
*Azərbaycan Dövlət Neft Akademiyasının dosenti*
E-mail: xaver.sadiq@gmail.com

**Rəyçilər:** *dos.*İ. Abbasov,
*dos.*C. İsmayılov

***Açar sözlər:*** *işıq diodu, difraksiya qəfəsi, Plank sabiti*
***Ключевые слова:*** *световой диод, дифракционная решетка, постоянная Планка*
***Key words:*** *led, a diffraction grating, the Planck constant.*

*Təqdim edilən işdə Plank sabitinin təyin edilməsi elektrik enerjisini optik şüalanmaya çevirən yarımkeçirici işıq diodunun (İD) xüsusiyyətlərinin öyrənilməsinə əsaslanır. Laboratoriya işi respublikada ilk dəfə* Azərbaycan Dövlət *Neft Akademiyasında qoyulmuşdur.* Alman fiziki Maks Plank ilk dəfə işığın təkcə dalğa təbiətinə deyil, həm də kvant xassəsinə malik olması haqqında fikir söyləmişdir. Mütləq qara cismin şüalanma enerjisinin spektrdə paylanma qanununu öyrənərkən Plank aşkar etmişdir ki, közərmiş cisimlərin şüalanması kəsilməz olmayıb, ayrı-ayrı porsiyalarla - kvantlarla baş verir və bir kvantın enerjisi $\varepsilon = h\nu$-yə bərabərdir. Burada $\nu$-elektromaqnit dalğasının (işığın) tezliyi, **h** – mütənasiblik əmsalı olub Plank sabiti adlanır. **h**- fundamental sabit olub fiziki kəmiyyətlərin diskret olması xassəsinin önəmli rol oynadığı fiziki hadisələri təyin edir.

Elektrik enerjisini optik şüalanmaya çevirən yarımkeçirici işıq diodunun xüsusiyyətlərinin öyrənilməsi metodu ilə plank sabitinin hesablanması təqdim olunan işin əsasını təşkil edir.

Yarımkeçirici diod, eləcə də işıq diodu haqqında ətraflı məlumat aşağıda təqdim edilir.



Şəkil 1

Əgər iki müxtəlif növ yarımkeçiriciləri toxundursaq (şəkil 1.a) bu halda elektronların **n**-tip yarımkeçiricidən **p**-tip yarımkeçiriciyə, deşiklərin isə **p**-tip yarımkeçiricidən **n**-tip yarımkeçiriciyə diffuziyası baş verir. Nəticədə sərhəddə **n**-tip yarımkeçiricidə müsbət, **p**-tip yarımkeçiricidə isə mənfi-yüklər toplanmış olur. Odur ki, toxunan səthətrafı oblastlar **n-p** və ya **p-n** keçidləri adlanır. Yüklərin diffuziyası isə toxunan yerlərin potensiallar fərqinin müəyyən $U_k$ qiymətinə qədər davam edir. **n**-tip yarımkeçirici mənbəyin mənfi qütbünə (şəkil 1.b), **p**-tip yarımkeçirici isə müsbət qütbünə qoşulduqda (düzünə gərginlik) yaranan elektrik sahəsi **n-p** keçidində kontakt potensiallar fərqinin əksinə yönəldiyindən, qapadıcı qatın eni və onun müqaviməti azalır. Nəticədə **n-p** keçidi keçən zərrəciklərin sayı kəskin artır və sistemdən elektrik cərəyanı axır.

Xarici gərginlik mənbəyi əks istiqamətdə-yəni **n**-tip yarımkeçirici mənbəyin müsbət, **p**-tip yarımkeçirici isə mənfi qütbünə qoşulduqda **n-p** keçidindən elektrik cərəyanı keçmir. Beləliklə, **n-p**

keçidə malik sistem düzləndirici rolunu oynayır, yəni belə sistemdən cərəyan yalnız bir istiqamətdə axacaq (diod).

Digər tərəfdən **n-p** keçidlərdən ibarət elə sistemlər hazırlamaq mümkündür ki, (uyğun materialların seçilməsi yolu ilə) onları mənbəyə düzünə qoşduqda və $U > U_k$ gərginliyi verdikdə, elektronlar maneəsiz olaraq **p**-oblastına keçib deşiklərlə özbaşına rekombinasiya etdikdə işıq şüalanması baş verir. Bu zaman dinamik tarazlıq yaranır: elektronların rekombinasiya sürəti ilə injeksiya sürəti bərabərləşir (bu hal həmçinin deşiklərin **n**-oblastına keçidi zamanı da baş verir). Belə sistem aramsız işıq şüalandırır və işiq diodu adlanır (İD).



Şəkil 2

Beləliklə, işıq diodu (İD) elektrik enerjisini bilavasitə işıq enerjisinə çevirə bilən cihazdır. Adətən İD qadağan zonasının eni $(1{,}5 \div 2{,}0)eV$ olan

$A^{III}$ $B^{V}$ tip birləşmə (**CaP**) əsasında hazırlanır, qırmızı və ya yaşıl işıq şüalandırır. İD-nin həcmi ~ 200 $mm^3$ tərtibindədir.

Maya dəyərinin ucuz, xidmət müddətinin böyük, tələb olunan gücün isə az olması sayəsində İD radioelektronikada, informasiya sistemlərində geniş tətbiq olunur.

İD-yə verilən düzünə gərginliyin qiymətini artırdıqda, ondan keçən cərəyan çox yavaş artır. Gərginliyin $U_0$ qiymətinə çatdığı andan başlayaraq cərəyan şiddəti kəskin artır və nəticədə işıq diodu işıq şüası verməyə başlayır. Cərəyan şiddətinin gərginlikdən asılılıq qrafiki şəkil 3-də verilmişdir.




Şəkil 3

Elektronun deşiklə hər bir rekombinasiya aktı zamanı şüalanan işıq kvantının enerjisi $\varepsilon = h\nu$ olur. Xarici elektrik sahəsi isə elektronu $n-p$ keçidindən keçirmək üçün $A = eU_0$ işini görmüş olur. Burada ν- şüalanmanın tezliyi, $e$ -elektronun yükü, $U_0$ -isə $n-p$ keçidinə mənbəyin verdiyi gərginlikdir ki, onun bu qiymətindən başlayaraq işıq diodu şüalanmaya başlayır. Odur ki, $h\nu = eU_0$ və ya $h = eU_0 / \nu$ yaza bilərik. İşıq şüasının tezliyinin $\nu = c/\lambda$ olduğunu nəzərə alsaq (**c**- işığın vakuumdakı sürəti, λ – dalğa uzunluğudur):

$$h = \frac{eU_0\lambda}{c} \quad (1)$$

olar. Bu ifadə Plank sabitinin təyini üçün işçi düsturdur. Beləliklə, $h$ -ın qiymətlərini təcrübədə təyin etmək üçün $U_0$ və **λ** -nı ölçmək lazım gəlir.

$U_0$ -ın təcrübi qiyməti İD-ya qoşulmuş voltmetrin göstərişinə əsasən təyin edilir. İD-nin şüalandırdığı monoxromatik şüanın dalğa uzunluğunu tapmaq üçün isə difraksiya qəfəsindən (DQ) istifadə olunur. Difraksiya qəfəsi vasitəsilə $\lambda$ -nın ənənəvi üsulla təyinində istifadə olunan linza və ekranı müşahidəçinin gözü əvəz edir. Linza rolunu gözün optik sistemi, ekran rolunu isə gözün torlu qişası oynayır (şəkil 4). Müşahidəçi difraksiya qəfəsindən işıq diodu tərəfə baxdıqda, ekran üzərində difraksiya mənzərəsini müşahidə etmiş olur. Difraksiya qəfəsində maksimumların alınma şərtinə görə ***d·sin* φ = *k*λ** (burada ***d*** – qəfəs sabiti, ***k*** – maksimumun tərtibidir) dalğa uzunluğunu hesablaya bilərik:

$$\lambda = \frac{d \cdot \sin\varphi}{k} \quad (2)$$

Şəkil 4-dən göründüyü kimi $tg\varphi = \frac{(\ell/2)}{L} = \frac{x}{L}$

Difraksiya bucağının çox kiçik qiymətlərində $\sin\varphi \approx tg\varphi = \frac{x}{L}$ olduğundan:

$$\lambda = \frac{d(\ell/2)}{Lk} = \frac{d \cdot x}{L \cdot k} \quad (3)$$ alırıq.




Şəkil 5

İşin gedişi

1. Elektrik sxemini şəkil 5-də olduğu kimi yığmalı və işıq dioduna verilən gərginliyin qütblərinin düzgün qoşulmasına diqqət verməli.
2. İşıq dioduna verilən gərginliyin qiymətini düzləndiricinin dəstəyinin köməyi ilə tədricən artırmaqla işıq şüasının yaranması əldə edilir.
3. Voltmetrdən şüalanmanın başladığı ana uyğun gələn $U_0$-ın qiymətini qeyd etməklə ölçmə 5 dəfədən az olmayaraq təkrar olunur.
4. İşıq dioduna $U_0$-gərginliyindən ~ 0,5 V böyük gərginlik verməklə difraksiya qəfəsindən baxaraq ekran üzərində maksimumların alınması müşahidə edilir.
5. Difraksiya qəfəsi ilə işıq diodu arasında müəyyən L məsafəsi seçərək müxtəlif tərtiblərə uyğun sağdakı və soldakı maksimumların mərkəzdən olan $x_1$ və $x_2$ məsafələri təyin olunur.




Şəkil 4

6. 5-ci bənddəki ölçmələr L-in müxtəlif qiymətləri üçün də təkrar edilir.
7. (3) düsturuna əsasən hər bir **x** və ***L*** cütlüyü üçün λ və <λ> hesablanır.
8. Plank sabiti təyin olunur: $$< h > = \frac{e < U_0 >< \lambda >}{c}$$
9. Təcrübədən alınmış nəticəni ***h***-ın məlum qiyməti ilə müqayisə edərək fərqi qiymətləndirilir.

**Mövzunun aktuallığı:** Yeni texniki vasitələrdən istifadə etməklə tədris prosesinin təkmilləşdirilməsi.

**Problemin elmi yeniliyi:** Elektik enerjisini optik şüalanmaya çevirən yarımkeçirici diodun elektrofiziki xassələrinin tədqiqi əsasda Plank sabitinin təyini.

**Praktik əhəmiyyəti:** Praktikum tələbələrdə Plank sabitinin təyini üzrə praktiki vərdişlərin formalaşması və nəzəri biliklərin mənimsənilməsi vərdişlərini aşılayır.

## ƏDƏBİYYAT


1. Трофимова Т.И. Курс физики: Учебное пособие. М.: Высшая школа, 2001.
2. Детлаф А.А. Курс физики: Учебное пособие для вузов. М.: Высшая школа, 1999.
3. Савельев И.В. Курс общей физики. М.: Наука, 1988. Т.1-3.

4. Лабораторный практикум по физике / Под ред. К.А.Барсукова и Ю.И.Уханова. М.: Высшая школа, 1988.

**М.Мусаев, Х. Садиг**

## ОПРЕДЕЛЕНИЕ ПОСТОЯННОЙ ПЛАНКА С ИСПОЛЬЗОВАНИЕМ СВЕТОДИОДА

### РЕЗЮМЕ

В работе предлагается лабораторный практикум для определения Планка постоянной использованием полупроводникового светодиода. Описаны метод определения, электрическая схема измерения и формула оценки постоянной Планка.

**M. Musayev, X. Sadiq**

## DEFINITION OF PLANCK'S CONSTANT USING THE LED

### SUMMARY

The proposed laboratory workshop to determine the Planck constant using semiconductor LEDs. Describes the method of determining electrical measurements and evaluation by Planck's formula.

*Redaksiyaya daxil olub: 18.11.2014*

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏYƏ VERİLƏN TƏLƏBLƏR

**Sevil Hümmətova,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
BSU

**Rəyçilər:** *dos.* A. Məmmədov,
*dos.* A. Hacıyev

***Açar sözlər:*** *dil təlimi, interaktiv metodlar, idrak, fəaliyyət, tələblər*
***Ключевые слова:*** *обучение языка, интерактивные методы, сознание, действие, требования*
***Key words:*** *language education, interactive methods, cognition, activities, requirements*

**Məsələnin qoyuluşu.** Ümumtəhsil məktəblərinin Azərbaycan dili dərslərində şagirdlərin təlim fəaliyyətinin səmərəliliyini artırmaq, onların fənnə, keçilən dərslərə maraqlarını yüksəltmək üçün innovativ xarakter daşıyan yanaşmalara daim ehtiyac duyulmuşdur. Tədrisdə tətbiq edilən üsul və vasitələrin yenilənməsi aparılan axtarışların optimal nəticəsi kimi meydana çıxmış və son onillikdə interaktiv təlim metodları kimi xarakterizə edilən bu metodlardan hansı məqamlarda necə istifadə məsələsi aktual problem kimi diqqət mərkəzinə gətirilmişdir.

**İşin məqsədi:** Azərbaycan dili dərslərinə şagirdlərin hərtərəfli nitq vərdişlərinə yiyələnməsini təmin edən interaktiv təlim metodlarından istifadəyə verilən tələbləri müəyyənləşdirməkdir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində ölkəmizdə qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması nəzərdə tutulmuş və qarşıya qoyulan məqsədə çatmaq üçün beş istiqamətdə genişmiqyaslı tədbirlər planı işlənilib hazırlanmışdır. Həmin istiqamətlərdən biri də, daha dəqiq desək, ikinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına və peşəkarlığının yüksəldilməsinə xidmət edir (2, 7). Göründüyü kimi, innovativ təlim metodlarından səmərəli istifadə yolu ilə şəxsiyyətin hərtərəfli formalaşması problemi təhsil sahəsində aparılan islahatların prioritet vəzifələrindən biri kimi önə çəkilmişdir. Ona görə də təlim prosesində müasir texnologiyalardan istifadə tendensiyası sürətlənməkdədir. Müəllim-şagird, şagird-şagird münasibətlərinin yeni müstəviyə keçirilməsi ilk növbədə onlar arasında qarşılıqlı əlaqəni tənzimləyən təlim metodlarından asılıdır. Müasir dərsi səciyyələndirib onu daha canlı, daha maraqlı edən bu metodlar interaktiv metodlar adı altında ümumiləşdirilmişdir. Əslində "qarşılıqlı anlaşma", "qarşılıqlı əməkdaşlıq", "qarşılıqlı fəaliyyət" anlayışların ifadə edən ingilis mənşəli "interaktiv" termini ayrıca bir metodu deyil, metodlar kompleksini adlandırmağa xidmət edir (1, 79; 5, 191).

Məlumdur ki, metod "yol, üsul" anlayışını ifadə edən yunan mənşəli sözdür və pedaqoji ədəbiyyatda "təlimdə müəyyən məqsədə nail olmaq üçün müəllim və şagirdlərin nizama salınmış fəaliyyəti" kimi açıqlanır (6, 177). Məqsəd və vəzifələrdən asılı olaraq təlim metodları müxtəlif təsnifatlarda şərh olunur ki, interaktiv təlim metodları bu bölgüdə xüsusi mövqedə durur. Belə ki, bilik, bacarıq vərdişlərin qazanılmasında məhz şagirdlərin qarşılıqlı idraki fəallığı önə çəkildiyindən öz mahiyyətinə görə interaktiv təlim metodları ənənəvi metodlardan seçilir. Bu metodlar şagirdləri təlim zamanı passiv mövqedən uzaqlaşdırmaqla, hər hansı mövzunun şüurlu mənimsənilməsini təmin etmək üçün problemli situasiyanın yaradılması, tədqiqat sualı ətrafında polemik müzakirələrin aparılması, müxtəlif fikir və mülahizələrin irəli sürülüb təhlilə cəlb edilməsi, nəhayət, ümumiləşmiş bir nəticəyə gəlinərək praktikada yoxlanılması kimi mərhələlərdən keçilməsinə şərait yaradır. İşlənmə məqamına görə, interaktiv metodları priyomlar kimi təqdim etməsinə baxmayaraq,

prof. Y.Ş. Kərimov onları dəqiq səciyyələndirərək yazır: "İnteraktiv təlim priyomları özündə produkriv, yaradıcı, sərbəst düşünmə qabiliyyətini birləşdirməklə təlimi tədqiqt prosesinə çevirir. Bu priyomların köməyi ilə şagird təlim prosesinin bərabərhüquqlu aparıcısı rolunu oynayır" (5, 198).

Təfəkkür müstəqilliyi, sərbəst yaradıcılıq, qarşılıqlı anlaşma mühiti, ziddiyyətli fikirlərin rədd edilmə yolu ilə deyil, təhlil edilərək aradan qaldırılması ilə müşahidə edilən interaktiv metodlar müasir dərslərin, o cümlədən Azərbaycan dili dərslərinin də gedişatını zənginləşdirməklə onlara yaradıcılıq ruhu aşılamaqdadır. Şagirdlərin dilə dərindən yiyələnmək istəyi onların idraki fəallığı üzərində qurulduğundan artıq dil qaydalarının əzbərlənmə üsulu ilə yadda saxlanılmasına köklənmiş ənənəvi dərs modelləri sıxışdırılaraq sıradan çıxarılmaqdadır. Azərbaycan dili fənn kurikulumunda göstərildiyi kimi, şagird nitq fəaliyyətinin müxtəlif növləri, yəni dinləyib anlama, danışma, oxu və yazı üzrə ən zəruri bacarıqlara yiyələnmək üçün dinlədiyi fikirlərə münasibət bildirmək, oxuduqlarını və eşitdiklərini şifahi və yazılı şəkildə ifadə etmək, müxtəlif mənbələrə istinad etməklə fikirlərini əsaslandırmaq, müzakirələr, görüşlər, diskussiyalar keçirmək və onlarda təqdimatlarla çıxış etmək qabiliyyətlərini qazanmalıdır (8, 6-7). Bu bacarıq və qabiliyyətlərin formalaşması isə interaktiv təlim metodlarının tətbiqi yolu ilə yaradıla bilər.

Göründüyü kimi, interaktiv təlim metodları müəllim və şagirdlərin fəaliyyətində yeni xüsusiyyətlər üzə çıxarır. Belə ki, müəllim və şagirdlər təlim prosesinin bərabərhüquqlu subyektləri kimi mövqe tuturlar. Müəllim şagirdlərə öyrənməyi öyrədən, onlara axtarıcılıq işində bələdçilik edən bir təşkilatçı kimi istiqamət verir, onları düşünməyə, ən optimal variantları seçməyə, düzgün nəticələr çıxartmağa alışdırır. Müəllim dərsi elə qurmalıdır ki, qabaqcadan nəzərdə tutduğu nəticələrə şagirdlər özləri gəlsinlər. Odur ki, müəllim bilik, informasiya mənbəyi rolunu dəyişərək, onları necə əldə etmə yolları üzərində düşünməyə həvəsləndirən məsləhətçi rolunu oynamalı olur. Şagird isə öz fikir və ideyaları ilə qoyulan problemin həlli yollarını axtarır, yoldaşları ilə polemik fikir mübadiləsinə girişir, başqalarının irəli sürdüyü ideyalara münasibət bildirir, onları dəyərləndirib daha düzgün olanlarının üzə çıxmasında həlledici səsə malik olur. Şagird böyük və kiçik qruplarla işləmək bacarıqları qazanmaqla özgə fikrinə hörmətlə yanaşmaq, lazım gəldikdə, obyektiv fikir qarşısında ilkin fikirlərindən geri çəkilmə vərdişlərinə yiyələnmiş olur. Təbii ki, dərslərin bu şəkildə qurulması şagirdi real həyata hazırlayır.

İnteraktiv təlim metodlarından istifadə keçilən mövzunun mahiyyətindən, dərsin tipindən, növündən və mərhələsindən asılı olaraq müəyyənləşir. Prof. Ə.Ə. Ağayev bu amilləri nəzərə almadan interaktiv təlim metodlarından həmişə istifadəni effektli saymır və onun təsirini azalda biləcəyini qeyd edərək yazır: "Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Ona görə də müəllimlər məqsəd və şəraitə, fənnə, mövzuya, şagirdlərin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərindən, müxtəlif metodika və texnologiyalarından istifadə etməlidirlər. Əsas odur ki, təlim uşaqları inkişaf etdirsin, onlara düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqları aşılasın; onlarda ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll edə bilmək qabiliyyəti formalaşdırsın" (1, 81).

Təlim prosesində şagirdləri idraki fəallığa təhrik edən interaktiv metodların mahiyyəti və təsnifi məsələləri psixologiya üzrə fəlsəfə doktoru Z. Veysovanın tədqiqatlarında xüsusi yer tutur. Pedaqoji ədəbiyyatda interaktiv təlim metodlarının təsnifatı məsələsində vahid fikrin olmadığından çıxış edən müəllif onları fəaliyət növünə və təlim məqsədlərinə görə qruplaşdırır (9, 23-24). Prinsipcə, yanaşmadan asılı olaraq, interktiv təlim metodlarını müxtəlif variantlar üzrə təsnif etmək mümkündür. Fikrimizcə, müəllim ilk növbədə özünün və sinfin xarakterinə uyğun gələn metodlara müraciət etməlidir.

Mövcud təcrübə göstərir ki, interaktiv təlim metodlarından yerli-yerində, ustalıqla istifadə edən peşəkar müəllimlərin, o cümlədən Azərbaycan dili müəllimlərinin sayı çoxalmaqdadır. Bunun başlıca səbəblərindən biri yeni pedaqoji texnologiyaların tətbiqi ilə bağlı təlim kurslarının geniş tətbiqi və müvafiq metodik ədəbiyyatın nəşr edilib yayılmasıdır. Metodist alimlərdən A. Əliyeva, A .Paşayev və başqalarının son dövrlərdə nəşr edilən əsərləri buna əyani nümunədir (4; 7). Lakin müşahidələrimiz göstərir ki, müəllimlərin bir çoxu interaktiv təlim metodlarından səmərəli istifadə

bacarıqları nümayiş etdirə bilmirlər. Onlar çox zaman dərsin məqsədini, növünü, mərhələsini nəzərə almayaraq, yenilik xatirinə interaktiv metodlardan istifadə edirlər ki, bu da özünü doğrultmur. Dərs məzmun və formanın vəhdəti əsasında qurulan yaradıcı bir prosesdir. Məqsəd və vəzifələr məzmunu, təlim metodları isə formanı əks etdirir. Müəllim keçəcəyi dərsin planını işləyərkən ilk növbədə tətbiq edəcəyi metodları özü üçün əsaslandırmalı, təlimdən gözlənilən nəticələrin əldə olunmasında onların rolunu müəyyənləşdirməlidir. Müəllim seçdiyi metodun və ya metodların hansı məqsədlə hansı mərhələdə tətbiqini dəqiq bilməlidir. Bunun üçün müəllim aşağıdakı faktorları mütləq nəzərə almalıdır:

I. İnteraktiv təlim metodları dərsin tipi ilə uzlaşdırılmalıdır.

Ümumiyyətlə, metodlar iki mühüm vəzifəni yerinə yetirməyə xidmət edir ki, bunlardan birincisi təlim prosesində şagirdlərin idraki fəallığının təmin olunmasıdırsa, ikincisi tədris edilən təlim materialının dərindən mənimsənilməsidir (3, 242). Lakin bu vəzifələrin gözlənilən səviyyədə effektivliyinin təmin olunması metodların hansı dərs tipində, hansı mərhələdə tətbiq edilməsi ilə sıx əlaqəlidir. Didaktik məqsəd görə tətbiq edilən dərs tiplərindən asılı olaraq, təlim prosesində şagirdlərə aşağıdakı bacarıqların aşılanması nəzərdə tutulur:

- yeni bilikləri mənimsəmə bacarığı;
- dərk olunan təlim materialının əvvəlki materiallarla məntiqi baxımdan əlaqələndirmə bacarığı;
- əldə edilən bilikləri konkret şəraitdə tətbiq etmə bacarığı;
- fakt və hadisələr arasındakı oxşar və fərqli cəhətlərə istinad edilərək ümumiləşdirmə bacarığı;
- əldə edilən bilikləri qiymətləndirmə bacarığı.

İnteraktiv təlim metodları dərsin tipinə uyğun gəlməli, onun mahiyyətcə aşıqlanmasına xidmət etməlidir. Əgər bu əlaqə gözlənilməsə, müəllim qarşıya qoyulan təlim məqsədinə çatmaqda çətinlik çəkməli olacaqdır.

II. İnteraktiv metodlar keçilən mövzuya və məqsədə uyğun seçilməlidir.

Yeni nəsil dərsliklərində mövzular linqvistik anlayışlar üzrə deyil, bədii və elmi-kütləvi mahiyyət daşıyan müəyyən mətnlər üzrə müəyyənləşdirilir. Bunun başlıca səbəbi şagirdlərdə sadəcə linqvistik bilik və bacarıqlar formalaşdırmaq deyil, onlarda düzgün, axıcı, sərbəst, dəqiq nitq bacarıqları formalaşdırmaqdan irəli gəlir. Mədəni nitq isə müxtəlif nitq situasiyalarında müəyyən problem ətrafında fikir mübadiləsi etmək, söylənilən fikrə və ya təsvir edilən hadisəyə münasibət bildirmək, qaldırılan problemin həlli ilə bağlı müxtəlif mülahizələr sürüb konkret nəticələr gəlmək deməkdir. Ona görə də müzakirə xarakterli debat və disputlardan istifadə dil dərslərində müntəzəm istifadə olunmaqdadır. Təhlil göstərir ki, kurikulum əsasında hazırlanmış dərsliklərdə mövzular nəqli, təsviri və mühakimə xarakterli olmaq üzrə cəmiyyət, təbiət hadisələrinə, əxlaqi-mənəvi dəyərlərə həsr olunmuş mətnlər əsasında tərtib olunmuşdur. Təbii ki, həmin mövzuların tədrisi zamanı həm təlimi, həm də tərbiyəvi məqsəd və vəzifələr qarşıya qoyulur. Təlim məqsədləri mədəni nitq vərdişlərinin formalaşması və intellektual inkişafla bağlıdırsa, tərbiyəvi məqsədlər dilə qayğı, vətənə, torpağa sevgi, el adət-ənənələrinə hörmət və sair hisslərin aşılanmasını önə çəkir.

III. İnterktiv təlim metodları fənnin məzmun xətlərinə və alt standartlara uyğun seçilməlidir.

Azərbaycan dili üzrə məzmun xətləri nitqin fəaliyyət növlərini (dinləyib-anlama, danışma, oxu və yazı) və liqvistik təfəkkürün formalaşmasına istiqamətlənmiş ən zəruri dil hadisələrini ümumiləşdirən dil qaydalarını əks etdirir. Ona görə də alt standartlar hər bir məzmun xəttinə müvafiq qabiliyyətlərin formalaşmasını işıqlandırır. Sadədən mürəkkəbə doğru biri-birini tamamalayan bu alt standartlar şagirdlərə hansı bilik və bacarıqların verilməsini konkretləşdirmək-dən əlavə, müəllimin hansı metodlardan istifadə edə bilməsinə də müəyyən istiqamət verir.

Müasir təhsil şagirddən çevik düşüncə, məntiqi mühakimə, səmərəli fəaliyyət tələb edir ki, məhz interakiv metodlardan mütəmadi və müntəzəm istifadə yolu ilə bu keyfiyyətlərə nail olmaq mümkündür. Müasir dərsin uğuru həm də şagirdlərin seçilən mövzuya daha dərindən bələd olması, burada aşılanan bacarıqlara yiyələnməsi üçün tədqiqat sualının düzgün və məqsədyönlü şəkildə

qoyuluşundan asılıdır. Tədqiqat sualı standartlar əsasında müəyyənləşdirilən təlim nəticələrinin alınmasına birbaşa imkan yaradan başlıca amildir. Onun köməyi ilə müvafiq mətn nümunələri, çalışmalar üzərində iş aparılmaqla konkret didaktik nəticələrin əldə olunması təmin olunur. Buna görə də müasir dərs daha çox şagirdlərdə tədqiqatçılıq bacarıqları formalaşdıran təlim forması kimi xarakterizə edilir.

IV. İnteraktiv metodlar dərsin mərhələlərinə uyğun istifadə olunmalıdır.

Məlumdur ki, müasir dərs aşağıdakı mərhələlər üzrə aparılır:

1. Motivasiya. Bu mərhələdə sinifdə yeni mövzunun keçilməsinə hazırlıq işi aparılır. Belə ki, sinif təşkil olunur. Onların diqqəti müxtəlif vasitələrlə, məsələn: lövhədən asılmış müəyyən şəkil, slayd, film parçasının göstərilməsi və ya lent yazısının dinlənilməsi yolu ilə müvafiq problemə yönəldilir. Suallar qoyulmaqla problem situasiya yaradılır, fərziyyələr dinlənilir və nəhayət, konkret tədqiqat sualı müəyyənləşdirilir.

2. Tədqiqat işi. Bu mərhələdə qruplara və ya cütlərə bölünmüş sinfə müvafiq tapşırıqlar verilir və onların yerinə yetirilməsi prosesi həyata keçirilir.

3. Məlumat mübadiləsi. Qoyulmuş problem ətrafında əvvəlcədən müəyyənləşdirilmiş vaxt ərzində fikir mübadiləsi aparılır və sinfə təqdim edilir.

4. Məlumatın müzakirəsi və təşkili. Bu mərhələdə edilmiş təqdimatlara, yürüdülmüş mülahizələrə münasibət bildirilir.

5. Nəticə və ümumiləşdirmə. Bu mərhələdə müxtəlif fikirlər əsasında ümumiləşdirmə aparılır və yekun nəticə elan edilir.

6. Yaradıcı tətbiqetmə. Bu mərhələdə əlavə tapşırıqların verilməsi yolu ilə qazanılmış bilik və bacarıqlar tətbiq edilir, qruplar və qrup üzvləri qiymətləndirilir, ev tapşırığı verilir.

V. İnteraktiv metodların tətbiqi həm də dərsin təşkilində istifadə edilən iş növləri əlaqələndirilməlidir.

Hazırda dərsin təşkilində tətbiq edilə iş növləri kollektiv, kiçik qrup, cütlər və fərdlərlə işlər olmaq üzrə təsnif edilir. Ümumiyyətlə, interaktiv metodlar qruplarla iş prosesinin mahiyyətinə daha uyğundur və sinfin eyni zamanda müxtəlif problemlər üzərində vaxtdan səmərəli istifadə yolu ilə intensiv işləməsinə şərait yaradır. Bununla belə, bir neçə istiqamətdə aparılan işlər vahid məqsədə yönəldilməklə gözlənilən təlim nəticələrinin alınmasını təmin edir. Müəllimin peşəkarlığı məhz bu prosesdə üzə çıxır. Aparılan müzakirələrə birbaşa müdaxilə etmədən problemin həlli yollarını ardıcıllıqla sıralamaq və nəticələrin obyektivliyini gözləmək üçün müəllimin dəqiq mexanizm üzərində qurulmuş işlək planı olmalı və o bütün detalları ilə yerinə yetirilməlidir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan dili dərslərində istifadə edilən interaktiv metodların müəyyən meyarlar təsnif edilməsinə bir aydınlıq gətirilmiş, məzmun xətləri və dərsin mərhələlərinə uyğunluğunun nəzərə alınaraq tətbiq edilməsi əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, Azərbaycan dili dərslərində geniş tətbiq edilən interaktiv metodlarına verilən tələblər müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT

1. Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // “Azərbaycan məktəbi”, 2013, № 5
3. Дидактика средней школы: Некоторые проблемы современной дидактики. Под ред. М.А. Данилова и М.Н. Скаткина. М: Просвещение, 1975.
4. Əliyeva A. Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadənin xüsusiyyətləri: Metodik vəsait. Bakı: Mars-Print, 2005.
5. Kərimov Y. Təlim metodları. Bakı, 2007.
6. Paşayev Ə.X., Rüstəmov F.Ə. Pedaqogika. Bakı: Nurlan, 2007.
7. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012.

8. Paşayev A., Cəfərova E. Azərbaycan dili və ədəbiyyat dərslərində interaktiv təlim metodlarının tətbiqi imkanları. Bakı, 2005.

9. Вейсова З. Как выбрать активный метод для урока: новый подход к классификации методов активного обучения // Курикулум, 2013, № 3

**С. Гумматова**

## ТРЕБОВАНИЯ К ИСПОЛЬЗОВАНИЮ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

### РЕЗЮМЕ

Главная особенность современных уроков заключается в проведении интерактивных методов обучения и в увеличении тем самым умственной активности студентов. На уроках азербайджанского языка частое проведение подобных методов обучения среди студентов дает более продуктивные результаты. В статье с целью принятия во внимание типов урока, этапов, тем, содержания, стандартов были представлены требования интерактивным методам.

**S. Hummatova**

## THE REQUESTS WHICH GIVEN TO THE THE INTERACTIVE TRAINING METHODS IN AZERBAIJANI LANGUAGE COURSES

### SUMMARY

The main character for categorizing modern courses is to implement training process with interactive methods and to achive the mental activity of pupils with this. These methods which are used widely in Azerbaijani language courses give fruitful results where they apply according to the appropriate request.In the article the requests which given to the interactive methods were commented according to the type of course, steps, theme, contents, standarts.

*Redaksiyaya daxil olub: 03.12.2014*

# BİOLOGİYANIN TƏDRİSİNDƏ KLASTER METODLARININ TƏTBİQİ

**Xudaşükür Əliyev,**
*biologiya üzrə fəlsəfə doktoru,*
AMİ-nin Cəlilabad filialının kafedra müdiri
E-mail: xudasukuraliyev@mail.ru

***Rəyçilər:*** *prof.* R. Sultanov**,**
*dos.* H. Hacıyeva

***Açar sözlər****: klaster, metod, motivasiya, orqan, çiçəkli bitki*
***Ключевые слова:*** *кластер, метод, мотивация, орган, цветовое растение*
***Key words:*** *cluster, methods, motivation, organ, flowers plants*

Fənlərin, o cümlədən biologiyanın tədrisində fəal təlim metodlarının tətbiqi artıq ənənəyə çevrilmişdir. Fəal təlim metodları ilə dərslərin təşkili biliklərin şagirdlər tərəfindən müstəqil əldə olunmasına, tədqiqat yolu ilə problemin həllinə əsaslanır.

Müəllim tədris prosesində biliyi ötürən rolu ilə yanaşı şagirdlərin müstəqil bilik əldə etməsini istiqamətlənən bələdçi (fasilitator) rolunu həyata keçirir. Şagirdlər passiv seyrçi rolunu dəyişərək fəal "tədqiqatçı" olaraq axtarışlara qoşulur. Müəllim problemin həllinə şagirdləri təklikdə, cütlərlə, qruplar halında və ya kollektiv olaraq cəlb edir. Problem şagirdlərə tam aydınlığı ilə iş vərəqləri üzrə çatdırılır. İş vərəqlərində tədqiq olunacaq problem tam, aydın şəkildə qeyd olunur, tapşırıqların mərhələləri, lazımi şəkillər, mənbələr göstərilir, şagirdlərə problemin həllinə kömək edən, onu aydınlaşdıran məsələlər üzrə istiqamətverici təhlil, müzakirə, ümumiləşdirmə, sxemləşdirmə əməliyyatlarına dair məsləhətlər verilir. İş vərəqlərində verilmiş problemi şagirdlər həll edir, nəticələri ümumiləşdirir. Hər bir qrup aldığı nəticələri təqdim edir. Qrupların nəticələri arasında əlaqə yaradılır, ümumi bir nəticə çıxarılır. Şagirdlərin fəaliyyəti təhlil edilir, qiymətləndirilir.

Belə dərslərdə motivasiya yaradılaraq şagirdlərin dərketmə marağının mövzuya cəlb olunmasının əhəmiyyəti böyükdür. Motivasiyanın köməyi ilə tədqiqat sualı müəyyən edilir və ona cavab tapılması dərsin əsas vəzifəsi olur. Onun digər mərhələləri tədqiqat sualının cavablandırılmasına yönəlir. Mövzunun tədrisində klaster metodu tətbiq etdikdə mövzunun xüsusiyyətləri nəzərə alınır. Metodun tətbiqi qaydalarını yaxşı bilən müəllim onun əsasında şagirdlərin fəaliyyətini istiqamətləndirir.

Biologiyanın tədrisində BIBÖ, Venn dioqramı, insert, klaster, təlim xarakterli oyunlar, analyışın çıxarılması, müşahidə, müzakirə, esse, layihələr kimi müasir metodların tətbiqi təlimin keyfiyyətnə müsbət təsir göstərir. Biologiyanın məzmun xətləri üzrə əsas və alt standartların reallaşdırılmasında daha çox tətbiq olunan metodlardan biri klaster metodudur. Klaster metodundan dərsin tədqiqatın aparılması, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə kimi mərhələlərində tətbiq edilir. Lakin ondan motivasiya mərhələsində istifadə edilməsi daha böyük əhəmiyyət kəsb edir.

***Klaster metodu*** təlimdə geniş istifadə olunan fəal təlim metodlarından biridir. "Klaster" sözü ingilis sözü olub "şaxələndirmə" kimi tərcümə olunur. Bu metodla işləməyin əsas məqsədi şagirdləri fəallaşdırmaq, mövzu ətrafında biliklərin yada salınmasına nail olmaq, diqqətini yeni mövzuya yönəltməkdir. Bəhslərarası, mövzulararası, fənlərarası əlaqələrin yaradılmasına da imkan yaradılır.

Klaster metodu həyata keçirilərkən mövzuya dair bir aparıcı termin lövhədə yazılır. Şagirdlər həmin sözlə bağlı fikirləri deyir və izah olunmadan lövhəyə şaxəli şəkildə yazırlar. Yazılan sözlər "açar" sözlə əlaqəli olmalıdır.

Klaster metodu dərsin birinci: düşünməyə yönəltmə və ikinci düşünmə mərhələsində istifadə oluna bilər, digər mərhələlərdə də tətbiqi yaxşı nəticə verir. Klaster və yaxud şaxələndirmə metodunun tətbiqində əsas məqsəd şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq etməkdir.

Üsulun istifadəsi zamanı müəllim şagirdlərə mövzu verir. Həmin mövzuya dair şagirdlər öz fikirlərini söyləyirlər. Mərkəzdə əsas mövzü, kənarlara doğru sözlər yazılır. Yazılan sözlər növbəti firkin yaranmasına şərait yaratmalıdır.

Klasterdən istifadə fərdi, cütlərdə, böyük və kiçik qruplarda aparıla bilər. Metodu həyata keçirərkən mövzunun şagirdlərə tanış olması, obyekt haqqında məlumatlılığı əsas şərtlərdəndir. Klaster (şaxələndirmə) metodunun tərbiqində əsas məqsəd şagirdləri mövzu ətrafında açıq və sərbəst düşünməyə sövq etmək, verilmiş əsas anlayışa aid şagirdləri bacardıqları qədər söz assosiasiyaları tapmağa və ideyalar arasında əlaqələr barədə düşünməyə istiqamətləndirmək, mövzu barəsindəki əvvəlki təcrübələrini nəzərdən keçirmək, yeni assosiasiyaları stimullaşdırmaq, bilikləri sistemləşdirmək və əhatə dairəsini genişləndirməklə lüğət ehtiyatını zənginləşdirməklə hazırcavablığa yiyələndirməkdir.

Metoddan istifadə edilərkən aşağıdakı əməliyyatlar həyata keçirilir. Müqayisə olunacaq obyekt müəyyənləşdirilir. Mərkəzi anlayışı, kağızın və ya lövhənin ortasına yazıb şagirdlərə təlimat verilir. Öyrənilən mövzu ilə bağlı başlıca söz lövhədə yazılır, şaxələndirmə aparılır. Qeyd edilir ki, anlayış ilə bağlı ağlına gələn söz və ya ifadələri söyləsinlər. Mərkəzi sözün söylənilən sözlərlə əlaqəsi xətlərlə birləşdirilir və nəticəsində "hörümçək toru" na oxşar qrafik şəklini alır. Vaxt bitənə qədər mümkün qədər çox fakir, söz yazılır və əlaqələndirilir. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır. Bu metod əsasən obyekt və hadisənin əlamətlərinin, xassələrinin, digər obyektlərlə əlaqələrinin öyrədilməsində tətbiq edilir. Metodun tətbiqində mövzunun şagirdlərə tanış olması, obyekt haqqında məlumatlılığı əsas şərtləndəndir.

Biologiya fənn kurikulumunun məzmun standartlarına uyğun olaraq canlıların quruluşu və müxtəlifliyini əsaslandıran mövzuların klaster metodu ilə tədrisi imkanları genişdir. Belə ki, bitkinin, heyvanın, insanın xarici və daxili quruluşunun klasterin şaxələrinə hissələrin adlarının şagirdlər tərəfindən düşünülüb tapılması onların fəallığını artırır. Canlının qrluşuna və müxtəlifliyinə dair mövzuların tədrisində klasterdən motivasiya mərhələsində, tədqiqatın aparılması və ya ümumiləşdirmə və nəticə, yaradıcı tətbiqetmə mərhələlərində istifadə edilməsi məqsədəuyğundur.

Altıncı sinifdə adı çəkilən məzmun standartlarının reallaşdırılmasına xidmət edən mövzular çoxdur. Bunlardan biri "Çiçəkli bitkilərin əsas orqanları" mövzusudur. Şagirdlərin bitki orqanları haqqında müəyyən məlumata malik olduğunu bilərək motivasiya mərhələsində çiçəkli bitkilərin orqanlarını klaster metodu ilə yada salır. Lövhədə çiçəkli bitkilərin orqanlarının şəkilləri göstərilir. Onlar haqqında şagirdlərə suallar verilir:

- Bu şəkilləri necə adlandıra bilərik?
- Onlar bitkinin hansı hissəsində yerləşir?
- Şəkilləri ümumiləşdirən onların hansı xüsusiyyətləridir?

Tədqiqat sualı: Çiçəkli bitkilərin orqanları hansı xüsusiyyətlərə malikdir?

Tədqiqatın aparılması mərhələsində müəllim şagirdləri qrupa bölür. Onlara iş vərəqləri üzrə tapşırıq verir. Birinci qrupa bitkinin vegatativ orqanlarının quruluşunu, ikinci qrupa generativ orqanlarının quruluşunu, üçüncü qrupa bitki orqanlarının əhəmiyyətini, dördüncü qrupa bitki orqanlarının funksiyalarının klaster üzrə sxemləşdirməyi tapşırır. Şagirdlər tədqiqatı bitki orqanlarının lövhədə müşahidə edərək aparırlar. Qruplar işlərinin nəticələrini təqdim edirlər.

SXEM 1.

I Qrup




SXEM 2.

II Qrup




SXEM 3.

III Qrup




Üzvi maddələr Suyu Qazlar mübərkidir onda həll olmuş tumurcuqları saxlayır arasında hazırlayır buxarlan- badiləsi mineral maddələri əlaqə yaradır. Budaq və yarpaq- dırır. gedir, sorur, gövdəyə ötürür. Qida maddələrini ları işığa çıxarır toplayır

SXEM 4.




Qruplar bitki orqanlarını ayrı-ayrılıqda sxemləşdirirlər. Nəticə və ümumiləşdirmə mərhələsində qruplar sxemlərini birləşdirirlər və “Çiçəkli bitkilərin əsas orqanları” adlı ümumi sxemi (sxem 4.) alırlar. Klaster metodu ilə kiçik sxemlər (sxem 1,2,3) əsasında sonda ümumi sxemin işlənməsi şagirdlərdə bitki orqanları arasında əlaqələrin olduğunu dərk etməsinə şərait yaranır. Onlar bitki orqanlarının quruluşunu funksiyası ilə, funksiyalarını isə bir-biri ilə əlaqədə yerinə yetirdikləri fikrinə gəlirlər. Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə “Çiçəkli bitkilərin orqanları” sxeminin (sxem 4.) tamamlanması tapşırılır.

Klaster metodu bir neçə variantda həyata keçirilir. Ondan şagirdlərin tanış olmadığı obyektlərin öyrədilməsində motivasiyanın yaradılması məqsədilə tətbiq edilməsi daha faydalıdır. Problemin həllinin axtarılması, ümumləşdirmə mərhələsində tətbiqi də yüksək nəticə verir. Klaster metodunun tətbiqi şagirdlərin də marağına səbəb olur, onların fəallığını təmin edir, təlimin keyfiyyətini yüksəldir.

**Problemin aktuallığı.** *Klaster metodu* təlimdə geniş istifadə olunan fəal təlim metodlarından biridir. “Klaster” sözü ingilis sözü olub “şaxələndirmə” kimi tərcümə olunur. Bu metodla işləməyin əsas məqsədi şagirdləri fəallaşdırmaq, mövzu ətrafında biliklərin yada salınmasına nail olmaq, diqqətini yeni mövzuya yönəltməkdir. Bəhslərarası, mövzulararası, fənlərarası əlaqələrin yaradılmasına da imkan yaradılır.

**Problemin elmi əhəmiyyəti.** Klaster metodundan dərsin tədqiqatın aparılması, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə kimi mərhələlərində tətbiq edilir. Lakin ondan motivasiya mərhələsində istifadə edilməsi daha böyük əhəmiyyət kəsb edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Klaster metodu bir neçə variantda həyata keçirilir. Ondan şagirdlərin tanış olmadığı obyektlərin öyrədilməsində motivasiyanın yaradılması məqsədilə tətbiq edilməsi daha faydalıdır. Problemin həllinin axtarılması, ümumləşdirmə mərhələsində tətbiqi də yüksək nəticə verir. Klaster metodunun tətbiqi şagirdlərin də marağına səbəb olur, onların fəallığını təmin edir, təlimin keyfiyyətini yüksəldir.

## ƏDƏBİYYAT

1. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya-6. Bakı, 2013.
2. Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.
3. Ümumtəhsil məktəbləri üçün biologiya fənn kurkulumu. Bakı, 2012.

**Х. Алиев**

## ПРИМЕНЕНИЕ МЕТОДА КЛАСТЕРА В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

**РЕЗЮМЕ**

Статья посвящена применению метода кластера в преподавании биологии. В ней представляется особенности, возможности применения кластера, являющегося одним из активных методов обучения. Показаны самые эффективные способы применения метода кластера. Для решения проблемы в статье разработаны методические рекомендации, интересные предложения для учителей.

**X. Aliyev**

## APPLICATION OF CLUSTER METHOD IN THE TEACHING OF BIOLOGY

**SUMMARY**

The article was dedicated to the application of cluster method in the teaching of Biology. One of its active learning methods characteristics of a cluster, possibility of application were given there. The most effective ways of application of cluster method were shown. Sample on sixth class on the application of cluster method was given. Methodological recommendations, interesting suggestions on the solution of problem for teachers were used.

*Redaksiyaya daxil olub: 04.12.2014*

# ОБ ОБУЧЕНИИ СВЯЗНОЙ РЕЧИ НА ОСНОВЕ ОТБОРА ГРАММАТИЧЕСКОГО МАТЕРИАЛА

**Лариса Колесникова,**
*доктор философии по педагогике*
АГПУ
E-mail: elmar-kerimov@rambler.ru

**Рецензенты:** *доц.* С. Садыгова,
*доц.* Н. Кязимова

***Ключевые слова****: связная речь, устная форма, речевая ситуация, структура текста, коммуникативность*
***Açar sözlər:*** *vasitəli nitq, şifahi forma, nitqdə yaranan hal, mətnin quruluşu, ünsiyyət*
***Key words:*** *connected speech, oral form, speaking situation, structure of text, communicativeness*

Важнейшей частью обучения устного русского языка как иностранного является обучение связной речи. Устная форма всегда накладывает значительный отпечаток на речь. Это обосновано и признано всеми лингвистами. Любую устную речь, как разговорную, отличает наличие вставок, самоуточнения, что объясняется спецификой формы речи. Этот вопрос исследован недостаточно.

Главным в связной речи является предложение. Предложение в связной речи есть некоторая промежуточная ступень между коммуникативными заданиями предшествующего и последующего предложений. Необходимо использовать различные средства связи между предложениями, особенности, логику расположения предложений применительно к объекту речи. При обучении второму языку необходимы особые упражнения.

Говоря о связной речи, мы имеем дело со сложным синтаксическим целым. Это группа предложений, которая обладает замкнутой синтаксической структурой и смысловой законченностью. К средствам организации сложного синтаксического целого относятся союзы, союзные слова, интонация, присоединение, бессоюзие.

Вопрос связной речи нашел свое отражение в методике обучения неродному языку. На практике, используя упражнения, мы сталкиваемся с понятием «связная речь». Упражнения на восприятие сложного синтаксического целого дают возможность научиться определять границы сложного синтаксического целого, наблюдать за связью предложений внутри этой единицы. К такому типу упражнений относятся: членение текста на абзацы; нахождение слов, посредством которых предложения соединяются друг с другом.

Важный материал для упражнений, направленных на наблюдение над сложным синтаксическим целым, может дать явление присоединения (парцелляции) как одного из видов связи между предложениями и как способа выражения экспрессии, соблюдаемые специфическими для русского языка законами.

В учебном процессе роль занимают упражнения, направленные на использование сложного синтаксического целого в активной речи. В упражнении необходимо указать, какие именно предложения должны войти в этот минимум. Желательно включать в текст предложения, которыми возможно связать предыдущие части текста с последующими, заменить несколько предложений сложным и сложное предложение несколькими простыми.

Особого внимания заслуживает выяснение роли ситуативных упражнений. Ситуативные упражнения помогают овладеть языковым окружением предложения, но они представляют собой ориентировочную основу будущих действий. Использование ситуативных упражнений дает хорошие результаты после того, как учащиеся овладеют умением соединять

слова в предложения. Связь предложений может создаваться посредством повторения понятий в разном лексическом наполнении.

Система упражнений, о которой было сказано выше, выполняется не только в зависимости от вида речевой деятельности, но и от формы занятий (работа в аудитории, дома). В методике различают подготовительные и речевые упражнения. Упражнения, которые вырабатывают мотивацию к речевой деятельности, являются коммуникативными. Они (коммуникативные упражнения) воспроизводят или имитируют условия реальной речевой коммуникации, которые отвечают требованиям ситуативной обусловленности. Для формирования прочного речевого навыка необходима целенаправленность, наличие мотивации, установка, внедрение нужного явления в обдуманную речевую ситуацию.

Внимание к живой естественной речи составляет типичную особенность современного языкознания во всем мире. Это связано с различными направлениями как разновидности устной речи, неподготовленная речь, коммуникативное изучение языка.

Материалы живой устной связной речи представляют интерес для изучения проблем языка. Л.В.Щерба говорил, что все языковые новшества создаются в кузнице разговорной речи. В русском языке очень много устойчивого. Это относится к перепискам ХВЫЫЫ века.

Подлинная устная речь создается в момент говорения. Как отмечает В.Г.Костомаров, «устная речь это речь говоримая», а это предполагает наличие словесной импровизации, которая всегда имеет место в процессе говорения в большей или меньшей степени. Устная речь (та, которую мы говорим) рассчитана на смысловое восприятие создаваемой в момент говорения произносимой речи. Но со связной устной речью связано и слушание, и восприятие, и понимание порожденной речи.

Для устной речи характерны две особенности – это избыточность и краткость высказывания. Говорящий, воспроизводя высказывание, рассчитывает на смысловое восприятие. Необходимо учитывать особенности собеседника, насколько свободно он владеет устной связной речью.

Употребление разных конструкций (предложений), слов в речи зависит от темы разговора, с кем ведется диалог, есть ли собеседник, подготовлен ли к разговору с ним и т.д.

Создавая речевую ситуацию, необходимо определить цели и задачи данной проблемы:

- передать определенную информацию о предмете речи;
- проверить знания, умения и навыки учащихся;
- организовать практическую деятельность учащихся.

В речевой ситуации главной задачей является введение нового материала, новой информации по русскому языку. Чтобы увлечь и заинтересовать обучающихся, используются различные формы наглядности, трудное изложение материала, объяснение с привлечением приемов контраста и т.п. Также необходимо выделить с помощью ударений слова, целые предложения, замедление темпа высказывания, использование лексики, которая указывала бы на начало и конец высказывания.

Работа с лексикой призвана обеспечить овладение словарным минимумом русского языка, расширить словарный запас учащихся. В этом процессе необходимо решить вопросы отбора и организации лексического материала и использования его в практике.

Усвоение в устной связной речи лексических единиц является одной из задач успешного усвоения языка. Применимым является употребление лексики с элементами культуры. Поэтому создается необходимость применения культурологических текстов. Работая по лексической теме на материале тематически объединенных текстов, можно добиться более высоких результатов в совершенствовании устной речи, чем при работе с разноотличимыми текстами.

Основной формой монолога в речевой ситуации является пересказ. Пересказ текста осуществляется с опорой на структуру текста – образца и на его содержание, с коммуникативной направленностью. Учащимся предлагается выполнение упражнений, направленных

на создание неподготовленных высказываний. Один учащийся записывал информацию для своего пересказа, а другой – готовил для первого вопросы, необходимые для решения поставленной коммуникативной задачи. Обучающиеся самостоятельно выполняли задания. Затем, выполнив коммуникативные упражнения, которые направлены на развитие речи на основе усвоенного языкового материала, учащиеся приобретали навыки и умения общаться с учетом ситуации.

В обучении связной устной речи одним из ведущих является принцип наглядности. Упражнения с применением наглядного материала мобилизуют активность учащихся, способствуют лучшему пониманию и запоминанию учебного материала, а также стимулируют речевую деятельность учащихся. К наглядности относятся фотографии, открытки. Использование этих средств позволяет решить такую задачу, как повысить мотивацию языкового учебного процесса в целом и творческой речевой деятельности учащихся. Наглядность тогда является коммуникативной, когда от учащегося требуется выразить свое отношение к описываемому. Без обращения к материалу не может быть получено адекватное описание речевого поведения человека.

При построении устной речи необходимо учитывать то, что общение является не столько передачей информации, сколько обменом мыслями, чувствами и переживаниями. Учащийся должен уметь вступать в речевой контакт, а также иметь желание и способность развивать свою речь в процессе естественного диалога. Задания, упражнения, выполнение которых предполагает взаимосвязь учебной и внеучебной деятельности учащихся, являются для них дополнительным стимулом к общению с носителями языка в естественных условиях.

В процессе выполнения упражнений коммуникативного характера обучающиеся учатся выражать свои мысли и понимать высказывания других людей на русском языке, развивают умение самостоятельно строить диалогические и монологические высказывания и участвовать в общении с носителями русского языка.

При работе над любым материалом в любом разговоре эффективнее использовать такие вопросы, как «почему – вопросы». Такие вопросы по мере изучения языка способствуют развитию умений устанавливать связи и делать выводы на изучаемом языке. Этот прием лучше подготавливает обучающихся к постепенному переходу к беседе дискуссиями. И чем большее количество предложений выскажет учащийся, тем больше возможности для развития мышления. Преподаватель может и должен предложить обучающимся завершить рассказ одной или двумя фразами.

Говоря об устной связной чужой речи, необходимо заметить, что язык выполняет такие важные функции, как: указательная, изобразительная, реагирующая. Все эти функции разнообразят возможности взаимодействия учителя и учащихся.

Любая образовательная задача урока решается с помощью системы педагогических и коммуникативных приемов. Эти задачи должны четко осознаваться учителем, чтобы он мог найти адекватные педагогические и коммуникативные средства. Учитель хорошо должен определять задачу урока, на котором реализуются цели преподавания учебного предмета.

Чтобы научиться управлять педагогическим общением на занятии, необходимо продумать как применить свою роль ведущего, какие средства можно будет использовать в достижении цели. Учитель русского языка должен создавать в аудитории атмосферу речевого общения, чтобы учащиеся видели в этом учителе человека, с которым они захотят делиться мыслями и чувствами. Учитель не должен допускать ошибки в произношении слов, в нормах словоупотребления, построения предложений.

Вот почему так важно с первых дней обучения в вузе сделать всё, чтобы овладеть устной речью. Этому способствует наличие таких способностей, как хорошая вербальная память, правильный отбор нужных языковых средств, общительность как черта характера (умение слушать, переживать и т.д.). Практика показывает, что всё выше перечисленное

является продуктивным. Для учащегося работа по развитию речи как неродного языка способствует созданию атмосферы для максимальной работы в этом направлении.

**Актуальность проблемы**. Устная связная речь представляет интерес для изучения проблем языка. Важнейшей частью обучения устного русского языка как иностранного является обучение связной речи.

**Практическая значимость проблемы**. В учебном процессе важную роль занимают упражнения, направленные на использование сложного синтаксического целого в активной речи. Работа с лексикой призвана обеспечить овладение словарным минимумом русского языка, расширить словарный запас учащихся.

**Новизна проблемы**. Необходимо наладить взаимосвязь учебной и внеучебной деятельности учащихся, что является дополнительным стимулом к общению с носителями языка в естественных условиях.

## ЛИТЕРАТУРА

1. Солганик Г.Я. Стилистика текста. М., 2000.
2. Мещеряков В.Н. Учимся начинать и заканчивать текст. М., 2004.
3. Третьякова В.С. Конфликт глазами лингвиста. М., 2000.
4. Фармановская Н.И. Речевое общение. М., 2002.
5. Богданов В.В. Речевое общение. М., 1985.

**Л.Колесникова**

## QRAMMATİK MATERİALIN SEÇİMİ ƏSASINDA VASİTƏLİ NİTQİN ÖYRƏDİLMƏSİ HAQQINDA

### XÜLASƏ

Vasitəli nitq məsələsi öz əksini qeyri-ana dilinin öyrənilməsi metodikasında tapmışdır. Əsil şifahi nitq danışıq anında yaranır. Şifahi vasitəli nitqdə leksik vahidlərin mənimsənilməsi dilin uğurla öyrənilməsi məsələlərindən biridir.

**Л.Колесникова**

## ABOUT TEACHING OF INDIRECT SPEECH UNDER SELECTION OF GRAMMAR MATERIAL

### SUMMARY

Question of indirect speech is reflected in the methods of teaching a foreign language. Genuine speaking is created in the period speaking. Absorption of oral lexical units of connected speech is one of the tasks of successful language acquisition.

*Redaksiyaya daxil olub: 22.12.2014*

## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

# MƏDƏNİYYƏT SİSTEMİNDƏ TƏLƏBƏLƏRİN HÜQUQ MƏDƏNİYYƏTİNİN YERİ VƏ ƏHƏMİYYƏTİ

**Arif Bədirov,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
ARTPİ
E-mail: arifbadir@gmail.com

**Rəyçilər:** *prof.* A. Abbasov,
*ped.üz.fəls.dok.* R. Əliyev

**Açar sözlər**: *mədəniyyət, hüquq mədəniyyəti, hüquq, hüquqi şüur, hüquqi təfəkkür, birgəyaşayış qaydaları, hüquq normaları, hüquq mədəniyyətinin formalaşdırılması*

**Ключевые слова**: *культура, правовая культура, право, правовое сознание, правовое мышление, правовые правилы, правовые нормы, формирование правовой культуры*

**Key words:** *culture, legal culture, law, legal consciousness, legal thinking and legal rules, the rule of law, the formation of the legal culture*

Hüquq mədəniyyəti şəxsiyyətin ümumi mədəniyyətinin tərkib hissəsidir, ümumi mədəniyyətin sistemində özünəməxsus yer tutur. Ümumi mədəniyyətə yiyələnməmiş şəxsdə (*bizim tədqiqatda tələbədə - A.B.*) hüquq mədəniyyəti yüksək səviyyədə inkişaf edə bilməz.

«Hüquq ensiklopedik lüğəti»ndə bu anlayışa aşağıdakı tərif verilir: «Hüquq mədəniyyəti tarixi inkişaf gedişində əldə edilmiş və yenidən təkrar olunan hüquq sərvətlərinin (prinsiplərin, normaların, kateqoriyaların, biliklərin, hüquqi-texniki, hüquqi-təşkilati normaların) məcmusu»dur (1, 506).

İnsanlarda, o cümlədən tələbələrdə hüquq mədəniyyəti üzrə müntəzəm, mütəşəkkil, məqsədyönlü işin aparılması dövlət idarəetməsinin təkmilləşdirilməsinin və hüquq qaydalarının möhkəmləndirilməsinin çox vacib şərtidir. Hüquq mədəniyyəti ictimai şüur formasıdır. Mövcud ədəbiyyatın araşdırılmasından görünür ki, alimlər hüquq mədəniyyətinə, başlıca olaraq, üç cəhətdən yanaşırlar: geniş mənada, şəxsiyyət yönümündən və psixoloji baxımdan. Birinci halda (geniş mənada) bu anlayışa hüquq fəaliyyəti sahəsində mövcud olan hər şeyi - hüquq normalarını, hüquqi münasibətləri, hüquq müəssisələrini (daxili işlər orqanları, prokurorluq, məhkəmə və s.), hüquqi şüur və hüquqi davranışı daxil edirlər. Tədqiqatda diqqətimizi hüquq məzmununa malik olan vəziyyətlərə insanın hərəkət və əməllərinin müsbət istiqamətini daha çox müəyyən edən onun mürəkkəb, kompleks xassəsi kimi şəxsiyyət yönümlü, şəxsiyyət əhəmiyyətli hüquq mədəniyyətinə cəlb edirik.

İnsanın hüquq mədəniyyəti mürəkkəb təzahürdür. Qanunun və hüquq qaydalarının möhkəmləndirilməsi vəzifəsi dövlətin üzərinə düşür. Vətəndaşların bu işdə iştirakı, hər şeydən əvvəl qanunların dəqiq və dönmədən, heç bir istisna olmadan yerinə yetirilməsinə onların marağından asılıdır. Bu marağı hiss etmək üçün hüquq mədəniyyətinə yiyələnmək lazımdır.

Hüquq cəmiyyətin və hər bir şəxsin həyatına daxil olur. Bunu nəinki bilməyimiz, habelə görməyimiz və hiss etməyimiz lazımdır. Qanundan, hüquq qaydalarından xəbərdar olmaq lazımdır. Qanunu bilməmək hüquq mədəniyyətinə yiyələnməməyin əlamətidir. Bu da həqiqətdir ki, mövcud qanunları bilmək hüquqi şüurun və müvafiq davranışın yüksək səviyyəsi demək deyildir. Bundan başqa, qanunu bilməmək insanı qanunu pozmağa görə məsuliyyətdən azad etmir. Hüquq - hüquq mədəniyyətindən onunla fərqlənir ki, o, insanın qanunu bilməsindən, yaxud bilməməsindən asılı olmadan da mövcuddur. Hüquq mədəniyyəti isə insandan dərin və hərtərəfli hüquqi biliklər tələb edir.

Bir sıra hallarda insanlar öz hərəkətlərinin və hərəkətsizliklərinin qanunla qadağan olunduğunu bilə-bilə şüurlu, yaxud qəsdən hüquq qaydalarını pozur və cinayətə yol verirlər. Odur ki, məktəblilərdə, tələbələrdə hüquq mədəniyyətinin formalaşdırılması qayğısına qalmaq lazımdır. Bu sahədə tədris müəssisələri, ailə, hüquq mühafizə orqanları əhəmiyyətli rol oynaya bilərlər. Qanunu, hüquq qaydalarını qorumaq və onlara hörmətlə yanaşmaq hamının borudur.

Qanunçuluğu və hüquq normalarını möhkəmləndirmək, hər bir şəxsi, o cümlədən kollec tələbələrini qanunlara və birgəyaşayış qaydalarına əməl etmək ruhunda tərbiyə etmək, qayda-qanunun pozulması kimi hallara qarşı barışmaz münasibətin yaradılması sahəsində hüquq mədəniyyəti müstəsna dərəcədə böyük rol oynayır.

Əhalinin mədəni səviyyəsi yüksəldikcə qanunçuluq mədəni quruculuğun, xalqın milli dəyərlər əsasında tərbiyəsini, şüurluluğunu və mütəşəkkilliyini təmin etməyin zəruri amili olur. Əhalinin, o cümlədən tələbələrin hüquq mədəniyyətinin yüksək olması, şüurluluğu və mütəşəkkilliyi həm də qanunların tələblərini ciddi gözləməyi, humanizm və demokratiya prinsiplərini reallaşdırmağın mühüm şərtlərindən sayılır.

Qanunları formal şəkildə yaxşı bilmək heç də yüksək hüquq mədəniyyətinə sahiblənmək demək deyil, həm də qanunlara hörmətlə yanaşmaq, onları tətbiq və icra edə bilməkdir.

Hazırda əhalinin hüquq mədəniyyətini yüksəltməyin forma və məzmunu xeyli dəyişmiş və təkmilləşmişdir. Ölkədə hüquq qaydaları möhkəm olarsa, insanların intizamı və mütəşəkkilliyi yüksələr, qanunlara və birgəyaşayış qaydalarına hörməti artar, hüquqi biliklərə və hüquq mədəniyyətinə yiyələnmək, hüquqa inamın yaradılması prosesi səmərəli şəkildə həyata keçər.

Hüquq mədəniyyəti cəmiyyətdə mənəvi mühitin necə olduğunu əks etdirir. Həmin mühit cəmiyyətin hüquqi münasibətlərinin bütün quruluşunu özündə birləşdirir, hüquq qaydalarının möhkəmliyi barədə inam yaradır. Hüquq mədəniyyəti cəmiyyətin ictimai-siyasi təşkilindən ayrı nəzərdən keçirilə bilməz. Həqiqi hüquq mədəniyyətinin bərqərar olduğu mühit siyasi sistemin normal fəaliyyət göstərməsinə imkan verir. Həmin sistemin hissələrindən hər biri öz işini qanuna tam uyğun şəkildə qurmalı, qanunvericiliyin açdığı imkanlardan yaradıcı şəkildə istifadə etməlidir. Cəmiyyətimiz inkişaf etdikcə hüquq mədəniyyətinin səviyyəsi də yüksəlir. Hüquq təbliğatı hüquq mədəniyyətini yüksəltməyin başlıca şərtidir.

Hüquq mədəniyyəti hüquq düşüncəsinin yüksək inkişaf səviyyəsində olduğunu göstərir. Hüquq mədəniyyəti qanunvericiliklə tanışlıq, qanunlara hörmət bəsləməkdir, qanunları düzgün anlamağı və məqsədlərinə uyğun şəkildə tətbiq etməyi bilməkdir. Hüquq mədəniyyəti hüquqi düşüncənin mühüm komponenti kimi çıxış edərək qanunçuluğu möhkəmləndirməklə sıx surətdə əlaqədardır.

Hüquq mədəniyyəti qanunçuluğun vəziyyətinə, hüquq qaydalarına hörmət və rəğbətlə yanaşılmasına, əhalinin, tələbələrin öz vəzifələrinə əməl etmələrinə səmərəli təsir göstərir. Qanunçuluğu möhkəmləndirmək və hüquqi düşüncəni formalaşdırmaqla bağlı dövlətimizin gündəlik qayğısı hüquq mədəniyyətinin yüksəldilməsinə şərait yaradır.

Hüquq mədəniyyətinin yüksəldilməsi qanunçuluğu möhkəmləndirməyin başlıca şərtidir. Bu məsələ dövlət və təsərrüfat aparatının daha nümunəvi fəaliyyət göstərməsinə, vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunmasına imkan verir.

Hüquq mədəniyyətinin yüksək səviyyədə olması cinayətkarlıq halları ilə mübarizəni asanlaşdırır, cinayət kimi təhlükəli əməlləri azaldır və aradan qaldırır. Hüquq mədəniyyəti üzrə işlərin səmərəli şəkildə aparılması cinayət cəzası tədbirlərinin getdikcə ictimai təsir tədbirləri ilə əvəz edilməsinə imkan verir. Hüquq mədəniyyətinin, hüquqi düşüncənin yüksəlməsi hüquq normalarının birgə yaşayış qaydalarına çevrilməsində həlledici mərhələdir. Hüquq qaydalarının təmin olunmasında dövlət məcburiyyəti tədbirlərinə duyulan ehtiyac getdikcə aradan qaldırılır.

Bir çox şagirdlər və tələbələr də qanunları yaxşı bilmir, hətta Azərbaycan Respublikasının Konstitusiyası ilə elan olunmuş bəzi hüquq və azadlıqlarından, eyni zamanda bir sıra vəzifələrindən xəbərdar deyillər. Yeni mütərəqqi təmayüllərin təzahürünü və inkişaf istiqamətlərini vaxtında görə bilmək, ziyanlı hüquq ideologiyalarını tənqid etmək və öz mövqeyini bildirmək, müasir problemləri

müəyyənləşdirmək və həllinin düzgün yollarını açıqlamaq hüququn təxirəsalınmaz vəzifəsidir. Həmin vəzifələri yerinə yetirmədən yüksək hüquq mədəniyyətinə nail olmaq qeyri-mümkündür.

Hüquq mədəniyyətinin məqsədi ondan ibarət olmalıdır ki, qanuna, hüquq qaydalarına hörmət hər bir insanın şəxsi əqidəsinə çevrilsin. Tələbələrin hüquq mədəniyyətinin yüksəldilməsi üçün onların hüquqi biliklərini artırmaq lazımdır. Bu isə onların hüquqi biliklərinin dərəcəsini müəyyənləşdirmək məsələləri ilə sıx surətdə əlaqədardır. Biz tələbələrin hüquqi biliklərinin səviyyəsini aşkara çıxarmaq üçün anket sorğusundan istifadə etdik. Anket sorğusuna dövlət hüququ, mülki hüquq, cinayət hüququ, ailə hüququ, inzibati hüquq, əmək hüququ, prossesual hüquqa aid suallar daxil idi. Hüququn bu və ya digər sahələrinə aid 5 suala cavabın təhlili tələbələrin hüquq mədəniyyətinin və hüquq tərbiyəsinin səviyyəsini yüksəltməyin forma və məzmununu müəyyənləşdirməyə şərait yaratdı.

Kolleclərdə hüququn əsasları fənni tədris olunur. Həmin fənni keçməkdə məqsəd tələbələrdə yüksək əxlaq və şüurluluq, öz hərəkətlərinə görə şəxsi cavabdehlik hissi, cəmiyyətimizin hüquq və etik normalarına dönmədən əməl etməyin hamıdan ötrü vacib olmasına inam yaratmaq, tələbələrdə hüquq mədəniyyətini formalaşdırmağa nail olmaqdır. Bu baxımdan Bakı Sənaye Pedaqoji Kollecinin təcrübəsi təqdirəlayiqdir.

Fənn tələbələrə Azərbaycan Respublikasının Konstitusiyası, vətəndaşların hüquq və azadlıqları, həmçinin vəzifələri barədə məlumat verməklə yanaşı, eyni zamanda onlarda siyasi və mənəvi cəhətdən şüurun ümumi inkişafına müsbət təsir edir.

Anket sorğusundan görünür ki, tələbələr ölkəmizin Əsas Qanunu ilə yaxından tanış olmağı özləri üçün faydalı və vacib hesab edirlər. Diqqət yetirək: «Artıq öz hüquq və azadlıqlarımın nədən ibarət olduğunu və respublikamızın Konstitusiyası ilə müəyyən olunmuş vəzifələrimin hansılar olduğunu yaxşı bilir, öhdəmə düşən məsuliyyəti başa düşürəm».

Kollecin kitabxanasında «Hüquqa dair biliklər guşəsi» yaradılıb. Son dövrlərdə tədris müəssisəsinin hüquq mühafizə orqanları əməkdaşları ilə əlaqələri genişləndirilib. Onlar kollecin tədbirlərinə cəlb olunur, tələbələr, müəllimlər və valideynlər qarşısında çıxışlar edir, auditoriyadankənar işin təşkilinə kömək göstərirlər.

Ayrı-ayrı kolleclərdə (Azərbaycan Dövlət Pedaqoji Kollecində, Ağdaş Dövlət Humanitar Kollecində, Bakı İdarəetmə və Texnologiya Kollecində) müəllimlər hüquq tərbiyəsi və tələbələrdə hüquqi mədəniyyəti, hüquq düşüncəsi formalaşdırmaq baxımından təlim prosesinin imkanlarından səmərəli istifadə etməyə çalışırlar. Onlar ayrı-ayrı mövzular üzrə sənədli materiallar seçməklə bərabər, əyani vəsait kimi diafilm və kinofilmlərə, plakatlara müraciət edirlər. Tələbələr özləri də tematik albomlar, cədvəl və sxemlər hazırlayır, kitablardan, mətbuatdan materiallar toplayaraq sinifdəki çıxışlarında onlardan faydalanırlar.

Azərbaycan Respublikasının Konstitusiyasının əsasları fənnindən dərs aparan müəllimlər tələbələrin biliklərini yoxlamaq məqsədilə hüquqa dair çalışmalardan, tapşırıq və testlərdən istifadə edirlər. Fənnin tədrisi tələbələrdə mənəvi və hüquqi inamın yaradılmasına və vətəndaşlıq şüurunun formalaşmasını orta ixtisas məktəbinin göstərdiyi təsirin səmərəli formasıdır.

Kolleclərin kitabxanalarının qanunçuluğa və hüquqa dair həm elmi-kütləvi məlumat xarakterli, metodik məzmunlu ədəbiyyatla, həm də dövlət və hüquq məsələlərinə aid əyani vəsaitlə təmin edilməsi istər pedaqoji kollektivin üzvlərinə, istərsə də tələbələrə son dərəcə böyük kömək göstərir. Hüquq pedaqogikası, tələbələrin hüquq maarifi və tərbiyəsi məsələlərinin elmi-pedaqoji yönümdən işlənib hazırlanması, əsasları, insan və cəmiyyət fənlərinin məzmunu, fənlərin istər təlim prosesi, istərsə də dərsdən sonra aparılan tədbirlər üzrə öyrənilməsinin təşkili və metodu probleminə aid səmərəli metodikanın hazırlanması günün ən vacib tələblərindən biridir.

Tələbələrin hüquq mədəniyyətinin formalaşdırılmasında qanunçuluğa dair jurnallar, həmçinin pedaqoji mətbuat müstəsna dərəcədə böyük əhəmiyyət daşıyır. Qanunlarımızın, hüquq qaydalarının, etik normaların öyrənilməsi istiqamətində dərnəklərin yaradılması və səmərəli fəaliyyət göstərməsi tələbələrdə tədris olunan materialların yüksək səviyyədə öyrənilməsinə şərait yaradır. Qanunun

aliliyini nümayiş etdirən və qanunçuluğun tələblərini yerinə yetirməyi zərurətə çevirən sənədli, bədii filmlər, teatr və televiziya tamaşaları dərnəklərin işinə marağı artırır.

Tələbələrdə hüquq mədəniyyətini, hüquqi düşüncəni səmərəli şəkildə formalaşdırmaq üçün ara-sıra onları yeniyetmə və gənclərin məhkəmə proseslərinə aparmaq (həmin məhkəmə prosesləri qabaqcadan müəyyənləşdirilir) məsləhət bilinir. Nəzərə alınmalıdır ki, tələbələrin iştirak etdikləri bu məhkəmə prosesləri xüsusən yüksək səviyyədə aparılmalı, məhkəmə etikası son dərəcədə ciddi gözlənilməlidir. Belə olan təqdirdə tələbələr qanun qarşısında yüksək dərəcədə məsuliyyət hiss edəcək, qanunların tərbiyəvi əhəmiyyətinə və yüksək humanizminə, qanunçuluğun pozulması hallarına qarşı barışmazlığına inanacaqlar.

**Problemin aktuallığı.** Mövcud ədəbiyyatda mədəniyyət sistemində tələbələrin hüquq mədəniyyətinin yerinin və əhəmiyyətinin aydınlaşdırılması məsələsi nisbətən az nəzərdən keçirilir. Məqsədimiz həmin boşluğu doldurmaqdan ibarətdir.

**Problemin yeniliyi.** Məqalədə tələbələrin hüquq mədəniyyəti bir sistem şəklində nəzərdən keçirilir, hüquq mədəniyyətinin mədəniyyət sistemində yeri və əhəmiyyəti aydınlaşdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə tələbələrin hüquq tərbiyəsi işini təşkil etməkdə kolleclərin pedaqoji kollektivlərinə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Hüquq ensiklopedik lüğət. Bakı: Azərbaycan Ensiklopediyasının baş redaksiyası, 1991.
2. A.N. Abbasov. Şagirdlərin hüquq tərbiyəsi. Bakı: Maarif, 1983.

**А. Бадиров**

## РОЛЬ И МЕСТО ПРАВОВОЙ КУЛЬТУРЫ В СИСТЕМЕ ОБЩЕЙ КУЛЬТУРЫ

## РЕЗЮМЕ

Правовая культура является составной частью общей культуры личности, занимает в ней особое место. Личность (студент) не усвоившая общую культуру не может достигнуть развития правовой культуры на высшем уровне. Правовая культура отражает высокую степень развитости правового мышления.

Правовая культура означает знакомство с законодательством, проявление уважения к закону, а так же правильное понимание закона и целесообразное его применение.

Формальное знание законов вовсе не значит обладание высокой правовой культурой. Помимо этого необходимо уважительно относиться к закону и правильно применять и исполнять его.

**A. Badirov**

## THE ROLE AND PLACE OF LEGAL CULTURE IN THE GENERAL CULTURE

## SUMMARY

Legal culture is an integral part of the general culture of the person occupies a special place. Personality the student have not learned a common culture can not achieve development of legal culture at the highest level. Legal culture reflects a high degree of development of legal thinking. Legal culture is familiar with the law, respect for the law, as well as a proper understanding of the law and its application expedient. Formal knowledge of the law does not mean the possession of high legal culture. In addition, the need to respect the law and the right to apply and execute it.

*Redaksiyaya daxil olub: 08.12.2014*

# MƏKTƏBDƏNKƏNAR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞAGİRDLƏRLƏ İQTİSADİ TƏRBİYƏ ÜZRƏ APARILAN İŞLƏR

**Eyvaz Məmmədov,**
*Pedaqoji kabinetin müdiri*
*AMİ-nin Cəlilabad filialı*
E-mail: eyvazməmmədov@mail.ru

**Rəyçilər:** *prof.* P. Əliyev,
*dos.* T. Paşayev

***Açar sözlər:*** *məktəbdənkənar rtəhsil, iqtisadi təhsil, bazar iqtisadiyyatı, dərnək, sərgi*
***Ключевые слова:*** *внешкольное образование, экономическое образование, рыночная экономика, кружок, выставка*
***Key words:*** *out of school education, market economy, economy study, fair, circle*

Azərbaycan dövlətinin priaritet sahələrindən biri də ölkə iqtisadiyyatının inkişaf etdirməkdən ibarətdir. Bunun üçün bir-sıra hüquqi normativ sənədlər mövcuddur.

Ölkədə bazar iqtisadiyyatının siyasəti həyata keçirilir. Belə bir şəraitdə məktəbli gənclərin də üzərinə böyük məsuliyyət düşür.

Məktəblilər, onların təlim-tərbiyəsi ilə məşğul olan müəllimlər, təhsil müəssisəsinin rəhbərləri iqtisadi təhsili ön plana çəkməli, şagirdlərin bu sahəyə marağının artırılmasına istiqamət verməlidirlər.

Əlbətdəki, imkan və şərait, uşaqların yaş səviyyələri, dünya görüşləri nəzərə alınmalı, onları bazar iqtisadiyyatı çərçivəsində iqtisadi biliklərlə silahlandırmalıdırlar.

Bildiyimiz kimi, respublikanın şəhər və rayonlarında Təhsil nazirliyinin tabeliyində fəaliyyət göstərən 25.092 məktəbdənkənar təhsil müəssisələri vardır və onların hər biri müəyyən təcrübəyə malik olmaqla müəyyən iş görürlər.

Bir çox rayon və şəhər təhsil müəssisələrində əl işlərindən ibarət sərgilər keçirilir, müxtəlif növ idman yarışları təşkil olunur və bu tip tədbirlər əsasən öz fəaliyyət xarakterli olur. Fərqlənən uşaqlara fəxri-fərmanlar və müəyyən bir qisminə isə pul mükafatı verilir.

Qeyd etmək lazımdır ki, məktəbdənkənar təhsil müəssisələrinə şagirdlər öz həvəslərilə məktəb və dərs saatlarını başa vurduqdan sonra gəlirlər. Onların maraqlarını müəyyən miqdarda gəlir götürmək (kimiç) marağa istiqamətləndirmək yerinə düşərdi. Bu məqsədlə şagirdləri məktəbdənkənar təhsil müəssisələrinin yerləşdiyi rayonun, şəhərin şəraitinə uyğunlaşdırmaq və onların iqtisadi tərbiyəsinin inkişaf etdirilməsi məqsədəuyğun olardı.

Ümumtəhsil, məktəbdənkənar təhsil müəssisəsi, texniki peşə məktəblərin yeniyetmə və gəncləri təhsil aldıqları müddətdə həmdə bir sıra əmək tələb edən sahələri öyrənirlər və lazım gəldikdə daxili imkanlar hesabına hazırlanmış əl işlərinin sərgisini və onların satışını həyata keçirirlər.

Məktəbdənkənar təhsil müəssisələrinə təhsilə cəlb edilmiş şagirdlərin böyük əksəriyyəti ümumtəhsil məktəblərin və təhsil alanlardır. Onları əməyə hazırlamaq üçün müəyyən işlər görmüş və hal-hazırda görülməkdədir.

Məktəbdənkənar təhsilə cəlb edilmiş şagirdlər bir növ əlavə biliklər əldə etmək məqsədilə könülülük prinsipi ilə bu müəssisəyə gəldiyini nəzərə alaraq onların müəyyən hissəsini iqtisadi biliyin inkişafına yönəltmək məqsədə uyğun tədbir olardı. Bu məqsədlə təsərrüfat işlərinə, evdarlıq fəaliyyətinə, idmanın müəyyən növü ilə məşğul olmağa üstünlük verilməsi daha yaxşı olardı. Bakı, Şəki, Şirvan, Cəlilabad və s. rayon və şəhərlərdə fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrində şagirdlərin iqtisadi tərbiyəsinin inkişafına müəyyən diqqət yetirmişdir.

Cəlilabad rayonunda beş məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Şahmat klubu, Uşaq İdman mərkəzi, Ekoloji tərbiyə birliyi, Uşaq Yadıcılıq və Texniki yaradıcılıq mərkəzləri fəaliyyət göstərir. Bu qurumlara 1641 nəfər uşaq-gənclər cəlb edilmişdirki, onlarda 99 qrup fəaliyyət göstərir. Onların təhsili və tərbiyəs ilə 76 nəfər müəllim-tərbiyəsi məşğul olur. Bu müəssisələr digər dövlət müəssisələr kimi büdcə vəsaiti hesabına fəaliyyət göstərir və onlar da öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar. Bu mərkəzin öz fəaliyyətində tərbiyə işinə xüsusi diqqət verirlər.

Araşdırma nəticəsində aydın olmuşdur ki, şagirdlərin əl işlərindən ibarət geniş həcmli iqtisadi sərgilərm təşkil etmək mümkün deyil. Məktəbə ayrılan maliyyə vəsaiti ilə ancaq müəllimlərin əmək haqqısı ödənilir. Satış sərgisi hazırlamaq və həyata keçirmək üçün əlavə vəsait lazımdır ki, xammal alınmalı gələcək sərgilər üçün baza yaranmalıdır. Təhsil müəssisələri öz daxili imkanlar hesabına sinif və məktəb səviyyəsində sərgilər keçirirlər.

Bizim əsas məqsədimiz ondan ibarətdir ki, məktəbdən kənar müəssisələr uşaqların iqtisadi həvəsləndirmə fəaliyyətini önə çəksinlər.

Məktəblərin imkanını, yerli şəraitini və ənənəsini nəzərə alaraq Mərkəz rəhbərləri ayrı-ayrı qruplarda proqram dəyişiklikləri etməklə və əməklə bağlı dərnəklər (evdarlıq, tikiş, dəmirçilik, xalı-xalçaçılıq, meyvəçilik, istixanalıq, zəmbil-səbətçilik, balıqçılıq, arıçılıq, baramaçılıq və s.) fəaliyyət göstərə bilər. Yerlərdə meyvə yığmaq üçün səbətlərin, qutuların, tinliklər üçün şitilliklərin, istixanalar üçün kiçik ölçülü avadanlığın, ev, yataqxana və mehmanxanalar üçün pərdə, yastıqüzü, dəsmal və s. hazırlamaq yaxşı olardı.

Belə deyim var, dünya gör-götür dünyasıdır. Bunu əsas tutaraq uşaqların sinifdənxaric, məktəbdənkənar tədbirlərə cəlbi əhəmiyyətlidir. Yaxşı olardı ki, ilk əvvəl uşaqlar yaşadığı rayon ərazisində gəzintiyə çıxmalı, sonra isə qonşu rayonları görməlidirlər. Bu tədbir uşaq və yeniyetmələrin inkişafına dünyagörüşünün formalaşmasına, vətənə məhəbbət hissinin aşılanmasına gətirib çıxardan amillərdəndir.

Azərbaycanın prezidenti çox hörmətli cənab İlham Əliyevin xüsusi göstərişi ilə 2014-cü ildə «Ölkəmizi tanıyaq» layihəsi əsasında respublikamızınayrı-ayrırayonlarındanolan məktəblilərdən ibarət qruplar respublikamızın müxtəlif regionlarına uşaqların ekskursiyaya göndərilməsi bu baxımdan böyük əhəmiyyət daşıyan bir tədbirdir.

Yeri gəlmişkən göstərək ki, Cəlilabad rayonunun məktəblərindən 40 nəfərin dövlət əhəmiyyətli diyarlarla tanışlıq səfərləri baş tutmuşdur. Bu əlbətdə uşaq və gənclərin bu cür səfərləri tərbiyəvi əhəmiyyət daşıyır. Uşaqlar getdikləri rayon və şəhərlə, onun tarixi-mədəniyyət abidələri ilə Azərbaycanın iqtisadi inkişafı sahələri ilə yaxından tanış olur və respublikamız haqqında müəyyən biliklərə sahib olurlar.

Bu tədbirə görə Dövlət başçımız cənab İlham Əliyevə şagirdlər və onların müəllimləri minnətdarlıqlarını bildirirlər.

Fikrimizcə məktəbdənkənar təhsil müəssisələrində təhsil alan şagird və yeniyetmələrdə təhsillə yanaşı sənətə, məhsul istehsal edilməsinə və həmin istehsal olunan məhsuldan müəyyən gəlir əldə etməsinə marağı artırmaq lazımdır. Yaxşı olardı ki, hər bir rayonda məktəb satış mağazası- «Gənclərin texniki» masası təşkil edilsin. Burada tərbiyə var, burada gəlir var, burada zəhmət var, burada dünyagörüşün inkişafı var və s.

Problemin aktuallığı: -Məktəbdənkənar təhsil müəssisələrində təhsil alan şagirdlər təhsillə yanaşı sənət, məhsul istehsalına, yeni iqtisadi dərnəklərdə iqtisadi marağın yüksəldilməsindən ibarətdir.

Problemin elmi yeniliyi: – uşaq və yeniyetmələrin iqtisadi tərbiyəsinin inkişaf etdirilməsi məsələləri.

Problemin praktik əhəmiyyəti - Məktəbdənkənar təhsil müəssisələrində iqtisadi tərbiyə məsələlərinin yüksəldilməsində rol oynayacaqdır.

## ƏDƏBİYYAT

1. «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası». «Azərbaycan müəllimi» qəzeti 25.10.2013-cü il.
2. AZTN Google.az.məktəbdənkənartəhsil.
3. A.N.Abbasov, Pedaqogika. Bakı, 2010.
4. T.S.Paşayev «Məktəbdənkənar tədbirlər təlim keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi» Beynəlxalq konfrans materiallar 16-17 dekabr. 2014-cüil. Naxçıvan şəh.

**Э. Мамедов**

## ВНЕШКОЛЬНЫЕ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯ И ЭКОНОМИЧЕСКОЕ ВОСПИТАНИЕ УЧАЩИХСЯ

### РЕЗЮМЕ

В статье говорится о многоотраслевом внешкольном образовании. Одним из этих отраслей является экономическое воспитание. Экономические вопросы занимают особые места в политике рыночной экономики Азербайджанской Республики, в образовании подростков и молодежь.

Во внешкольном образовании для получения экономической воспитании молодежи и подростков, особое значение имеет участие их на районных выставках по продажи республики.

**E. Mammadov**

## ECONOMIC EDUCATION AT THIS OUT OF SCHOOL INSTITUTES

### SUMMARY

There are many different fields in out of school education. One of them is economy study. There is a girl priority of learning economical problems in youth education, adopted by Azerbaijan Republic.

It has effective way to have economy study of young people at the Government schools, as well as at the institutes of out of school education, by the way providing their participation in the business fair in regions.

The article deals with these problems.

*Redaksiyaya daxil olub: 18.12.2014*

# AİLƏNİN YENİYETMƏYƏ MƏNFİ TƏSİRİNİN NEYTRALLAŞDIRILMASI ÜZRƏ İŞDƏ İSTİFADƏ OLUNAN TƏRBİYƏ METODLARI

**Gülnar Məmmədova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: gulnar.memmedova.83@mail.ru

**Rəyçilər:** *prof.* A. Abbasov,
*prof.* P. Əliyev

***Açar sözlər:*** *uşağın tərbiyəsində valideynin rolu, metod, tərbiyənin metodları, priyom, tərbiyənin priyomları*

***Ключевые слова:*** *роль родителя в воспитании ребенка, метод, методы воспитания, прием, приемы воспитания*

***Key words:*** *the role of parents in the upbringing of the child, method, methods of upbringing techniques, techniques of upbringing*

Uşaq anadan olandan sonra valideynin ilk vəzifəsi onu qayğı ilə əhatə etmək, qidalanması, gigiyenası, sağlamlığı və tərbiyəsi qayğısına qalmaqdan ibarət olur. Uşaq ilk tərbiyəni ailədə alır. Bu tərbiyə işlərini nuclear ailə şəraitində - valideynlər, mürəkkəb ailə mühitində ata-analar və onlarla yanaşı, baba və nənələr, əmi, dayı, böyük bacı və qardaşlar, bir sıra hallarda dayı və xala məşğul olur. Lakin tərbiyə işi şərəfli olmaqla bərabər mürəkkəb və uzunsürən prosesdir. Odur ki, ilk günlərdən tərbiyə prosesi düzgün qurulmalıdır ki, sonradan çətinliklər, natahatlıqlar və yenidəntərbiyə ilə məşğul olmağa ehtiyac qalmasın.

A.S. Makarenko təsadüfi olaraq valideynlərə müraciətlə demirdi: "Sizin öz davranışınız ən həlledici məsələdir. Elə bilməyin ki, siz uşağı yalnız onunla danışanda və ya onu öyrədəndə, yaxud ona əmr verəndə tərbiyələndirirsiniz. Siz onu öz həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və özgə adamlar haqqında necə danışırsınız, necə sevinir və necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar ediesiniz, necə gülürsünüz, qəzeti necə oxuyursunuz – bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır. …Özünüzə qarşı valideyn kimi tələbkar olun, öz ailənizə bir valideyn kimi hörmət edin, hər bir addımınızı valideyn kimi nəzarət altına alın – tərbiyənin birinci və ən əsas üsulu budur!" (1, 248).

Ailədə uşaq və yeniyetmələrin nümunəvi davranışına, düzgün rəftar və ünsiyyət bacarığına malik olmaq üçün tərbiyənin prinsiplərini və tətbiq olunacaq metodlara bələd olmaq və onlardan yerli-yerində istifadə etmək lazımdır.

Bu mənada tərbiyənin metodları barədə aydın təsəvvürə yiyələnmək və onlardan faydalanmaq əhəmiyyətli yer tutur. Tərbiyənin bir sıra metodları vardır, təcrübəli valideynlər yeniyetmələrlə işdə onlardan bacarıqla istifadə edirlər.

Tərbiyənin metodları dedikdə nəzərdə nə tutulur? Bu suala cavab tapmağa çalışaq.

Tərbiyə metodlarına aşağıdakı təriflər verilir:

1. A.N. Abbasov: "Tərbiyənin metodları dedikdə, tərbiyənin vəzifələrinə çatmaq üçün tərbiyəçinin (valideynin, müəllimin) istifadə etdiyi yol və vasitələr, üsullar sistemi başa düşülür. Tərbiyənin metodları tərbiyə prosesinin məqsəd və vəzifələrinə, məzmununa, uşaqların imkanlarına əsasən konkretləşdirilir" (6, 254).

2. L.N. Qasımova, R.M. Mahmudova: "Tərbiyə metodu müəllimin və uşağın özünə və dünyaya dəyərli münasibət formalaşdırmaq məqsədilə qurulan qarşılıqlı fəaliyyətin təşkili modelidir" (3, 383)

3. H.H. Əhmədov: “Tərbiyə metodları dedikdə, biz tərbiyə olunanların davranışına, hisslərinə, şüuruna konkret şəkildə təsir etmək yolu ilə birgə fəaliyyətdə pedaqoji vəzifələrin həlli, pedaqoji-tərbiyəçi ilə tərbiyə olunanların ünsiyyətini başa düşməliyik” (4 , 72)

4. F.N. İbrahimov, R.L. Hüseynzadə: “Tərbiyə metodları dedikdə, tərbiyə edənin və tərbiyə olunanın özünə, ətrafdakı insanlara və ətraf aləmə düzgün münasibət formalaşdırmaq məqsədilə qurulan qarşılıqlı fəaliyyətin təşkili modelidir” (5, 331).

5. İ.F. Xarlamov: “Tərbiyənin metodları dedikdə, şagirdlərin rəngarənş fəaliyyətinin təşkili prosesində onlarda tələbat-motivasiya sahəsi, şüur, hisslər, baxışlar və əqidə, davranış vərdişləri və adətləri kimi şəxsiyyət keyfiyyətlərininin komponentlərini inkişaf etdirmək, həmçinin onların təshihi və təkmilləşdirilməsi üçün səciyyəvi üsullar və priyomlar başa düşülür” (6, 166).

6. “Tərbiyənin metodları – tərbiyənin məqsədlərinin həyata keçirilməsi üsullarıdır. Tərbiyənin metodları - tərbiyə vəzifələrinin yerinə yetirilməsi və müəllimlərin və şagirdlərin tərbiyəvi qarşılıqlı fəaliyyətinin həyata keçirilməsi üsullarıdır. Tərbiyənin metodları tərbiyə prosesinin komponentlərindən hər birinin vəzifələrinin yerinə yetirilməsinin müvəffəqiyyətini təmin edən başlıca vasitələrdir” (7).

Deyilənlərə əsasən, biz tərbiyənin metodlarına belə tərif verə bilərik: tərbiyənin metodları dedikdə, müəllim-tərbiyəçilərin şagirdlərlə birgə fəaliyyətində (ünsiyyətində) pedaqoji vəzifələri yerinə yetirmək üçün təhsilalanların şüuruna, hisslərin və davranışına təsirin konkret yolları nəzərdə tutula bilər.

Valideynlər iclasında, yaxud ata-anaların pedaqoji maariflənməsi məqsədilə ümumi təhsil məktəblərində təşkil olunan valideyn universitetlərində yeri gəldikcə yuxarıda diqqət mərkəzinə gətirdiyimiz təsnifatlarla onları tanış etmək faydalıdır. Bu, onların pedaqoji maariflənməsi, pedaqoji savada malik olmalarına və ailədə tərbiyə təcrübəsinə yiyələnmələrinə kömək göstərir.

Valideynlər öyrənirlər ki, məzmun baxımından tərbiyə metodları aşağıdakı vasitələrlə reallaşır: tərbiyəçinin tərbiyə olunana bilavasitə təsiri; xüsusi şəraitlərin, situasiya və vəziyyətlərin yaradılması; tərbiyə olunan insan üçün nüfuzlu olan referent qrupun ictimai rəyi, kütləvi informasiya vasitəsi; tərbiyəçinin tərbiyə olunanla birgə fəaliyyəti, onunla ünsiyyəti, oyun; təlim və yaxud özünütəhsil prosesləri, sosial təcrübənin ailə mühitinə ötürülməsi, dostcasına ünsiyyət, peşə ünsiyyəti; xalq ənənələri, yaradıcılıq, bədii ədəbiyyatın mütaliəsi və s. vasitəsilə.

Uşaqların tərbiyəsi məsuliyyətli, ciddi və yaradıcı işdir. Odur ki, tərbiyə işi ilə məşğul olan şəxs “Necə?” sualına cavab axtarır. Uşağı necə sakitləşdirməli, onunla necə danışmalı, onu necə qidalandırmalı, soyuqdan necə qorumalı, necə əyləndirməli, onun inamını necə qazanmalı, onun düzgün tərbiyəsinə necə nail olmalı? Bütün bu suallar tərbiyənin, daha səhih deyilsə, tərbiyə etmənin metodları ilə əlaqədardır.

Mənbələrdə “metod” anlayışı hansısa məqsədə çatmağın, bu və ya digər fəaliyyətə yetməyin üsulu kimi nəzərdən keçirilir. Ona görə də tərbiyə metoduna valideynin, tərbiyəçinin və müəllimin fəaliyyətinin üsulu kimi baxıla bilər. Tərbiyə metodunun yeniyetmə (uşaq) şəxsiyyətinin motivasiya-dəyər mühitinə məqsədyönlü müraciət üsulu kimi də nəzərdən keçirilməsi mümkündür.

Professorlar Ə.X. Paşayev və F.A. Rüstəmov tərbiyə metodlarının seçimini müəyyən edən ümumi səbəblərin aşağıdakılardan ibarət olduğunu göstərirlər: “1. Tərbiyənin məqsəd və vəzifələri. 2. Tərbiyənin məzmunu. 3. Şagirdlərin (bizim tədqiqatda yeniyetmələrin – G.M.) yaş xüsusiyyətləri. 4. Kollektivin formalaşma səviyyəsi. 5. Şagirdlərin fərdi və şəxsiyyət xüsusiyyətləri. 6. Tərbiyə şəraitləri. 7. Tərbiyə vasitələri. 8. Pedaqoji kvalifikasiya (ixtisas) səviyyəsi. 9. Tərbiyə üçün vaxt. 10. Gözlənilən nəticələr” (8, 301-310.

Professorlar tərbiyə metodlarının seçimini müəyyən edən ümumi səbəbləri aydınlaşdırarkən həmin səbəbləri təhsilalanlarla – şagirdlərlə tərbiyə işlərinə aid edirlər. Həmin səbəbləri ailə tərbiyəsinə də aid oluna bilər və bu zaman “şagirdlər” əvəzinə “uşaq və yeniyetmələr” obyekt götürülür.

Pedaqoji ədəbiyyatda tərbiyənin metodlarını müxtəlif şəkildə təsnif edirlər.

Valideynlər daha geniş yayılmış tərbiyə metodları ilə də tanış edilirlər. Onları yada salaq:

Professorlar Ə.X. Paşayev və F.A. Rüstəmov dərsdənkənar təhsil-tərbiyə metodlarını üç qrupa bölürlər: 1. Şüuru formalaşdıran metodlar. 2. Fəaliyyəti təşkil edən və davranış təcrübəsini formalaşdıran metodlar. 3. Davranışı və fəaliyyəti stimullaşdıran metodlar.

Birinci qrup metodlara nəql etmə; izah etmə; aydınlaşdırma; mühazirə; etik və estetik söhbət; öyüd-nəsihət; təlqin etmək; təlimat vermə;, disput; məruzə; nümunə; ikinci qrup metodlara çalışma; alışdırma; pedaqoji tələb; ictimai rəy; tapşırıq; tərbiyəedici situasiya; üçüncü qrup metodlara isə, yarış; rəğbətləndirmə və cəzanı daxil edirlər.

Prof. A.N. Abbasov aşağıdakı tərbiyə metodları qrupunu diqqət mərkəzinə gətirir: 1. Şüura, ağıla, idraka təsir göstərən metodlar (başqa sözlə, "inandırma metodlar". 2. Fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar (başqa sözlə, "alışdırma metodları"). 3. Şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar (başqa sözlə, "rəğbətləndirmə və cəzalandırma metodları"). 4. Müəllimin şəxsi nümunəsi. 5. Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə (başqa sözlə. "tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təhlili) metodu" (2, 254-265)

Prof. N.M. Kazımov tərbiyənin mərhələlərinə əsasən metodları belə qruplaşdırır: "1. Davranış və fəaliyyətlə əlaqədar mənəvi dəyərlərin ilkin qavranılmasına xidmət edən üsullar. 2. Həmin mənəvi dəyərlə əlaqədar tərbiyə olunanlarda anlayışın formalaşdırılmasına xidmət edən üsullar. 3. Mənəvi dəyərlə əlaqədar davranış və fəaliyyətin təşkilinə xidmət edən üsullar. 4. Davranış və fəaliyyətə nəzarət; nəticələrin yoxlanması və qiymətləndirilməsinə xidmət edən üsullar" (9, 288).

Prof. H.H. Əhmədov tərbiyə metodlarını cəmiyyətin humanistləşdirilməsi və demokratikləşdirilməsi dərəcəsindən asılı olaraq müqayisəli şəkildə təsnif edir. Bu zaman avtoritar pedaqogikanın, pravoslav pedaqogikanın və humanist pedaqogikanın metodlarını qarşılaşdırır. Diqqət yetirək: I. avtoritar pedaqogikanın metodları: informasiyavermə, pedaqoji tələb, təmrinlər, tapşırıqlar, qəlqinetmə, söhbət, fərdi nəzarət, tənbeh. Təqlid, cəza, məcburetm. II. Pravoslav pedaqogikanın metodları: informasiya, nümunə, öyrədilmə, söhbət, mühazirə, tərif, mühakiməetmə, şəxsi nümunə, təqdiretmə, yenidəninandırma, tələb-norma, təqlid, fərdi nəzarət, korreksiya, özünənəzarət, özünütəhlil, özünütəhsil, özünütəlqin. III. Humanist pedaqogikanın metodları: ilkin tələb, nümunə, tədris şəraitinin yaradılması, oyun, öyrətmə, inam, şəxsi nümunə, mühazirə, cavablandırma, təqdiretmə, tapşırıqvermə, korreksiya, mükafatlandırma, disput, izah etmə, söhbət, tərif, yarış, perspektiv fədlər sistemi, əxlaq müvəffəqiyyəti şəraiti, tərbiyəedici şərait, özünənəzarət, özünümüşahidə, özünütəhsil, özünütəsdiq, özünüvəzifələr, özünəinam, özünücəzalandırma, pedaqoji əməkdaşlıq " (3, 76).

Tərbiyə metodlarının aşağıdakı qruplar üzrə təqdim olunma hallarına da rast gəlinir:

1. Ənənəvi – inandırma, alışdırma, rəğbətləndirmə, cəzalandırma, nümunə.
2. İnnovasiya fəaliyyətili – modelləşmə, alqoritmləşdirmə, yaradıcı invariantlıq.
3. Qeyri-formal – şəxsiyyətlərarası – şəxsiyyəti ilə dəyərli insanlar vasitəsilə tərbiyə
4. Treninq-oyun tipli – işgüzar oyunlar, sosial-psixoloji treninqlər və s.
5. Refleksiv - öz "Mən"ini və gerçəkliyi dərk etməklə.

Pedaqoqlar eyni zamanda tərbiyənin metodlarını a) şüuru formalaşdıran metodlara; b) davranışı formalaşdıram metodlara; c) hissləri və münasibətləri formalaşdıran metodlara bölürlər.

Davranışı formalaşdıran metodlara nümunə: Ana məktəbdən qayıdan oğlunu dayanacaqda gözləyir. Avtobus gəlib dayanır. Ana salona göz gəzdirir. Oğlunun oturacaqdan qalxaraq çıxışa sarı gəldiyini görür. Ana bir daha salona baxır. Oğlunun bayaq oturduğu yerə bir qadının yaxınlaşaraq, əyləşdiyini müşahidə edir. Ana yadına salmağa çalışır. Bayaq salona göz gəzdirəndə həmin qadın oğlunun başı üzərində dayanmışdı.

Ana oğlunun qoluna girərək söhbətə tutur:

-Özündən böyüklərə avtobusda niyə yer vermirsən?

-Ana, elə yorulmuşdum ki...

Ana onu başa salmağa çalışır. Yeniyetmə səhvini anlayır. Evə gəlirlər. Oğlu nahar etdikdən sonra əlində tutduğu kitabı ona uzadır:

-Bu hekayəni oxu.

O oxumağa başlayır:

“*Babək. Böyüklərə hörmət elə...*

(hekayə)

İlqar oxuduğu məktəbdən bir-iki dayanacaq aralıda yaşayırdı. Buna görə də çox vaxt oxuduğu məktəbə avtobusla gedirdi. İlqarın qəribə xasiyyəti vardı. Avtobusda boş yer görən kimi tez oturardu, üzünü də pəncərəyə çevirərdi ki, avtobusa minən olanda ona yer verməsin.

Bir dəfə o yenə məktəbə gedirdi. Həmişəki kimi pəncərədən çölə baxırdı. Amma avtobusdakı danışıqları da eşidirdi. Sinif yoldaşı Tofiqin səsi idi:

-Dayı, əyləşin.

Yenə səs eşidildi:

-Ay bala, zəhmət çəkmə. Sən otur. Burada bir oğlan da var. İstəyirəm o mənə yer versin.

Səs İlqara yaxınlaşdı. Həmin kişi İlqarın başı üzərində dayanmışdı. Səs İlqara tanış gəlirdi. O, üzünü çevirəndə atasını gördü…”

Ana yeniyetmə oğlanın başı üzərində dayanmışdı. Anası dillənməyə macal tapmamış o, dilləndi:

-Anacan, hər şeyi başa düşdüm. Bu hekayə mənə dərs oldu.

P.İ. Pidkasistinin təsnifatı ilə tanış olaq: “1. Tərbiyə olunanların dünyaşörüşünü formalaşdıran metodlar. 2. Tərbiyə olunanların fəaliyyətini təşkil edən və onun motivlərini stimullaşdıran metodlar. 3. Tərbiyə olunanların hərəkətlərinin qiymətləndirilməsini həyata keçirən metodlar» (7).

V.A. Karakovski tərbiyə metodlarının altı qrupunu fərqləndirir: “1. Sözlə tərbiyə metodları. 2. İşlə tərbiyə metodları. Situasiya ilə tərbiyə metodları. 4. Oyunla tərbiyə metodları. 5. Ünsiyyətlə tərbiyə metodları. 6. Münasibətlərlə tərbiyə metodları” (10)

Prof. N.E. Şurkova pedaqoji aləmdə geniş yayılmış üç əsas metodun üzərində dayanır və onların mahiyyətini açır. Həmin metodlar bunlardır: “inandırma metodu. Alışdırma metodu və qiymətləndirmə metodu” (11, 472)

Pedaqoji biliklər universitetinin üzvləri olan valideynlər öyrənirlər ki, son zamanlar tərbiyə prosesində təsir məqsədilə tərbiyə olunanlara psixoterapetik metodlardan istifadə edilir. Həmin metodlar bunlardır: təlqin, ruhlandırma, icazə vermə, nəvazişlə müraciət, emosional çağırış, icazə vermə, öz təəssüratını təhlil etmə, düşünmə, refleksiya, saymazlıq, etinasızlıq, sıxışdırıb aradan çıxarmaq, təzyiq və s.

Metodların həyata keçirilməsindəki fərq metodun hissələri olan tərbiyənin priyomlarından irəli gəlir ki, bu da müəllimin konkret fəaliyyətini müəyyənləşdirir.

İnandırma tərbiyə işində aparıcı metoddur, ətraf gerçəkliyə şüurlu münasibəti inkişaf etdirmək üçün uşaq və yeniyetmənin şüuruna, iradə və hisslərinə təsirin üsullarındandır. Tərbiyədə inandırma metodu ictimai, yaxud şəxsi həyatın fakt və hadisələrini aydınlaşdırmaq, baxışları formalaşdırmaq üçün şagirdin şüuruna təsir yoludur. Haqqında danışılan metod böyüməkdə olan nəslin baxışlarını, onun davranışının, hərəkətinin və fəaliyyətinin motivlərini formalaşdırır. İnandırma metodlarının növləri bunlardır: nəql, söhbət, izah, disput.

Alışdırma metodu – müxtəlif və təkrar olunan işlə zamanı şagirdlərin fəaliyyətinin idarə olunması metodudur. Alışdırma mənəvi davranışın sosial dəyərli və şəxsiyyətyönümlü əhəmiyyətli fəaliyyətinin və hərəkətlərinin dönə-dönə təkrar olunması, möhkəmləndirilməsi, və təkmilləşdirilməsi kimi nəzərdən keçirilir. Tərbiyənin bu metodunun köməyilə müntəzəm şəkildə yerinə yetirilən hərəkətlər davranış, rəftar və ünsiyyətin ilkin formalarına çevrilir.

Ana uşaqlarla söhbət aparır:

- Dərsdən gələn kimi paltarlarınızı dəyişməli, yuyunmalı, yalnız bundan sonra süfrənin başına keçmək lazımdır.

-Səhər yuxudan duranda əvvəlcə yatağınızı yığışdırmalı, əl-üzünüzu, dişlərinizi yumalı, səhər yeməyinə oturmalı, sonra paltarlarınızı dəyişib məktəbə yollanmalısınız. Çantanız axşamdan hazır olmalıdır ki, səhərlər onu qablaşdırmaq üçün vaxt itirməyəsiniz. Ayaqqabılarınız da axşamdan təmizlənməlidir.

Ana bu söhbətlərlə uşağın şüuruna təsir göstərmək, yeniyetmənin vaxtında görməli olduğu işlərin vacibliyinə onda inam yaratmaq məqsədi güdür. İnandırma metoduna müraciət edir. Bu metod təsirsiz olduqda alışdırma metodunun imkanlarından faydalanır. Diqqət edək.

Aparılmış izahat işlərinə baxmayaraq, yeniyetmə səhər duran kimi məktəb formasını əyninə geyinir (dərsə gecikəcəyindən qorxur, hansı ki, bayaqdan ana yuxudan oyatmaq üçün neçə dəfə onu səsləyib), vanna otağına keçib tələm-tələsik yuyunub süfrə başına keçir. Ana fikir verir ki, o, dişlərini təmizləmədi, əlini sabunsuz yudu.

Ana onu başa salır, bir daha səhərlər nə etməli olduğunu ona xatırladır. Növbəti səhər yenə həmin vəziyyət təkrar olunur. Ana oğlundan təkidlə yataq otağına keçib yatağını yığışdırmağı tapşırır. Yeniyetmə:

-Ana, dərsə gecikəcəyəm.

Ana:

-Vaxtında durmaq lazımdır. Yatağını yığışdır. Və buna adət et.

Anasının təkid göstərdiyini görən yeniyetmə onun dediklərini yerinə yetirir. Bu dəfə ana onun öz dişlərini yumasına və əllərini sabunlamasına nail olur. Başqa sözlə, onu həmin hərəkətlərin icrasına alışdırır.

Rəğbətləndirmə uşaq və yeniyetmələrin uğurla yerinə yetirilən fəaliyyət və hərəkətlərin ifadə olunması və stimullaşdırılması vasitəsi kimi özünü göstərir. Ailədəki yaxşı işlərinə, yaxşı davranış və rəftarına görə yeniyetmələri həvəsləndirmək lazımdır. Belə işlərə valideynin biganə qalması yeniyetməni xeyirxah və yaxşı işlərdən çəkindirə bilər.

Cəzalandırma tərbiyə olunanların davranışının mənfi qiymətləndirilməsi əsasında onun neqativ və xoşagəlməz fəaliyyətinin qarşısının alınmasına imkan verən təsir vasitəsidir. Ailədə uşağa verilən cəza ədalətli olmalıdır. VII sinif şagirdinin gözünün altı qaralıb. O, imkan daxilində bunu müəllimdən gizlətməyə çalışır. Parta arxasında əyləşəndə dirsəklənərək əli ilə sifətini tutur. Yeniyetmənin əhvalı pozğun, qanı qaradır. Müəllim sinif şagirdlərinin yanında ondan heç nə soruşmur, sıxıldığını görüb dərsi danışmağa da çağırmır. Tənəffüsdə üzünü Vasifə tutaraq ayaq saxlamasını tapşırır.

Məlum olur ki, atası onu şillə ilə vurmuşdur. Şillə möhkəm olduğundan gözünün altını da tutmuşdur. Yeniyetmə şikayətlənməsə də, müəllim onun atası ilə söhbət etmək qərarına gəlir. Vasifə bildirmədən onunla görüşür. Məlum olur ki, əslində ailədə ciddi bir hadisə baş verməmişdir. Yeniyetmələr bir-biri ilə mübahisə edirmiş. Ata da özünü saxlaya bilməyib onlardan birini döyüb. Söhbət zamanı ata səhvini boynuna alır. Bir daha elə qüsura yol verməyəcəyini bildirir. Müəllim görür ki, ata peşmançılıq hissi keçirir, müəllim söhbəti olmadan da səhvini başa düşüb.

Bir sıra hallarda xarici tərbiyəvi təsir lazımi nəticəni vermir. Bu təsirin müsbət və mənfi reaksiya ilə nəticələnməsi mümkündür, yaxud neytral ola bilər. tərbiyəvi təsir yeniyetmədə daxili müsbət reaksiya yaratdıqda, onda özü üzərində işləməyə tələbat oyatdıqda – səmərəli inkişafetdirici və formalaşdırıcı təsir göstərir. Valideyn tərbiyə zamanı yeniyetmədə özünütərbiyəyə həvəs və maraq oyatmalıdır.

**Problemin aktuallığı.** Ailənin yeniyetməyə mənfi təsirinin neytrallaşdırılması üzrə işdə rəhbər tutulan tərbiyə metodları diqqət mərkəzinə gətirilir.

**Problemin yeniliyi.** Ailədə yeniyetməyə mənfi təsiri neytrallaşdırmaq məqsədilə tətbiq edilməsi vacib bilinən tərbiyə metodları barədə məlumat verilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Valideynlər yeniyetməyə mənfi təsiri neytrallaşdırmaq üçün haqqında danışılan tərbiyə metodlarından faydalanacaqlar.

## ƏDƏBİYYAT


1. A.S. Makarenko. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1950.
2. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
3. L. Qasımova, R. Mahmudova. Pedaqogika: Ali məktəblər üçün dərslik. Bakı: Çaşıoğlu, 2012.

4. H.H. Əhmədov. Pedaqogika: Orta ixtisas məktəblərinin pedaqoji fakültələri üçün eksperimental dərs vəsaiti. Bakı: ABU, 2006.

5. F.N. İbrahimov, R.L. Hüseynzadə. Pedaqogika: Ali məktəblər üçün dərslik. 2 clilddə. 2-ci cild. Bakı: Mütərcim, 2013.

6. И.Ф. Харламов. Педагогика (краткий курс): Учебное пособие. Минск: Вышэйшая школа, 2004.

7.http://konc-ees.ru/pedagogika/metody-vospitaniya-i-ix-klassifikaciya-page-4.html.

8. Ə.X. Paşayev və F.A. Rüstəmov. Pedaqogika (Yeni kurs): Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007.

9. N.M. Kazımov. Məktəb pedaqogikası: Ali məktəblərin bakalavriat pilləsi tələbələri, habelə aspirant və dissertantlar, müəllimlər üçün. Bakı: Çaşıoğlu, 2002.

10. http://studentam.net/content/view/1649/127/

11. Н.Е. Щуркова. Методы воспитания. см.: Педагогика / Под. Ред. Проф. П.И. Пидкасистого: Учебное пособие. М.: Педагогическое общество России, 2001.

**Г. Мамедова**

## ВОСПИТАТЕЛЬНЫЕ МЕТОДЫ, КОТОРЫМИ РУКОВОДСТВУЮТСЯ В РАБОТЕ ПО НЕЙТРАЛИЗАЦИИ ОТРИЦАТЕЛЬНОГО ВОЗДЕЙСТВИЯ СЕМЬИ НА ПОДРОСТКА

### РЕЗЮМЕ

Для достижения примерного поведения детей и подростков в семье, правильного обращения и коммуникативных навыков необходимо знать принципы воспитания и применяемые методы, а также пользоваться ими, когда это необходимо. При этом особо важным является приобретение четкого представления о методах воспитания. Существует ряд методов, которыми опытные родители умело пользуются при работе с подростками.

В статье говорится о воспитательных методах, которыми руководствуются в работе по нейтрализации отрицательного воздействия семьи на подростка.

**G. Mammadova**

## EDUCATIONAL METHODS THAT GUIDE THE WORK TO NEUTRALIZE THE NEGATIVE IMPACT OF FAMILY ON TEEN

### SUMMARY

To achieve the exemplary behavior of children and adolescents in the family, proper handling and communication skills necessary to know the principles of education and the methods used, and use them when needed. It is particularly important is to acquire a clear understanding of the methods of education. There are several methods by which experienced parents skillfully use when working with adolescents.

The article refers to the educational practices that guide the work to neutralize the negative impact of family on teen.

*Redaksiyaya daxil olub: 09.12.2014*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞAGİRDLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR RUHUNDA TƏRBİYƏSİNİN YOLLARI

**İsmət Məmmədova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: ismet. memmedova@mail. ru
**Zeynəb Hüseynova,**
*laborant*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: zizideniz@yahoo. com

**Rəyçilər:** *dos.* M. İbadova,
*dos.* P. Həsənova

***Açar sözlər**: qloballaşma, müəllim, valideyn, nümunə, əxlaq tərbiyəsi, vətənpərvərlik tərbiyəsi*
***Ключевые слова:** глобализация, учитель, родитель, пример, нравственное воспитание, патриотические воспитание*
***Key words:** globalization, teacher, parents, formation, moral education, patriotic education*

Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusi aktuallıq kəsb edir.

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açmışdır. Bu proses tarixi-mədəni irsə, gənclərdə əxlaqi-mənəvi dəyərlərin formalaşmasına təkan vermişdir.

Müstəqil Respublikamızın mədəniyyət siyasətinin həyata keçirilməsindəki çətinliklərdən biri də qloballaşmadır. Bu gün qloballaşmaya ümumi mənada dünyalaşma və ya qlobal inteqrasiya kimi tərif verilir: "Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır". Başqa bir ifadə ilə qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin, milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Bu da o deməkdir ki, həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Qloballaşma prosesləri milli mədəniyyətin imkanlarını məhdudlaşdırır ki, bu da öz növbəsində mədəni siyasətə təsir göstərməyə bilməz. Müasir dövrümüzdə bu prosesin əxlaqi-mənəvi dəyərlərə təsiri özünü qabarıq şəkildə göstərir.

İnteqrasiya prosesinin zəruriliyi mənəvi dəyərlərimizin qorunub saxlanmasına və inkişaf etdirilməsinə qayğını müstəqil respublikamızın mədəniyyət siyasətinin əsas vəzifələrindən biri etmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf ruhda tərbiyələndirməyimiz dövlətimiz, xalqımız qarşısında ən zəruri vəzifələr olduğunu 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Hər bir xalqın ən qiymətli mirası həmin xalqın milli-mənəvi dəyərləridir.

Respublikamızın müstəqillik yolu ilə getdiyi bir vaxtda mili-mənəvi dəyərlərin qorunması və şagirdlərə aşılanması demək olar ki, xüsusilə aktuallıq kəsb edir.

Pedaqogika üzrə elmlər doktoru P. Əliyev milli-mənəvi tərbiyənin məzmununu aşağıdakı kimi müəyyənləşdirmişdir:

-əxlaq tərbiyəsi-mədəni davranış, hiss və vərdişlərin, şüurun formalaşması;

-etik tərbiyə-davranış və münasibətlər mədəniyyəti, yüksək ünsiyyət texnologiyalarından istifadə qaydalarının formalaşması;

-vətənpərvərlik tərbiyəsi-öz vətəninə sevgi, məhəbbət və məsuliyyət hissinin formalaşması, hər an öz vətəninin, öz xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması;

-milli və beynəlmiləl tərbiyə - milli ləyaqət və digər millətlərə, xalqlara hörmətin formalaşması;

- siyasi tərbiyə-siyasi şüurun formalaşması;

Məktəblilərin öz tarixi köklərinə, milli-mənəvi dəyərlərinə bağlı olması əsas amillərdən biridir. Biz adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi qoruyaraq, şagirdləri bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Ümummilli liderimiz Heydər Əliyev bu haqda demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır".

Şagirdlərin milli-mənəvi ruhda tərbiyəsində nümunə demək olar ki, ən təsirli vasitədir. Şagirdlərin şüurunun formalaşmasında ətrafdakı insanların nümunəsi böyük rol oynayır. Nümunə götürmək baxımından valideyn şəxsiyyəti birinci yerdə durur. Uşaqlarda müsbət mənəvi keyfiyyətləri formalaşdırmaq üçün tərbiyə edənin, hər bir fəaliyyətində həssas və diqqətli olması vacibdir. Müəllim adını, şərəfini yüksək tutan, öz şəxsi nümunələri ilə digərlərinə örnək olan müəllimlərin verdikləri göstərişi, tapşırıqları şagirdlər sözsüz və şüurlu yerinə yetirirlər.

Məktəblilərin yiyələndiyi mənəvi sərvətlərdən biri də hərbi-vətənpərvərlik tərbiyəsidir. Respublikamızın indiki şəraitdə olması, ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, əhalinin bir milyondan çoxunun öz vətənində köçkün və qaçqın şəraitində yaşaması şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi əhəmiyyət verilməsini tələb edir. Ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik tərbiyəsinin düzgün qurulması gənclərin hərbi xidmətə hazırlanmasının təməlini təşkil edir.

Vətənpərvərlik, insanın öz Vətəninə sevgi və sədaqətliliyindən onun tarixi, milli və mədəni dəyərləri üçün qürur hissi keçirməsindən, doğma vətənin siyasi, iqtisadi və mənəvi tərəqqisi naminə çalışmasından və onun müdafiəsinə daim can atmasından ibarətdir.

Hər bir xalqın tarixində elə mərhələlər olur ki, vətənpərvərliyin tərkib hissəsi sayılan hərbi vətənpərvərlik məfhumu ön plana çıxır. Bütövlükdə hərbi vətənpərvərlik tərbiyəsinin əsasını Vətən təəssübü, Vətən anlayışının aliliyi, hərbi anda sədaqət, Vətənin müdafiəsinə hazırlıq, milli rəmzlərə hörmət meyarı təşkil edir.

Məktəblilərimizdə vətənin keçmişi və indiki tarixi haqqında obyektiv biliklərə əsaslanan vətəndaşlıq hissi olmalıdır. Vətənpərvərlik vətəndaşın necə tərbiyə olunmasından çox asılıdır.

Şagirdlərə hərbi-vətənpərvərlik tərbiyəsinin hər tərəfli aşılanmasında müharibə veteranları və milli qəhrəmanlarla canlı görüşün rolu da böyükdür.

Məlum olduğu kimi, şagirdlər vaxtlarının çoxunu ailədə keçirir. Şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Böyüklərə hörmət, uşaqlara qayğı milli-mənəvi dəyərlərimizin başlıca amillərindəndir.

Hörmət hissi insana xas olan mənəvi dəyərdir. Özünə və cəmiyyət üzvlərinə hörmət etmək, qarşılıqlı münasibətlərdə alicənablıq, insanpərvərlik göstərmək deməkdir.

Başqalarına və özünə hörmət etməyi bacaran insan digər mənəvi dəyərləri də özündə birləşdirən insandır.

Şagirdlərin milli-mənəvi ruhda tərbiyə olunmasında məktəblə ailənin əlaqəli fəaliyyət göstərməsi əsas şərtlərdən biridir.

Valideynlər uşağın milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində məsuliyyət daşıyırlar. Onlar problemləri özləri dərk etməli, bunların uğurlu həllinə çalışmalı, yaxşı əxlaqı olan sağlam bir ailəyə malik olmalıdırlar.

Şagirdlərin milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edilməsi ümumtəhsil məktəblərinin qarşısında qoyulan mühüm vəzifələrdən ən ümdəsidir. Bu baxımdan təlimin təşkili

forması olan dərs geniş imkanlara malikdir. Fikrimizcə bu məqsədə nail olmaq üçün müəllimlərimiz ənənəvi dərslərlə yanaşı, qeyri-ənənəvi dərs formalarının imkanlarından da istifadə etməlidirlər.

Məktəbdə şagirdlərin milli-mənəvi ruhda tərbiyəsi təlim prosesində olduğu kimi məktəbdənkənar tədbirlərdə də diqqət mərkəzində saxlanılır. Şagirdlərin harmonik inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılması zamanı, onun mənəvi-əxlaqi keyfiyyətlərinin inkişafı məktəbdənkənar fəaliyyətində də özünü qabarıq şəkildə büruzə verir. Məktəbdənkənar fəaliyyətlərin daha sistemli və planlı şəkildə həyata keçirilməsi şagirdlərdə vətənpərvərlik, ədalətlilik, iradəlilik, məqsədlilik, humanizm, sosiallıq, tolerantlıq kimi bir sıra keyfiyyət və dəyərləri formalaşdırır. Bu amillər gələcəkdə təşəbbüskar, öz hüquq və vəzifələrinin öhdəsindən gəlməyi bacaran bir şəxsiyyətin yetişməsinə təkan verir.

Şagirdlərin hərtərəfli inkişafı, sərbəst və geniş dünyagörüşə malik olması üçün onun həyatını dar çərçivədən çıxarmaq və həyata olan inamının güclü olmasında ona dəstək olmaq lazımdır. Bu baxımdan valideynlərlə mütəmadi görüşlər keçirilməli, dərsdənkənar tədbirlərin səmərəli təşkili ilə bağlı sinif rəhbərlərinə, məktəbdənkənar təhsil müəssisələrinin tərbiyəçilərinə məsləhətlər verilməli, onlar tərbiyə işinin metodikası ilə tanış edilməli, müxtəlif tədbirlərin təşkil edilməsi üçün metodik işlənmələr hazırlanmalı və keçirilməsi təşkil edilməlidir.

Müasir tərbiyədə şagird-müəllim-valideyn münasibətlərinin yeni prizmada tənzimlənməsi, tərbiyə işində ideal məqsədin məzmununun müasir tələblər baxımından dəyişməsi, yeniləşməsi və təkmilləşməsi milli-mənəvi dəyərlərə kompleks yanaşmağı tələb edir. Şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunması üçün məktəb, valideyn və ictimaiyyətin vəhdəti gərəkdir ki, bu da tərbiyədə vahidlik prinsipinə əməl olunması deməkdir.

Müəllimlərimiz mütərəqqi mənəvi dəyərlərdən faydalanaraq, şagirdləri daha sağlam əhval-ruhiyyədə tərbiyələndirməlidirlər.

**Problemin elmi yeniliyi.** Məqalədə qloballaşma şəraitində şagirdlərin milli-mənəvi ruhda tərbiyəsinin mahiyyəti və başlıca istiqamətləri nəzərə çatdırılmışdır. Məktəblilərin dünyagörüşünün milli amillərdən asılılığı göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** məqalədən ümumtəhsil məktəbi müəllimləri, problemlə əlaqədar tədqiqat aparanlar, magistrantlar və doktorantlar bəhrələnə bilərlər.

## ƏDƏBİYYAT


1. Ağayev Ə., Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı: Maarif, 1975.
2. Ağayev Ə., Məktəblilərin mənəvi tərbiyəsi günümüzün reallıqları baxımında //Azərbaycan məktəbi, 2001, № 5
3. Axundov S., Həsənov A. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı: Maarif, 1991.
4. Əliyev P., Əhmədov H., Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006.
5. Əliyev R. Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007.
6. Əliyev R. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
7. Qaralov Z. Tərbiyə. I hissə. Bakı: Pedaqogika, 2003.
8. Алиев Г.А. Национально-духовные ценности. Баку, 2007.


**И. Мамедова, З. Гусейнова**

## ПУТИ ВОСПИТАНИЯ УЧАЩИХСЯ В ДУХЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

## РЕЗЮМЕ

В статье раскрываются пути формирования национально-духовных ценностей на современном этапе глобализации. Воспитание учащихся в духе национально -духовных ценностей реализуется не только в процессе обучения, но и во внешкольных мероприятиях. В этом процессе родители и педагоги должны работать совместно и следовать принципу единства в воспитании.

**I. Mammadova, Z. Huseynova**

## WAYS OF EDUCATION OF PUPILS IN THE SPIRIT OF NATIONAL AND SPIRITUAL VALUES IN THE CONTEXT OF GLOBALIZATION

**SUMMARY**

The article describes the ways of formation of national and moral values of pupils in the context of globalization. National and moral education of pupils is kept in out-of school arrangements as in the learning process. In this area school should work together with the family and follow the principle of uniformity in education.

*Redaksiyaya daxil olub: 12.12.2014*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN MƏNƏVİ-ƏXLAQİ İNKİŞAFI VƏ TƏRBİYƏSİ

**Sevda Cabbarova,**
AMİ Zaqatala filialının müəllimi
E-mail: Sevazase@mail.ru

**Rəyçilər:** *dos.* İ. Sultanova,
*dos.* N. Rzayeva

***Açar sözlər:*** *qloballaşma, inteqrasiya ,planetar inkişaf, modernizasiya, mənəvi dəyərlər, müasir təfəkkür*
***Ключевые слова:*** *глобализация, интеграция, планетарная цивилизация, модернизация, нравственные ценности, современное мышление.*
***Key words:*** *globalization, integration, planetary development, modernization, moral values, modern thinking*

*"Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik,*
*bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri*
*yaşadırıq və bizim gücümüz də bundadır."*
**İlham Əliyev**

Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Dünyanın ən qədim xalqlarından sayılan azərbaycanlılar da tarixən formalaşmış zəngin milli-mənəvi və əxlaqi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermişlər. Milli əfsanə və əsatirlər, şifahi xalq yaradıcılığının müxtəlif qolları, əsrlər boyu xalqımızın mədəni-mənəvi sərvətlərinin qoruyucusu və ötürücüsü olan ozan sənəti, Zərdüştilik fəlsəfəsindən miras qalmış düşüncə tərzi və adət-ənənələr, azəri türklərinin həyat tərzini, milli şüurunu, qədim adət-ənənələrini özündə hərtərəfli əks etdirən, milli-mənəvi sərvətimizin ən əvəzsiz incilərindən olan Novruz bayramı, vətənpərvərliyi, qəhrəmanlığı və ən ülvi dünyəvi hissləri tərənnüm edən "Kitabi-Dədə Qorqud" eposu, Alban dövləti dövründə xristianlığın təsiri ilə formalaşmış sənət nümunələri və xüsusən yeni dövrə gəlib çatmış olan arxitektura abidələri və arxeoloji tapıntılar və s. uzun bir yol keçərək günümüzə çatmışdır. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Şərqə məxsus mütərəqqi adət-ənənələrlə Qərbin mötədil dəyərlərinin mənəvi mədəniyyətimizdəki uğurlu harmoniyası həm də milli təfəkkürümüzdə fərqli dünyagörüşləri və mədəniyyətləri bir araya gətirir.

Hər bir insan bioloji varlıq olaraq lap yaranışdan daşıyıcısı olduğu genlərdə kodlaşdırılmış olur. Genlərdə onun fiziki-cismani imkanlarının, sağlamlıq dərəcəsinin, hətta intellektual və bir sıra mənəvi-psixoloji xüsusiyyətlərinin əsası qoyulmuş olur. Sonrakı həyatı boyu insanın sağlamlığı, cismani-bioloji varlığı xarici təbii mühitdən, orqanizmin daxil olduğu fiziki və bioloji əlaqələrdən asılı olaraq dəyişir. Bu mənada insan orqanizmi hər bir mərhələdə ilkin genetik imkanlarla xarici təbii mühitin əlaqəsi və hətta mübarizəsi şəraitində formalaşır. İnsan həm də sosial varlıq olaraq digər insanlarla və ümumən cəmiyyətlə qarşılıqlı əlaqəyə girir və bu əlaqələr onun formalaşmasına ciddi təsir göstərir. İnsanın formalaşdığı ictimai mühit mövcud dəyərlər sistemi, sosial və hüquqi normalar, mövcud dövlət quruluşu, iqtisadi münasibətlər, ailə münasibətləri, təhsil sistemi və s. bu kimi elementlərin sintezindən ibarətdir. Mədəni-mənəvi mühit isə cəmiyyətin müvafiq rakursu ilə yanaşı əvvəlki nəsillərdən qalmış sənət əsərləri, xüsusən, bədii ədəbiyyat və kinonun təsiri ilə formalaşır. Bütün bunlar insanların bir mütəxəssis və bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır.

Bəşəriyyət XXI əsrə keçməklə XX əsrin sonunda əldə etdiyi üç böyük nailiyyətini daha da inkişaf etdirməkdədir. Onlardan biri qloballaşma prosesi ilə, ikincisi yeni texnologiyalar vasitəsi ilə

informasiya cəmiyyətinə keçidlə əlaqədardır. Üçüncüsü isə çoxlarının arzuladığı «açıq cəmiyyət» ideyasının həyata keçirilməsidir.

Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını böyük dərəcədə qloballaşma müəyyənləşdirəcəkdir. Qloballaşma-yer kürəsində bütün ictimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatların vahid ümumdünya sisteminə qovuşmasıdır. Yaşayışın ümumi standartlarının, etiketlərinin əmələ gəlməsi və dünyagörüşün tipologiyasında planetar meyarların qüvvətlənməsidir, meqasosiumun bütövlük formasıdır, dünya proseslərinin qarşılıqlı asılılığını təmin edən inkişaf prosesidir. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir [1].

Beynəlxalq münasibətlərdə sinfi-ideoloji meyarlar əvvəlki əhəmiyyətini itirməkdədir, fərqli sivilizasiya dəyərləri və parametrlərinə və onların arasındakı ziddiyyətlərin xarakterinə, özünüqoruma və planetar liderlik etmə xüsusiyyətlərinə xüsusi önəm verilməkdədir. XXI əsrdə yeni planetar inkişafın strategiyasının konseptual əsaslarının yaradılması Qloballaşma prosesini nizamlayan beynəlxalq təşkilatlar qarşısında bir vəzifə kimi durmaqdadır.

Biz Vesternizasiya deyil (Vesternizasiya – Qərb cəmiyyətləri strukturlarının, texnologiyalarının həyat tərzinin qeyri-Qərb cəmiyyətlərinə köçürülməsi ideyasıdır), modernizasiya (modernizasiya – etnik Milli identikliklə universalizmin sintezi əsasında industrial inkişafa nail olmaq strategiyasıdır) tərəfdarıyıq. Modernistlər islahatlarla bərabər dövlət suverenliyinin, iqtisadi və mədəni müstəqilliyin tam qorunub saxlanmasını, milli köklərə sədaqəti, milli özünəməxsusluğun qorunmasını mütləq və sarsılmaz şərt hesab edirlər [4].

Qloballaşma prosesi başladığı vaxtdan bəri – müasir dünyanın inkişaf tendensiyası – qərbləşmədən modernləşmək, avropalaşmadan, amerikalaşmadan universallaşmaq, milli mədəniyyətləri itirmədən qloballaşmaqdır.

Sağlam mədəni-mənəvi mühit formalaşdırmaq və onu qoruyub saxlamaq qloballaşma şəraitində bir qədər çətindir. Biz Qərb mədəniyyətinin, Qərb təfəkkür tərzinin nöqsanlı cəhətlərini deyil, məhz üstün cəhətlərini mənimsəməli və inkişaf etdirməliyik. Bizim üzərimizə düşən əsas məsuliyyət yeni müsbət tendensiyaları inkişaf etdirməklə, pozucu, mənəviyyata dağıdıcı təsir göstərən amillər üçün çəpər çəkməkdir. Bəziləri belə hesab edirlər ki, düşüncəmizin ətalətliliyi, məsuliyyətsizlik, biganəlik, utancaqlıq və s. Şərq təfəkkürünün tərkib hissəsidir. Əlbəttə, bunlar mənfi keyfiyyətlərdir. Lakin o yalnız Şərqin ənənəvi mənəviyyat tərzi kimi izah oluna bilməz, çünki insan və insan psixikası sərhəd tanımır, o hər yerdə eynidir. Tanrı insan şüurunu, təfəkkürünü Şərqə-Qərbə görə fərqləndirməyib. Azərbaycan onu əhatə edən dünyadan təcrid oluna və yalnız özü haqqında düşünə bilməz. O, onu həmişə əhatə edən dünyanın getdikcə genişlənən proseslərinin içində olacaq və bu qarşılıqlı münasibətlərin həm müsbət, həm də mənfi xüsusiyyətlərini hiss edəcək. Amma təkamül yolu ilə öz milli mədəniyyətini, elmini, biliklərini, təhsilini inkişaf etdirməlidir. Ona görə də düşünürəm ki, hər bir xalq, hər bir ölkə ümumdünya qloballaşmasında hamı ilə birgə olmalı, həm də özü olaraq qalmalıdır. Qloballaşmanın dərəcəsindən asılı olmayaraq, biz öz kökümüzə bağlılığımızı itirməməliyik. Çünki kökündən qopandan sonra o qloballaşmanın gətirdiyi xeyrin əksinə, böyük fəsadı ola bilər. Mənəviyyatından, dinindən, imanından qopmamaq şərt ilə qloballaşmaq lazımdır.

Qloballaşma prosesinin dünya siyasi xəritəsinə töhfəsi sayıla biləcək Azərbaycan dövlətinin qarşısında duran ən böyük vəzifələrdən biri də öz mədəni genefondunu yenidən nəzərdən keçirmək, saf-çürük etmək, daha keçərli olan yeni dəyərlər sistemini formalaşdırmaqdır. Müstəqil Azərbaycanın keçərli mədəniyyətini, dəyərlərini formalaşdırmaq üçün ilk öncə dərin hüquqi və infrastruktur islahatlara ehtiyacı var [6].

Qloballaşmanın və çağdaş dünyanın tələbləri ilə səsləşən yeni Mədəniyyət Konsepsiyası qəbul olunmalı; çoxdilli elektron kitabxanaların, şəbəkələrin qurulmalı ;yaradıcı enerji stimullaşdırılmalıdır.Təhsil haqqında qanunun ən yüksək səviyyədə icrasına nail olunmalıdır.

Azərbaycan mədəniyyəti öz çoxrəngli mahiyyətini yalnız bu şəkildə yenidən və daha optimal şəkildə ifadə edər, enerjisini, ruhunu yenidən kəşf edər.

Müasir təfəkkür müxtəlif sivilizasiyaların bir-birindən köklü surətdə fərqli olan düşüncə tərzlərini "barışdırmağı", onların mütərəqqi cəhətlərini birləşdirməyi nəzərdə tutur. Müasir insanın şüurunda fərd-fərd, fərd-cəmiyyət, cəmiyyət-cəmiyyət, hətta cəmiyyət –təbiət münasibətlərində dağıdıcılığa, parçalanmaya, məhv etməyə yönələn məqamların təmizlənməsindən, birliyə, sevgiyə, əməkdaşlığa, qarşılıqlı qayğıya əsaslanan kodların fəallaşdırılması modellərinin qurulması nəzərdə tutulur.

İndi bizim qarşımızda bir tərəfdən milli köklərə, milli-mənəvi dəyərlərə qayıdış, digər tərəfdən də elmi-texniki inkişaf və informasiya cəmiyyətinin qoyduğu çağdaş tələblərə uyğunlaşmaq vəzifəsi durur.

Qloballaşma insanlarda təfəkkürün yeni reallıqlara uyğunlaşmasını önə çəkir, əhatəli informasiyanı qiymətləndirərək çevik qərar qəbul edən, dövlətin bir sıra vacib sahələrinin perspektivini proqnozlaşdıra bilən yeni nəsil kadrların hazırlanmasının vacibliyini gündəmə gətirir.

Neçə-neçə nəsillərdən bizə ötürülmüş mənəvi sərvətlərin, adət-ənənələrin, dini-əxlaqi dəyərlərin intellektual inqilabın tufanlarından, dağıdıcı təsirlərindən qorunub saxlanması, "milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə birləşdirilməsi" qarşımızda duran ən böyük tarixi vəzifədir.

**Problemin elmi yeniliyi.** Məqalədə qloballaşma şəraitində sağlam mənəvi mühit formalaşdırmaq, millətin, xalqın mədəni genofondunu saf-cürük edərək, müasir təfəkkürlü şəxsiyyətlər formalaşdırmaq məsələsinə toxunulmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə mənəviyyatından, dinindən, imanından qopmamaq şərti ilə insanlarda təfəkkürün yeni reallıqlara uyğunlaşması önə çəkilir, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə "barışdırılması" əhəmiyyətindən danışılır.

## ƏDƏBİYYAT

1. H.Ə. Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, Bakı, 2001.
2. R. Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, 2008.
3.Sivil İnkişaf Mərkəzi. Qloballaşmaya doğru (məqalələr toplusu). Bakı, 2006.
4. Baxşəliyev. Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti.

**С. Джаббарова**

## НРАВСТВЕННО-МОРАЛЬНОЕ РАЗВИТИЕ И ВОСПИТАНИЕ ЛИЧНОСТИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

### РЕЗЮМЕ

Охватывающая все отрасли жизни и постепенно углубляющаяся глобализация развивается быстрыми темпами. Происходящие изменения непосредственно влияют на систему образования, которая имеет жизненную важность для каждого народа и государства. Современный мир – это мир, который движется к миру без границ, и в том числе серьезно развивающий свой потенциал. В статье отмечается, что интеграция общечеловеческих ценностей Азербайджанским реальностям в свете глобализации и воспитание нравственно- морального развития подрастающего поколения является главной задачей.

**S. Jabbarova**

## PERSON'S MORAL DEVELOPMENT AND EDUCATION IN CONDITIONS OF GLOBALIZATION

### SUMMARY

Globalization process can be felt deeper and deeper in all fields in life, and going on very fast. The changes directly influence on the education system which has vital importance to each nation and state. The modern world is moving toward a world without borders, but also provides significantly improved its capacity to develop. The major task of human value is studied in accordance with Azerbaijan realities and moral development of the ethnic education of the growing generation was shown in the article.

*Redaksiyaya daxil olub: 02.12.2014*

# İBTIDAİ SİNFLƏRDƏ ŞAGİRDLƏRLƏ İRADƏNİN TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**Zəhra Əliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
GDU
E-mail: aliyeva.zy@gmail.com

**Rəyçilər:** *prof.* Ş. Tağıyev,
*dos.* A .Qasımov

***Açar sözlər:*** *ibtidai siniflərdə iradə tərbiyəsinin təşkili, kiçikyaşlılara iradə tərbiyəsini aşılamağın yolları, fiziki oyunlar iradəni tərbiyə edən vasitə kimi.*

***Ключевые слова:*** *организация воспитания воли в начальных классах, пути привития воспитания воли младшеклассникам, физические игры как способ воспитания воли.*

***Key words:*** *the formation of "will training" of pupils at school, the transmitting methods of will training to primary school pupils, physical games as a method of will training.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq etdiyi "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əsas istiqamətlərdən biri məktəblilərin hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi formalaşdırılması tövsiyə edilir. İbtidai siniflərdən başlayaraq şagirdlərin iradəli olmağa sövq edilməsi onların hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi formalaşmasına dəlalət edir. Bu mənada şagirdlərin iradi gücünü formalaşdırmaq üçün onlarda müəyyən iradi keyfiyyətlərin üzə çıxarılaraq formalaşdırılmasına nail olmaq lazımdır. Çünki onların gələcəkdə müstəqil peşə sahibi, zəhmətkeş insan, Vətənə yararlı gənclər kimi inkişaf etməsi üçün onlarda inamlılıq, mərdlik, cəsurluq, dözümlülük, təkidlilik, təmkinlilik, məsuliyyətlilik və s. kimi iradi keyfiyyətlərin olması зox vacibdir. Bu cür keyfiyyətləri müxtəlif fənlərin tədrisi prosesində, eyni zamanda dərsdən və məktəbdənkənar tədbirlərdə onlara aşılamaq mümkündür. Bunun üçün ibtidai siniflərdən başlayaraq şagirdlərə iradə tərbiyəsi ilə bağlı verilən biliklərin verilməsi vacibdir. Belə biliklər isə iradi keyfiyyətlərdən silsilə əsərlər vasitəsilə təlqin edilə bilər.

Məktəbdə tədris olunan fənlərin hər birinin iradə tərbiyəsilə bağlı şagirdlərə biliklər vermək imkanına malikdir. Həmin fənlər tədrisində şagirdlərin iradə tərbiyəsinə dair biliklərin verilməsi baxımından daha əlverişli, böyük imkanlar humanitar fənlərin tədrisi prosesində yaranır, lakin dəqiq elmlərin də imkanlarını inkar etmək olmaz. Ona görə də ibtidai siniflərdə ana dili, həyat bilgisi, musiqi, təsviri incəsənət, texnologiya, bədən tərbiyəsi kimi fənlərlə yanaşı, riyaziyyat, informatika fənlərinin də tədrisi prosesində də şagirdlərin bir sıra iradi keyfiyyətlərə yiyələnməsinə şərait yaranır.

İbtidai siniflərdə şagirdlərə təqdim olunan tapşırıqlar ən əsası onlarda diqqətlilik, təkidlilik, intizamlılıq, məsuliyyətlilik və s. kimi keyfiyyətləri üzə çıxarır. K.D. Uşinski təlim prosesində diqqətin rolunu yüksək qiymətləndirərək yazırdı ki, diqqət ruhumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir, uşağı bu qapını açıq saxlamağa alışdırmaq birinci dərəcəli əhəmiyyətli bir işdir. Təlimin bütün müvəffəqiyyəti buna nail olmaq üzərində qurulur. Sadə dildə ifadə olunan qapını açıq saxlamaq, həmişə diqqətli olmaq deməkdir. Diqqəti cəmləmək üçün də şagirdlər iradi səy göstərməlidirlər. Müasir dərsliklərdə verilən tapşırıqlar məntiqi üslubda, həm test üslubunda hazırlandığına görə onları icra etmək, doğru cavabı, nəticəni almaq üçün ardıcıllığı mütləq gözləmək lazımdır. Bu cür sistemli tapşırıqlar onlara hər işdə müəyyən bir ardıcıllığı gözləməyə alışdıracaq, onları kortəbii addımlar atmaqdan çəkindirəcəkdir. Dəqiq elmlərlə bağlı məşğələlərdə hər hansı bir konkret vaxt çərçivəsində həll olunmalı olan məsələ və misallar şagirdlər arasında rəqabət hissi yaradır. Bu zaman onlar sağlam rəqabətin nə olduğunu öyrənir, beləliklə paxıllıq hissindən uzaq olurlar. Məntiqi-riyazi suallar beynin maksimum fəallığını

artırır və hər kəs ona verilən vaxt çərçivəsində sualları həll edə bilməyəndə yalnız özünü təqsirkar bilir. Bir neçə belə tapşırıqların həllində göstərilən gərgin səylər onların iradəsini möhkəmləndirir.

Humanitar fənlərin tədrisində isə belə məqamlara daha зox rast gəlmək mümkündür. Məsələn sinifdənxaric oxu zamanı dünya uşaq ədəbiyyatından, yerli yazılı xalq ədəbiyyatından gətirilən nümunələr vasitəsilə qəhrəmanların yüksək iradi keyfiyyətləri və eləcə də mənfi xarakterlərini ibtidai sinif şagirdləri daha yaxşı mənimsəyir və yüksək qiymətləndirirlər. Sinifdənxaric oxu zamanı, yaxud dərsdənkənar oxu materialı kimi şagirdlərə Mark Tvenin "Tom Soyyerin macəraları" adlı əsərindən nümunə veriləndə onlar Tomun hiyləgərliklərini, zəhmətdən yayınmasını, cəzalara boyun əyməməsini onun zəif iradəsinin göstəricisi hesab edirlər. belə iradi və qeyri-iradi keyfiyyətləri onlar gündəlik həyat şəraitində görəndə onları da qiymətləndirməyə cəhd edirlər. belə yanaşmalar ibtidai sinif şagirdlərində dəqiqlik, intizamlılıq kimi iradi keyfiyyətləri aşılamağa kömək edir.

Sinifdənxaric oxu zamanı şagirdlər mütləq iradə tərbiyəsi ilə bağlı aldıqları biliklərdən "mənəvi qida" almalıdırlar. Bu xüsusda Azərbaycan xalq nağıllarından da şagirdlərə iradə tərbiyəsi ilə bağlı biliklər vermək çox faydalı olar. Bu nağıllarda qəhrəmanların aydın məqsədliliyi, yüksək əxlaqlılığı, mətin iradəliliyi şagirdlərdə onlara qarşı rəğbət hissi oyadacaqdır. Bu mənada nağıllarda, qəhrəmanlıq dastanlarında təlqin olunan cəsarətlilik, qüvvətlilik, qorxmazlıq ibtidai sinif şagirdlərində iradəlilik, cəsurluq, təmkinlilik keyfiyyətləri aşılayır və onları həyata hazırlayır.

Ailədə yaşlı nənə və babaların olması, uşaqların böyüklərlə sərrast dialoqu onların iradəsinin möhkəmlənməsinə çox müsbət təsir edir. Belə ki, uşaqları müəyyən işə görə buyurmaqla, razı qalmayanda təkrar etdirməklə, eyni sözü bilərəkdən vaxtaşırı soruşmaqla onlarda təmkinlilik, səbirlilik, dözümlülük kimi iradi keyfiyyətləri formalaşdırır. Səbirli olmağı öyrədirlər. Uşaqlar başa düşdükcə ki, yaşlılara səsini yüksəltmək, onlarla sərt davranmaq olmaz. Bu zaman uşaq özünü toplayır. İstəmir ki, ondan şikayət etsinlər. Bütün bunlar bütövlükdə uşaqların iradi keyfiyyətlərini üzə çıxarmağa kömək edən amillərdir.

Şagirdlərin iradə tərbiyəsi ilə bağlı biliklər qazanması üçün dərsdən və məktəbdənkənar tədbirlərin, o cümlədən müxtəlif məzmunlu dərnəklərin, gecələrin, konfransların məqsədyönlü, planlı, mütəşəkkil və canlı keçirilməsi onlarda iradi keyfiyyətlərin üzə çıxarılaraq formalaşdırılması baxımından çox faydalıdır. Belə tədbirlər yüksək ustalıqla hazırlanmalıdır ki, gələcəkdə şagirdlər həmin tədbirlərdə həvəslə iştirak etsinlər.

Dərsdənkənar tədbirlərə oyunlar da aiddir. K.D. Uşinski oyuna insanların mənəvi formalaşma, əqli, iradi inkişafı vasitəsi kimi baxırdı. Oyunların nəticəsində qalib olan şəxs seçilir, təltif olunur. Bəzi oyunlarda məğlub olana ad qoyurlar və s. Oyunda rəqabət var, oyun paxıllıq, məğlubiyyəti qəbul etməmək kimi mənfi keyfiyyətləri özündən uzaqlaşdırmağı uşaqlara öyrədir. Ona görə də onlar çalışırlar ki, növbəti oyunlarda iştirak edib öz güclərini göstərsinlər. Oyunların gedişində şagirdlərdə dözümlülük, təkidlilik, prinsipiallıq kimi müxtəlif iradi keyfiyyətlər yaranır. Məlum olduğu kimi oyunlar əsasən idman tədbirləri və yarışları vasitəsilə həyata keçirilir. Belə oyunlar isə şagirdlərdə intizamlılıq və sistemlilik kimi iradi keyfiyyətləri formalaşdırmağa və möhkəmləndirməyə xidmət edir. Günlərlə, bəzən aylarla iradi güc ortaya qoyaraq ardıcıl məşq edirlər, yarışlara hazırlaşırlar. Bu zaman onlarda özünə inam hissi artır. Bu inam hissi isə məktəblilərin həm iradəsini, həm də sağlamlığını möhkəmləndirir. Belə yarışları və tədbirləri mütəmadi izləyən məşqçilər, sinif müəllimləri iradəni gücləndirməyə stimul verən amilləri üzə çıxarmağa müvəffəq olurlar. Bu məsələlərin həllinə düzgün yanaşan savadlı valideynlər uşaqlarının iradə tərbiyəsini formalaşdırmaq üçün onlara müvafiq biliklər verə bilərlər. Pedaqoji savad həm də ona görə vacibdir ki, uşağı yaxşı öyrənməyi, onun nə üçün çətinlik çəkdiyini müəyyənləşdirməyi bacarmalıdır.

"Ailə və məktəbin bir-birinə uyğunlaşdırılmış vahid tələblər sistemi kiзik məktəblilərdə intizamlılıq, məsuliyyətlilik, müstəqillik, təşəbbüskarlıq və dözümlülük kimi əxlaqi-iradi keyfiyyətlərin formalaşdırılmasının mühüm vasitəsidir". Bu sahədə tədqiqat aparan N. Çələbiyev məhz bu cür düşünür. O, bu keyfiyyətləri əxlaqi keyfiyyətlər hesab etməklə yanaşı, onları həm də iradi keyfiyyətlər kimi şərh edir. Bu da tərbiyənin digər tərkib hissələri sırasında iradə tərbiyəsinin yer almasına mane olur. Fikrimizcə iradə tərbiyəsini tərbiyənin müstəqil tərkib hissəsi olaraq dərindən

tədqiq etməyə onun komponentlərini, yollarını, pedaqoji, psixoloji, hətta fizioloji əsaslarını sistemə salmağa ciddi ehtiyac duyulur. Ona görə ki, bu gün pedaqoji prosesdə gələcək nəslin nümayəndələrini iradəli olmağın elmi-didaktik əsaslarının aşılanmasına bütün valideynlər və müəllimlər böyük məsuliyyət hissilə yanaşmalıdırlar. Çünki iradəli uşaqlar həm də cəsur, mərd, qoçaq, dönməz, mübariz, əyilməz, qətiyyətli olmaqla işğal altında olan torpaqlarımızın azad olunmasında iştirak etmək üçün hazırlanmalıdırlar.

Uşaqlarda iradi keyfiyyətləri formalaşdırmağın səmərəli yollarından biri də onların çox yaxın ətraf mühit vasitəsi ilə təsir etməkdir. Bu mühitdə məktəbdə onları əhatə edən sinfi yoldaşları, həyətdə oyun yoldaşları, evdə bacı və qardaşlarıdır. Professor F. Sadıqov bu barədə belə yazmışdır: "Əgər uşağın dostluq etdiyi uşaq pis işlərə meyl edirsə, düzgün yolda deyilsə, dərs oxumursa, böyüklərə qarşı hörmətsizlik edirsə, bu iki xarakterə malik uşaqlardan hansı iradəcə zəifsə, digərinin təsirinə məruz qalacaq. Yaxşı uşağın (şagirdin) mənəviyyatı daha möhkəmsə, iradəsi dönməzdirsə, pis yoldaşa təsir edəcək, onu yaxşılığa doğru aparacaq". (2, 363) Eləcə də V.A. Suxomlinski göstərirdi ki, insan necə olacaq, bu onun başqaları ilə necə ünsiyyətdə olmasından, bu ünsiyyətin onda nə kimi fikirlər oyatmasından, onun iradəsini hara yönəltməsindən asılıdır. İnsan nəfsinin cilovu öz əlində deyilsə hər kəs onu istənilən tərəfə yönəldə bilər. Belə insanların həyatda heç vaxt mövqeyi olmur, həmişə başqalarının nə deyəcəyindən asılı vəziyyətdə yaşayırlar. Belə insanlar adətən iradəsiz insanlar hesab olunur. Uşaqları belə insanların əhatəsindən uzaq tutmaq lazımdır. Hətta fitrətində iradəlilik olan uşaqlar belə mühitdə korlanırlar.

Uşaqları etdikləri səhvlərə görə qınamaq, günahlandırmaq, cəzalandırmaq yox, doğrunu və vacib olanı başa salmaq lazımdır. Əksər hallarda fiziki cəza metoduna əl atan valideynlərin övladlarının aqibəti yaxşı olmur. Onların fitrətində olan iradi keyfiyyətlər məhv olar. M.F. Axundov bu barədə belə yazır ki, bu günə qədər anlamamışlar ki, uşaqların tərbiyəsində çubuq və sillə vurmaq onların əxlaqını pozar, təbiətlərini alçaldar, fitri cövhərlərini boğar, qorxaq və yalançı edər. Birinci növbədə uşaqların öz-özlərinə inamlarını təmin etmək lazımdır. İkinci əsas məsələ isə valideyn və müəllimlərin onlara inamı onların iradəsini möhkəm edər. Şagirdlər özlərinə qarşı zərrə qədər də olsa inamsızlıq görürsə bu onların iradəsini sındırır, həvəsini məhv edir.

Şagirdlərin iradəsini möhkəmlətmək üçün onları müstəqilliyə alışdırmaq lazımdır. Müstəqil işləmək bacarığı onlara sərbəst düşünməyi, çətin vəziyyətlərdə düzgün qərar çıxarmağı öyrədəcəkdir. Bu keyfiyyəti mənimsəməyən uşaqların özünə inamı çox az olur. İnam müstəqil işləmək bacarığının daha da inkişaf etməsinə təsir göstərən bir amildir. Müəllim onlara müstəqil işləməyin yollarını öyrədir. Ardıcıl gərginlik tələb edən bu keyfiyyət şagirdlərin iradəsini bir növ tərbiyə edir.

**Problemin elmi yeniliyi.** Azərbaycanın orta ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdlərinin iradə tərbiyəsinin formalaşdırılması yollarından ilk dəfə olaraq bu məqalədə bəhs olunmuşdur. Məqalədə həmçinin tərbiyənin ayrıca tərkib hissəsi kimi iradə tərbiyəsinin həyata keçirilməsi yolları verilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə iradə tərbiyəsinin həyata keçirilməsi yollarına dair verilən elmi ideyalar ibtidai sinif müəllimlərinə valideynlərlə birgə işləməyə, şagirdlərə təsir yollarını müəyyənləşdirməyə kömək edə bilər.

## ƏDƏBİYYAT

1. M. Muradxanov və b. Pedaqogika. Bakı, 1964.
2. F. Sadıqov. Pedaqogika. Bakı, 2012.
3. A.N. Abbasov. Pedaqogika. Bakı: Mütərcim 2013.
4. N.Z. Çələbiyev. Uşaq psixologiyası. Bakı, 2005.

**З. Алиева**

## ПУТИ ПЕРЕДАЧИ ЗНАНИЙ, НАВЫКОВ И ПРИВЫЧЕК СВЯЗАННЫЕ С ВОСПИТАНИЕМ ВОЛИ В НАЧАЛЬНЫХ КЛАССАХ

### РЕЗЮМЕ

В статье говорится о путях привития младшеклассникам воли воспитания. Автор постарался показать соответствующие пути для раскрытия сути статьи. В Азербайджанской Республике не были напечатаны научные работы и не проведены научно-исследовательские работы по теме. Русский исследователь В.И.Селиванов показал пути воспитания воли у учеников. Важно, как и каким путем привить эти знания ученикам. Для выяснения этой темы было обращено к литературе по педагогике и психологии.

**Z. Aliyeva**

## THE WAYS OF TRANSMITTING KNOWLEDGE, SKILLS AND HABITS RELATED TO WILL TRAINING IN PRIMARY CLASSES

### SUMMARY

The article deals with the transmitting methods of the knowledge of will training to primary school pupils. The author tried to point out appropriate methods in order to explain main point of the article. There haven't been written any research works, scientific articles etc. in Azerbaijan Republic. The Russian researcher V.I. Selivanov writes of the forming methods of will training. How and in what circumstances to teach this knowledge, is of particular significance in this article. In order to clarify the issue, author makes use of both pedagogical and psychological literacy.

*Redaksiyaya daxil olub: 18.12.2014*

# *MÜQAYİSƏLİ PEDAQOGİKA*

## СРАВНЕНИТЕЛЬНЫЙ АНАЛИЗ ШКОЛЬНОГО ОБРАЗОВАНИЯ ГЕРМАНИИ И АЗЕРБАЙДЖАНА

**Фарадж Акперов,**
*Магистр Бакинского Государственного Университета*
E-mail: fw987@hotmail.com

**Rəyçilər:** *ped. elm. dok.* H. Əhmədov,
*dos.* M.İbadova

***Ключевые слова:*** *сравнительное образование, школа, экзамен, анализ, направление*
***Açar sözlər:*** *müqayisəli təhsil, məktəb,imtahan,təhlil,istiqamət*
***Key words:*** *comparative education, school, exam, analysis, direction*

В любой семье, где есть дети, рано или поздно встает вопрос об образовании, о выборе школы для ребенка. Система образования в Германии достаточно сложная и очень отличается от системы образования в Азербайджане. В Азербайджане ребенок учится с 1 по 11 класс, часто не задумываясь о своем будущем, решая лишь к концу школы, какую он выберет профессию, в какое высшее учебное заведение будет поступать. В Германии Вы уже после четвертого класса должны планировать, где ребенок будет альше учиться, кем он хочет стать. существует Государственный закон об обязательно образовании. В каждой из 16 земель существуют небольшие различия в методиках и содержаниях преподавания, тем не менее, система школьного образования.

Германии имеет черты, присущие всем землям. В начальную школу (Grundschule) ребенок идет в шесть лет. Обучение там длится четыре года, в некоторых землях до шести лет. Как правило, в первом и во втором классе детям оценки не ставят. Ребенок присматривается к школе, а школа – к нему. В 3 – 4 классах уже выставляют оценки. К этому времени уже понятно, какие способности у ребенка, учителя информируют о возможностях выбора школы для продолжения обучения. Особенно хочется обратить внимание на обучение в четвертом классе начальной школы. Важно помнить, что регистрация в следующую школу происходит еще тогда, когда ребенок посещает начальную, в середине учебного года. Таким образом, февральский табель (Zeugnis) – очень важный, можно сказать, решающий. Если у ребенка недостаточно усидчивости, концентрации, есть неудовлетворительные оценки, а также поведение и прилежание не соответствует предъявляемым требованиям, то школа может предложить повторить еще раз учебный год. В зависимо сти от способностей и успеваемости вашего ребенка решением школьной конференции он будет направлен в следующие школы:

Основная школа – Hauptschule
Реальная школа – Realschule
Гимназия – Gymnasium
Единая школа – Gesamtschule

Детей с хорошей успеваемостью (особенно по математике, немецкому, географии) и прилежным поведением, как правило, направляют в реальную школу, гимназию, либо в единую школу. Остальные идут учиться в основную школу. Если родители не согласны с решением школьной конференции, то они могут добиваться направления в ту школу, которую считают более подходящей. Ребенку дадут испытательный срок, за который и Вам и школе будет ясно, правильную ли форму школы Вы для него выбрали. С 15 февраля

начинается прием документов в эти школы. Если это возможно, во избежание непредвиденных ситуаций, записать ребенка в несколько школ. Если Вы приехали в Германию и Ваши дети имеют табель об окончании третьего класса, например, азербайджанской школы, не спешите их отдать сразу в четвертый класс. Лучше еще раз здесь повторить третий класс. За год дети смогут адоптироваться в новых условиях, начнут учить немецкий язык и т.д. Если они пойдут сразу в четвертый класс, то могут в полной мере не раскрыться их способности и возможности, и они будут направлены в школу, не соответствующую их уровню. Дети, не владеющие немецким языком, имеют право на дополнительные занятия несколько раз в неделю.

Существуют так называемые особые школы (Sonderschule) для детей с физическими или психическими расстройствами здоровья. В каждом городе есть начальные и средние особые школы. Эти школы служат для воспитания и образования детей и молодежи, обучение и образование которых не может происходить в общих школах. Там они учатся по специальным программам, находятся под наблюдением специалистов. К таким школам относятся: школы для слепых, глухих, для умственно-неполноценных, для трудновоспитуемых, для малоспособных к учению и т.д.

Обычно направление в эти школы дает школьное ведомство. В спорных случаях, если Вы считаете, что ребенок может посещать нормальную школу, а его направляют в особую школу, необходимо пройти обследование у детского невропатолога и психолога. Только специалист может дать заключение о том, действительно ли ребенок не может учиться в обычной школе. Естественно, что каждый родитель хочет, чтоб их ребенок учился в самой лучшей школе, получил хорошее образование. Как же выглядят сегодняшние школы в Германии, что они дают нашим детям, чем они отличаются друг от друга?

***Основная школа-Hauptschule***

Решением школьной конференции Ваш ребенок направлен в основную школу. Эта школа предназначена, прежде всего, для детей, склонных к практической и ремесленной деятельности. После окончания девятого или десятого класса школьники должны быть готовыми начать образование по специальности.

В этой школе учатся с 5-го по 10-й класс. Как правило, 5-й и 6-й класс – это испытательный срок, в течение которого учителя оценивают, правильно ли выбран тип школы. Если у ребенка есть желание учиться, он проявляет интерес к учебе, то после 6-го класса он может поменять форму школу и перейти в реальную школу (Realschule). В основной школе с 9-го класса начинается специальная программа по математике, немецкому, английскому языкам. Если школьник хорошо успевает, то он заканчивает основную школу по типа 10B и получает так называемый Realschulabschluss. Если нет – то оканчивает школу по типа 10A и получает Hauptschulabschluss.

К сожалению, детей приехавших из другой страны очень часто направляют в Hauptschule, только потому, что они иностранцы, не вникая в их способности. Иногда решающим становится незнание немецкого языка. В любом случае не нужно делать трагедию, если ребенок попал в Hauptschule. Если есть желание учиться и нормальные способности, со временем можно даже гимназию закончить и получить Abitur.

***Реальная школа - Realschule***

Этот вид школ предназначен, прежде всего, для детей с практическими и теоретическими способностями. Они получают расширенное общее образование и на его основе готовятся к дальнейшему образованию по специальности. В реальной школе учатся с 5-го по 10-й класс. Сюда направляются дети после начальной школы, а также после 6-го класса Hauptschule (при хорошей успеваемости), а также после 6-го класса гимназии (при плохой успеваемости).

Если родители не согласны с решением педсовета, то они могут обратиться в школьное ведомство и добиваться того, чтобы была назначена дополнительная переэкзаменовка, чтоб

ребенок получил еще один шанс. У некоторых учеников реальной школы после 7 ,8 класса есть возможность перейти в гимназию. Также окончив реальную школу и получив Fachob erschulreife, при определенных условиях, дети могут перейти учиться в гимназию и сделать Abitur.

***Гимназия-Gymnasium***

Гимназии предназначены, прежде всего, для способных к языкам детей с выраженной склонностью к логически-абстрактному мышлению и стремлением к углубленному общему развитию. В гимназии учатся с 5-го по 13-й класс. Учеба заканчивается сдачей экзаменов на аттестат зрелости (Abitur). Вопрос о длительности обучения в гимназии сейчас обсуждается. Отдельные школы перешли на 12-летнее образование. Но это вопрос будущего. Как и в других школах, в гимназии 5-й и 6-й классы – это испытательный срок. Затем педсовет решает, переводить ли школьника в 7-й класс, дать возможность повторить обучение в 6-м классе или перевести на ступень ниже, в реальную школу.

В конце десятого класса школьники при определенных условиях переводятся в старшие классы гимназии (gymnasiale Oberstufe), (1,25), а в случаях ухода получают свидетельство об окончании средней школы (mittlere Reife). Аттестат зрелости дает право поступления без экзаменов в Университеты и другие высшие учебные заведения.

***Единая школа-Gesamtschule***

Этот вид школ появился в 70-х годах, как экспериментальная школа. Характерной особенностью является то, что внутри одного учебного заведения представлены три вида школ: основная, реальная, гимназия. Если после окончания начальной школы способности ребенка четко не определены, Вы не уверены, подойдет ли ему реальная школа или гимназия, то Вы смело можете определить ребенка в Gesamtschule. Именно в такую школу могут также отдать родители своего ребенка, если они не согласны с рекомендацией начальной школы о направлении ребенка, например, в основную школу, а не в реальную.

В Германии существуют также школы, обучение в которых так или иначе отличается от традиционного. Это, например, Montessori-Schulen и Вальдорфские школы. Монтессори-школы опираются на принципы «свободного развития» детей. Все воспитательные и дидактические приемы стимулируют индивидуальную работу детей, установку на самостоятельность и дисциплину. Отличительной особенностью этих школ является их католическая направленность.

В Вальдорфских школах (4,5) почти до окончания школы не ставят оценок, не проводят экзаменов и не оставляют на второй год. Основное внимание уделяется развитию творческих способностей детей. Обучение начинается в этих школах с первого класса.

Теперь давайте обратим внимание на систему школьного образования в Азербайджане. В Азербайджанской Республике общеобразовательное школьное образование состоит из трех ступеней - начальное, общее среднее и полное среднее образование. Общее среднее школьное образование начинается с 6 лет. Общее среднее школьное образование осуществляется на основании соответствующих образовательных программ. В стране общее среднее школьное образование осуществляется в основном в общеобразовательных школах, в учебных заведениях специальной направленности, в гимназиях, лицеях, в начальных и средних профессионально - специализированных школах, а также в колледжах и школах при высшеобразовательных учебных заведениях.

**Начальное образование**

Цель начального образования заключается в развитии в детях способностей к чтению, письму и счету, в формировании у них начальных жизненных знаний о человеке, обществе, и природе, элементов логического мышления, эстетического и художественного вкуса итд. Начальное образование осуществляется на основании соответствующей образовательной программы. В Азербайджанской Республике начальное образование начинается с шести лет и охватывает с первого по четвертый классы.

**Общее среднее образование**

Задача общего среднего образования состоит в формировании устной речи у учащихся и культуры письма, умения общения, мыслительной активности и логического мышления. В сознании представлений и соответствующих знаний по предметам, входящим в образовательную программу, а также знаний о развитии мировой цивилизации, умения пользоваться современными информационно - коммуникационными средствами, оценивать события и умения определять направление своей будущей деятельности. Общее среднее образование охватывает с пятых по девятые классы. В Азербайджанской Республике общее среднее образование обязательное. При завершении ступени общего среднего образования проводится заключительная оценка знаний и завершившим образование ученикам вручается соответствующий государственный документ - диплом (свидетельство). Этот документ об общем среднем образовании считается основанием при продолжении образования на последующей ступени.

**Полное среднее образование**

Ступень полного среднего образования обеспечивает реализацию таланта и способностей учащихся, подготовку их к самостоятельной жизни и выбору профессии, формирование активной гражданской позиции, уважительное отношение к национальным и общечеловеческим ценностям, правам и свободе человека и умение общаться на каком - то одном или нескольких иностранных языков и т.д. Полное среднее образование предполагает полное освоение образовательных программ, охватывающих все три ступени среднего общеобразовательного школьного образования. На данной ступени полного среднего образования определяется направленность образования (гуманитарное, техническое и др.). Полное среднее образование, являясь последней ступенью в общей школьной системе образования, охватывает 10 - 11 классы и на данной ступени осуществляется заключительная Государственная аттестация. А по результатам этой аттестации выпускникам выдается в соответствующем порядке государственный образцовый документ - аттестат. Документ о полном среднем образовании считается основанием для продолжения образования на последующей ступени.

## ЛИТЕРАТУРА

1. Н.Михайлова, Д.Кипнис, А.Кипнис. Школьное образование в Германии, Москва 2011 г.
2. Михайлова Н. - Школьное образование в Германии, Москва 1999 г.
3. Изменение некоторых функциональных показателей организма в динамике учебного года в условиях Вальдорфской школы / Ю. А. Гаврилова, Е. М. Спивак, Г. В. Волкова // Вестник Ивановской медицинской академии. — 2005.
4. Вальдорфская педагогика: Антология. / Под ред. А. А. Пинского. — М.: Просвещение, 2003.
5. Middle-School Education in Germany Sigrid Blömeke, Johannes Koenig & Anja Felbrich 2009

**F.Əkbərov**

## ALMANİYA VƏ AZƏRBAYCAN ORTA TƏHSİLİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

## XÜLASƏ

Orta məktəb təhsili yalnız Almaniya və Azərbaycan üçün deyil, bütün dünya ölkələri üçün əhəmiyyətli rol oynayır. Təhsilin keyfiyyəti isə insanın gələcək taleyini müəyyənləşdirir və insan məhz bu dövrdə şəxsiyyət kimi formalaşır. Orta təhsil haqqında sənəd olmadıqda, fərdin gələcəkdə peşə sahibi olması mövzusu sual altındadır. Fikrimcə, biz Almaniyada məktəb təhsilinin strukturundan istifadə edərək bir neçə müsbət aspektləri öyrənə bilərik, məhz bu sistem hələ erkən yaşda gələcək peşə seçimini və fərdin istedadlarını müəyyən edir.

**F.Akbarov**

## COMPARATIVE ANALYSIS OF SCHOOL EDUCATION IN GERMANY AND AZERBAIJAN

**SUMMARY**

School education plays very important role not only in Republic of Azerbaijan and Germany but also in all other world countries. This is one of first stages where formation of personality begins, and quality of this education defines his future destiny. In case of lack of middle school diploma, the people cannot hope to find a good, high qualified job in the future. By my opinion we could take lots of positive moments, using the German school education system, which helps already in early ages to define future profession as well as reveals the real talent.

*Redaksiyaya daxil olub: 15.12.2014*

# MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ

## ŞƏRQİN ELM VƏ MƏDƏNİYYƏT BEŞİYİ – NAXÇIVAN

**Təranə Camalova,**
*laborant*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: kamal.camalov@gmail.com

**Rəycilər:** *prof.* O. Həsənli,
*dos.* K. Camalov

***Açar sözlər:*** *"Günəş yurdu" Naxçıvan, Naxçıvanlı şair və ədiblər, elm, təhsil, milli maarifçilik*

***Ключевые слова:*** *Восток и Закад, Нахчыван, солнечный ирай, писатели и литераторы Нахчывана, наука, образование, националъное просвещение*

***Key words:*** *"Land of the Sun" Nakhchivan, Nakhchivan poets and writers, science, education, national enlightment*

Qədim Şərqi elm və mədəniyyət beşiyi adlandıranlar yanılmırlar. Görkəmli şərqşünas alim R. Vinter yazır ki, «Şərq, yəni bütün Ön Asiya, uzun müddət orijinal sayılmış, Avropa isə onun üzünü köçürmüş şagirddir. ...Demək olar ki, Avropa mədəniyyətinin hər bir yüksələn pilləsi Şərqdəki böyük ixtiranın izidir».

Bu mənada Naxçıvan istər təbiətinə, istər coğrafi mövqeyinə, istər relyefinə, istərsə də sosial göstəricilərinə görə daim diqqət mərkəzində olan bir diyardır. Bu qədim diyarın Araz çayının sahilində bərqarar olması, 200-dən çox yeraltı şəfa sularına (Badamlı, Sirab, Darıdağ, Vayxır, Nəhəcir və s.) malik olması, zəngin biosferi, rekord səviyyədə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi texnologiyası, islam dəyərlərinə dərin hörməti, elmə, təhsilə, mədəniyyətə olan sevgisi ilə daim fərqlənən bir məkana çevrilməsi xüsusi qeyd olunmalıdır.

Muxtar respublikanın təbiəti, tarixi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı sistemli şəkildə tədqiqat obyektinə çevrilib. Muxtar respublikaya həsr olunmuş kompleks məqalələr; elm və sənət adamlarının həyat və yaradıcılığı, diyarın bütün inzibati rayonları, fiziki-coğrafi obyektləri, şəhər və kəndləri, geoloji quruluşu, yeraltı və yerüstü təbii sərvətləri haqqında xeyli məqalələr internet səhifələrində, beynəlxalq qəzet və jurnallarda işıqlandırılır.

Babalarımızın ağır zəhmət bahasına qurduğu, gələnin-görənin «Nəqşi cahan» adlandırdıqları bu gözəl şəhərin, ancaq zaman-zaman daşı-daş üstündə qalmayıb. «Lakin dövran keçib, xarabazara döndərilmiş Naxçıvan xarabalıqlar içindən dönə-dönə baş qaldırıb, yenidən dirçələrək, əvvəlki görkəmini qaytarıb. Hətta əvvəlkindən də gözəl olub. Yad gözlərin ona zillənmiş kəc baxışları isə dünən olduğu kimi bu gün də üstündən çəkilməyib» (1, 4).

VII əsrin ortalarında ərəblərin Azərbaycana gəlməsi ilə özünün əlverişli geosiyasi və strateji mövqeyinə görə ərəb ordusunun dayaq məntəqələrindən biri olan Naxçıvan sonrakı dövrlərdə siyasi-iqtisadi-mədəni mərkəz kimi əhəmiyyətini artırmış, yüzillərdən bəri fəaliyyət göstərən Böyük İpək Yolunun şaxələri vasitəsilə o vaxtkı dünyanın məşhur ölkə və şəhərləri ilə əlaqə saxlamış, Azərbaycan atabəyləri dövründə isə «Nəqşi cahana» çevrilərək regionun bənzərsiz şəhəri olmuşdur[1].

Doğrudan da, qədim dövrlərdən Şərqi Qərblə, Şimalı Cənubla birləşdirmiş, ucsuz-bucaqsız yolların qovşağında yerləşən, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, mədəniyyətlərin, sivilizasiyaların yüksək zirvəyə çatdığı Naxçıvan diyarının Şərqin qapısı sayılması təsadüfi deyil. Vaxtilə Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi, Övliya Çələbi və başqa tarixçi və çoğrafiyaçı səyyahlar Naxçıvanı «Nəqşi-cahan» («dünyanın bəzəyi») adlandırmışlar.

Naxçıvanın tarixi eradan əvvələ söykəndiyi kimi, elm və mədəniyyət tarixi də çox-çox qədimlərə gedib çatır. İntibah dövrünün elm, təhsil və maarifi əsasən XI əsrdən formalaşmağa başlasa da, XII əsrdə Naxçıvanın mədəni həyatındakı ümumi yüksəliş, ədəbiyyatın və fəlsəfi fikrin inkişafı humanizm ideyalarının yayıl-

masına rəvac vermişdir. Elm-sənət məbədi sayılan Naxçıvan təkcə ölkəmizə deyil, onun hüdudlarından kənara da – Yaxın və Orta Şərqə, Avropaya ictimai və siyasi xadim, filosof, həkim, sərkərdə, alim və mütəfəkkir, şair, yazıçı, tarixçi, memar, rəssam, musiqiçi, aktyor və digər adamlarının həyat və fəaliyyətindən, yaradıcılığından bəhs edən çoxsaylı dühalar bəxş etmişdir. Həddad əl-Nəşəvi (kitabdar), Əbu Əbdüllah ən-Müfərric əl-Nəşəvi (dini hüquqçu), Əhməd ibn Hacəf Nəşəvi (filosof), «təbiblərin sultanı» adı ilə məşhur olan Əkmələddin Naxçıvani (təbib), Həsən ibn Ömər Naxçıvani (filosof), Kəmaləddin Naxçıvani (həkim, ilahiyyatçı), Nəsirəddin Tusi (ensiklopedik alim), Nəcməddin Naxçıvani (filosof), İzzəddin Naxçıvani (alim və ədib), İbn Sacəvi, Məhəmməd Hinduşah Naxçıvani (dilçi və tarixçi), Fəxrəddin Naxçıvani (fəqih və hüquqşünas), Baba Nemətullah Naxçıvani (filosof), Fəzlullah Nəimi (filosof, hürufizm təriqətinin yaradıcısı) və b. bütün Şərq və Avropa dünyasının elm xəzinəsini idrak və təfəkkürləri ilə zənginləşdirən şəxsiyyətlər olmuşlar.

Təlim-tərbiyə, məktəb-mədrəsə, öyüd-nəsihət yuxarıda qeyd etdiyimiz kimi, hələ orta əsrlərdən mövcud olsa da, uzun müddət milli maarifçilik ideologiyası səviyyəsinə qalxa bilməmişdir. XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən qədim elm və mədəniyyət beşiyi Naxçıvanda maarifçilik hərəkatı özünü göstərməyə başladı. Çünki dövr, zaman yeni milli dünyəvi məktəblərin yaradılmasını tələb edirdi. Bu mənada görkəmli pedaqoq, maarifçi-şair Məhəmməd Tağı Sidqi əvəzolunmaz vətənpərvər nəsilə ustadlıq edərək (Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Əziz Şərif, Rza Təhmasib, Rzaqulu Nəcəfov, Əli Səbri Qasımov, Bəhruz Kəngərli, Məmməd Əli Sidqi və b.) Naxçıvanda maarifçi mühiti həm də ədəbi-pedaqoji hərəkat səviyyəsinə qaldırdı.

Xalq yazıçısı Mirzə İbrahimovun təbirincə desək, «Günəş yurdu» adlanan Naxçıvanda alim və pedaqoqlar elmin inkişafında getdikcə daha artıq işlər görməyə başladılar. Ölkəşünaslıq, pedaqogika və psixologiya, dilşünaslıq, tarix və digər elm sahələri üzrə müasir məzmunlu yeni əsərlər yaradıldı, elmdə dəqiqlik prinsipləri get-gedə dərinləşdi. Məktəb və pedaqoji fikir tarixinin qabaqcıl xadimləri (Məhəmmədağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Qurbanəli Şərifzadə, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid və b.) vasitəsilə mütərəqqi ictimai və pedaqoji ideyalar Azərbaycana və onun hüdudlarından kənara nüfuz etdi. Ömrünün 50 ildən çoxunu mətbuat, məktəb, maarif və əlifba məsələlərinə həsr etmiş Məhəmmədağa Şahtaxtlıdan bəhs edən görkəmli fransız alimi Lüsyen Büva Şahtaxtlını öz ölkəsinin «yaxın dostu, müsəlman dünyasının bütün ümidlərini doğruldacaq bir şəxs» (2) adlandırırdı. Çünki M. Şahtaxtlı cəmiyyətin inkişafında təhsilin, elmin mühüm əhəmiyyəti olduğunu konseptual şəkildə işləyən şəxsiyyətlərdən olmuşdur. Redaktoru olduğu «Şərqi-Rus» qəzetinin məqsədini Məhəmmədağa Şahtaxtlı belə izah edirdi: «Məsləkimizi hər kəs bilir: Məmləkətimizin mədəniyyətinə xidmət etməkdir». Başqa bir yazısında isə gənclərə müraciətində yazırdı: «Elmin dalınca gedin. Elm insanı irəli aparır».

Azərbaycanda milli maarifçiliyin formalaşma və inkişafında Məhəmmədağa Şahtaxtlının (1848-1931), Məhəmməd Tağı Sidqinin (1854-1903), Qurbanəli Şərifzadənin (1854-1917), Cəlil Məmmədquluzadənin (1869-1932), Məmməd Səid Ordubadinin (1872-1950), Əliqulu Qəmküsarın (1880-1919), Hüseyn Cavidin (1882-1941) və başqalarının özünəməxsus xidmətləri olmuş, təhsilin prinsipləri, tərbiyə üsulları, əxlaq, vətənpərvərlik, mənəviyyat, bədii zövq və s. kimi zəruri məsələlərdən bəhs etmişlər. Onların qarşısına qoyduğu əsas məqsəd xalqı maarifləndirmək, və «bəsirət sahibi etmək» ideyası idi.

Öz zəmanəsinin və bu günkü dövrün böyük pedaqoqu sayılan Məhəmməd Tağı Sidqi ruhani təhsil almasına baxmayaraq xalqın maariflənməsi üçün əzmlə çalışmışdır. Məhəmməd Tağı Sidqinin mühüm xidmətlərindən biri də məktəblər üçün müvafiq dərsliklər tərtib etməsi olmuşdur. Müxtəlif yerlərdən gətirdiyi dərsliklərlə kifayətlənməyən Sidqi, özü müxtəlif fənlər üzrə dərsliklər nəşr etmişdir. Onun arxivində saxlanılan «Nümuneyi-əxlaq», «Coğrafiya xüsusunda məlumati-mücmələ», «Əssərfül-ümmül-elm və Nəhvi-Ərəb» (Ərəb dilinin sərfi-nəhfi), «Tənviri Əfkar və təfhimi-insaniyyət», «Töhfeyi-Bənat, yainki qızlara hədiyyə», «Qiraəti-fənniyə», «Hifzi-səhhə» kimi dərslikləri Sidqinin bir müəllim kimi Qərb mədəniyyətinə də təsirindən xəbər verir. «Elm və mərifətsiz insan meyvəsiz ağaca bənzər» - deyən Məhəmməd Tağı Sidqi xalqın maariflənməsi işində əvəzsiz işlər görmüşdür.

Fransız sosialisti Jan Jores yazır ki, «Keçmişin mehrabına müraciət edərkən – onun külünü yox, odunu götürün». Bu mənada tarixi eradan əvvələ söykənən Naxçıvanın görkəmli maarifçiləri elmi, təsili, milli maarifçiliyi bir mayak kimi nəsildən-nəslə yadigar qoyub getmişlər. Cəmiyyətin tərəqqisi, elmin, mədəniyyətin inkişafının qüdrətli vasitəsi rolunu oynayan elm və təhsil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da hərtərəfli qayğı ilə əhatə olunub və olunacaqdır

**Problemin aktuallığı.** Şərqin elm və mədəniyyət beşiyi Naxçıvanın dünəni və bu günü, Azərbaycan təhsilinin inkişafındakı rolu diqqət mərkəzinə gətirilir.

**Problemin elmi yeniliyi.** Naxçıvanın dünəni və bu günü, Azərbaycan təhsilinin inkişafındakı rolu ilə bağlı zəruri məlumatlar verilir.

**Problemin praktik əhəmiyyəti.** Naxçıvanın dünəni və bu günü, Azərbaycan təhsilinin inkişafındakı rolu ilə bağlı tədqiqatlara zəngin material verir.

## ƏDƏBİYYAT

1. N. Vəlixanlı. Naxçıvan ərəblərdən monqollaradək (VII-IX əsrlər). Bakı: Elm, 2005.
2. Lüsyen Büva. «Şərqi-Rus», 21 yanvar 1904, №7

**Т. Джамалова**

## НАХЧЫВАН – КОЛЫБЕЛЪ НАУКИ И КУЛЪТУРЫ ВОСТОКА

### РЕЗЮМЕ

В статъе объектом исследования являются природа, история, общественно-политическая, социалъно-экономическая и кулътурная жизнъ, ученые и мыслители Нахчыванской Автономной Республики.

**T. Jamalova**

## SCIENCE AND CULTURE CRADLE OF THE EAST-NAKHCHIVAN

### SUMMARY

The nature, history, socio-political, socio-economic and cultural life, scientist and thinkers of the Nakhchivan Autonomous Republic has become a subject of research at this article.

*Redaksiyaya daxil olub: 05.12.2014*

## PEDAQOJİ TƏNQİD VƏ BİBLİOQRAFİYA

**Oruc Həsənli,**
*Naxçıvan Müəllimlər İnstitutunun rektoru, Əməkdar elm xadimi,*
*pedaqoqika üzrə elmlər doktoru, professor,*
*Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü*
**Fərrux Rüstəmov,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dekanı,*
*əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor,*
*Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü,*
*Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü*
**Həsən Bayramoğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü.*

### AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF STRATEGİYASINA DAİR ALMANİYADA NƏŞR OLUNMUŞ İLK PEDAQOJİ MONOQRAFİYA

Dünyada yüksək ixtisaslı kadrların əməyi intellektual əmək hesab olunur. İntellektual əmək işçisi isə hər hansı müəssisə və ya təşkilatın ən vacib və dəyərli resursları sayılır. Çünki intellektual əmək və ya yüksək ixtisaslı kadrların əməyi, onların bilik və bacarığı başlıca istehsal resursu kimi meydana çıxır. Ona görə də müasir dövrdə yeni iqtisadi anlayış "bilik iqtisadiyyatı" və ya "biliklərə əsaslanan iqtisadiyyat" anlayışları meydana gəlmişdir. Məşhur iqtisadçı D. Bell bu mənada qeyd edir ki, "gələcəkdə əhalinin yüksək sosial təbəqələrə aid olan və aid olmayan hissələrə bölünməsi onların maddi vəziyyəti ilə deyil, yeni biliklər yaratmaq iqtidarında olan intellektual potensialı-bilik daşıyıcıları ilə müəyyənləşəcəkdir".

Müasir dövrdə təhsilşünaslığa dair beynəlxalq tendensiyalara diqqət yetirsək, görərik ki, yüksək hazırlığa malik kadr potensialı həm də sosial iqtisadi, bir az da geniş anlamda qeyd etsək, milli təhlükəsizlik baxımından əhəmiyyətli rol oynayır.

Bu mənada Azərbaycan Respublikasının Prezİdenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır."... Qeyd olunanlarla yanaşı, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir".

Yeni nəsil pedaqoji elminin istedadlı orta nəsİl nümayəndələrindən biri olan Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru, Rusiya Təhsil Akademiyasının akademiki Hümeyir Əhmədovun Almaniyada ingilis dilində nəşr edilmiş "Azərbaycanda təhsilin inkişaf strategiyası" əsərini (The Strategy of Education Development in Azerbaijan. Saarbrücken, Deutschland / Germany. LAP LAMBERT Academic

Publishing, 2014, 245 p.) son illərin ciddi elmi araşdırmalarından hesab etməklə, ingilis dilində nəşr edilən ilk pedaqoji monoqrafiya kimi xüsusi təqdirəlayiqdir.

Monoqrafiyanın elmi redaktoru prof. Ə.Ə. Ağayev, elmi məsləhətçilər professorlar Z.İ. Qaralov, A.O. Mehrabov və F.A. Rüstəmov; rəyçilər prof. O. Həsənli, dos. H. Bayramoğludur.

Monoqrafiyanı ingilis dilinə filologiya üzrə fəlsəfə doktoru. prof. B. Hacıyevin redaktorluğu ilə M. Əliyeva və R. Mürsəlov tərcümə etmişdir.

Müəllif monoqrafiyada öncə ölkəmizdə təhsilin tarixinə ekskurs edərək keçmiş yola nəzər salır, müxtəlif ictimai siyasi dönəmlərdə xalqımızın dilini, dinini, milli-mənəvi dəyərlərini qorumaq uğrunda apardığı mübarizəsini, xüsusilə təhsilə, maarifə diqqət yetirməsini, məktəbi, müəllimi yüksək qiymətləndirməsini konkret tarixi proseslərin axarında şərh edərək milli təhsilin xronologiyasına diqqətimizi cəlb edir.

Ölkədə müasir təhsilin başlıca inkişaf tendensiyasının tədqiqinə həsr edilmiş araşdırmalar, eyni zamanda son 20 ildə milli təhsilin inkişafına aid rəsmi sənədlərlə birlikdə ilk dəfə işıq üzü görür. Monoqrafiya ilə ətraflı tanışlıq zamanı öyrənirik ki, müəllifin əsas məqsədi müasir təhsil siyasətinin başlıca uğurlarını şərtləndirən bütün nüansları göstərmək, əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilmə prosesini qabartmaqla ulu öndər Heydər Əliyevin bu sahədə müstəsna əhəmiyyətli taleyüklü xidmətlərini qeyd etmək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil sahəsindəki fəaliyyətinin öyrənilməsində obyektiv mənbə kimi mühüm əhəmiyyət kəsb edən materialları, bu inkişafı şərtləndirən normativ-hüquqi bazanın təminatçısı olan rəsmi sənədləri "Əlavələr" şəklində təqdim etməklə, müəllif bu işin öhdəsindən uğurla gəlmişdir.

Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli ilk növbədə təhsilin tərəqqisindən keçir. Təsadüfi deyil ki, Azərbaycanın və ümumilikdə dünyanın indiyə qədər yetirdiyi ən böyük mütəfəkkirlər onları düşündürən mənəvi ideallarıın təntənəsini məhz təhsildə, insanların maariflənməsində axtararaq zəmanələrinin böyük maarifpərvərləri kimi tarixdə əbədilik qazanmışlar. Onların hələ yüzilliklər boyunca düşüncələrə səpdikləri maarif toxumları indi öz bəhrəsini verir. İnformasiya əsri adlandırılan XXI əsrin hər birimizi təəccübləndirən elmi-texniki möcüzələri, bütün dünyada demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının təminatı istiqamətində qazanılan nailiyyətlər elmi, təhsili vaxtı ilə bəşəriyyət üçün vacib sosial amilə çevirməyə müvəffəq olmuş fikir adamlarının bu gün gerçəkləşən arzularıdır.

Dörd fəsildən ibarət olan monoqrafiyada Azərbaycanda təhsil tarixinə ümumi nəzər yetirməklə, təhsilin son dövr inkişafında ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərinin ictimai-pedaqoji təhlili aparılır. Onun təhsilə, elmə, mədəniyyətə qayğısı sonralar Moskvaya rəhbər işə irəli çəkilərkən daha geniş masştab almış, ölkədə təhsil islahatının təşəbbüsçüsü və əsas qayğıkeşi olmuşdur. Digər mühüm məsələ monoqrafiyada ulu öndərin təhsillə bərabər xüsusi bölmədə elmin inkişafına qayğısının verilməsi və nəhayət, müstəqillik dövründə, yəni hakimiyyətə ikinci qayıdışı dövründə milli təhsil quruculuğundakı xidmətlərinin ayrıca başlıqla tədqiqata cəlb edilməsi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir quruculuq prosesinin əsas istiqamətlərinə, xüsusilə bu inkişafın tərkib hissəsi olan təhsilin modernləşməsi sahəsində görülən işlərə, o cümlədən iqtisadi potensialın inkişaf etmiş insan kapitalına yönəlməsi sahəsində görülən işlər təhlil edilir, müasir cəmiyyətdə vətənpərvərliyin və xeyirxahlığın ali ünvanı olaraq Heydər Əliyev Fondunun, onun prezidenti, millət vəkili, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevanın təhsil quruculuğu sahəsindəki çoxşaxəli fəaliyyəti araşdırılır. Bütün bunlar monoqrafiyada konkret faktlarla verilmişdir.

Əsərin I və II fəsli Azərbaycan təhsilinin inkişaf tarixinə xronoloji baxış olmaqla bərabər, son dərəcə geniş statistik rəqəm və hesabatlara istinadən faktoloji materiallara əsaslanaraq orijinal araşdırmanı ərsəyə gətirə bilməsi xüsusi qeyd edilməlidir. III fəsli isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövrü təhsilin inkişafı sahəsində görülən işlərin tədqiqi və təhlilinə həsr edilmişdir. Onun, "Bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə edərək maddi kapitalı insan kapitalına çevirməliyik" fikrini əsas

götürən monoqrafiya müəllifi bu dövrdə təhsilin modernləşməsi və beynəlxalq standartlara inteqrasiyası baxımından həyata keçirilən layihələri milli genefondun yeni intellektual inkişafını təmin etmək baxımından tarixi əhəmiyyətini tədqiqata cəlb etmişdir. Göstərilən fəsildə toxunulan məsələlərin elmi-yanaşma arealı da geniş coğrafiyası ilə diqqəti cəlb edir: müasir təhsilin strategiyası, milli kurikulum, dərslik siyasəti, informasiya əsrinin meyarları, "Azərbaycanda distant təhsil", "Təhsil yoxsulluğa qarşı", "Azərbaycanda ali təhsilin inkişaf perspektivləri", "Bolonya prosesi-reallıqlar, problemlər, perspektivlər", "Azərbaycan təhsilində yeni istiqamətlər, yaşlıların təhsili, insan kapitalı".

Müasir quruculuq prosesində təhsil quruculuğu, xüsusilə bu sahədə formalaşmış beynəlxalq əlaqələr xüsusi yer tutur. Bu sahənin əsas istiqamətləri tələbə, şagird və magistr mübadiləsi, birgə elmi-tədqiqatlar, beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulma və s. ibarətdir. Bunun nəticəsidir ki, Azərbaycan təhsil müəssisələri YUNESKO, YUNİSEF, YUNEVOK, İSESKO, Avropa Şurası, Avropa Təhsil Fondu və Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil problemləri ilə məşğul olan qurumların işində fəal iştirak edirlər. Beynəlxalq təşkilatlarla aparılan səmərəli əməkdaşlığın nəticələrindən biri Avropa İttifaqı tərəfindən maliyyələşdirilən TEMPUS / TASİS proqramına Azərbaycan ali məktəblərinin fəal cəlb olunmasıdır.

Son illər ərzində Avropa Birliyinin TEMPUS proqramı çərçivəsində ölkəmizin 16 ali məktəbini əhatə edən 4,4 milyon avro məbləğində 21 layihə həyata keçirilmişdir. Layihə çərçivəsində tələbə mübadiləsi, mütəxəssis hazırlığı, müəllimlərin xaricdə staj keçməsinin təşkili, ali təhsil müəssisələrinin müasir informasiya texnologiyaları və tədris avadanlıqları ilə təchizatı üzrə tədbirlər reallaşdırılmışdır.

Əsərdən bir daha öyrənirik ki, Təhsil Nazirliyinin ən səmərəli və ahəngdar əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri də YUNİSEF-dir. Azərbaycan hökuməti ilə imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində 2000-2004-cü illər arasında "Erkən uşaqlıq dövründə inkişaf və daha yaxşı valideynlik təşəbbüsü", "Fəal təlim və məktəb rəhbərliyi", "İnkişaf üçün təhlil və Uşaq Hüquqları Konvensiyası", "Təhsil sistemində məlumatların və təhlillərin təkmilləşdirilməsi", "Gənclərin sağlamlığı və inkişafı", "Valideyn-müəllim Assosiasiyasının yaradılması", "Mina təhlükəsinə dair maarifləndirmə" kimi layihələr üzrə çox uğurlu işlər aparılmışdır. Son illərdə əməkdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlərə ildə 300 min ABŞ dolları olmaqla ümumilikdə 1,5 milyon ABŞ dolları həcmində vəsait sərf edilmişdir. Konkret faktlara istinadən milli təhsilimizin beynəlxalq əlaqələrinin geniş mənzərəsinin yaradıldığı monoqrafiyadan öyrənirik ki, "Təhsil Nazirliyi ABŞ, Fransa, Böyük Britaniya, Qazaxıstan, Almaniya, Rusiya, Çin, Yaponiya, İsrail, Cənubi Koreya, Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Misir, Hindistan, Ukrayna, Gürcüstan, Moldova, Çexiya, Slovakiya, Özbəkistan və Polşa kimi ölkələrlə birbaşa təhsil əlaqələri yaratmışdır və bu əməkdaşlıq bu gün də uğurla davam etdirilir" (s.176). Bu sahədə görülən çoxşaxəli işlərlə bərabər ölkəmizin ali məktəblərinin xarici ölkələr üçün kadr hazırlığı sahəsində əldə etdiyi uğurlar da monoqrafiyada təhsil statistikasının dili ilə geniş elmi-nəzəri təhlilini tapmışdır. Ali təhsil sistemində aparılan məqsədyönlu işlərin nəticəsidir ki, hazırda Azərbaycanın ali məktəblərində 40-a yaxın ölkədən 6,7 mindən çox əcnəbi tələbə təhsil alır. Bu nəticə ali təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və təhsildə keyfiyyətin yüksəldilməsi, ən başlıcası isə ölkə daxilində yaradılmış sabit və sağlam mühit sayəsində əldə edilmişdir.

Bu gün ölkənin təhsil sistemində Açıq Cəmiyyət İnstitutu-yardım fondunun "Addım-addım" və "Tənqidi təfəkkürün inkişafı texnologiyaları", BMT-nin "Davamlı insan inkişafı", ABŞ-ın "Proyek Hormoni" təşkilatının, YUNESKO-nun "Assosiativ məktəblər", "Qardaşlaşmış məktəblər" layihələr"i, "Alman Akademik Mübadilə Xidməti"nin, "Gənclərin nailiyyətləri" təşkilatlarının proqramları ümumilikdə 200-dən çox təhsil müəssisəsində uğurla tətbiq edilir. Monoqrafiyada bu məsələlərin geniş təhlili verilməklə milli təhsilin beynəlxalq əlaqələrini tənzimləmək və daha da inkişaf etdirmək üçün müvafiq hüquqi bazanın formalaşması prosesi dövlət quruculuğu sahəsində əldə edilmiş uğurlar kontekstində təhlilə cəlb olunmuş, xüsusilə, ali təhsil sahəsi də, o cümlədən elmi dərəcələrin tanınması ilə bağlı ölkəmizin qoşulduğu "Avropa regionu dövlətlərində ali təhsil

kurslarının, ali təhsil diplomlarının və elmi dərəcələrin tanınması haqqında YUNESKO-nun 1979-cu il Paris Konvensiyası", "Asiya və Sakit Okean ölkələrində tədris kurslarının, ali təhsil sahəsində diplomların və elmi dərəcələrin tanınması haqqında YUNESKO-nun 1983-cü il Banqkok regional Konvensiyası", "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında 1997-ci il Lissabon Konvensiyası" kimi vacib beynəlxalq sənədlərə müvafiq respublikada normativ bazanın yeniləşdirilməsi ilə bağlı görülən çoxşaxəli işlərin təhlili aparılmışdır.

Monoqrafiyada son vaxtlar həyata keçirilən hər bir layihəyə münasibət bildirilmiş, beynəlxalq təşkilatların müvafiq normativ sənədlərinə istinadən görülmüş işlərin koordinasiyasına toxunulmuşdur. Məsələn, "MDB ölkələri ilə ABŞ-ın qardaşlaşmış məktəbləri" layihəsi, Azərbaycanda peşə təhsilinin inkişafı sahəsində Avropa Təhsil Fondunun Təhsil Nazirliyi ilə birgə layihəsi, Azərbaycanın təhsil müəssisələrində ingilis dilinin tədrisi metodikasının təkmilləşdirilməsi üzrə Britaniya Şurasının Təhsil Nazirliyi ilə birgə proqramı, Avropa Şurası ilə "Tbilisi təşəbbüsü" birgə regional layihə, Avropa Şurası ilə "Milli azlıqların təhsili sahəsində siyasət" birgə layihəsi, ABŞ-ın Montana Dövlət Universiteti və Təhsil Nazirliyi ilə Azərbaycan təhsil sistemində demokratiyanın əsasları və vətəndaşşünaslığın tədrisi sahəsində yüksək hazırlıqlı kadrların tədris proqramı və dərs vəsaitlərinin hazırlanması üzrə layihələr bu qəbildəndir.

İri miqyaslı qlobal layihələrin təhlili zamanı uğurlar ölkədəki inkişafın, xüsusilə Prezident İlham Əliyevin elmə, təhsilə prioritetlərin prioriteti kimi yanaşmasının nəticəsi kimi dəyərləndirilir. Müəllif yazır: "Prezident İlham Əliyevin elmə diqqət və qayğısı həm də respublikanın gələcəyi baxımından vacib olan intellektual kadr potensialının formalaşdırılması niyyətindən irəli gəlir. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi zərurəti nəinki yüksək peşəkarlıq və zəka, həmçinin, yüksək əxlaqi və mənəvi keyfiyyətləri, vətənpərvərliyi, Vətənə hədsiz sədaqəti ilə seçilən kadrların hazırlanmasını diktə edir. Dövlət başçısı müasir qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına da xüsusi əhəmiyyət verir".

Monoqrafiyada müəllif haqlı olaraq müasir bazar iqtisadiyyatı şəraitində təhsilin keyfiyyətini artırmaqla, dövlətin iqtisadi və mənəvi dəyərlərinin qorunmasına, inkişaf etdirilməsinə, respublikanın əmək qabiliyyətli əhalisinin tam və səmərəli məşğulluğunun təminatına nail olmaq qənaətinə gələrək, qeyd edir ki, bunun üçün ilk növbədə respublika vətəndaşlarının ümumi inkişaf səviyyəsinin, intellektual potensialının, peşə ixtisas dərəcəsinin və təhsil səviyyəsinin artırılması vacibdir. Çünki hər bir vətəndaşın mütəxəssis kimi yetişdirilməsi, formalaşdırılması və cəmiyyətdə rolunun artırılmasına qısa vaxtda nail olmaq mümkün deyil. Buna görə də yüksək kadr hazırlığına nail olmaq üçün hər kəsin təhsilin bütün pillələrində yüksək təhsil almasına şərait yaradılmalıdır, qənaətinə gələn müəllif bunun üçün ölkədə həyata keçirilən yeni təhsil quruculuğunun geniş inkişaf mənzərəsini vermişdir. Bundan başqa, monoqrafiyada yüksək təhsil nailiyyətlərinin təminatında elmin inkişafına xüsusi dövlət dəstəyinin xronologiyasının verilməsidir. Elm və təhsil sahəsində mövcud olan problemlərin həlli, təbii ki, ilk növbədə bu sahədə fəaliyyət göstərən mütəxəssislərin sosial vəziyyətinin yaxşılaşdırılmasından gedir. Cənab İlham Əliyevin dövlət rəhbərliyinə gəlişindən sonra bu istiqamətdə də əsaslı addımlar atılmışdır. "Alimlik dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2004-cü il tarixli sərəncamına uyğun olaraq AMEA sistemində, elmi-tədqiqat və təhsil müəssisələrində, habelə digər sahələrdə çalışan işçilərin elmlər doktoru və elmlər namizədi alimlik dərəcələrinə görə vahid tarif cədvəli üzrə vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin məbləği 2004-cü ilin iyulundan 5 dəfə artırılmışdır. 2004-cü ıl aprelin 19-da dövlət başçısının "Aspirantlara, ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" sərəncamı gənc nəslin intellektual potensialını yüksəltmək, onların elmə olan marağını daha da gücləndirmək baxımından mühüm dövləti-siyasi əhəmiyyət kəsb etmişdir. Dövlət başçısının digər bir sərəncamı ilə 25 cildlik Milli Ensiklopediyanın hazırlanmasına başlanmış, artıq xüsusi ilə birinci cildin nəşri təmin edilmişdir.

Elm və təhsilin inkişafı üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artması da bu sahənin Azərbaycanın ümumi inkişafı və dövlət siyasəti ilə vəhdətini göstərir. 2004-cü ildə təhsilə büdcə xərclərinin 19 faizi qədər vəsait ayrılmışdırsa, 2006-cı ildə bu rəqəm əvvəlki illə müqayisədə 33 faiz artmış, 2010-cu ildə isə təhsilə 1,2 milyard manat vəsait ayrılmışdır.

Hələ Milli Elmlər Akademiyasının 60 illik yubiley mərasimində çıxış edən Prezident İlham Əliyev bəyan etmişdir: "Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi işində əlavə addımlar atılacaqdır. Biz gərək bu maddi-texniki bazanı möhkəmləndirək. Akademiyanın nəzdində fəaliyyət göstərən institutlara daha böyük həcmdə kömək edək. Əlbəttə, akademiya sistemində çalışan insanların maaşları, əmək haqları qaldırılmalıdır və biz bunu edəcəyik" (s.182).

Monoqrafiyada həmçinin Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın humanitar sahədəki ahəngdar fəaliyyəti, xüsusilə təhsil quruculuğuna yeni impuls vermək baxımından müstəsna xidmətləri də geniş ictimai-pedaqoji təhlilə cəlb edilmişdir. Monoqrafiyada bu məsələlər Mehriban xanımın "Həyat dərsi" adlı fikirləri ilə başlanır. O, deyir: "... Heydər Əliyev tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı... Hələ məktəb illərindən universitetə qədər, oradan da müstəqil həyata vəsiqə alanlar üçün Heydər Əliyev möhkəm iradəsi, təşkilatçılıq və dövlətçilik vərdişlərinin unikal virtuozluğu ilə heyran edən, geniş erudisiyası, qibtəediləcək hafizəsi və işgüzarlığı, sənətə vurğunluğu və sənət adamlarına himayədarlığı ilə örnək bir lider olmaqla yanaşı, həm də bizim gündəlik həyatımızın, məişətimizin təcridedilməz bir hissəsi idi."

Monoqrafiyada "Heydər Əliyev fondu milli maarifçilik ənənələrinin davamçısıdır", "Gələcəyə körpü", "Yeniləşən ölkənin yeni məktəbləri" başlığı altında verilən materiallarda ölkənin birinci xanımı Mehriban Əliyevanın çoxşaxəli maarifçilik fəaliyyəti işıqlandırılmışdır.

Monoqrafiya təhsil işçiləri, təhsilşünaslar və təhsili idarəetmə üzrə mütəxəssislər üçün, eləcə də çoxminli professor-müəllim heyəti və tələbə kollektivi üçün əsl töhfədir. Kitabı əldə etmək istəyənlər bu sayta müraciət edə bilərlər: https://.lap-publishing.com/catalog/details/ store/gb/book/978-3-659-25759-9/the-strategy-of-education-development-azerbaijan?search =ahmaov%20humeyir və ya http://www.amazon.in/Books-Humeyir Ahmadov/s?ie=UTF8&page =1&rh=n%3A976389031%2Cp_27%3AHumeyir%20Ahmadov.

Pedaqogika üzrə elmlər doktoru, akademik Hümeyir Əhmədovun Almaniyada ingiliscə nəşr olunmuş "Azərbaycan təhsilinin inkişaf strategiyası" monoqrafiyası son dövrün ən uğurlu və elmi-pedaqoji tədqiqatlarından biri kimi, ilk ingilisdilli pedaqoji ədəbiyyatlarımızdan olmaqla ciddi siyasi-təbliği əhəmiyyət kəsb edir.

**О.Гасанлы, Ф.Рустамов, Г.Байрамов**

## РЕЦЕНЗИЯ К НАПЕЧАТАННОЙ В ГЕРМАНИИ ПЕРВОЙ ПЕДАГОГИЧЕСКОЙ МОНОГРАФИИ О СТРАТЕГИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ

### РЕЗЮМЕ

Впервые выходят в свет ценные исследования относительно истории Азербайджанского образования в купе с официальными документами последних 15-ти лет относительно развития национального образования. Основная цель автора выявить все нюансы обуславливающие успех развития образования, отметить большие заслуги великого вождя Гейдара Алиева в этой области, представить важные материалы как объективный источник для изучения деятельности президента Азербайджанской Республики Ильхама Алиева в области образования.

**O.Hasanli, F.Rustamov, H. Bayramov**

# REVIEW TO PUBLISHED IN GERMANY IN THE FIRST MONOGRAPH ON EDUCATIONAL DEVELOPMENT STRATEGY OF AZERBAIJAN EDUCATION


## SUMMARY

This is the first book that combines worth-while investigation on the history of education of Azerbaijan with the official documents issued over the past 15 years due to the development of national education. Main goal of the author is to reveal and show all the details that condition the achievements of educational policy. To focus attention on the importance and the need for reforms in the field of education, nothing the enormous role the national leader Heydar Aliyev in this field. The book contains the materials that are important as an objective source for learning the activities of the President of the Azerbaijan Republic Ilham Aliyev in the field of education.




# MÜNDƏRİCAT

## ÜMUMPEDAQOJİ PROBLEMLƏR

**Abdulla Mehrabov**
PEDAQOJİ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM PROSESİNİN SƏRİŞTƏLİ-SƏMTLƏŞMƏ ƏSASINDA TƏŞKİLİ ... 3
**Akif Abbasov**
PEDAQOJİ TƏCRÜBƏ GƏLƏCƏK MÜƏLLİMLƏRİN PEŞƏYƏ HAZIRLANMASININ MÜHÜM VASİTƏSİ KİMİ ... 8
**Xudayar Sultanlı**
EKOLOGİYA FƏNNİNİN TƏDRİSİ ZAMANI TƏLƏBƏLƏRİN EKOLOJİ TƏHSİLVƏ TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ ...13
**Almaz Həsrət**
İKT-nin PEDAQOJİ SAHƏDƏ TƏTBİQİ İMKANLARI ...19
**Arzu Quliyeva**
PEDAQOJİ TOLERANTLIĞIN AKTUAL PROBLEMLƏRİ...24
**Nigar İsmayılova**
MƏKTƏBLƏRİN TƏDRİS AVADANLIQLARI İLƏ TƏMİNATI TƏHSİLİN KEYFİYYƏTİNİN ARTIRILMASI VASİTƏSİ KİMİ ...28
**Xəyalə Məmmədova**
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA ÜMUMİ TƏHSİLİN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ SƏYLƏR...34
**Vaqif Kərimov**
MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA VARİSLİK ...39
**Лачин Гасанова**
О КУЛЬТУРОЛОГИЧЕСКИХ ПОЗИЦИЯХ СОВРЕМЕННОЙ ПЕДАГОГИКИ...43
**Malik Qurbanov**
MÜASİR ŞƏRAİTDƏ KADR HAZIRLIĞINDA BİZNESİN ROLU...47
**Зоя Велибекова, Сахиля Оруджева**
МЕСТО И ЗНАЧЕНИЕ ПЕДАГОГИКИ В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ ...53
**İlhamə Əsədova**
MƏKTƏBİN METODİK TƏMİNATININ OPTİMALLAŞDIRILMASI ...57

## YENİ PEDAQOJİ TEXNOLOGİYALAR

**Нигяр Мурадова**
АТЕСТАЦИОННЫЙ ПОРТФОЛИО ПРЕПОДАВАТЕЛЕЙ КАК ПОДХОД ПЕДАГОГИЧЕСКОЙ ЭКСПЕРТИЗЫ К ПОВЫШЕНИЮ КАЧЕСТВА ЕГО ПРОФЕССИОНАЛЬНОЙ КВАЛИФИКАЦИИ ...61
**Dilarə Dostuzadə**
PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI İNTELLEKTUAL İNKİŞAFI PROBLEMLİ  KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN TƏFƏKKÜRÜNÜN TƏLİM PROSESİNDƏ İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI...67
**Qızxanım Qəhrəmanova**
GENDER İDENTİFİKASİYASI PSİXOLOJİ VƏ BİOLOJİ XÜSUSİYYƏTLƏRİN QARŞILIQLI ƏLAQƏSİ KİMİ ...71
**Эльмира Керимова**
ЗНАЧЕНИЕ РАННЕЙ ДИАГНОСТИКИ ЗАДЕРЖКИ ПСИХИЧЕСКОГО РАЗВИТИЯ...77

**Nailə Hüseynova**
XÜSUSİ PSİXOLOGİYANIN TƏTBİQİ PROBLEMLƏRİ VƏ PSİXODİAQNOSTİKANIN ASPEKTLƏRİ....82
**Arzu Məmmədova**
MƏKTƏBDAXİLİ PSİXOLOJİ İQLİMİN YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ROLU....86
**Cem Söker**
UŞAQLARIN BƏDİİ YARADICILIQ QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI İŞİNİN PSİXOLOJİ ƏSASLARI....92
**Xalidə Həsənova, Sevda Əkbərov, Natəvan Allahverdiyeva**
ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİNİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI....97
**Aygün Əzimova**
MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ PEDAQOJİ ÜNSİYYƏTİN PSİXOLOGİYASI....103
**Самира Гасанова**
МОТИВАЦИЯ И ПУТИ ЕЁ ПОВЫШЕНИЯ У СТУДЕНТОВ ЯЗЫКОВОГО ВУЗА....107
**Hüseyn Mirzəyev**
MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNDƏ SİNİF RƏHBƏRİNİN ROLUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ....112
**Ülviyyə Mehdiyeva**
METODİKA: FƏNLƏRİN TƏDRİSİ İBTİDAİ SİNİFLƏRDƏ İNGİLİS DİLİNİN TƏLİMİNƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR....117
**Aygün Mikayılova**
PUNKTUASİYA QAYDALARI VƏ ONLARIN TƏTBİQİ TARİXİNƏ DAİR....121
**Azadxan Adıgözəlov, Gülçin Məmmədova**
TEOREMLƏRİN İSBATINDA VƏ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ VEKTORLARDAN İSTİFADƏ EDİLMƏSİ METODİKASI....126
**Musavər Musayev, Xavər Sadiq**
İŞIQ DİODUNUN İŞ PRİNSİPİNİN ÖYRƏDİLMƏSİ METODİKASI....131
**Sevil Hümmətova**
AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏYƏ VERİLƏN TƏLƏBLƏR....135
**Xudaşükür Əliyev**
BİOLOGİYANIN TƏDRİSİNDƏ KLASTER METODLARININ TƏTBİQİ....140
**Лариса Колесникова**
ОБ ОБУЧЕНИИ СВЯЗНОЙ РЕЧИ НА ОСНОВЕ ОТБОРА ГРАММАТИЧЕСКОГО МАТЕРИАЛА....145

## TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**Arif Bədirov**
MƏDƏNİYYƏT SİSTEMİNDƏ TƏLƏBƏLƏRİN HÜQUQ MƏDƏNİYYƏTİNİN YERİ VƏ ƏHƏMİYYƏTİ....149
**Eyvaz Məmmədov**
MƏKTƏBDƏNKƏNAR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞAGİRDLƏRLƏ İQTİSADİ TƏRBİYƏ ÜZRƏ APARILAN İŞLƏR....153
**Gülnar Məmmədova**
AİLƏNİN YENİYETMƏYƏ MƏNFİ TƏSİRİNİN NEYTRALLAŞDIRILMASI ÜZRƏ İŞDƏ İSTİFADƏ OLUNAN TƏRBİYƏ METODLARI....156
**İsmət Məmmədova, Zeynəb Hüseynova**
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞAGİRDLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR RUHUNDA TƏRBİYƏSİNİN YOLLARI....162

**Sevda Cabbarova**
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN MƏNƏVİ-ƏXLAQİ İNKİŞAFI VƏ TƏRBİYƏSİ ....166
**Zəhra Əliyeva**
İBTIDAİ SİNFLƏRDƏ ŞAGİRDLƏRLƏ İRADƏNİN TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ ....170

## MÜQAYİSƏLİ PEDAQOGİKA

**Фарадж Акперов**
СРАВНЕНИТЕЛЬНЫЙ АНАЛИЗ ШКОЛЬНОГО ОБРАЗОВАНИЯ ГЕРМАНИИ И АЗЕРБАЙДЖАНА ....174
**Tərana Camalova**
MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ ŞƏRQİN ELM VƏ MƏDƏNİYYƏT BEŞİYİ – NAXÇIVAN ...179

## PEDAQOJİ TƏNQİD VƏ BİBLİOQRAFİYA

**Oruc Həsənli, Fərrux Rüstəmov, Həsən Bayramoğlu**
AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF STRATEGİYASINA DAİR ALMANİYADA NƏŞR OLUNMUŞ İLK PEDAQOJİ MONOQRAFİYA .... 182

*“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap edilmişdir.*

Чапа имзаланыб: 29.03.2015.
Формат: 60x84 1/8. Гарнитур: Тимес.
Щяъми: 28,25. Тираж: 300. Сифариш № 55.

**ТЯРЪЦМЯ**
**ВЯ НЯШРИЙЙАТ-ПОЛИГРАФИЙА**
**МЯРКЯЗИ**

**Аз 1014, Бакы, Рясул Рза кцч., 125**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**
www.mutercim.az

**Təqdim olunan məqalələrə tələblər**

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Azərbaycan, rus və ingilis dillərində məqaləyə aid açar sözlər verilir.
4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində kril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (disklə) təqdim olunmalıdır.
5. Məqalələr üç dildən - Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.
7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).
8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.
10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
16. Məqalə müəlliflərinin hüquqları qorunur.
17. Jurnalda «ardı növbəti nömrədə» adı altında seriya məqalələr dərc olunmur.
18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
19. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.